AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
HÜQUQ VƏ İNSAN HAQLARI İNSTİTUTU

A.İ.Mustafazadə, N.H.Cəfərli

İ S L A M H Ü Q U Q U

(insan hüquqları kontekstində)

Bakı – 2017

Elmi redaktor: **M.F.MƏLİKOVA**
AMEA-nın müxbir üzvü,
hüquq elmləri doktoru, professor,
AR-in Əməkdar hüquqşünası

Rəyçilər: **V.M.MƏMMƏDƏLİYEV**
BDU-nun ilahiyyat fakültəsinin dekanı,
"Ərəb filologiyası" kafedrasının müdiri, akademik

X.C.İSMAYILOV
BDU-nun "Dövlət və hüquq nəzəriyyəsi və tarixi"
kafedrasının müəllimi, hüquq elmləri doktoru

A.İ.Mustafazadə, N.H.Cəfərli. İslam hüququ *(insan hüquqları kontekstində).*
Bakı: "Elm", 2017, 220 səh.

ISBN 978-9952-514-40-7

"İslam hüququ (insan hüquqları kontekstində)" adlı kitab islam və insan hüquqları və azadlıqları kontekstində işlənməklə Azərbaycan Respublikası Prezidentinin 10 yanvar 2017-ci il tarixli Sərəncamı ilə 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsinə ithaf olunmuşdur.

Kitabda şəriət və fiqh elminin mahiyyəti, əsas xüsusiyyətləri, islamın meydana gəlməsi ərəfəsində Ərəbistanda ictimai münasibətlərin tənzimlənməsinin vəziyyəti, islamın meydana gəlməsi ilə insan hüquq və azadlıqlarının təminatı sahəsində baş verən köklü dəyişikliklər tədqiq və təhlil edilir.

Habelə, islam hüququ sahəsində görkəmli alimlərin şəriətə və fiqhə dair əsərlərinin şəriətin və fiqhin formalaşmasında rolu və əhəmiyyəti dəyərləndirilməklə sistemləşdirilmişdir.

Kitabda islam hüququnun tənzimlədiyi hüquq sahələri və tənzimləmənin özəl xüsusiyyətləri, dünyəvi hüququn tənzimləmə prinsipləri ilə dini tənzimləmənin normativ bazaları və mənbələri arasındakı fərqlərin mahiyyəti açıqlanır. Ailə, əmlak, vərəsəlik, ticarət hüquqları, müsəlman cinayət hüququ, məhkəmə sistemi araşdırılır.

İslam və müasirlik baxımından yanaşılaraq islam hüququna əsaslanan beynəlxalq və regional hüquqi sənədlər insan haqları baxımından şərh olunur.

Kitab islam hüququ ilə məşğul olan tədqiqatçılar, ali məktəb tələbələri və geniş oxucu kütləsi üçün əhəmiyyətə malikdir.

© "Elm" nəşriyyatı, 2017





İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir.

Heydər Əliyev

İslam sülh dinidir, mehribanlıq dinidir, dözümlülük dinidir, tolerantlıq dinidir. Biz Bakıdan bütün dünyaya nümayiş etdirəcəyik ki, islam aləmi birdir və bizim birliyimiz bizim gücümüzü artırır.

İlham Əliyev

Kitab Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi haqqında 10 yanvar 2017-ci il tarixli Sərəncamının tətbiqinə həsr edilmişdir.

MÜNDƏRİCAT

ÖN SÖZ 5

GİRİŞ 9

I FƏSİL
ŞƏRİƏT VƏ FİQH ELMİNİN MAHİYYƏTİ VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ 17
1.1. Şəriətin mənşəyi, tarixi inkişafı və sistemləşdirilməsi 17
1.2. Fiqh islam hüququ kimi, klassik fiqh məzhəbləri, fiqh metodologiyası, onun yayıldığı coğrafiya 28

II FƏSİL
İSLAM HÜQUQU SAHƏSİNDƏ GÖRKƏMLİ ALİMLƏR, ŞƏRİƏT VƏ FİQH ELMİNƏ DAİR MÜHÜM ƏSƏRLƏR 56
2.1. İslam hüququ sahəsində görkəmli şəxsiyyətlər 56
2.2. İslam hüququna dair mühüm əsərlər və əsas mövzular 72

III FƏSİL
İSLAM HÜQUQUNUN TƏNZİMLƏDİYİ HÜQUQ SAHƏLƏRİ VƏ TƏNZİMLƏMƏNİN XÜSUSİYYƏTLƏRİ 91
3.1. Ailə, əmlak, vərəsəlik, ticarət, maliyyə və təsərrüfat hüququ 91
3.2. Müsəlman cinayət hüququ 136
3.3. İslamda məhkəmə sistemi 153

IV FƏSİL
İSLAM MÜASİR DÖVRDƏ 166
4.1. Müasir dövrdə şəriət və fiqh əsasında institutlaşma 166
4.2. İslam hüququna əsaslanan beynəlxalq və regional hüquqi sənədlər.....178
4.3. İslam hüququ terminologiyası 211

ÜMUMİ ƏDƏBİYYAT 216

ÖN SÖZ

Bütövlükdə, islam dəyərlərinə, o cümlədən islam hüququna respublikamızda, o cümlədən bütün dünyada münasibət birmənalı olmamışdır. Rus imperiyasının ölkəmizi işğal etməsinə qədər uzun bir tarixi dövrdə Azərbaycanda ictimai münasibətlərin tənzimlənməsində islam dəyərləri və hüququ şəriksiz hakim rola malik olmuşdur. İdarəçilik sistemi, mərkəzi və yerli hakimiyyət orqanlarının fəaliyyəti şəriət və fiqh əsasında tənzimlənmiş, onların hüquqi bazasını təşkil etmişdir.

XIX əsrin əvvəllərində Azərbaycan Rusiyanın tərkibinə daxil olduqdan sonra Rus imperiyasının idarəçilik sistemi bütövlükdə, Qafqazda, o cümlədən Azərbaycanda da tətbiq edildi. Dini hüquqa əsaslanan idarəçilik, xüsusilə də məhkəmə sisteminin normativ bazasını təşkil edən qanunvericilik aktlarından imtina edilərək, tədricən Rusiyada tətbiq olunan idarəçilik sistemi olduğu kimi Azərbaycanda da tətbiq olundu.

Sovet hakimiyyəti illərində də dinimizə, onun qaydalarına, bütövlükdə mənəvi dəyərlərimizə münasibət ateist yanaşma baxımından müsbət olmamışdır. Totalitar rejim olan Sovetlər İttifaqı ideologiyasının tərkib hissəsi olan ateizmi geniş şəkildə təbliğ etməyə başladı. İlk nəzərdə ateizm ideologiyası bütün dinləri qurama bir şey hesab edir, onların əleyhinə çıxırdı. Lakin nədənsə, müqəddəs kitablı dinlərə münasibət aydınlaşdırılarkən musəvi və xristian dininə loyal münasibət bəslənilir, onların əsaslarına hücum edilmirdi. İslam dininə isə münasibət tamamilə fərqli idi, bu dinə yad, bəzi hallarda isə düşmən münasibətin bəslənməsi ilə rastlaşırıq. Bu ideoloji yanaşmadan ruhlanan tarixçilər, hüquqşünaslar və digər elmlər sahəsində tədqiqat aparan alimlər islamın ehkamlarına hücumlar edir, onu cahilliyin, ədalətsizliyin, bəsitliyin nümunəsi kimi təqdim edirlər. Bu yanaşma tərzi bir çox ədalətli alimlərin tədqiqatları istisna olmaqla, islam mövzusuna dair digər tədqiqatçıların tədqiqat əsərlərinin ana xəttini təşkil edir. Bütövlükdə, islama olan yanlış münasibət özünü müsəlman hüququnun tədqiqində də göstərir. Bütün bu ədalətsiz münasibət azmış kimi XX əsrin sonları və XXI əsrin əvvəllərində dünyada baş verən qloballaşma fonunda dünya çapında islam dininə qarşı böhtan kampaniyası genişləndirilir, ona terrorçu din olması damğası vurmağa cəhdlər göstərilir.

XX əsrin sonlarında dünyada baş verən iqtisadi, siyasi, milli və digər sahələrdə baş verən qlobal dəyişikliklərin nəticəsi olaraq Sovet imperiyası dağıldı, Azərbaycan xalqı da Sovetlər İttifaqına daxil olan digər xalqlar kimi müstəqillik əldə etdi.

Ümummilli lider, dünya miqyaslı siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizin rəhbərliyinə gəlməsi ilə Azərbaycan xalqının həyatında köklü dəyişikliklər baş verdi, milli mənafeyimizə uyğun islahatlar aparıldı, milli mənlik şüuru aşılayan yeni baxışlar formalaşdırılmağa başladı. Milli mənəviyyatımızın əsası olan islama münasibət dəyişdi. 1993-cü ildə Ümummilli liderimizin "Allahın yolunda hamımız hür olaq" adlı kitabı Azərbaycan və bir neçə xarici, o cümlədən ərəb dilində nəşr olundu. Görkəmli dövlət xadimi islam dininin mütərəqqiliyini qeyd edərək onun insanların mənəvi dünyasının paklaşmasında rolunu yüksək qiymətləndirdiyini bəyan etdi. "Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu islam dini özünün mütərəqqi olduğunu və eyni zamanda islam dininə itaət edən adamların hamısına özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyəti olduğunu sübut edir, müsəlmanlara daim xoşbəxtlik bəxş edir. Bizim dinimiz müsəlmanlara həyatlarında rast gəldiyi çətinliklərdən xilas olmağa, düşmənlərə qarşı mübarizədə qalib gəlməyə və özlərini, öz ölkələrini, öz dinini, öz peşəsini qoruyub saxlamağa həmişə yardım etmişdir. Heç şübhə yoxdur ki, islam dini indiyə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və islam dininə itaət edən bütün adamların hamısını xoşbəxtliyə, səadətə gətirib çıxaracaqdır.

İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir".

Görkəmli şəxsiyyət olan Heydər Əliyev dinimizə verdiyi bu böyük qiymətlə yanaşı, həm də dövlət-din münasibətlərinə aydınlıq gətirdi. 1996 və 1997-ci illərdə "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə və dəyişikliklər edildi. Dövlət-din münasibətlərində yeni bir mərhələnin əsası qoyuldu, dövlətin din sahəsinə və dindarlara qayğısı artdı. Heydər Əliyev tərəfindən davamlı olaraq dövlətin din sahəsində siyasətinin əsas istiqamətləri barədə ardıcıl bəyanatlar verildi. Azərbaycanda dünyəvi dövlət quruculuğunun davam etdirilməsini, eyni zamanda dövlətin milli-mənəvi dəyərlərinin qorunmasına böyük önəm veriləcəyini bildirdi: "Bizim dövlətimiz dünyəvi dövlətdir, ancaq biz dindən ayrı deyilik".

Ümummilli liderin milli-mənəvi dəyərlərimizə verdiyi bu yüksək qiymət, bu sahədə atdığı konkret addımlar dinimizlə bağlı dövlət siyasətinin mahiyyətini aydınlaşdırmaqla onun başlıca istiqamətlərini müəyyənləşdirdi. Bu konseptual istiqamətlər din və islam hüququ sahəsində tədqiqat aparan alimlər üçün əsas istiqamətləri müəyyənləşdirməklə obyektiv, qərəzsiz, ədalətli, fundamental tədqiqatların aparılmasını təmin etdi. Nəticədə, yüz illərlə islam dünyasının ictimai münasibətlərini tənzimləyən İslam hüququ – şəriət, onun hüquq hissəsi sayılan fiqh əsaslı şəkildə öyrənilməyə başladı. Bu sa-

hədə mövcud olan ərəb, türk, fars və digər dillərdə yazılmış tədqiqat əsərlərinə istinadən bir çox məqalələr, monoqrafiyalar, tədris vəsaitləri, dərsliklər və sair əsərlər yazıldı. Universitetlərdə ilahiyyat fakültələri açıldı, elmi- tədqiqat institutları yaradıldı, ayrı-ayrı fakültələrin tədris etdikləri fənlər arasına müsəlman hüququ bir tədris fənni kimi daxil edildi.

İslam və islam hüququna dair tədqiqatların siyahısına E.Cəlilovun "Azərbaycanın dövlət və hüququ, (XIII-XIV yüzillər)", Z.Bünyadovun "Dinlər, təriqətlər, məzhəblər", Ə.Əhmədovun "İslam əxlaqı", S.Həsənlinin "İslam mədəniyyətində elm", A.İbrahimov "Müsəlman hüququnun predmeti və mənbələri" və "Müsəlman hüququnda dövlət məsələləri", N.Cəfərlinin "Müsəlman idarəçiliyi sistemində sədr institutunun yeri" və "İslam, onun qadağaları və müasirlik", N.Cəfərli, R.Rüstəmovun "Müsəlman hüququnun əsasları", A.Paşazadənin "Qafqazda islam" və "Quranın təfsiri və tərcüməsi tarixi", N.Vəlixanlının "Ərəb xilafəti və Azərbaycan", Ə.Hacızadənin "İslamda ailə quruluşu" və s. çoxsaylı tədqiqat əsərləri daxildir.

Əsası dahi rəhbər Heydər Əliyev tərəfindən qoyulmuş siyasət onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən davam etdirilir.

Artıq mənəvi dəyərlərimizin qorunması, dinimizin təbliğ olunması bir ölkə hüdudlarından çıxaraq beynəlxalq miqyas alır. Ölkə Prezidenti İlham Əliyev, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva islam mədəniyyətinin, islam dəyərlərinin həm islam dünyasında, həm də beynəlxalq aləmdə təbliği sahəsində əvəzolunmaz xidmətlər göstərirlər. Azərbaycanda "İslam həmrəyliyi oyunları"nın keçirilməsi, 2017-ci ilin "İslam həmrəyliyi ili" elan edilməsi və bu istiqamətdə aparılan çoxsaylı tədbirlər bunun əyani sübutudur.

Geniş oxucu kütlələrinə təqdim olunan "İslam hüququ (insan hüquqları kontestində)" kitabı da "İslam həmrəyliyi ili"nə həsr olunmuşdur.

Kitabda islam hüququnun mahiyyəti və özəl xüsusiyyətləri, şəriət və fiqh elminin mahiyyəti, bu elmə müasir yanaşma tədqiq və təhlil edilir.

İslam hüququ sahəsində görkəmli alimlər, onların şəriət və fiqh sahəsində yazılmış əsərləri, habelə islam hüququnun ictimai münasibətlərin tənzimlənməsində xüsusi yeri, onun tənzimlədiyi hüquq sahələri, ailə, əmlak, ticarət, maliyyə və təsərrüfat hüququ, müsəlman cinayət hüququ, islamda məhkəmə sistemi və sair məsələlər təfərrüatı ilə şərh olunur.

Bütün bu mahiyyət özəllikləri insan hüquq və azadlıqları fonunda və onunla üzvi əlaqədə araşdırılır, islamın insan, onun cəmiyyətdə yeri, insan hüquqlarına islamın nə qədər önəm verdiyi dəyərləndirilir.

Kitabda islamın müasir dövrdəki vəziyyəti təhlil olunaraq müasir dövrdə şəriət və fiqh əsasında institutlaşma, islam hüququna əsaslanan, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən sənədlərin mühüm əhəmiyyəti xüsusi qeyd olunur.

Oxucuların diqqətinə çatdırılan "İslam hüququ (insan hüquqları kontekstində)" kitabı AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun direktoru, hüquq üzrə elmlər doktoru, Milli Məclisin deputatı A.Mustafazadənin layihəsi əsasında və rəhbərliyi ilə, Bakı Dövlət Universitetinin "Dövlət və hüquq nəzəriyyəsi və tarixi" kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, respublikanın Əməkdar hüquqşünası, professor M.Məlikovanın elmi redaktorluğu ilə tərtib olunmuşdur.

"İslam hüququ (insan hüquqları konteksində)" kitabından geniş oxucu kütləsi, bu sahədə tədqiqat aparan alimlər, habelə islam hüququnun tədris olunduğu ali məktəblərin tələbələri istifadə edə bilərlər.

GİRİŞ

Müsəlman hüququnun təməli VII-X əsrlərdə ərəb xilafətində qoyulmuşdur. Ərəblər islamın meydana gəlməsinə qədər özünəməxsus tarixi yol keçmiş və özünəməxsus tənzimləmə metodlarından istifadə etmişlər. Cəmiyyətin tənzimləməsinin əsasını ərəb cəmiyyətinin inkişaf səviyyəsi müəyyənləşdirmiş, ərəb cəmiyyətinin inkişaf səviyyəsinin aşağı olması bu cəmiyyətin də idarəçiliyinin bəsitliyini şərtləndirmişdi.

İslamdan qabaq ərəblər qəbilə quruluşu şəraitində yaşamış, insanlar arasında münasibətlər qan qohumluğuna, dil və ərazi birliyinə əsaslanmışdır. Ərəbistanın istər köçəri, istərsə də oturaq əhalisi yaxın məsafədə qəbilələrə bölünmüş, qəbilə isə daha kiçik qəbilələrdən, nəsil və soylardan ibarət olmuşdur. İslama qədərki ərəb cəmiyyətində mərkəzdən idarə olunan, müəyyən təsisata malik dövlət hələ təşəkkül tapmamışdı. İslamın zühuru ərəfəsində Ərəbistan yarımadasında əhalinin bir hissəsi köçəri həyat tərzi keçirir, bir hissəsi isə oturaq həyata keçmişdi.

Bütövlükdə ərəblər cahiliyyət dövrünü yaşayırdılar. Cənubda yaşayanlar nisbətən inkişaf etmiş Mim və Səba adlı dövlətlərini yaratmışdılar. Habelə, ərəblər islamdan əvvəl xarici aləmdən təcrid olunmuş halda yaşamamışdılar. Ərəb qəbilələrinin qonşu ölkələrlə ticarət əlaqələri olmuş, Sasani və Bizans imperiyalarına tabe ərazilərlə sərhədlərdə şəhərləri olmuşdu.

Cahiliyyət dövrü ərəblərinin ictimai quruluşuna, adət-ənənələrinə nəzər salsaq, onlar özlərinə xarakterik olan bir sıra xüsusiyyətlərlə nəzəri cəlb edirlər. Əvvəla ərəblər çox qonaqpərvər, əmanətə xəyanət etməyən, ləhcələri fəsahətli möhkəm, yaddaşa malik insanlar idilər. Onlar öz şücaətləri ilə at çapıb, ox atmaqla ad çıxarmışdılar. Düşmənə arxa çevirmək onların ağlından belə keçməzdi. Amma ərəb cəmiyyətini xarakterizə edən təkcə bu şəxsi keyfiyyətlər deyil, onların arasında olan ictimai-sosial münasibətlər idi.

Ərəblərin vahid dövlətin olmadığı qəbilə quruluşu şəraitində yaşamaları xurafatın, əqidə pozğunluğunun olduğu bir cəmiyyəti daha da gerilədərək bəzən əlli illik, yüz illik müharibələrin baş verməsinə gətirib çıxarmışdır. Qustav Lobon "İslam və ərəb mədəniyyəti" adlı əsərində ərəblərin mükəmməl bir dilə sahib olmalarını və o dövrün mədəni xalqları ilə ticarət əlaqələri qurmalarını əsas gətirərək onları qismən mədəni bir xalq kimi tanıtdırmağa çalışmışdır. Burada bir məsələyə diqqət yetirmək yerinə düşərdi ki, bu mədəniyyət Ərəbistanın heç də bütün bölgələrini əhatə edə bilməmiş, əgər etmişdisə belə, islamın meydana gəldiyi ərəfədə Hicazda həmin mədəniyyətdən əsər-əlamət qalmamışdı. Bu sözlərimizə islamın müqəddəs kitabı Qurandan da dəlil gətirə bilərik. "Ali-İmran" surəsinin 103-cü ayəsində Allah-Təala belə buyurur: "(İslamı qəbul etməzdən öncə) od uçurumunun astanasında idiniz, (Allah islam sayəsində) sizi ondan xilas etdi".

Əli ibn Əbu Talibin kəlamlarından, xütbələrindən ibarət olan "Nəhcülbəlağ"ədən ərəblər haqqında gətirəcəyimiz bir neçə misal da cahiliyyət dövrü ərəblərinin vəziyyəti haqqında təsəvvür yarada bilər: "Siz ərəblər ən pis əqidə və ən pis yerlərdə yaşadığınız zaman Allah-Təala Məhəmmədi Peyğəmbər (ə.s.) olaraq göndərdi. Qayalar arasında, ilanların içərisində gün keçirirdiniz. Çirkab sulardan içir, çirkin yeməklər yeyirdiniz. Bir-birinizin qanını tökür, qohumlarla əlaqəni kəsirdiniz. İbadət etdiyiniz yalnız bütlər idi. Günahlardan qətiyyən çəkinmirdiniz".

İslamdan əvvəlki dövrdə ərəblərin sosial həyatına nəzər saldığımız zaman diqqəti cəlb edən ən önəmli məsələlərdən biri ərəblər arasında qadının mövqeyidir. Həmin dövrdə olduqca acınacaqlı şəraitdə yaşayan qadınların cəmiyyətdə heç bir əhəmiyyəti, rolu yox idi. Cahiliyyət dövründə ərəblər yeni doğulmuş qız uşaqlarını diri-diri torpağa basdırırdılar. Əgər hər hansı səbəbdən bu iş doğum vaxtı baş tutmamışdısa, bəzi ərəblər hətta 3-4 yaşlarındakı qızlarını da öldürməkdən çəkinmirdilər. Ərəblər bu işi yoxsulluq və əxlaqsızlıq qorxusundan edirdilər. Onlar qız uşaqlarını öldürmək vasitələrində də sərhəd tanımamış və bu işi müxtəlif üsullarla yerinə yetirmişdilər: başını kəsməklə, hündür bir dağın təpəsindən aşağı yuvarlamaqla, yaxud suda boğmaqla və s. Bu haqda tarixdə kifayət qədər məlumat var. Ərəblər arasında qadın – fərdi, ictimai, hətta vərəsəlik hüquqlarından məhrum idi və əmtəə mal kimi alınıb satılırdı. Qadınların başlıq pulunu ödəməmək üçün onlara əxlaqsızlıq nisbəti verməkdən belə çəkinməyən ərəblərin cahilliyi o dərəcəyə gedib çatmışdı ki, ər öldükdən sonra qadın öz övladı ilə ailə qura bilirdi. Boşanmış qadınların yenidən ailə qurmağına isə yalnız birinci ərin razılığı ilə icazə verilirdi. Buna görə də kişilər belə bir icazəni vermək üçün qadının başlıq pulundan imtina etməsini şərt qoyurdular. Qadınların acınacaqlı həyatına bu misal kifayətdir ki, nisbətən ziyalı ərəblər qadını heyvanlar sırasına daxil etmiş və onu yaşamaq üçün lazım olan vasitələrdən hesab etmişlər.

Cahiliyyət dövrü ərəblərini xarakterizə edən xüsusiyyətlərdən biri də onların maddiyyata bağlı və tamahkar olmalarıdır. İbn Xəldunun yazdığına görə, ərəblərin dolanışığı qılınc vasitəsilə təmin olunurdu, kimdə bir şey görərdilərsə, mütləq onu qarət edərdilər. Bəzən adi bir məsələnin üstündə qəbilələr arasında döyüşlər baş verir və illərlə davam edirdi. Hətta belə rəvayət olunur ki, ərəblər islam Peyğəmbərindən (ə.s.) Cənnətdə döyüş olmayacağını öyrəndikləri zaman Cənnətin lazımsız bir yer olduğunu düşünmüşdülər.

Ərəblərin cəhaləti, nadanlığı, vəhşiliyi, tənbəlliyi, içkiyə, qumara aludə olmaları və digər mənfi xüsusiyyətləri Ərəbistan mühitini açıq-aşkar səfalətə sürükləmişdi. Bütün diqqətini qadına, şəraba və döyüşə yönəltmiş bir cəmiyyətdə hər hansı insani və əxlaqi dəyərlərdən söhbət gedə bilməzdi.

Cəmiyyətin sosial həyatındakı nöqsanlar bununla da bitmir. Cahiliyyət dövrü ərəblərinin xurafata meyilliliyi də nəzəri cəlb edən digər mühüm

nüanslardandır. Xurafatın, mövhumatın geniş yayılması ərəb cəmiyyətindəki savadsızlığı, nadanlığı, cahilliyi və elmsizliyi göz önünə gətir. Yağış yağdırmaqdan ötrü od qalamaqları (onlar ağac budaqlarını inəyin quyruğuna bağlayır və yandırırdılar, alovun təsirindən inəyin nərə çəkməsini göy gurultusuna bənzədir və bunu yağış yağması üçün təsirli vasitələrdən hesab edirdilər), dişi inək su içmədikdə öküzü döymələri, xəstə dəvəni sağaltmaq üçün sağlam dəvəni dağlamaları, ölmüş şəxs qiyamətə piyada gəlməsin deyə, onun qəbri kənarında bir dəvə saxlamaları ərəblərin saya-hesaba gəlməyən xurafat adətlərindən sadəcə bir neçəsidir (67, s. 65) .

Hicaz əhalisini "ümumi" adlandırırdılar ki, bu sözün də mənası dərs oxumamış, məktəb görməmiş deməkdir. Hicazın elmi səviyyəsini öyrənmək üçün bunu demək kifayətdir ki, islamın meydana gəldiyi vaxt Qüreyşdə cəmi 17 nəfər yazıb-oxumağı bacarırdı. Mədinədə isə Ovs və Xəzrəc qəbilələri arasında savadı olan 11 nəfər şəxs var idi.

Ərəbistanın cahiliyyət dövrünə və islamdan sonrakı dövrə nəzər saldıqda arada çox böyük fərq olduğunu görürük. Bəs necə oldu ki, başı müxtəlif əyləncələrə, xurafatlara, döyüşlərə qarışan, pərakəndə halda yaşayan ərəblər qısa müddət ərzində öz dövlətini yaradıb, dövrün ən nəhəng imperiyalarını özünə tabe edə bildi? Nəyə görə bu nailiyyət uzun müddət böyük mədəniyyətə malik olan Yəmən ərəblərinə deyil, məhz heç bir tarixi olmayan Hicaz ərəblərinə çatdı? Bu sualların cavabını səmavi dinlərdən sonuncusu olsun: İslamın gətirdiyi yeniliklərdə axtarmaq lazımdır.

Qeyd etdiyimiz kimi, islam yalnız ibadət dini olmayıb, özündə cəmiyyəti hərtərəfli tənzimləyən normaları ehtiva edən ilahi mənşəli dindir. Bu din özünə iman gətirənlərin həyatını bütünlükdə tənzimləməyə qadir olduğuna görə özünün hüquq sistemini də yaradıb formalaşdırmışdır. Hüquq-cəmiyyətdə insanlar arasında münasibətləri tənzimləmək üçün normalar toplusudur və İslam dinində buna fiqh deyilir. Fiqh sözünün mənası "anlamaq" deməkdir. Ümumilikdə, fiqh geniş anlayışdır və həm fərdlə Allah, həm də fərdlə cəmiyyət arasındakı münasibətləri özündə birləşdirir. Müsəlman hüququ isə fiqhin ibadətlərdən savayı digər hissələrini ehtiva edir. Beləliklə, bəşəriyyətin sonuncu səmavi dini olan islam dini özü ilə birlikdə yeni bir hüquq sistemi də gətirdi.

İslam hüququ da digər hüquq sistemləri kimi cəmiyyətin və dövlətin ən önəmli hissələrinə işıq salır və yaranan problemlərin həll yollarını göstərir. Lakin onu başqa hüquq sistemlərindən ayıran bir sıra xüsusiyyətlər də vardır ki, onlar aşağıdakılardan ibarətdir:

İslam hüququ ən son və dünyanın ən geniş yayılmış ikinci böyük dini olan islam dininin gətirdiyi hüquq sistemidir. İslamdan öncə də Allah bəşəriyyətə peyğəmbərlər göndərmiş və onlara kitab vermişdir. İslamın bütün səmavi dinlərdən fərqi onun son və mükəmməl olmasındadır. Beləliklə də, müsəlman hüququ dünyada ən mütərəqqi dini hüquq sistemidir.

Müsəlman hüququ islam dininin yayılmasından qısa müddət sonra formalaşıb inkişaf etmiş, tezliklə elə bir kamil sistemə çevrilmişdir ki, vəhyə dayalı ən mükəmməl hüquq sistemi olmuşdur. İslam dininin tənqidi ilə məşğul olan bir çox mütəxəssislər müsəlman hüququnun mükəmməlliyindən heyrətlərini gizlədə bilməmiş və müsəlman hüququ üçün fiqhdən kənar hüquqi mənbələr axtarmağa cəhd etmişlər. Müsəlman hüquq tarixini obyektiv şəkildə araşdıran müsəlman və qeyri-müsəlman alimlərin vahid rəyi bundan ibarətdir ki, müsəlman hüququ orijinal bir sistemdir.

Qarşıya belə bir sual çıxır: islam hüququnu təftiş edənləri bu hüquqla tanışlıqdan sonra heyrətləndirən nə idi? Nəyə görə islam hüququnu araşdıran alimlər bu hüququn orijinal bir hüquq olduğu qənaətinə gəlmişlər?

Bu suallara cavab tapmaq üçün ilk islam konstitusiyasının dinindən, irqindən, qövmündən milliyyətindən asılı olmayaraq insanlara verdiyi təməl hüquqları misal çəkmək kifayətdir. Həm də insanlara ünvanlanmış bu hüquq və azadlıqlar müasir sivil dünyanın inana bilməyəcəyi bir dövrdə – VII əsrdə ilk islam konstitusiyasında BMT-nin tanıdığı kimi, dünyada ilk konstitusiya olan islam konstitusiyasının maddələrində təsbit olunmuşdur.

Sivil dünyanın insanlara verdiyi hüquq və azadlıqlar XVIII əsrdə gündəmə gətirilmişdir.

Amerikada insan hüquq və azadlıqlarının tanınması müstəqillik uğrunda mübarizə dövrünə təsadüf edir. İnsan hüquqları ideyasının müəllifləri azadlıq mübarizəsinin lideri Ceferson, Peyn və Hamilton olmuşdur. Onların səyi nəticəsində bu sahədə ilk addım 1776-cı ildə "Virciniya Bəyannaməsi" və ABŞ Konstitusiyasının, 1791-ci ildə "İnsan huquqları haqqında Bill"nin qəbul edilməsi ilə atıldı.

Fransada isə insan hüquqları istiqamətində ilk addım 1789-cu ildə atıldı. Fransız inqilabçılarının təzyiqi ilə "İnsan və vətəndaş hüquqları haqqında Bəyannamə" qəbul olundu.

Müasir dövrün inkişaf etmiş ölkələrinin XVIII əsrdə qəbul etdiklərini VII əsrdə müsəlmanların qəbul etdiyi Mədinə konstitusiyası ilə müqayisə etsək, görərik ki, müsəlmanların, avropalıların və amerikalıların insan hüquqları və azadlıqları sahəsində qəbul etdikləri hüquqi aktlarla müqayisədə Mədinə konstitusiyası mükəmməlliyi baxımından heç də geri qalmır.

Məhz Avropa tədqiqatçılarını heyrətə gətirən də bu reallıqdır. Necə ola bilər ki, Avropanın sivil xalqlarının hüquqi təfəkkürü insan hüquqları və azadlıqlarının tanınmasının zəruriliyi kimi məntiqi nəticəyə XVIII əsrdə gəldiyi halda, islam hüquqşünasları bu nəticəyə 1400 il əvvəl gəlmişlər. İslam hüquqşünaslarının bu hüquqları tanıdığı dövrdə örnək olası, istifadə edilməsi mümkün olan heç bir sənəd mövcud olmamışdır.

İslam insanları yaxşılığı sevməyə və pisliklərdən qaçmağa təşviq edir, buna görə də hər hərəkət üçün iki qarşılıq müəyyən etmişdir: dünyəvi və

dini. Dünyada etdiyinin qarşılığını görməyən və ya tam olaraq görməyənin axirətdə ədalətli şəkildə cəzalandırılacağı insanların vicdan və imanlarına yerləşmişdir.

Müsəlman hüququ yalnız pis və günah sayılan davranışları məhdudlaşdırmayıb, həm də yaxşı hərəkət və davranışlara qarşılıq olaraq *mənəvi mükafat (savab)* müəyyən etmişdir.

Müsəlman hüququ köhnə hüquq sistemlərində rast gəlinən bir çox ağır hökmü aradan qaldıraraq daha asan və tətbiq olunma baxımından rahat olan hökmlər gətirmişdir. Haqqında qadağanedici hökm olmayan hər şey sərbəstdir. İnsanlara təhəmmül edilə bilməyəcək mükəlləfiyyətlər yüklənməmişdir. Ümumiyyətlə, islam asanlıq dinidir. Xəta, unutqanlıq, cəhalət, zərurət kimi hallarda hüquqi məsuliyyət aradan qalxır. "Bəqərə" surəsinin oruc barədə olan 185-ci ayəsində belə buyurulur: "...Xəstə, yaxud səfərdə olan kəs isə başqa günlərdə bir neçə gün (oruc tutmadığı günlərin sayı qədər oruc tutmalıdır). Allah sizin üçün asanlıq istəyir, sizin üçün çətinlik istəmir...". "Maidə" surəsinin 6-ci ayəsində isə -"... Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq (artırmaq) istər ki, bəlkə, şükür edəsiniz!" -deyə buyurulur.

Müsəlman hüququ davamlılığı ilə də xarakterizə olunur. Belə ki, digər hüquq sistemlərində hüquqi hökmləri qoyan nüfuz dairələri bunları dəyişərək yerinə öz mənafelərinə uyğun yeni hökmləri gətirmək səlahiyyətinə malikdir. Hətta hüququn mənbəyi adət və ənənə olsa da, bunun dəyişməsi mümkündür. Halbuki ilahi mənşəli olduğu üçün müsəlman hüququnun hökmləri prinsip etibarilə davamlıdır. Hətta islam Peyğəmbərinin belə hökmləri dəyişməyə səlahiyyətli olmadığı bildirilmişdir. "Allahın sözlərində əsla dəyişmə yoxdur" ayəsində də bu xüsusiyyət təsbit edilmişdir. Müsəlman hüququ dəyişməzlik prinsipi içərisində dəyişmə möcüzəsini göstərmişdir. Bəzilərinin fikrinə görə, hüquq cəmiyyətdəki münasibətləri tənzimləyən bir qurum olduğu üçün cəmiyyət dəyişdikcə hüquq da dəyişməli və təkmilləşməlidir. Dini hüquq sistemləri isə vəhyə tabedir, vəhy dəyişmədiyinə görə hüquqlar da donmağa və cəmiyyət həyatından uzaqlaşmağa məhkumdur. Əvvəlcə, onu demək yerinə düşərdi ki, şəriət heç də bütün yeniliklərə qapalı deyildir. İnsanın fitrətilə uyğunluq təşkil etməyən, insanlığın ali hədəfləri ilə ziddiyyət təşkil edən dəyişmələr şəriətin açıq olmadığı yeniliklərdir. Məsələn, sələm insaniyyətə və ədalətə ziddir. Nikahda kənar cinsi münasibətə, hətta həmcinslər arasında cinsi münasibətə qanunilik verilərsə, bu, əslində bir inkişaf deyil, geriləmə olduğu üçün ilahi-fitri hüquq içində özünə yer tapa bilməz. Hüquq münasibətlərinin zamana və məkana görə dəyişməsi zərurətini isə müsəlman hüququ ictihad yolu ilə həll edir. Quran və sünnəyə söykənən islam hökmləri müsəlman hüququnu bütünlükdə ehtiva etmədiyinə görə bir çox məsələlər ictihad yolu ilə tənzimlənir. İctihad isə insan işidir və

zamanla dəyişməsi təbiidir. Hərfi mənası "çətinliyə dözmək, səy göstərmək" olan "ictihad" sözü termin kimi bir fiqh aliminin, başqa sözlə, bir fəqihin şəri bir hökmü dəlilindən çıxartmaq üçün səy göstərməsi və bu məsələdə öz gücündən istifadə etməsi mənasında işlədilir. Burada "dəlil" sözü ilə islam hüququnun əsas qaynaqları olan Qurani Kərim və Məhəmməd Peyğəmbərin (ə.s) sünnəsi nəzərdə tutulur.

Müsəlman hüququ bir hüquq sistemidir. Müctəhidlər müsəlman hüququnun mənbələrindən üsuli-fıqh elmi vasitəsilə hökmlər çıxarmış və bunları məsələ-məsələ kitablarda əks etdirmişlər. Beləliklə də müsəlman hüququ kazuistik bir forma almışdır. Bu üsul geniş və əhatəli olmaqla bərabər, daha incə və ədalətli həll yolları gətirməyə qadirdir. Bu baxımdan, müsəlman hüququ ilə ingilis-sakson hüququ arasında bir bənzərlik mübahisə mövzusudur.

İslam dininin insanlara tanıdığı hüquqlara nəzər salsaq görərik ki, müsəlman hüququ insan hüquqları sahəsində də ən ədalətli hüquq sistemidir. Əvvəla islamda hər kəsin yaşamaq hüququna hörmətlə yanaşıldığını görürük. İslam Peyğəmbəri (ə.s) bu məsələyə xüsusi diqqət çəkərək belə buyurmuşdur: "Qiyamət günündə hər şeydən öncə haqsız tökülən qanlar barədə sorğu-sual ediləcək". İslam dini zülmü, işgəncəni və təhqiri qadağan edir, insanın cəsədinə də hörmət edilməsinin lazım olduğunu bildirir. İslam dininin meydana gəldiyi dövrdə ərəblər quldarlıq quruluşunda yaşayırdılar. Quldarlıq islama və onun insan azadlığı ilə bağlı məsələlərinə zidd olduğuna görə islam Peyğəmbəri (ə.s.) və onun davamçıları daima quldarlığı aradan qaldırmağa çalışmışdılar. Onlar öz vəsaitləri hesabına qulları alır, sonra da azad edirdilər. Müsəlman hüququna görə heç bir cinayətkara şəriətdə nəzərdə tutulduğundan artıq cəza verilə bilməz. Dördüncü xəlifə Əli sevimli qulamı Qənbərin bir günahkara səhvən bir neçə artıq şallaq zərbəsi vurduğunu bildikdə dərhal Qənbərə də həmin sayda şallaq vurulmasını əmr edir.

İslam dinində hər kəsin şəxsi və fərdi məlumatlarını digər şəxslərdən gizli saxlamaq hüququ vardır. Hər hansı bir insanın eyiblərinin, sirlərinin üstünü açmaq ən böyük günahlardan hesab olunur. İslam dini hər kəsin fikirlərinə, vicdan və dini etiqadına hörmətlə yanaşılmasını əmr edir. Misal olaraq deyə bilərik ki, müsəlmanların fəth etdiyi Əndəlusdan Çinə, Sibirdən Hindistana kimi böyük bir ərazidə hər xalqa öz dilini, dinini, milli adət-ənənəsini qoruyub saxlamaq hüququ verilmişdi. İslam dini hər cür ayrı-seçkiliyi qadağan edir, üstünlüyün yalnız təqvada olduğunu bildirir. İslam Peyğəmbərindən rəvayət edilən məşhur bir hədisdə insanların Allah qarşısında darağın dişləri kimi bərabər olduqları deyilir. Dünya və axirətdə ən üstün şəxs olmasına baxmayaraq Peyğəmbər (ə.s.) idarəçilik məsələlərində islam dövlətinin səlahiyyətli şəxsləri ilə məsləhətləşərdi. Bu o deməkdir ki, Peyğəmbərimiz (ə.s) idarəçi məmurlara da seçim ixtiyarı, öz fikirlərini söyləmək hüququ verir,

onların təklifləri ilə hesablaşırdı. Peyğəmbərin (ə.s) həyatı ilə bağlı məlumatlara görə, toplantı iştirakçıları dəyirmi halqa şəklində əyləşər və beləliklə, kimin başda, kimin ayaqda son yerdə olduğu bilinməzdi.

Müsəlman hüququnun digər özəlliklərindən biri də qoyulan qanunların insanların fitrəti ilə bir növ ahəng təşkil etməsidir. İnsanın fitrətində, başqa sözlə mahiyyətində bəzi hisslər, duyğular, meyillər və imkanlar anadangəlmə mövcuddur. Sözsüz ki, insanı yaradan onun haqqında daha mükəmməl qanunlar qoymağa qadirdir və Allah hər şeyi insanların fitrətinə uyğun müəyyən etmişdir. Müsəlman hüququnun fitrətlə uyğunluğu özünü əmlak, vərəsəlik, ailə, dövlət və idarəçilik məsələlərində daha qabarıq şəkildə göstərmişdir. Məhz qadın-kişi münasibətləri baxımından məsələyə yanaşsaq islam qanunlarının fitrətlə necə ahəng təşkil etdiyini görə bilərik. İslam dini insan olma baxımından qadın və kişi bərabərliyini elan edir, lakin qətiyyən onları eyniləşdirmir. Qadın və kişi fiziki, ruhi, psixoloji baxımdan tamamilə bir-birindən fərqlidirlər və onları eyniləşdirmək olmaz. Allah qadına elə bir dəyər vermişdir ki, bundan sonra ona verilən dəyər ondan istifadəyə yönələ bilər. Cahiliyyət dövrü və digər dövrlərlə müqayisə etdikdə görürük ki, heç bir quruluş qadına islamın verdiyi dəyəri verməmişdir. İslam dini qadınlara təhsil almaqda, işləməkdə məhdudiyyət qoymamış, onların vərəsəlik hüququnu tanımış, cəmiyyətdə mövqelərini yüksəltmişdir. Bununla belə hicab, ailədə həyat yoldaşına tabe olmaq, məhkəmədə şahidlik və s. kimi məsələlər qadınla kişinin fitrətindəki fərqlərdən irəli gəlməkdədir və bunları qadın hüquqlarının pozulması kimi qələmə vermək yanlışdır.

Müsəlman hüququnun digər önəmli özəlliyi ədalətli bir hüquq sistemi olmasıdır. Dünyəvi hüquq sistemlərində haqqı müəyyən edən ölçü qanun, adət və ənənələrdir. Qanunları hazırlayanların tərəfsiz olmaları, mütləq tarazlığı saxlamaları imkansız deyilə biləcək qədər çətindir və həqiqət budur ki, tarixdə bunun bir nümunəsi yoxdur. Demək olar ki, tarazlıq həmişə gücü əlində cəmləşdirən mənfəət qruplarının lehinə pozulmaqdadır. Xalq kütləsi uzun illər zülm içində yaşadığına görə buna alışır və zamanla bu tarazsızlıq adət-ənənə şəklini alır. İlahi mənşəli hüquq sistemlərində isə kimin nəyə layiq olduğunu müəyyənləşdirən Allahdır. Allah mütləq ədalət sahibidir. Allah hər haqq sahibinə haqqını vermişdir. Verəndə də nə onu kobudlaşdırmış, nə də gülünc vəziyyətə qoymuşdur. Bundan sonra verilən haqq bir haqsızlıq və zülmdür. Bir saatlıq ədaləti bir ömürlük ibadətə bərabər tutan bir dinin davamçıları fitrətlə uyğunluq təşkil edən dinləri və dinlərindən qaynaqlanan hüquqları sayəsində ədalətə ən yaxın insanlıq zümrəsini təmsil və təşkil edirlər (33, s. 158).

Müsəlman hüququnu müasir bəşəri hüquq sistemlərindən fərqləndirən özünəməxsus özəlliklərdən biri də əxlaqyönlü olmasıdır. Bu baxımdan müsəlman hüququ bütünlükdə əxlaq qanunları ilə əhatə olunmuşdur. Müasir

hüquq sistemləri isə əxlaqi məsələləri önəmsəmir və insanlara, onların təhlükəsizliyinə və ya ümumi nizama zərəri olmadığı zaman onlarla maraqlanmır. Misal olaraq, islamda zina adlandırılan nikahdankənar cinsi münasibəti göstərmək olar. Müsəlman hüququna görə zina edən qadın və kişi cəzalandırılmalıdır. Əgər qadın buna məcbur edilmişdirsə, bu zaman yalnız kişi cəzalandırılır. Müsəlman hüququ zinanı ona görə qadağan etmişdir ki, əxlaq pozulsa, cəmiyyət də pozular və çökər. Müsəlman hüququnun əxlaqa dəyər verməsində səbəb onun dinə dayanmasıdır. Din gözəl əxlaqı əmr edir, bununla da xoşniyyətli, dürüst bir cəmiyyət formalaşdırmağı qarşısına məqsəd qoyur. Müasir hüquqda isə zinanın əxlaqi dəyərləri nəzərə alınmır, sadəcə, məcburiyyət tətbiq edən tərəf cəzalandırılır.

Müsəlman hüququnun önəmli xüsusiyyətlərindən biri istənilən hərəkətdə səbəb və niyyətin əsas götürülməsidir. Bu özəllik islam Peyğəmbərinin "Əməllər niyyətlərə görədir" hədisinə əsaslanır. Belə ki, məqsədli şəkildə edilmiş haqsızlıqla istənilmədən edilən haqsızlıq məhkəmələr tərəfindən eyni şəkildə dəyərləndirilmir. Əgər hüquqazidd hərəkət istəmədən baş vermişdirsə, bu zaman yalnız zərərin qarşılığı ödənilməlidir, qəsdən baş vermişdirsə, həm zərərin qarşılığı ödənməli, həm də günahkara cəza verilməlidir.

Müsəlman hüququnda hökumət yalnız Allahındır. Allah hakimiyyətini bir və ya bir neçə şəxsə verməz, xəlifə Allahdan aldığı bir hakimiyyətin təmsilçisi deyildir. Xəlifəni hakimiyyətə gətirən ümmətdir, islam toplumudur. Müsəlmanların hər birinin idarəçilik səlahiyyəti var. Hətta, hakimiyyət başında qanunu icra etməkdən ötrü qərar tutanlar da İlahi qanunları cəmiyyət içində icra etməli, ictimai qanunları Allahın əmri üzrə təşkil edib, özləri də tamamilə Allaha tabe olmalıdırlar.

I FƏSİL

ŞƏRİƏT VƏ FİQH ELMİNİN MAHİYYƏTİ VƏ ƏSAS XÜSUSİYYƏTLƏRİ

1.1. Şəriətin mənşəyi, tarixi inkişafı və sistemləşdirilməsi

İslam termininin konseptual çərçivəsi – ***şəriət***, ***fiqh*** və ***islam hüququ*** anlayışlarının əsasını təşkil edir. İslam – inanclar, ibadətlər, əxlaq və hüquq daxil olmaqla, bütövlükdə dinə istinad edir. *Fiqh* islamın hüquqi prinsiplər cəhətdən tədqiq edilməsidir. *Şəriət* isə daha geniş bir anlayışdır və islamın inanclar (*aqaid*), sövdələşmələr (*muamalat*), ibadətlər (*ibadat*) və cəzalarla (*uqubat*) bağlı prinsiplərini əhatə edir və Qərb ədəbiyyatında adətən İslam hüququ adıyla tanınır.

"Şəriət" ərəbcə bir anlayışdır və ilkin mənasıyla o, dəvələrin su mənbəyinə açmış olduqları yola istinad edir. Erkən mənbələrdə "şəriət" termini, istər müsəlmanların, istərsə də qeyri-müsəlmanların "iman yolu" mənasında işlədilmiş və "Tora", yəni "Tövrat" sözünün ərəb dilindəki qarşılığı olaraq istifadə edilmişdir. Geniş istifadə olunan ərəbcə "əl-şəriə əl-islamiyyah" ifadəsi isə "islam yolu" kimi tərcümə oluna bilər. İslam hüququ kontekstində bu yol iman edənləri axirətdə Cənnətə aparan yoldur. Bu mənada Şəriət Allahın peyğəmbərlərinə, xüsusilə də Məhəmməd Peyğəmbərə (ə.s) vəhy etmiş olduğu doğru yol (sırat al-mustaqim) kimi başa düşülür.

Bütün müsəlmanlar şəriətlə mükəlləf, yəni dinin əmrlərini etmək və qadağalarından çəkinməklə məsul olduqlarını qəbul edirlər. Ancaq onun tələblərinin nə olduğuna dair şərhlər tarixən məzhəb və firqə ayrılıqlarına görə fərqlənib. Müasir dövrdə isə bu fərqlilik şəriətin müasir cəmiyyətlərdəki dəyişən şərtlərdə necə tətbiq ediləcəyinə dair müxtəlif fikirlərdə öz əksini tapır.

Fəqihlər, yəni islam hüquqçuları "şəriət"i ümumi bir anlayış olaraq qəbul etdikləri üçün, hüquq kitablarında "fiqh" terminindən istifadə etməyə üstünlük verirlər. Ümumi mənada fiqh "bilgi" və ya "anlama" deməkdir. Lakin o, daha konkret mənada islam hüquq elmini ifadə etmək üçün istifadə olunur. Şəriət və fiqh əksər hallarda islam hüququnu təşkil edən qaydalar toplusunu ifadə edən sinonim terminlər kimi də qəbul edilir. Şəriət tələblərinin hüquqi hökmlər cəhətdən şərhləri fiqhdə yer aldığı üçün fiqhi həmçinin, şəriəti şərh etmə elmi kimi də görmək olar. Buna görə də Şəriətin hüquqi tərəfinə fiqh və ya İslam hüququ deyilir.

Fiqh və ya islam hüququ şəriətin tətbiqi istiqamətdə əmr və hökmlərini dəlilləri ilə ortaya qoyur. Hz. Məhəmməddən (ə.s.) sonrakı dövrdə fiqh alimlərinin əsas məqsədi qanun qoymaq deyil, fiqhin iki təməl qaynağı

olan Quran və Sünnəyə uyğun hökmü araşdırmaq olmuşdur. Quran və Sünnəyə uyğun hökmün əldə edilməsi üçün müxtəlif üsullara müraciət edilmişdir: *icma* (islam alimlərinin bir mövzudakı fikir birliyi), *qiyas* (oxşarlıqdan hərəkət edərək, bir hökmü başqa bir məsələyə tətbiq etmə), *istihsan* (səbəbin təsirini nəzərə alaraq açıq müqayisəni tərk edib gizli müqayisəyə müraciət etmək və ya bir dəlil səbəbiylə bir məsələni ümumi qaydadan ayırmaq), *məsalihi mursələ* (açıq bir hökm olmayan məsələlərdə fərd və cəmiyyətin faydasını güdmək), *səddi zərai* (pisliyə, zərərə və ziyana aparan yolları bağlamaq), *istishab* (bir şeyin dəyişdiyini göstərən bir dəlil irəli sürülənədək, köhnə vəziyyətin mötəbər olduğunu qəbul etmək). Əsas qaynaqların qətiliyinin və dəyişməzliyinin əksinə, bu ikinci qaynaqlar hər zaman müzakirəyə açıq olmuşdur. Bu yollarla əldə edilən hökmlər isə, əsas qaynaqlara zidd düşmədiyi təqdirdə mötəbər sayılmışdır.

Şəriətin tarixi, mənşəyi müsəlman inancına görə, Allah tərəfindən Mələk Cəbrayıl vasitəsilə 610-632-ci illər ərzində Məhəmməd Peyğəmbərə (ə.s.) nazil olmuş vəhydir. Bu ilahi vəhy Quran adıyla tanınmış və daha sonrakı illərdə standart mətn şəklinə salınmışdır.

Hz. Məhəmməd (ə.s) bütün peyğəmbərlər içində tarixi şəxsiyyəti ən aydın olanıdır. O, Allahın elçisi olaraq, Ərəbistan yarımadasında yaşayan qəbilə və tayfalar arasında birliyi təsis etmiş və fərqli coğrafiyalardakı insanlar arasında ortaq mənəvi bağlar qurmuşdur.

570-ci ildə Məkkədə doğulan Hz.Məhəmməd (ə.s) Qureyş qəbiləsinin Haşimoğulları ailəsindən idi. Daha doğulmadan əvvəl atası Abdullah bin Abdulmuttalibi, bir neçə il sonra da anası Əminəni itirən Hz.Məhəmməd (ə.s) babası Abdulmuttəlibin, onun ölümündən sonra isə əmisi Əbu Talibin yanında böyüdü. Ticarət karvanlarıyla Suriya və Yəməni gəzdi və bu karvanlardan birinin sahibi, varlı və özündən yaşca böyük olan Xədicə ilə evləndi. Qırx yaşında ikən Məkkə yaxınlığında yerləşən Nur dağında ibadət etdiyi əsnada Allah Mələk Cəbrayıl (s) vasitəsiylə ona Rəsul, yəni elçi seçildiyini vəhy etdi. Özündən əvvəlki peyğəmbərlər kimi o da Allahın buyurduqlarını insanlara bildirmək üçün vasitəçi seçilmişdi. Əvvəl yaxınları, sonra bütün məkkəlilər arasında yaymağa başladığı tovhid inancı bütpərəst qureyşlilər tərəfindən sərt etirazla qarşılandı. Nəticədə, Hz.Məhəmməd (ə.s), daha sonra Mədinə adını alacaq olan Yəsribdəki müsəlmanların dəvətiylə Məkkəni tərk etmək məcburiyyətində qaldı. 622-ci ildəki bu Hicrət, yəni Hz.Məhəmmədin (ə.s) Məkkədən Mədinəyə köçü müsəlman təqviminin başlanğıc nöqtəsi olacaq qədər əhəmiyyətli bir dönüş nöqtəsi oldu.

Mədinədə Hz.Məhəmməd (ə.s), Məkkədən birlikdə gəldiyi müsəlmanlar (muhacirun), Mədinədəki tərəfdarları (ənsar) və yəhudilər arasında uyğun bir nizam qurmağa çalışdı. Bu dövrdə nazil olan vəhyin məzmunu da fərqliydi; surələr daha uzundu və dünyəvi həyatın problemlərinə daha geniş

yer verilirdi. Beləcə, islam dünyası getdikcə öz ali qanunverici sisteminə qovuşur, qanunları və müəssisələriylə müstəqil bir cəmiyyətə çevrilirdi. Bu yeni cəmiyyət Hz.Məhəmmədin (ə.s) dözümlü rəhbərliyi və *tovhid inancının* ilhamıyla bütün Qərbi Ərəbistanı nəzarəti altına almağı bacardı.

İslam Peyğəmbəri 632-ci ildə Mədinədə vəfat edəndə islamiyyətin Ərəbistandakı zəfəri demək olar ki, tamamlanmışdı. Beləcə, Hz.Məhəmməd (ə.s) heç bir dövlət ənənəsi olmayan Ərəbistanda dinlə dövləti bütünləşdirərək bir islam dövləti yaratmışdı (Bax. TEMA, İslamiyyətin doğuluşu).

İlahiyyatçılar və fiqh alimlərinin şərh etməyə (təfsir) çalışdıqları Quran Allah tərəfindən Hz.Məhəmmədə (ə.s) vəhy edilən bütün buyurduqları və məlumatları ehtiva edir. Hz.Məhəmmədin (ə.s) iyirmi iki illik peyğəmbərlik həyatı boyunca yavaş-yavaş tamamlanmış olan Quran uzunluq dərəcələrinə görə bir-birindən fərqlənən vəhylərdən meydana gəlmişdir. Allah bu vəhylərlə insanlara bir qanun (şəriət) bildirmiş və bu qanunda insanların bir-birlərinə və Allaha qarşı yerinə yetirməklə mükəlləf olduqları vəzifələr göstərilmişdir. Hz.Məhəmmədin (ə.s) açıqladığı vəhylər mahiyyəti baxımından daha əvvəlki peyğəmbərlərin təbliğ etdikləriylə eynidir. Bu yol Hz.Adəmdən Hz.Musaya, Hz.İsaya, ondan da Hz.Məhəmmədə (ə.s) uzanmaqdadır. Bu ardıcıllığa əsasən də tarixi islam özündən əvvəlki iki böyük tək Allahlı din ailəsinin içində yer alır. Əhdi Ətiq və Əhdi Cədid ilə Quranın oxşar vəhyləri arasında görülən fərqlər, islam anlayışına görə, yəhudilərlə xristianların öz müqəddəs mətnlərində etdikləri dəyişikliklərdən irəli gəlməkdədir. Hz.Məhəmməd (ə.s) isə peyğəmbərlərin möhürüdür və dünyanın sonu çatana qədər başqa heç bir peyğəmbər gəlməyəcəkdir. Çünki Quranla birlikdə vəhy tamamlanmışdır.

Quranda hökmlər üç qrupa bölünür: etiqadi hökmlər, əxlaqi hökmlər və hüquqi hökmlər. Hüquqi hökmlər insan münasibətlərinin ayrı-ayrı sahələrinə aid olmaqla aşağıdakıları özündə ehtiva edir. Ailə və miras haqqında 70 ayə, borclar haqqında 80 ayə, cəza haqqında 30, konstitusiya haqqında 10, məhkəmə prosesi 13, mülki məsələlərə aid 100 ayə var.

Göstərilən bu konkret hökmlərlə bərabər, Quranda müsəlmanların özlərini necə aparmalarıyla bağlı bir sıra ümumi prinsiplər irəli sürülür. Quran Allahın qanunlarına və əmrlərinə dair bir çox istinadları ehtiva edir və onda möminlərin Allahın müəyyən etdiyi hədlərə riayət etmələrini, Allaha və Onun Peyğəmbərinə (ə.s) itaəti və Allahın təsbit etdiyinə görə hökm verməyi əmr edən çox sayda ayələr mövcuddur. Müsəlmanlar arasında üstünlük təşkil edən qənaətə görə, Quran Şəriətə əsaslanan fərqli bir ictimai quruluş üçün əsaslar qoymuşdur və bütün müsəlmanlar Allahın iradəsinə təslim olduqlarının (müsəlman) bir işarəsi olaraq bunlara riayət etməlidirlər.

Quran Hz.Məhəmməddən (ə.s) əvvəlki dövrü cahillik (cahiliyyə) adlandıraraq rədd edir. Ancaq peyğəmbərlik ənənəsiylə bağlı olaraq da, İslam

Peyğəmbərinin (ə.s) əvvəlki peyğəmbərlərin risalətlərini əhatə etdiyini və onları daha da təkmilləşdirdiyini bildirir.

İslamda hüququn mərkəzi yer tutduğuna dair iddiaların, heç şübhəsiz, doğruluq payı vardır. Hüquq islam cəmiyyətində ən erkən inkişaf etmiş fənn olmuşdur. Bu zərurət müsəlmanların heyrətamiz tezliklə qurmuş olduqları nəhəng dövləti idarə etmək üçün ona olan ehtiyacdan yaranmışdı. Hüququn meydana gəlməsi isə insan əməllərinin islamın özünəməxsus nöqteyi-nəzərindən anlaşılaraq müəyyən edilməsinə əsaslanırdı və tədricən inkişaf etdirilə bilərdi, çünki yaxşı və pis anlayışları Quran ayələrinin, Peyğəmbərin (ə.s) hədislərinin və bütövlükdə islam mirasının şərhinə müvafiq olaraq inkişaf edirdi.

İslam hüququnun erkən dövr materialları əsasən *ad hoc* qərarlar əsasında idarəçilər tərəfindən yaradılmışdır. İkinci mərhələdə isə fəqihlər bu materialları "islamlaşdırmaq" və onları Quran və Sünnənin müdafiəsi altına almaq üçün müntəzəm surətdə səy göstərmişlər (Qeyd etmək lazımdır ki, Sünnənin məzmunu da *hədis* şəklində bu islamlaşdırma fəaliyyəti ilə yanaşı inkişaf etmişdir). Buna görə də, inzibati materialların və yerli adətlərin Quran və Sünnə çərçivəsinə daxil edilməsi prosesiylə, Quranda və Sünnədə var olanlardan yeni idarəçilik təcrübəsi və yerli adət *əsasında* qanun yaratma prosesi birgə getmişdir.

İslamın ikinci əsrində isə hüquqi düşüncənin nəzəri əsası inkişaf etdirildi ki, bu da effektiv şəkildə yaradılmış bir hüquq sisteminə aparıb çıxardı. Bu mərhələdə fiqh ibadətin doğru şəkildə yerinə yetirilməsiylə (ibadat) bağlı məsələlərlə də məşğul olmaqla yanaşı, özünü bu nəzəri anlayışı sistemləşdirməyə həsr etdi. Fiqhin bu dar çərçivəsini tamamlamaq üçün, dini hüquq konseptiylə (şaria) ifadə edilən daha geniş bir hüquq konteksti formal islam hüquq nizamını sosial həyatın bütün aspektlərinə yaydı. Nəticədə, şəriət geniş bir qanunlar külliyyatına çevrildi.

Daha sonrakı dövrdə ilahi vəhy mətni ilə sonrakı hüquqi inkişaf arasındakı münasibətin müəyyənləşdirilməsi istiqamətindəki səylər Quranda həlli aydın şəkildə görünməyən hüquqi problemlərin həlli üçün islami nəzəri əsaslar təmin edəcək bir mənbələr nəzəriyyəsinin hazırlanmasına gətirib çıxardı.

Belə ki, şəriətin dini bir hüquq hesab olunması əhatə etdiyi mövzulardan qaynaqlanmır. Yəni, Qurandakı bütün hökmlərin və qadağaların sistemləşmiş şəkli olan şəriət ibadətlə yanaşı, insanın cəmiyyət içindəki bütün fəaliyyətlərini də tənzimləyən bir hüquq sistemidir. O, həm cinayət hüququnun, həm də mülki və ticarət hüququnun təməlini təşkil edir. Bu hüquq sisteminin mövzuları ciddi mənada dini məsələlər sahəsini aşacaq dərəcədə müxtəlifdir və gündəlik həyatın dünyəvi işlərini əhatə edəcək qədər uzanır. Şəriət hü-

qununun dini xarakteri onun ilahi vəhy mənbələrindən qaynaqlandığına dair müsəlman inancından irəli gəlir.

Şəriət, yəni islam qanunu Allahın möminin həyatını və bütün fəaliyyətlərini hər cəhətdən düzgün şəkildə tənzimləyən planı olaraq qəbul edilir. Bu cəhətdən şəriətlə Qərb hüquq anlayışı arasında ən azı iki əsas fərq mövcuddur. Birincisi, şəriətin dini olanla olmayan və hüquqi olanla əxlaqi olan arasında fərq qoymamasıdır. İkincisi isə, şəriətin ümumi anlayışlardan deyil, qəti olan hökmlər sistemindən meydana gəlməsidir.

Şəriət qaydaları erkən dövr müsəlman ümmətini idarə edən hökumət tərəfindən tətbiq olunan pozitiv hüququn bir hissəsi olmuşdur. Bu müsəlman ümməti siyasi və dini loyallıqların məhdud olduğu bir müəssisə kimi qəbul edilmiş və şəriət möminin mənəvi rəhbər sistemi olaraq görülmüşdür. Allahı mərkəzə alan bu sistem Şəriətin insan səlahiyyətini məhdudlaşdıran orta əsrlərdəki institutlaşdırılmasınadək davam etmişdir. Buna baxmayaraq, hətta bu gün belə sünni islam aləmində İslam hüququ ilə bağlı məsələlərdə mərkəzi bir hakimiyyət yoxdur və müsəlmanlar bir qərara gəlmədən əvvəl müxtəlif səlahiyyətli mənbələrdən (*müftülər*) məsləhət ala bilərlər. Şiə islam aləmində isə, bunun əksinə, hakim strukturlar inkişaf etdirilmişdir.

İslama görə, hökumətlər yalnız şəriətin düzgün şəkildə idarə olunduğunu və tətbiq edildiyini təmin etmək üçün mövcuddur. Hökumətlər şəriətə tabedirlər və onun əmrlərini və qadağalarını icra etməlidirlər. İslamın nəzərdə tutduğu sistem bir ilahi nomokratiya proqramıdır ki, orada hüquq sosial nəzarət vasitəsidir, yəni insanların deyil, qanunların hakimiyyətidir. Şəriət qanununa riayət etmək bütün müsəlmanlar üzərinə vacibdir. Hər bir mömin, hər hansı bir müsəlman cəmiyyətində hökumətin pozitiv hüquq olaraq şəriəti təmin etmə öhdəliyini yerinə yetirmə iradəsindən və ya bu dünyanın hakimlərinin ədalət mühakiməsində şəriətə uyğun olaraq ədaləti təmin etmə öhdəliklərini yerinə yetirə bilmə qabiliyyətindən asılı olmayaraq, davranışlarını şəriətə uyğun yerinə yetirməyə görə məsuliyyət daşıyır. Çünki, Qiyamət Günündə hər bir müsəlman şəriətin əmrlərinə və qadağalarına əməl etmədə hər bir şəxsi uğursuzluqlara görə hesaba çəkiləcəkdir.

İslam hüququ bütün insan davranışlarını əhatə etsə də, bu əməlləri yönləndirən daxili mexanizm olaraq niyyətlərin əhəmiyyətini daha çox vurğulayır. Allah qarşısında borcunu yerinə yetirmədə niyyət (*niyya*) əməldən daha vacib hesab olunur. Belə ki, hər bir əməl yalnız və yalnız Allaha ibadət olaraq düşünülməlidir. Bu cəhətiylə şəriət hüququ digər hüquq sistemlərindən ciddi mənada fərqlənir. İslam hüququ hüquq və əxlaq arasında heç bir xətt çəkmir və bu səbəbə görə də onun əksər hissəsi məhkəmədə deyil, yalnız vicdan daxilində tətbiq edilə bilər. Bu da üstünlüklərini onda göstərmişdir ki, islam hüququ əxlaqi mülahizələr vasitəsilə cücərmişdir və öz növbəsində müsəlman cəmiyyətinə əxlaqi keyfiyyətlər qazandırmışdır ("Mən

gözəl əxlaqı tamamlamaq üçün gəldim"). Ancaq onun, eyni zamanda, mənfi tərəfi də olmuşdur. Belə ki, ümumi əxlaqi mülahizələrə lazımi dərəcədə əhəmiyyət verilməmiş və onlar fəqihlər tərəfindən seçilib ayrılaraq konkret qanunvericiliklə ifadə edilməli olan hökmlər olaraq deyil, sadəcə olaraq "tövsiyələr" kimi şərh edilmişdir. Nəticədə, ümumi mülahizələr bahasına Qurandakı spesifik "ediləcək və edilməyəcək" əməllər vurğulanmışdır. Məsələn, dörd arvada qədər çoxarvadlılığa icazə verən Qurana əsasən (4,3 ayəsi) klassik müsəlman fəqihlər tərəfindən hüquqi qüvvə tanınmışdır. Lakin eyni ayənin davamında buyurulur ki, əgər bir şəxs arvadları arasında ədaləti təmin edə bilməzsə, o halda yalnız biriylə evlənməlidir. Bu isə fəqihlər tərəfindən ədalətli olmağa dair ərin vicdanına yönəlik bir tövsiyə kimi qəbul edilmişdir.

Qeyd edildiyi kimi, islam hüququnun meydana gəlməsi insan əməllərinin islamın özünəməxsus nöqteyi-nəzərindən anlaşılaraq müəyyən edilməsinə əsaslanırdı. Əməllərin islam baxımından yaxşılığının və pisliyinin müəyyən edilməsi isə fiqh (anlama) adlandırılırdı. Bu baxımdan fikirlər irəli sürmək üçün bilik və bacarıq keyfiyyətlərinə malik olan şəxslər isə fəqih (yaxşı anlayan bilikli şəxs) adlandırılırdı. İnsan hərəkətlərinin islam dini kontekstində qiymətləndirilməsi Peyğəmbərin (ə.s) hədisləriylə də təşviq edilmişdi.

Peyğəmbərin (ə.s) dövründə və ondan sonrakı illərdə fiqh heç də sırf insan əməlləriylə bağlı deyildi. O, ümumi dini bilgi və müqəddəs mətnlərin anlaşılması kimi dinlə bağlı ümumi məsələləri də əhatə edirdi. Ancaq bu erkən inkişaf mərhələsində islamın gündəlik təcrübəsi hələ hazırlanmaqda idi və fiqh hüquqi müəyyənliklərin və doğru davranışın şərhlərinin yaradılması üçün tətbiq edilməyə başlandı. Beləliklə, fiqhin rolu tədricən həm şəxsi, həm də ictimai maraqlarla bağlı müvafiq hüquqi məsələlərin qiymətləndirilməsi ilə məhdudlaşdırıldı.

Hüquq və əxlaqın birgə funksiyalarına xidmət edən şəriətin pozitiv hüquq və əxlaq kimi ikili xüsusiyyəti müsəlman fəqihlərin insan əməllərini iki əsas fərqli üsulla ayıraraq təsnif etmələri faktında öz əksini tapmışdır. Bu üsullardan biri əməllərin əxlaqi xüsusiyyətinin qiymətləndirilməsidir ki, bu qiymətləndirmə şəriətin deontoloji (eyni inanclı insanların bir-birləri ilə olan əlaqələrində riayət nəzərdə tutulan əxlaqi, mənəvi dəyərlər) keyfiyyətinə müvafiq gəlir.

İlkin fiqh anlayışından başlayaraq, islam hüququ insan əməllərinin anlaşılmasını və müəyyənləşdirilməsini davamlı şəkildə təşkil edir. Əməllərin qiymətləndirilməsi üçün beş Şəriət dəyəriylə (*ahkam*) müəyyənləşdirilmiş beş qat təsnifat sistemi vardır və bu sistemə müvafiq olaraq bir əməl vacib (halal), tövsiyə olunan (müstəhəb və ya məndub), qeyri-müəyyən (mübah, yəni heç bir əxlaqi nəticələr doğurmayan), qınanmış (məkruh) və

qadağan olmuş (haram) ola bilər. Bu sistemə görə, bir tərəfdə qəti şəkildə qadağan olunmuş əməllər, digər tərəfdə isə qəti şəkildə əmr olunmuş əməllər yer alır. Mərkəzdə isə neytral, yəni nə qadağan olunmuş, nə də əmr olunmuş davranışlar yerləşir. Qadağan və əmr olunmuş əməllər vacib olma cəhətdən eyni keyfiyyəti daşımaqda, bu ikisi arasındakı əməllər isə elmi mülahizə predmeti olduqları üçün daha az bağlayıcı sayılmaqdadır. Bu təsnifat sistemini bilmək mömin müsəlmanlara Qiyamət Günündə qurtuluşu təmin edəcək doğru davranış yoluna riayət etmə imkanı verir. Bu qiymətləndirmə eyni zamanda şəriətin hüquqdan daha çox, əxlaq kimi səciyyələndirilməsinə səbəb olmuşdur.

Əməllərin təsnifatının ikinci yolu isə şəriətin müsəlman cəmiyyətlərində pozitiv hüquq kimi istifadə edilməsinin nəzərdə tutulduğu faktını əks etdirir. Müsəlman fəqihlər tərəfindən bununla əlaqədar əsas fərqləndirmə hüquqi bağlayıcılığı olan şəri əməllərlə, heç bir hüquqi bağlayıcılığı olmayan qeyri-şəri əməllər arasında edilmişdir. Onlar həmçinin cəzaların müəyyən edilməsini və ya əməli törədəni (və əməli törədənlə əlbir olduğu ehtimal olunan şəxsləri) hüquqi məsuliyyətə cəlb etmə imkanı verən şəri əməllərlə qeyri-şəri əməlləri də fərqləndirirlər. İki sistem halında təsnifatlar bir-biriylə əlaqəli deyildir; bir əməlin əxlaqi baxımdan necə qiymətləndiriləcəyi ilə bağlı bilikdən bir əməlin şəri və ya qeyri-şəri olması ilə bağlı və ya o əməlin dünyəvi hakimiyyət tərəfindən cəzalandırılacaq və ya cəzalandırılmayacaq bir əməl olub-olmaması ilə bağlı birbaşa nəticəyə gəlmək mümkün deyil. Eyni zamanda, əməllərin hüquqi cəhətdən şəri olub-olmadığına və ya onların cəzanın tətbiqi ilə bağlı nəticələr və ya hüquqi məsuliyyət doğurub-doğurmadığına əsaslanaraq, onların əxlaqi baxımdan necə təsnif ediləcəyinə dair asanlıqla ehtimal irəli sürmək mümkün deyil.

Şəriətlə islam ilahiyyatı arasındakı münasibətin dəqiq xüsusiyyətini təsvir etmək asan deyil və əsrlər boyu islam fəlsəfəsi, ilahiyyatı və hüququ üzrə mütəxəssis sayılan müsəlman alimləri arasında ixtilaf mövzusu olmuşdur. Lakin, islam tarixi boyunca müsəlmanların nəyə inanmalı olduqlarına dair təfərrüatlı meyarlar təyin etməkdən daha çox, dəqiq davranış meyarlarının hazırlanmasına xüsusi əhəmiyyət vermə və buna görə də doğru iman tələb etməkdən daha çox, doğru davranış meyarlarına bağlılığı tələb etmə meyli olmuşdur.

Şəriət hüquqi qaydaların mövzularına görə iki əsas kateqoriyaya ayrılır. Birinci kateqoriya ibadətlər və ya ciddi dini öhdəliklərdir. Bunlar hər bir möminin Allah qarşısındakı vəzifələrindən ibarətdir. Bu kateqoriyada bir müsəlmanın mükəlləf olduğu ibadətlərlə bağlı əməlləri və dini ayinləri hansı qaydada yerinə yetirəcəyi ilə bağlı çox geniş qaydalar yer alır. Gündəlik namazların qılınması, Məkkəyə həcc ziyarəti, Ramazan ayı boyunca oruc tutma və zəkat vergisinin ödənilməsi bütövlükdə ibadət qaydaları ilə tənzim-

lənir. Bunlar imanın dillə ifadəsi ilə birlikdə islam inancının sütunlarını təşkil edir. İbadətlər kateqoriyasına həmçinin dini cəhətdən çirklənmə mənbələrinin müəyyən edilməsi; dini cəhətdən təmiz sayılmaq üçün zəruri olan dəstəmazın alınması tələblərinin izah edilməsi; dəfn üçün cəsədin düzgün hazırlanması üsulları və bir camaatda namaz qıldıracaq imamın seçilməsi kimi yardımçı qaydalar da daxildir.

İslamın dini məsələlərdə düzgün davranışa ciddi diqqət yetirməsi ibadət qaydaları ilə bağlı tədqiq edilən sistemin çox tələbkar olması səbəbi ilə izah edilir. İbadət qaydalarının bəzi xüsusi müddəalarının firqə və məzhəb ayrılıqlarına görə fərqlilik göstərməsinə baxmayaraq, şəriətin başlıca xüsusiyyətləri mövzusunda əhəmiyyətli dərəcədə yekdil fikir mövcuddur. Hər hansı bir firqədə ibadət qaydaları əsrlər boyu nisbətən sabit və mübahisəsiz mövcudluğunu nümayiş etdirmişdir.

Şəriət qaydalarının digər əsas kateqoriyası muamalatdır ki, bu da möminin Allahla əlaqələrindən daha çox, fərdlərarası münasibətlərin idarə olunmasını tənzimləyir. Bu kateqoriyadakı şəriət qaydaları ilə bağlı firqələr və məzhəblər arasında nəzərəçarpacaq dərəcədə fərqlər mövcuddur. XXI əsrin erkən dövründə də Orta əsr fəqihləri tərəfindən tərtib edilmiş bu qaydaların nə dərəcədə müasir şərtlər fonunda yenilənməli və islahat yolu ilə dəyişdirilməli olduğu mövzusunda əhəmiyyətli dərəcədə mübahisələr mövcuddur.

Yuxarıda qeyd edildiyi kimi, Quran şəriət hüququnun əsas özəyini vermişdir. Hüquqi məsələlərlə bağlı Quran ayələrinin əksəriyyəti isə Hicrətdən, yəni Məkkədən Mədinəyə köçdükdən (622-ci il) sonrakı onillikdə Peyğəmbərə (ə.s) vəhy edilmişdir. Ancaq 632-ci ildə islam Peyğəmbərinin (ə.s) ölümü müsəlman ümməti üçün Quran vəhyi dövrünün sona çatdığını ifadə edirdi. İslamiyyət daha geniş təbəqələrə yayıldıqca isə insan əməllərinin mümkün sonsuz sahəsini qiymətləndirmək üçün mühakimə meyarına (dəlil) ehtiyac yarandı. Bunun üçün isə iki mənbə var idi: Quran və Peyğəmbərin (ə.s) Sünnəsi. Müsəlman ümməti bu iki meyara aydın şəkildə Peyğəmbərin (ə.s) özü tərəfindən yönəldilmişdir ("Mən sizə iki əmanət qoyuram; onlara sarılsanız, heç vaxt yanılmayacaqsınız." Malik, *Muvatta*, II, 899). Ancaq bu iki meyar heç də Peyğəmbər (ə.s) tərəfindən təklif olunan yeganə meyarlar da deyildi. Onlara şura qaydası da əlavə edilmişdi ki, bu da hakimiyyətin ümmətin işlərini idarə edərkən alimlərlə məşvərət aparmalı olduğunu irəli sürürdü. Bundan əlavə, hakimlərə müvafiq qərarlar qəbul etmək üçün mühakimə gücündən istifadə etmə səlahiyyəti də verilmişdi və hüquqi qəraralma daha geniş islam ənənəsi kontekstində həyata keçirilməliydi. İslam hüququnun təkamülü siyasət, müharibə və digər ictimai hadisələrdən də təsirlənmişdi və bu da ənənəvi təcrübələri müxtəlif şəkildə möhkəmlət-

miş, dəyişdirmiş və ya əvəz etmişdi. Bütün bu amillər Peyğəmbərin (ə.s) zamanında və daha sonra məşhur Səhabələr dövründə (Hz. Məhəmməd (ə.s) dövründə yaşamış və onu görmüş müsəlmanlar) islam cəmiyyətinin və hüququnun inkişaf çərçivəsini əmələ gətirdi.

Şəriətin tarixi inkişafı məsələsi müasir Qərb alimləri tərəfindən irəli sürülmüş görüşlərlə müsəlman alimlərin əksəriyyətinin görüşləri arasındakı dərin və davamlı ziddiyyətə səbəb olmuşdur. Qərb alimlərinin islam hüququnun tarixi inkişafıyla bağlı mövqeləri müsəlman alimlərin əksəriyyəti tərəfindən qəbul edilmiş qənaətlərilə dərin ziddiyyət təşkil edir və axırıncılar tərəfindən ciddi şəkildə pislənir.

İslam hüquq elmində həll olunmamış bir mübahisə Quranda müəyyən olunmuş qaydalar Qərbi Ərəbistanda Qurandan əvvəl mövcud olan adət hüququ sistemindən bir qopma olaraqmı görülməli, yoxsa vəhylərin o hüququn bəzi cəhətlərini dəyişdirmək və düzəltmək, lüzum görülmədiyi təqdirdə isə onu qorumaq üçün gəldiyi ilə bağlı suallardan qaynaqlanır. Bəzi müsəlman alimlər bu nəticəyə gəliblər ki, Quran qanunvericiliyində müxtəlif mövzuların əhatə olunma dərinliyindəki böyük qeyri-bərabərlik yaranan boşluqların Quranla əvəz olunmamış islamdan əvvəlki adət hüquqlarına istinadən doldurulması üçün nəzərdə tutulmuşdur, digərləri isə bunu hüquqi inkişaf üçün yeni bir başlanğıc nöqtəsi kimi görürlər.

İslam cəmiyyətinin bu erkən, inkişaf etməkdə olan strukturu Peyğəmbərin (ə.s) və əsasən Səhabələrin dövrünü əhatə edən Hicrətin birinci əsrində üstünlük təşkil etdi. Bu dövrün ikiqat əhəmiyyəti vardı. Bir tərəfdən, Səhabələr Quran mətninin qorunmasında maraqlıydılar və buna görə də mühüm hüquqi məsələlər müzakirə mövzusu olduqda Peyğəmbərin (ə.s) hədislərini tətbiq etmədə mühafizəkar davranırdılar. Digər tərəfdən isə, Səhabələr dövrü qarşıdan gələn islamın aparıcı mütəfəkkirlər nəsli üçün hüquqi düşüncə və metodologiya cərəyanlarının əsaslarının qoyulduğu bir dövr idi.

Əməvi sülaləsinin (661-750) hakimiyyətə gəldiyi dövrə qədər, islam ümməti Xulafai Raşidun, yəni "doğru yola yönəldilmiş olan xəlifələr" kimi tanınan dörd əmir tərəfindən idarə edildi və bu əsrdə Mədinə islam bilik və təcrübəsinin əsas inkişaf mərkəzi oldu. Lakin bu, başqa yerlərdə hüquqi və inzibati vəzifələri yerinə yetirmək üçün təyin edilmiş digər səlahiyyətli şəxslərin işləri ilə tamamlanırdı. Bunlar arasında İraqda xidmət edən İbn Məsud və hər ikisi də Yəməndə xidmət edən Muaz İbn Cəbəl və Əbu Musa əl-Əşari var idi. Birinci əsrin son onilliklərində hakim siyasi hakimiyyət ilə yanaşı, genişlənməkdə olan müsəlman dünyasının hər yerində yaşayan başqa şəxslər də vardı ki, onlar hüquqi düşüncəyə əhəmiyyətli dərəcədə töhfələr verdi. Bunlar arasında Mədinədə Səid İbn əl-Musəyyəb (ö. 713), Urva İbn əl-Zübeyr (ö.

716), Ubeydullah İbn Utbə (ö. 717) və Əbu Bəkr İbn Abd əl-Rəhman (ö. 713), Kufədə isə Alqama İbn Qays (ö. 682), Şurayh İbn əl-Haris (ö. 679), Masruq İbn əl-Acda (ö. 683) və İbrahim əl-Nəxaini (ö. 714) göstərmək olar.

Peyğəmbərin (ə.s) dövründə və sonrakı otuz il ərzində islamın siyasi güc mərkəzi olan Mədinə daha sonrakı dövrdə Suriyaya köçürüldü və bütün Əməvi səltənəti ərzində siyasi güc mərkəzi kimi qalmaqda davam etdi. İslamın ikinci əsrinin başlanğıcında siyasi hakimiyyət islam hüququnun yazılı mənbələrindən istifadə ilə bağlı artıq iki əsas siyasət güdürdü. Birincisi, Hz.Əbu Bəkrin hakimiyyəti dövründə başladılmış olan Quranın standartlaşdırılması daha sonra Hz.Osmanın hakimiyyəti dövründə başa çatdırıldı. İkincisi isə Əməvi xəlifəsi Ömər İbn Abd əl-Əziz Peyğəmbərin (ə.s) hədislərinin toplanmasını təşviq etdi.

Əməvilər tərəfindən hakimiyyətin mənimsənilməsinin həm firqələrlə bağlı, həm də hüquqla bağlı yeniliklər cəhətdən böyük nəticələri oldu. Əməviləri rədd etməklə şiə və xarici firqələri hər ikisi də sünnilər olaraq adlandırılacaq olan müsəlmanların əsas gövdəsindən ayrıldılar və bundan sonra onların müvafiq hüquqi oriyentasiyaları da beləcə ayrılmış oldu. Xaricilər (həmçinin İbadiyə kimi də tanınır) müsəlman ümmətinin rəhbərliyinin seçkilər yoluyla müəyyənləşdirilməli olduğuna və müsəlmanların ədaləti qoruya bilməyən əmirə qarşı üsyan etmə haqqı olduğuna inanırdı. Xaricilərin bu mövqeyi, ümumiyyətlə, digər müsəlmanlar tərəfindən bidət hesab edilmişdir və kiçik xarici icmaların müsəlman dünyasının ucqar ərazilərində mövcudluğunu qorumasına baxmayaraq, xarici düşüncəsi əksəriyyət tərəfindən təcrid edilmişdir.

Şiə firqəsi isə inanırdı ki, ilk üç xəlifə ümmətin idarəsini qəsb etmişdir, hansı ki, onlara görə, bu, Raşidun xəlifələrindən dördüncüsünə, Əli ibn Əbu Talibə (ö. 661), Peyğəmbərin (ə.s) əmisi oğlu və kürəkəninə keçməli idi. Sünni müsəlmanlar sonralar ümmətin necə idarə olunmasıyla bağlı mənbə olaraq və islam hüququ ilə bağlı məsələlərin həllində bütün Raşidun xəlifələrinin hökmlərinə və nümunələrinə müraciət etdiyi halda, şiə firqəsi Xəlifə Əli istisna olmaqla, digərlərinin hakimiyyətini rədd etdi.

Şiələr nəinki Xəlifə Əlinin Peyğəmbərin (ə.s) haqlı varisi olduğuna inanırdı, onlar həmçinin ümmətin rəhbərliyinin hüquqi olaraq Əlinin ölümüylə nəticələnən vətəndaş müharibəsindən və qalib Əməvilər tərəfindən irsi monarxiyanın yaradılmasından sonra da Əlinin qanıbir nəslinə məxsus olduğuna inanırdılar. Xəlifə Əlinin səlahiyyətlərini miras alan Əli nəslindən olanlar imamlar kimi tanınırdılar və şiələr onların da Əli kimi Peyğəmbərə (ə.s), onun özü ilahi mahiyyətdə olmadığı halda, şəriət hüququyla bağlı mötəbər hökmlər vermə haqqı vermiş eyni ilahi ilhama sahib olduqlarına

inanırdılar. Yəni, imamlar ilahi iradəni bəşəriyyət üçün şərh etmə hüququ qazanmışlar və buna görə də Peyğəmbərin (ə.s) vəfatından sonra Qanunqoyucu Allah ilə ümmət arasında davam edən bir əlaqə kimi xidmət edə bilərdilər.

Şiə icması sonralar imam məqamına kimlərin varislik hüququ olduğu məsələləri üzərində firqələrə parçalandı. Bu firqələrdən ən böyüyü, On İki İmam firqəsi 874-cü ildə qeyb olan axırıncı imamın qeybə çəkildiyinə və son nəticədə qayıdacağına inanır. Digər firqələr isə nəsilləri müasir dövrədək davam etmiş imamlar silsiləsinin ardıcıllarıdır.

Sünnilərə görə isə ilahi vəhy və yeni qanun ortaya qoyma ehtimalı Peyğəmbərin (ə.s) vəfatı ilə ortadan qalxmışdı. İslama əsaslanan bir hüquq sisteminin necə yaradılması məsələsiylə maraqlanan sonrakı müsəlman nəsillər buna görə də mənbə qıtlığı problemi ilə qarşılaşdı. Peyğəmbərin (ə.s) vəfatından sonra gələn nəsillərdə hüquq düşüncəsinin inkişafına dair az məlumat olmasına baxmayaraq, bu problemin başlanğıcda ümmətin rəhbərləri üçün böyük maraq doğurduğunu demək mümkün deyil. Çünki onlar böyüyən islam dövlətinə yönəlmiş hərbi təhdidlərə cavab vermək və onun sürətlə genişlənən ərazisini idarə etməklə məşğul idilər. *Ad hoc* tədbirlər və praqmatizm ruhu həm də hakim kimi xidmət edən erkən dövr siyasi liderlərinin qərar qəbul etmə prosesini səciyyələndirirdi.

Qərb tədqiqatlarına görə, islam dövləti Suriya, İraq, Misir, İran kimi erkən dövrdə fəth etdiyi əraziləri özünə qatdıqca, Roma-Bizans hüququ, Yəhudi hüququ, Sasani hüququ və Şərqi Xristian kilsələrinin hüququ kimi çox yüksək səviyyədə inkişaf etmiş hüquq mədəniyyətlərini ehtiva edən yerli sivilizasiyaların təsirlərinə də məruz qaldı. Bu mədəniyyətlərdən islamı qəbul etmiş təhsilli adamlar fəth olunmuş sivilizasiyaların hüquqi ənənələrini qoruyub saxladı ki, bu ənənələr də sinkretik bir proseslə, yaranmaqda olan İslam hüquq mədəniyyətiylə assimilyasiya oldu. Bu baxışa görə, şəriət hüququ adıyla ortaya qoyulmuş zahirən islami görünən hökmlər həqiqətdə digər hüquqi ənənələrdən borc alınmış hüquq prinsiplərinin sonrakı dövrlərdə islam mənbələri ilə əlaqəsini yaratmaq yoluyla islamlaşdırılması səylərinin nəticəsidir. Əksər müsəlman alimləri bu fikri tamamilə rədd edir və Şəriət hüququnun hər hansı bir qeyri-islam ənənələrinə heç bir şey borclu olmadığı mövqeyini tuturlar. Bu iki iddianı elmi cəhətdən sübut etmək və ya yox etmək üçün lazımi tarixi və müqayisəli hüquqi tədqiqat heç vaxt aparılmamışdır və islam dövləti tərəfindən ilk dəfə fəth olunmuş ərazilərdə şəriətin digər hüquq ənənələrilə münasibəti haqqında mübahisə hələ də davam etməkdədir.

1.2. Fiqh islam hüququ kimi, klassik fiqh məzhəbləri, fiqh metodologiyası, onun yayıldığı coğrafiya

Şəriət – İlahi hökmlərin insanların iradəsi ilə nizam və intizam hədləri çərçivəsində saxlanan qaydalarının cəmidir. İslamın öyrənilməsində müsəlman qanunlarının sistemləşdirilmiş toplusu olan şəriətin əsaslarını bilməyin birinci dərəcəli əhəmiyyəti vardır. Bu cəhətdən müsəlman hüquqşünaslığı istisna təşkil etmir. Bununla belə, başqa dini qanunvericilik sistemlərinin heç birində şəriətə bənzər bir sistem yoxdur.

Bəzi tədqiqatçılar səhvən şəriəti müsəlman hüququ ilə eyniləşdirirlər. Əslində isə şəriət daha çox məsələləri həll edir və əhatə dairəsi genişdir. Şəriətdə istər dünyəvi, istərsə də dini problemlər islam nöqteyi-nəzərindən şərh olunur. Burada təsərrüfat həyatını, əxlaq və etik normaları, müsəlman mərasimləri və bayramlarını, həmçinin bütün müsəlman icmasının həyat tərzini müəyyən edən başqa müddəalar vahid sistem halında birləşdirilmişdir. Şəriətdə qadağalar ətraflı izah olunur, icazə verilən, təqdir və təkdir edilən hərəkətlər konkret göstərilir. Belə ki, şəriət qanunları insanın bütün həyat və fəaliyyətini əhatə edir.

Müsəlman hüququ (fiqh) şəriətin tərkib hissəsidir. Şəriətdə kənd təsərrüfatı fəaliyyətinin normaları, icarə və torpaq mülkiyyəti haqqında şəriət qaydaları, yeyinti məhsullarının istehsalı və istehlakı, müsəlmanlardan və qeyri-müsəlmanlardan vergi alınması məsələləri, maliyyə və ticarət əməliyyatlarını tənzimləyən normalar aydınlaşdırılır. Heyvanların kəsilməsi, ovçuluq və balıqçılıq qaydaları da bura daxildir. Həm də şəriətdə sırf dünyəvi problemlər dini mövqedən şərh edilir.

Şəriəti xristian hüququndan və digər qanunvericilik sistemlərindən ayıran prinsipial fərq budur ki, digər hüquq sistemləri uzun əsrlər boyu qüvvədə olsa da, onlarla yanaşı mövcud olmuş dünyəvi hüquq normalarını heç vaxt bütünlüklə əvəz etməmişlər. Halbuki, müsəlman dünyası islam dini yarananda (VI-VII əsr) XIX əsrin axırlarınadək şəriətdən başqa əslində heç bir digər qanunvericilik sistemi tanımamışdır. XIX əsrin ortalarında Osmanlı imperiyasının məhkəmə sistemi və mühakimə qaydaları belə şəriət qanunvericiliyi əsasında mövcud olmuşdur.

Şəriətin möhkəmliyinin səbəblərindən danışarkən onun adət – islam dinini qəbul etmiş xalqların adi hüququna münasibətini xüsusilə qeyd etməliyik. Şəriət və onunla bağlı olan müsəlman hüququnun həm də bir növ Ərəbistan əhalisinin adi hüquq və ənənələrinə görə qanun və normaların sistemləşdirilməsi formasına böyük təsiri olmuşdur. Ərəb istilası zamanı şəriət Misir, Suriya, Mesopotamiya, İran, Orta Asiya və Qafqaz xalqlarının adi hüquq normalarını özündə təcəssüm etdirmişdir. Çox vaxt müsəlman hüququnu şəriətin əsasları ilə eyniləşdirməyə baxmayaraq, adət şəriət çərçivəsində

fəaliyyət göstərir. Müəyyən mənada adət şəriətin, şəriət isə adətin qorunub saxlanmasına kömək edir.

Müsəlman hüququnda işlədilən "fiqh" məfhumu "mütəfaqih" sözünün kökündəndir. Lüğəti mənası- anlamaq, qavramaq, dərk etmək deməkdir.

Fiqh – müsəlman hüquq nəzəriyyəsidir. Fiqh müsəlman cəmiyyətinin həyat normalarının əməli surətdə hazırlanması üçün Qurandan, Sünnədən və onların yozulmalarından istifadə olunması prinsiplərini hazırlayır. Fiqh bilavasitə qanunun izahı ilə məşğul olduğu üçün bəzən bu termin geniş mənada dini fənlərin bütün məcmusunu və ya ümumiyyətlə, müsəlman ilahiyyatını ifadə etmək üçün işlədilir. Fiqh həm də müsəlmanın düzgün həyat yolu sayılan şəriətin nəzəri əsası və izahıdır. Buna görə şəriət və fiqh məfhumları çox vaxt bir-birini əvəz edir.

İslamın ilk dövrlərində fiqh ayrıca elm deyildi. Belə ki, hüquq məsələləri şəriətlə tənzim edilirdi. Sonralar fiqh müstəqil elmə çevrildi. Fiqh ilə şəriət bir-biri ilə sıx bağlıdır, lakin eyni deyildir.

Terminoloji mənada fiqh müsəlmanların həyatının bütün sahələrində Quranda nazil olmuş ilahi vəhylərdən ibarət qanunların düzgün əks etdirilməsi problemləri ilə məşğuldur. Onun səlahiyyətinə dövlət həyatının, dini və mülki həyatın qaydaları, mərasimlərin icra qaydaları, ailə, miras və cinayət hüququ, etika normaları və inzibati idarəetmə qanunları daxildir. Bir sözlə, islama inam və iman gətirən şəxslərin ictimai həyatının bütün cəhətlərinə dini istiqamət verilməlidir. Fiqh də məhz bu işlə məşğuldur.

Fiqh iki hissəyə: sırf nəzəri məsələlərlə məşğul olan usul əl-fiqhə (fiqhin «kökləri») və tətbiqi məsələlərlə məşğul olan füru əl-fiqhə (fiqhin «budaqları») ayrılır.

Fiqh müfəssəl mənbələri tədqiq etməklə şəriət ehkamının əməli köklərindən bəhs edən elm olub qanunvericilik işlərində fərziyyə və layihələr tərtib edərkən müvəffəqiyyət qazanmağa xidmət edir.

Fiqh şəriətin mənbələrini tədqiq etməklə onun əməli işlər üzrə ehkamından bəhs edir. Belə ki, fiqhin başlıca nəzəri məsələlərindən biri hüququn mənbələri problemidir, yəni müqəddəs mətnlərdən əməli həyat üçün nəticələr çıxarmağın yol verilən üsulları və mənbələri məsələsidir.

Fiqh şəriətin elmi ehkamının müfəssəl sübutlarından bəhs edən elmdir. Buna görədir ki, ilk vaxtlar "fiqh" sözü "elm" sözünə, "fəqih" sözü isə "alim" sözünə bərabər tutulmuşdur. Sonralar "alim" sözü ancaq Quran təfsirçilərinə, "fəqih" sözü isə dini hüquq bilicilərinə aid edilmişdir. Fiqhin əsas vəzifəsi qeyd etdiyimiz kimi, şəriət ehkamını tədqiq etməklə hüquq normaları yaratmaq, müsəlman hüququnu sistemləşdirmək və tətbiqinə şərait yaratmaqdır.

Usul əl-fiqh – müsəlman hüququnun qaynaqları olan Quran, Sünnə, İcma və Qiyası təhqiq etməklə onlarda olan normaların düzgünlüyünü və yeni normalar yaradılarkən əməl edilməli qayda və prinsipləri müəyyən edir.

Usul əl-fiqh öz əsasını, yəni prinsiplərini şəriət elmlərindən və ədəbiyyat elmlərindən götürmüşdür. Usul əl-fiqh müsəlman hüququ üzrə ehkamları tədqiq edərək dəqiqləşdirir.

Beləliklə, usul əl-fiqh bir elm kimi şəriət elmlərindən ayrılaraq fiqhin ancaq köklərini, mənbələrini araşdırmaqla şəriət dəlillərini təhqiq edir, bu elmin köməkliyi ilə ehkamlar öyrənilir, sübutların mahiyyəti qiymətləndirilir, rəy üsulu ilə yaranan normalar, məzhəblər, ictihadda olan mübahisə və ixtilaflar tədqiq edilir.

Füru əl-fiqh – müsəlmanların ictimai və şəxsi həyatını tənzimləyən qanun və qaydaların əməli surətdə işlənib hazırlanması ilə məşğul olan fiqh sahəsi kimi başa düşülür.

Müsəlman hüququ və onun mənbələri ətrafında gedən mübahisələr, bu barədə fikir və rəylərin böyük əksəriyyəti keçmiş Sovetlər birliyində yazılmış və bu əsərlərdə müsəlman hüququnun əsl mahiyyəti lazımınca dərk edilməmişdir. Çox zaman isə şəriəti müsəlman hüququ kimi təqdim etməyə çalışmışlar.

Şəriətin digər elmlərinin fiqhlə qarışdırılıb bütünlüklə şəriətin müsəlman hüququ olmasını iddia etmək, şübhəsiz ki, düzgün olmazdı.

Fiqhin daha bir sıra hüquq institutlarında islam dini ehkamına dair müddəaların normalaşdırılması halı mövcuddur. Lakin hər bir halda həmin normalar islam dininin dayaqlarını möhkəmlətməyə xidmət edir.

Beləliklə, şəriətin digər elmlərində də hüquq normalarının mövcud olmasına baxmayaraq müsəlman hüququ fiqhdir, çünki yalnız fiqh islamın prinsip və qaynaqlarına, şəriət ehkamlarına əsaslanaraq hüquq normaları yaradır və bütün hüquq normaları da fiqhdə toplanmışdır.

Şəriət hüququnun sünni qolunun hüquq elminin başlanğıcı qədim hüquq məktəbləri olaraq qəbul edilən həmin təsisatlara dayanır. Peyğəmbərin (ə.s) vəfatından az sonra İraq, Suriya və Hicazın müxtəlif şəhərlərində tanınmış hüquq məktəbləri var idi. Görünür, bu qədim məktəblərdəki alimlər yeni məsələlərlə bağlı hüquqi qaydalar yaratmaqda müqayisəyə əsaslanan əqli mühakiməyə müraciət etmədə sərbəst idilər. Onlar, həmçinin, hüquqi məsələlərə yanaşmada Əməvi hökmdarları tərəfindən yaradılmış məhkəmələrin məhkəmə praktikası tərəfindən də təsirə məruz qalmış ola bilərlər.

Fərdi alimlər bu dövrdə tanınmış olsa da, müəyyən bir ərazidə alimlərin konsensusu və ya məktəbin sünnəsi, yəni adəti normativ hüquqi standart kimi qəbul edilmişdi. Bu cür yerli adətlər üçün islami hökmlər təsis etmə istiqamətində bəzi səylər göstərilmişdi ki, bunları Peyğəmbərin (ə.s) özü də daxil olmaqla, müsəlman ümmətinin ilk nəslindəki erkən dövr hakimlərinə aid etmək olar.

İkinci əsrin ilk onilliklərində islam hüququ ilə bağlı biliklər genişlənərək, biri Mədinədə, digəri isə Kufədə yerləşən iki hüquqi düşüncə məktəbi-

nin yüksəlməsinə səbəb oldu. Mədinə alimlərinə hədis tərəfdarı məktəbinin ilk müdafiəçiləri olan Rəbiət əl-Ray (ö. 753) və əl-Zuhri (ö. 742) daxil idi. Kufənin aparıcı alimlərinə isə əl-Nəxai, onun şagirdi Hammad İbn Əbu Süleyman (ö. 738) və ondan sonra gələn və əqli mühakiməni dəstəkləyən Əbu Hənifə Numan İbn əl-Sabit (ö. 757) daxil idi. Bu hüquqi cərəyanlar həmçinin müvafiq olaraq əhli hədis (hədis xəttinin tərəfdarları) və əhli rəy (mühakimə tərəfdarları) olaraq da tanınırdılar. Onlar həmçinin, coğrafi əhatə sahələrinə istinadən, müvafiq olaraq, Hicaz və İraq məktəbləri də adlandırılırdılar.

Dörd xəlifə dövründən sonra islam torpaqlarının genişlənməsi ilə birlikdə hüquqi problemlər də getdikcə artdı. Hicaz bölgəsi alimləri qarşılaşdıqları yeni bir problemin həlli üçün zərurət olmadığı halda qiyasa müraciət etməyi və əlaqədar bir hədis tapılmadıqda məsələnin həllini səhabənin fikirlərində axtarmağı mənimsədilər. Bunun müqabilində Kufə bölgəsi alimləri, bəzən hədislər və səhabənin fikirləri onlara çatmadığı üçün, bəzən də çatan məlumatların doğruluğuna etibar edə bilmədikləri üçün qiyasa və ictihada prioritet tanıdılar. Beləliklə, islam hüququnda iki fərqli anlayış ortaya çıxdı. Bəzən bu anlayışların təmsilçiləri arasında da fikir ayrılıqları oldu və böyük alimlərin fikirləri, ictihadları ətrafında müxtəlif hüquq məktəbləri və məzhəblər yarandı: Hənəfilik, Malikilik, Şafiilik, Hənbəlilik, İmamiyyə (Cəfərilər), Zeydiyyə, İbadiyyə və təqibçisi qalmasa da təmsilçilərinin əsərləri ilə təsirini davam etdirən Zahiriyyə. Bütün bu məzhəblər Qurana və Sünnəyə əsaslanır, ancaq ictihad mövzusu olan hissələrdə fərqliliklər mövcuddur.

Hüquqi düşüncənin bu iki erkən cərəyanı arasındakı fərqlilik xətti onların hədis anlayışlarında aşkar edilirdi. Hicaz məktəbinə görə, hədis Peyğəmbərin (ə.s) əsl mirası və sosial problemlərin həm legitimliyinin, həm də həllinin son mənbəyi idi. Bu yanaşma tərzi Peyğəmbərin (ə.s) nümunəsi dövründən başlayaraq güclü bir İslamı təcrübə mədəniyyəti təqdim etmiş olan Mədinəyə tamamilə uyğun idi. İraq isə, əksinə, islamla nisbətən yeni tanış olmuşdu. Bundan əlavə, İraq islamın Şərqə doğru yayılmasında, demək olar ki, bir qapı rolu oynayırdı və buna görə də oradan keçən və Peyğəmbərin (ə.s) həyatı ilə bağlı rəqib anlayışlara malik bir çox səyyahlara ev sahibliyi edirdi. Bu, çox sayda təkrarlanmış hədislərin meydana çıxmasına səbəb oldu və rəvayətlərin düzgünlüyü barədə şübhə yarandı. Belə şübhələri aradan qaldırmaq üçün əqli mühakimə tətbiq edilirdi. Beləliklə, iraqlı Əbu Hənifə öz hədis anlayışını özünün *zəbt* (dəqiq qoruma) konsepsiyasının tətbiqiylə əsaslandırdı. *Zəbt*, Əbu Hənifəyə görə, hədisin hüquqi məzmununun dəqiq anlaşılması və onun dəqiq nəqli deməkdir. Buna görə də rəvayət etdiyi şeyin dəqiq məzmununu anlaması üçün ravinin özünün fəqih olması lazımdı. Məhz burada əqli mühakimənin əhəmiyyəti mətnlərin hərfi nəqlini üstələyirdi.

Peyğəmbərin (ə.s) vəfatından sonra ikinci əsrdə öz təsirini hiss etdirməyə başlayan hədisçilər hərəkatı getdikcə formalaşmağa başladı. Bu hədisçilər qədim məktəblərin Sünnə hakimiyyətini və hüquqi məsələləri həll etmək üçün əqli mühakimə yoluyla əldə edilmiş rəyə istinad edən qədim məktəblərin alimlərinin təcrübəsini qəbul etmədilər. Əksinə, hədisçilər Peyğəmbərin (ə.s) sözləri və əməlləriylə bağlı məlumatların hüquqi bağlayıcılığı olan hüquqi hökmlər kimi görülməsini təklif etdilər.

Hədisçilər Peyğəmbərin (ə.s) qarşılaşdığı müxtəlif vəziyyətlər qarşısındakı sözlərini və reaksiyalarını qeyd etdiyi güman edilən və hədis adıyla tanınan ənənələri topladılar. Lakin, son nümunəsi 653-cü ildə yazılmış olan və əksər müsəlmanlar tərəfindən dəqiqliklə Allahın xitabını təmsil etdiyinə inanılan Qurandan fərqli olaraq, hədis ədəbiyyatının mötəbərliyi hədisçilərin tezisinə rəğbət göstərməyən müsəlman alimlər tərəfindən dərhal etirazla qarşılandı.

Hicrətin üçüncü əsrinin əvvəlinə qədər hüquq məktəbləri hüququn formulyasiyasında hədisin geniş miqyasda istifadəsində həvəssiz oldular. Bəzi alimlərin "periferik hədis"in artmasıyla bağlı açıq şəkildə xəbərdarlıq etdikləri və yalnız Qurana uyğun gələn hədisi qəbul etməyi tövsiyə etdikləri isə qətidir. Lakin, bir müddət sonra Peyğəmbərin (ə.s) hakimiyyətini möhkəmlətmə ehtiyacı o qədər böyüdü ki, hicri ikinci əsrin ikinci yarısında Əl-Şafii (ö. 204/819) "siqət" (etibarli) hədisin hətta bir tək şəxs tərəfindən rəvayət edilsə belə, kütləvi qəbulu üçün güclü və nəticə uğurlu olan bir çağırış etdi. Nəticədə, Əl-Şafiidən sonra hədisin miqdarı daha da artdı. Buna baxmayaraq, Əbu Hənifənin (ö. 767) davamçıları tək isnad zənciri olan hədisi "Şəriət prinsiplərindən əldə edilmiş mütləq və rasional dəlil" lehinə rədd etməyə davam etdi. Malikin (ö. 795) ardıcılları isə erkən dövr "Mədinə təcrübəsi"ni hədisdən üstün tutmağa davam etdilər.

Erkən dövr hədisçiləri opponentlərinin tənqidlərinə mötəbər hədisi mötəbər olmayan hədislərdən ayırmaq üçün meyar ortaya qoymaqla cavab verməyə çalışdılar. Bu səylər isə öz növbəsində mürəkkəb bir hədis tənqidi elminin yaranmasıyla nəticələndi. Hədisin mötəbərliyinə dair mübahisə indiyə qədər davam edir və bu da o deməkdir ki, islam hüququnun böyük bir hissəsi həmişə müsəlmanlar arasında mübahisə mənbəyi olub və olmaqdadır.

Hədis ədəbiyyatının mötəbərliyi Müasir Qərb alimlərinin müsəlman həmkarlarının çoxu ilə fikir ayrılığında olduqları başqa bir məqamdır. Qərb alimləri arasında üstünlük təşkil edən nəticəyə görə, hamısı olmasa da, əksər hədislər həqiqətdə ərəb adət hüququndan miras olaraq alınmış və ya digər hüquq mədəniyyətlərindən götürülmüş hüquqi mühakimə və ya məhkəmə praktikasının məhsulları olan hüquq qaydalarının islamlaşdırılması məqsədilə hicri birinci və ikinci əsr hədisçiləri tərəfindən ortaya atılmış dini saxtakarlıqlardır. Qərb tədqiqatçıları ümumiyyətlə ənənəvi hədis tənqidi elmini,

tarixən dəqiq olan rəvayətləri sonrakı uydurma rəvayətlərdən fərqləndirmək üçün yetərsiz olduğu qənaətindədirlər. Əksər müsəlmanlara, o cümlədən, hədislərin mötəbərliyini və hədis tədqiqatının müvafiqliyini araşdıran tədqiqatçılara görə isə, Qərbdən gələn bu cür tənqidlər həddindən artıq sərtdir. Hədis ədəbiyyatının daha sonrakı uydurmaların məhsulu olaraq və ənənəvi hədis tənqidi elminin qüsurlu görülərək bütövlüklə bir kənara qoyulmasına müsəlman elmi tədqiqatlarında nadir hallarda rast gəlinmişdir.

Rastlaşdığı ilkin müqavimətə baxmayaraq, hədisçilərin mövqeyi Peyğəmbərin (ə.s) vəfatından sonra, ikinci əsrdə qədim hüquq məktəblərinin təsiri hesabına davamlı olaraq uğur qazandı. Qədim məktəblər yox olmadılar, ancaq hüquqi düşüncədə yeni ənənələrə müxtəlif dərəcələrdə uyğunlaşdılar. Beləliklə, sonradan klassik şəriət məzhəblərinə çevrilən bu formasiyaların inkişafı üçün əsaslar hicrətdən sonra ikinci əsrdə (Miladi təqvimlə doqquzuncu əsrdə) qoyulmuş oldu.

Klassik Sünni məzhəblər

Dörd sünni fiqh məzhəbi ictihad üçün baş vurduqları yollarla bir-birindən ayrılır. Hər məzhəbə bir eponim təsisçisinin adı ilə istinad edilmişdir. Ancaq qeyd etmək lazımdır ki, bu məktəblərə adları verilən alimlərin fikirləri onların şagirdləri arasında həmişə üstünlük təşkil etməmişdir; sonrakı ardıcılları arasında isə daha da az üstünlüyə sahib olmuşdur.

Maliki məzhəbi: Klassik Sünni məzhəblərinin ən qədimi Maliki məzhəbidir. Maliki məzhəbi Mədinədə yaranmış və görkəmli fəqih və hədisçi Malik ibn Ənəsin (ö. 796) adıyla adlandırılmışdır.

Malik ibn Ənəs 796-cı ildə vəfatınadək Mədinədən olan ən məşhur fəqih idi. O, islam hüququnun ilk kitablarından biri olan "Muvatta" əsərini yazmışdır. Valideynləri Peyğəmbəri (ə.s) tanımış olan bir neçə hədis mütəxəssisi ilə birlikdə təhsil almış və bunun sayəsində özünün hədis biliyi ilə də məşhur olmuşdur.

Malikin təlimləri Mədinə əhlinin təcrübəsini müdafiə etməsi cəhətdən unikal idi. Mədinə ənənələri kimi, səhabə fətvalarının da Sünnəyə əsaslandığını iddia edən Malik səhabə fətvalarını və yaşayan Mədinə ənənələrini də əlavə edərək Sünnə anlayışını genişləndirmişdir. O, islam dünyasının hər yerindən tələbələri cəlb etmiş və onun "Muvatta" əsəri, Misir, Bağdad, Şimali Afrika və İspaniya başda olmaqla, bütün Orta əsr təhsil mərkəzlərində tədris edilmişdir.

762-763-cü ildə xəlifə Əl-Mənsurun hakimiyyəti dövründə Əlinin xəlifəlik haqqını müdafiə edən birini dəstəklədiyinə görə Malik cəzalandırıldı. Ancaq həyatının sonrakı dövründə Abbasi xəlifəsi Harun ər-Rəşid "Muvatta"nı vahid bir hüquq kodeksinin əsası etməyə çalışdı. Ancaq mənbələr razılaşır ki, bu siyasi çəkişmələr doğru deyildir və Malik onun mümkün hər bir

mövzu haqqındakı fikirlərini toplayan yaxın ardıcılları əhatəsində tədrisə həsr olunmuş sadə bir həyat yaşamışdır.

"Muvatta"nın bir neçə versiyası bizə gəlib çatmışdır. O, Peyğəmbərdən (ə.s) və onun səhabələrindən nəql olunmuş hədisləri, eləcə də Malik və Mədinədən olan digər tanınmış alimlərin fiqhi hökmlərini ehtiva edir. Əsər fəsillər şəklində tərtib olunmuşdur və dini ayin və sosial həyatın bütün aspektlərini əhatə edir. "Muvatta" hələ də bir çox İslam universitetlərində, xüsusilə də Maliki məzhəbinin hakim olduğu Şimali və Qərbi Afrikada əsas müfrədata daxildir.

Peyğəmbərin (ə.s) və ilk müsəlman ümmətinin missiyasına ən yaxından bağlı yer olaraq Mədinənin Sünnəsinə hörmət Maliki məzhəbinin fiqhi düşüncəsində müntəzəm şəkildə vurğulanmaqda davam etmişdir. İslam hüququnun formalaşdığı dövrdə Mədinə hüquq cərəyanı da əsasən, Malikin "Muvatta" əsəri tərəfindən ifadə edilmiş, daha sonra isə Sahnunun (ö. 854) Mədinə təcrübəsi anlayışını diqqət mərkəzinə alan irihəcmli "Əl-Mudavvana" əsərində əsaslandırılmışdır.

Əvvəllər Hicaz, İraq, Suriya, Afrika və Əndəlüsdə yayılaraq əksəriyyətin məzhəbi halına gələn Malikilik, vaxt keçdikcə digər məzhəblərin yayılması nəticəsində geriləmişdir. Bu gün Liviya, Tunis, Əlcəzair, Mərakeş və Sudanda əksəriyyət Maliki məzhəbinə mənsubdur.

Hənəfi məzhəbi: İraq hüquq cərəyanı sadəcə rasional olmaqdan çıxaraq, geniş şəkildə yayılmış Şafii təsirinə müvafiq surətdə, getdikcə mərkəzləşdirilmiş və nisbətən mühafizəkar Hənəfi fiqh məzhəbinə çevrildi. Hənəfi Məzhəbi bu dövrdə Cənubi İraqda Kufədəki fiqhi icma kontekstində inkişaf edirdi. Məzhəbin görkəmli fəqih Əbu Hənifənin (ö. 767) adıyla adlandırılmasına baxmayaraq, onun ardıcılları həqiqətdə daha çox onun şagirdlərindən ikisinin, Əbu Yusuf (ö. 798) və Əl-Şeybaninin (ö. 805) fikirlərinə daha çox hörmət göstərmişdir.

Əbu Hənifə (ö. 767): Əbu Hənifə əl-Numan b. Sabit islam fiqhinin Hənəfi məzhəbinin eponim qurucusu olmuşdur. Onun doğum tarixi müxtəlif rəqəmlərlə göstərilsə də, ancaq 699-cu il bir çox bioqrafik lüğətlərə əsaslandığı üçün ən inandırıcı sayılır. Əbu Hənifə 767-ci ildə vəfat etmişdir. 1066-cı ildə Əbu Hənifənin məzarı üstündə kiçik bir türbə tikilmiş və şəhərin dörddəbir hissəsi onun *əl-İmam əl-Azəm*, yəni "Böyük İmam" ləqəbinə istinadən əl-Azəmiyyə adlandırılmışdır.

İbn Əbi əl-Vəfa *Cavahir əl-mudiyyada* Əbu İshaq İbrahim b. Muhammməd əl-Sarifiniyə (ö. 1243) istinadən bir şəcərə təqdim edir ki, bu şəcərə Əbu Hənifənin ailəsini Sasani hökmdarları, Kayani şahları və Yaqub peyğəmbərin ən böyük oğlu Yəhuda ilə bağlayır. Bir çox mənbələr Əbu Hənifənin fars mənşəli olduğunu və ailəsinin ipək satıcıları olduğunu qeyd edir. Şəms əd-Din əl-Zəhəbi (ö. 1374) məlumat verir ki, deyilənə görə Əbu Hənifənin

babası Zurti (həmçinin Zuta kimi də adı keçir) Kabildən alınıb Kufəyə gətirilmiş bir qul olub ki, Kufədə ailə burada ərəb tayfası Taym-Allah b. Salaba bağlanmışdır. Digər mənbələr isə iddia edir ki, Əbu Hənifənin ailəsi Mesopotamiyadan və ya Ənbər şəhərindən (Bağdaddan qırx mil uzaqda Fərhat kənarında) idi.

Əksər müsəlman bioqrafik lüğətləri Əbu Hənifənin hədis rəvayətləri nəql edən biri kimi nisbi mötəbərliyinə diqqəti çəkir. Deyilənə görə, Əbu Hənifənin yaşadığı müddətdə bir sıra daha gənc ahaba (səhabələr) hələ yaşamaqdaydılar, lakin o, bunlardan yalnız birindən, tanınmış Ənəs b. Malikdən hədis nəql etmişdir. Tabiunlardan (səhabələrin ardıcılları) hədis nəql etdikləri arasında Ata b. Əbi Rabah (ö. 732 və ya 733), Əl-Şabi (ö. 724) və Nafi vardır. Bir çox mütəxəssis Əbu Hənifəni etibarlı bir ravi hesab edirlər, ancaq digərləri onun mənbələrinin mötəbərliyini sual altına qoyurlar. Əl-Zəhəbi özünün *Mizan əl-itidalında* belə fikirlər sitat gətirir ki, Əbu Hənifə bir hədis ravisi kimi zəif hesab edilməlidir və onun fiqhi hökmləri rəyə əsaslanır. Əbu İshaq əl-Şirazi (ö. 1083) Əbu Hənifəni hədis rəvayətlərinin əksəriyyətini onun sağlığında hələ etibarlı ravilər sayılan səhabələrdən deyil, daha çox İbrahim əl-Nəxaidən aldığına görə tənqid edir.

Bir fəqih kimi nüfuzu baxımından Əbu Hənifə Hənəfi fiqh məzhəbini yaratdığına görə hörmət qazanmışdır və bu roluna görə ona "imam" ləqəbi verilmişdir. Özünün "Tazkirat al-huffaz"ında Əl-Zəhəbi Yəzid b. Harunun Sufyan əl-Savri (ö. 778) hədisdə daha bilikli idi, lakin Əbu Hənifə hüquq elmində və fiqhdə daha bilikli idi dediyi bir söhbəti təkrarlayır. Hətta fiqhi hökmləri əksər hallarda Hənəfilərinkiylə rəqabət aparan Muhammməd b. İdris əl-Şafiinin (ö. 819) Əbu Hənifəyə fiqh elmində böyük töhfə verdiyi bildirilir. Bir çox mənbələr Hammad b. Əbi Süleymandan (ö. 738) Əbu Hənifənin fiqh elmində əsas müəllimi kimi bəhs edir və Joseph Schacht Əbu Hənifənin fiqhi hökmlərinin çoxunu ona uyğunlaşdırdığını irəli sürür. Yəzid b. Harun həmçinin Əbu Hənifədən daha dindar və rasional birini tanımadığını bildirir. Bişr b. əl-Vəlid Əbu Hənifənin bütün gecə ibadət etdiyini və heç vaxt özünün əməl etmədiyi heç bir hədisi öyrənmədiyini və nəql etmədiyini bildirir.

Əbu Hənifə, bir nəfərin nəql etdiyi səhih olmayan hədislərə söykənərək hökm verməkdən çəkinmişdir. Səhabənin söz və hərəkətlərini isə, ancaq Sünnəyə əsaslandığı ölçüdə qaynaq saymış, səhabənin fərdi ictihadlarını təməl hesab etməmişdir.

Əbu Hənifənin ölümündən sonra onun hüquqi fikirləri və nəql etdiyi hədis rəvayətləri mətnlər şəklində tərtib edilmişdir. Əbu Hənifənin özü tərəfindən tərtib edilmiş mövcud heç bir əsərlər külliyatı yoxdur. Onun hüquqi düşüncələri Əbu Yusufa (ö. 798), Əbu Hənifənin ən yaxın tələbəsinə aid edilən *İxtilaf Abi Hanifa* və *İbn Abi Leyla* və *al-Radd ala siyar al-Avzaidə* mövcuddur. Əbu Hənifənin digər şagirdinə, Muhammməd əl-Şeybaniyə (ö. 805) *al-*

Hucca fi ixtilaf ahl Kufa va ahl al-Madina və *Kitab al-asl fi al-furu* aid edilir ki, hər ikisi də daha sonra Əbu Hənifənin Hənəfi hüquq tədqiqatının əsası olan fiqhi hökmlərini ehtiva edir. Əbu Hənifə tərəfindən nəql olunmuş bəzi hədis rəvayətlərinə Əhməd b. Muhammməd əl-Tahavinin (ö. 933) *Şarh maani al-athar* və *Bayan muşkil alhadisində* və daha sonra Əbu əl-Muayyad Muhammməd b. Mahmud əl-Xarizmi (ö. 1257) tərəfindən tərtib edilmiş Cami masanid Abi Hanifada rast gəlmək olar.

Klassik Hənəfi hüquq elmi əsasən Əbu Hənifənin fiqhi hökmlərinin xülasələri və şərhləri kimi və onların əsas tələbələri olan Əbu Yusuf və Muhammməd əl-Şeybani tərəfindən şərh edilərək inkişaf etdirilmişdir. Əhməd b. Muhammməd əl-Quduri (ö. 1037) tərəfindən yazılmış "Muxtasar fi al-fiqh Abi Hanifa al-Numan*"* əsəri və həmçinin Muhammməd b. Əhməd əl-Sərəxşinin (ö. 1090)"Kitab al-mabsutu" bu üç nüfuzlu Hənəfi alimin fikirlər toplusunu ehtiva edir. Əbu Bəkr b. Məsud əl-Kasani (ö. 1191), Əli b. Əbi Bəkr əl-Marğinani (ö. 1197), Abdallah b. Əhməd əl-Nasafi (ö. 1310), Usman b. Əli əl-Zaylai (ö. 1342), İbn Nucaym (ö. 1562) və Abd əl-Hakim əl-Əfqani (ö. 1907) kimi sonrakı Hənəfi alimlərinin əsərləri əsasən Əbu Hənifə və onun yaxın şagirdlərinə gedib çıxan bu erkən dövr fikirlərinin kompilyasiyalarına əsaslanır. Əbu Hənifə və onun əsas tələbələrinin fikirlərinə əsaslanan bu əsərlər islam hüquq nəzəriyyəsinin və presedent hüququn inkişafında Əbu Hənifənin təsirini göstərməkdədir.

Əbu Hənifə həmçinin iman və etiqadla bağlı bir sıra əsərlərə görə də tanınmışdır. Bu əsərlərdən ikisi "al-Alim" va "al-mutaallim" və "Fiqh al-absatdır" ki, bunlar Əbu Hənifə ilə şagirdi Əbu Muti əl-Balxi (ö. 799) arasındakı bir sıra sualları və cavabları ehtiva edir. Bizə qədər gəlib çatmış olanı isə Əbu Hənifə tərəfindən Usman əl-Battiyə yazılmış bir məktubdur. Bu, digər əsərlərdə görülən perspektivi xatırladır. Həmçinin "*Fiqh əl-Əkbər"*, "*Fiqh əl-Əkbər II"* adlanan əsər və "*Vasiyyat Əbi Hanifa"* da Əbu Hənifəyə aid edilir. "Fiqh əl-Əkbərin" on etiqadi yazısı "Fiqh əl-Əbsatdakı" düşüncələrlə yaxından paralellik təşkil edir, lakin Arent Jan Wensinck kimi alimlər sonrakının "*Fiqh əl-Əkbər II"*-yə və "*Vasiyyat Əbi Hanifa*"ya aid olduğunu müəyyən etmişdir. Ancaq onlar daha əvvəlki əsərlərdən də təsirlənmiş ola bilərlər. "Tahavi və Əbu əl-Leys əl-Səmərqəndi" (ö. 993) kimi daha sonrakı dövrə aid Hənəfilərin etiqadi əsərləri də Əbu Hənifənin təsirini göstərə bilər. Əbu Hənifənin etiqadi açıqlamalara yaxın əlaqəsinə görə, sonrakı alimlər Əbu Hənifənin müsəlman inancının geniş yayılmış və rəsmi şəkildə qəbul edilmiş anlayışlarının inkişafına təsirini vurğulamışlar (İs. Enc).

Əbu Yusuf (ö. 798): Tam adı Yaqub ibn İbrahim əl-Ansari əl Kufi olan Əbu Yusuf islam fiqh alimi və Muhammməd ibn Həsən əl-Şeybani (ö. 805) ilə yanaşı, Hənəfi fiqh məzhəbinin qurucularından biridir. Əbu Yusuf hüquq nəzəriyyəsinin müstəqil şəkildə, coğrafi şərtlərin müəyyənləşdirmiş

olduğu məktəblərdə idealist dini alim qrupları tərəfindən məhkəmə praktikası əsasında tərtib edildiyi keçid dövründə yaşamışdır. Eyni zamanda, ayrı-ayrı alimlər dövlət tərəfindən, xüsusilə Abbasilərin hakimiyyəti altında qazi və ya hakim təyin olunurdu ki, bunlar da dini hüquqa rəsmi dəstək siyasətini gücləndirirdilər. Bu dövr həmçinin texniki hüquq fikrinin ədəbi ifadəsinin başlanğıcıyla üst-üstə düşür. Əbu Yusufun həyatı və təlimləri bütün bu yeniliklər kontekstində görülə bilər.

Əbu Hənifənin tələbəsi və şagirdi olaraq Əbu Yusuf dini hüquq və ənənələr cəhətdən əsasən Kufə ənənəsi ilə tanınır. Kufədə anadan olmuşdu, ancaq əslən isə mədinəliydi. Onun Mədinədə Malik ibn Ənəs və digərləri ilə birlikdə təhsil aldığı məlumdur, lakin rəvayətə görə Əbu Hənifə yoxsul gəncin mənəvi və intellektual mükəmməlliyini hiss etmiş və onu himayəsi altına almışdır. Əbu Yusuf Abbasi xəlifəsi Harun ər-Rəşid tərəfindən paytaxtın (Bağdad) *qazisi* və ya onun fəxri adının (*qadi al-qudat*) da göstərdiyi kimi, baş hakimi təyin olunana qədər təcrübəli bir hakim kimi Kufədə yaşamışdır. Bu adı alan ilk adam olaraq Əbu Yusuf bütün dövlətdə məhkəmələrin təyin edilməsi və vəzifədən azad edilməsi işlərində məsləhət verməklə yanaşı, həmçinin hüquqi və inzibati məsələlər və maliyyə siyasəti üzrə xəlifənin məsləhətçisi kimi də işləyirdi. Onun bizə gəlib çatan əsas əsəri olaraq vergi, dövlət maliyyəsi və cinayət hüququ haqqında yazmış olduğu "*Kitab al-xarac"* risaləsi xəlifənin xahişi ilə yazılmışdır və ona ünvanlanan uzun bir girişi ehtiva edir.

Əbu Yusufun təlimi, daha heterogen mühitdə yaşamış və Sünnəyə bağlı mədinəlilərin izlədiklərindən daha azad bir araşdırma metodundan ilham almış iraqlı alimlərin inkişaf etməkdə olan texniki hüquq düşüncəsi çərçivəsi daxilində görülə bilər. Lakin, Əbu Yusuf fiqhi hökmlərin əsası kimi *hədisə* Əbu Hənifədən daha çox etibar etməyə meyilliydi, yəqin ona görə ki, Peyğəmbərin (ə.s) mötəbər hədislərindən çoxu Əbu Yusufun dövrünədək meydana çıxmışdı. Bundan əlavə, Əbu Hənifə nəzəri fərziyyə və sistematik ardıcıllıq xətti boyunca davam etdiyi halda, təcrübəli bir *qazi* olaraq Əbu Yusufun təcrübəsi müəlliminin formalizmini aradan qaldırmasına imkan verdi. Tədrislə məşğul olan bir fəqih və Kufə məktəbini sistemləşdirən biri kimi Əl-Şeybanidən fərqli olaraq Əbu Yusuf məhkəmə dairələrində təsiri hiss edilən işgüzar bir adam idi. Əbu Hənifə özü hüquqa dair heç bir yazılı əsər miras qoymadığı üçün, bu iki şəxsin fəaliyyəti sayəsində qədim Kufə məktəbi Hənəfi fiqh məzhəbinə çevrilməkdə idi (Din Ens.).

Əl-Şeybani (ö. 805):

Əbu Hənifə tərəfindən qurulan Hənəfilik ağla və ictihada əhəmiyyət verməsiylə digər sünni məzhəblərdən ayrılır. Bu məzhəbdə hökmlərin yeddi təməl qaynağı vardır: Quran, Sünnə, səhabənin söz və davranışları, qiyas (Quranda və ya Sünnədə olan açıq bir hökmü bənzər bir hüquqi məsələyə tətbiq etmə), istihsan (görünüşdəki səbəblərə deyil, gizli olan əsl səbəblərə

baxılaraq edilən müqayisə), icma (din alimlərinin müəyyən bir mövzuda gəldikləri ortaq qənaət) və adət-ənənə (əksəriyyət tərəfindən qəbul edilən adət və ənənələr).

Hənəfi məzhəbi inkişaf etmiş olduğu İraq mühitindən bir çox təsir izləri daşıyırdı. Hənəfi fəqihlər hüquqi düşüncədə sistematik ardıcıllığa və hüquqi prinsiplərin zərifliyinə böyük əhəmiyyət verirdilər. Onlar hüquqi düşüncədən istifadə edərək qaydalar yaratdılar və formal yanaşmalarla hüquqi məsələləri səciyyəvi şəkildə həll etdilər.

İslam dünyasında geniş yayılmış məzhəb Hənəfilikdir. Bunun başlıca səbəbi, bu məzhəbin əvvəl Abbasilər, sonra Osmanlı Dövlətinin rəsmi məzhəbi olmasıdır. Günümüzdə Hənəfilik Türkiyədən əlavə, İraq, Hindistan, Pakistan və Orta Asiyada geniş yayılmışdır.

Şafii məzhəbi: Şafii məzhəbi Ənəs bin Malikin şagirdi olan Muhəmməd ibn İdris əl-Şafii (ö. 819) tərəfindən quruldu.

İmam Şafii Mədinə şəhəri ilə əlaqələndirilir. O, islam hüquq düşüncəsi tarixində mühüm yer tutur və klassik islam hüquq düşüncəsində Sünnə tərəfdarı olan mövqenin qəti zəfər çalmasına kömək etmişdir.

Şafiiyə görə, Peyğəmbərin (ə.s) hədisdə təcəssüm etdiyi şəkildə Sünnəsi normativ hüquqi standart kimi qədim məktəblərin ənənəsini tamamilə əvəz etmişdir. Şafii beləliklə Peyğəmbərin (ə.s) Sünnəsini Quran səviyyəsində bir hüquq mənbəyi statusuna ucaltdı. O, Peyğəmbərin (ə.s) Sünnəsinin Quranın mənasını izah etdiyi baxışını irəli sürdü ki, bu baxış da sonradan geniş şəkildə qəbul edildi.

İmam Şafii, uydurma olduğu dəqiqləşmiş hədislər qədər, bir nəfərin nəql etdiyi hədisləri də mənbə olaraq görürdü. Bunun müqabilində, Əbu Hənifənin mənbələrindən olan istihsanı, mötəbər prinsiplərdən yayınmağa və təsadüfi qərarlar verməyə yol açа biləcəyi səbəbiylə rədd etmişdi. Eyni şəkildə, Malikiliyin qaynaqlarından olan masalihi mursələ də hökm üçün əsas qəbul edilməmiş, ancaq səhabənin söz və hərəkətləri mənbə qəbul edilmişdi.

Quranı və hədis ədəbiyyatının daha geniş külliyyatını Şəriətin maddi mənbələri olaraq müəyyən edərək, Şafii hüquqi prinsiplərin formalaşdırılmasında rəyin və ya spekulyativ əqli mühakimənin istifadəsini rədd etdi və fəqihlərin, Quran və hədis mətnlərində aydın şəkildə görülməyən məsələləri əhatə etmək məqsədilə mənbələrdəki prinsipləri genişləndirmək üçün analoji əqli mühakimənin (qiyas) istifadəsiylə məhdudlaşdırılmalı olduğunda israr etdi. Onun fikrincə, fəqihlərin özlərini yalnız mətndəki prinsipləri bu cür diqqətli, tədrici genişlənmələrlə məhdudlaşdırmalarında israr etməklə, fəqihlərin şəriətin tələblərinin şərhlərinə münasib olmayan subyektiv elementlər əlavə etmədiklərindən və ya mənbələrdə bəyan olunmuş hökmləri təhrif etmədiklərindən əmin olmaq olar.

Şafii də icmaya hər hansı şəkildə ağırlıq verməkdən imtina etdi və bağlayıcı konsensusun yalnız müsəlman ümmətinin bütün üzvləri arasında ola biləcəyini mənimsədi. Nüfuzuna baxmayaraq, Şafii hətta öz məzhəbinin üzvləri arasında belə bu son məsələ üzərində razılıq əldə edə bilmədi, hansılar ki, əksər sünni müsəlmanlar kimi, icmanın və ya müəyyən bir nəslin bütün fəqihlərinin konsensusunun, qəti surətdə hüquqi müddəanın doğruluğunu təsdiqləyə biləcəyini və daha yersiz mübahisələri həll edə biləcəyini düşünürdülər.

810-814-cü illər arasında Bağdadda, 815-820-ci illər arasında isə Misirdə fiqh dərsləri verən Şafio, Bağdadda yazdığı kitablardakı bəzi fikir və fətvalarını Misirdə qələmə aldığı kitablarda dəyişdirmişdir. Ancaq Bağdaddakı tələbələrin bundan xəbərləri olmadığı üçün, İmamın köhnə fikirlərini yaymağı davam etmişlər. Buna görə də Şafiilikdə bəzi mövzularda iki görüş və ya fətva mövcuddur.

Şafiilik ən çox Misirdə, ayrıca Suriya, İraq, İran, Hindistan, Orta Asiya, Filippin, Şri-Lanka, İndoneziya və Türkiyədə mənimsənmişdir.

Günümüz islam hüququnda Şafi tərəfindən müəyyən edilmiş hüquqi biliyin dörd "legitim mənbəyi" sünni fiqh nəzəriyyəsi kontekstində yer almaq üçün hər hansı hüquq cərəyanı tərəfindən təmin edilməli olan minimum icbari meyarlardır.

Hənbəli məzhəbi: Klassik sünni məzhəblərinin sonuncusu olan Hənbəli məzhəbi müxtəlif təhsil mərkəzlərinə səyahət etmiş Bağdadlı bir hədisçi olan Əhməd b. Muhammməd İbn Hənbəl (ö. 855) ətrafında formalaşdı. Bu fiqh məzhəbinin fərqləndirici xüsusiyyəti ağılı müraciət ediləcək ən son meyar olaraq qəbul etməsidir. Əsas olan Quran hökmləri və Sünnədir. Səhih (peyğəmbər tərəfindən deyildiyi qəti olan) hədislərlə yanaşı, səhih olmayan hədislər də qəti bir istinad sayılır. Quran və Sünnədə həlli tapıla bilməyən problemlər üçün səhabənin sözlərinə, bunlar da kifayət etmədikdə tabiinin (səhabədən sonrakı nəslin) sözlərinə müraciət edilir. Tabiin arasında fikir birliyi olmayan məsələlərlə bağlı isə Əhməd ibn Hənbəl bütün fikirləri nəql etmişdir.

Hənbəli fiqh məzhəbi İbn Hənbəlin ölümündən uzun müddət sonra sistemləşdirilmiş və islam hüquq tarixində güclü bir mövqe əldə etmişdir. Hənbəli məzhəbinin sonrakı təmsilçiləri İbn Hənbəlin hədisçi oriyentasiyasına və onun Peyğəmbərin (ə.s) səhabələrinin konsensusuna (icmasına) qarşı rəğbətinə şərik oldular, lakin ayrılıqda Hənbəli alimlər hüquq elminə (fiqh) dair məsələlərlə bağlı müxtəlif fikirlər ortaya qoydular. Hənbəli məzhəbinin, xüsusilə də onun daha idiosinkratik (həssas) təmsilçilərinin təlimlərini xarakterizə etmək çətindir. Buna görə də Hənbəli təliminin ümumi xüsusiyyətlərini təsvir etdiyini iddia edən ümumiləşdirici anlayışlara qarşı ehtiyatlı olmaq zəruridir.

Dörd sünni məzhəb içində zaman baxımından ən sonuncusu olduğuna görə, Hənbəlilik çox yayılmamışdır. XIV əsrə qədər İraq və Suriyada tərəfdar tapan bu məzhəb XVIII əsrdə də İbn Teymiyyənin təsiriylə Orta Ərəbistanda yayıldı, XX əsrdə Səudiyyə Ərəbistanının rəsmi məzhəbi oldu.

Əhməd ibn Hənbəl (ö. 855): Əhməd Muhammməd İbn Hənbəl tanınmış hədisçi, ilahiyyatçı və fəqih idi. Bağdadda anadan olmuş və həyatının çox hissəsini orada öyrənməklə və tədrislə keçirmişdi. Bir gənc olaraq o, təhsiliylə bağlı İraqda Kufə və Bəsrəyə, Ərəbistanda isə Məkkə və Mədinə şəhərlərinə çox səyahət etmişdir. O, Məkkəyə beş dəfə həcc etmişdi. İbn Hənbəl cüzi bir mülk miras almış və vaxtının əksər hissəsini təhsilə sərf edə bilmişdi. O, hər hansı bir mədrəsənin üzvü deyildi, lakin onun bilik sahəsində nüfuzu artdıqca, hüquq və dinlə bağlı bütün məsələlər üzrə bir mütəxəssis kimi ona müraciət edilirdi.

Bir alim kimi, İbn Hənbəl hədisçilər və ya *əhl əl-hədis* adlanan bir qrupun ən qabaqcıl üzvlərindən biri idi. Hədisçilər inanırdılar ki, dini biliyin bir mənbəyi kimi Sünnə və ya Peyğəmbərin (ə.s) və müsəlmanların ilk icmasının təcrübəsi yalnız Qurandan sonra ikinci gəlir və Sünnə ənənələrinin və ya hədisin tədqiqi yoluyla müəyyən edilə bilər.

Peyğəmbərin (ə.s) vəfatından sonra erkən icma üzvləri Sünnə biliklərini şifahi şəkildə və epizod formasında nəql etdi. Lakin zaman keçdikcə və müsəlmanların ilk bir neçə nəsli vəfat etdikcə Sünnənin xatırlanması və yazılması mühüm bir elmi vəzifəyə çevrildi.

Hədis külliyyatları Sünnənin sənədlərini təmin edir. Hər bir hədis bir mətndən və ən yaxın olandan başlayaraq mətnin şifahi ravilərinin (*isnad*) zəncirindən ibarətdir. Ən erkən ravilər adətən Peyğəmbərin (ə.s) bir qohumu, ona yaxın biri, onun əshabı, onun əshabından birini və ya bir neçəsini tanıyan bir kimsədir. İbn Hənbəlin külliyyatı onun Müsnədi, Sünni hədis külliyyatlarının ən çox rəğbət görənlərindən biridir.

İbn Hənbəlin dövrünə qədər minlərlə hədis yayılmışdı ki, bəziləri açıq şəkildə, bəziləri isə qismən uydurmaydı. Hədisçilər səhih olanı uydurma olandan ayırdılar və sonra isə səhih hədisləri intizamlı şəkildə tərtib edərək təqdim etdilər. Bu, isnadlardakı insanların etibarlılığı və eləcə də hər mətnin predmeti barədə məlumat tələb edirdi. İbn Hənbəlin hədislərə dair biliyi dərindi və hədisçilər xüsusi olaraq ondan öyrənmək üçün islam dünyasının digər yerlərindən Bağdada səfər edirdilər. Onun Müsnədi iyirmi yeddi və ya iyirmi səkkiz min arası hədis ehtiva edir, standart sünni hədis külliyyatları, Kutubi Sittə isə bu rəqəmin yarıdan azını ehtiva edir. Bundan əlavə, bir qədər sonrakı külliyyatlardan fərqli olaraq, *Müsnəd* mövzuya görə deyil, ilk ravinin xüsusiyyətinə görə tərtib edilmişdir.

İbn Hənbəlin fəaliyyəti tədrislə və hədisə dair sualları cavablandırmaqla məhdudlaşmırdı. Kəlam sahəsində hədisçilərlə "Rasonalistlər" (əhli

rəy) arasında ixtilaf vardı və burada da İbn Hənbəl hədisçilər arasında irəlidə gedirdi. Onlar Rasional fərziyyədən çəkinirdilər və Quran mətninin ilahi təbiətinə imanın və onun hökmlərinə Peyğəmbərin (ə.s) praktikasına uyğun şəkildə itaətin əsl möminin məqsədi olduğunu müdafiə edirdilər. Rasionalistlər Allahın təbiəti (*zat*), Onun keyfiyyəti (*sifətlər*) və Onun yaradılmış olan dünyaya münasibəti haqqında spekulyativ fikirlər irəli sürürdülər. İbn Hənbəlin yaşadığı vaxtda bu cür spekulyativ kəlamla məşğul olan Rasionalistlər qrupu Mötəzilə idi. Hədisçilərlə Mötəzilə arasında xüsusi mübahisəli məsələ Quranın təbiəti məsələsi idi. Mötəzilə Allahın Quranı zaman içində yaratdığını (yəni Quranın *məxluq* olduğunu) müdafiə edirdi. Hədisçilər isə Quranın Allahın məxluq olmayan kəlamı olduğunu irəli sürürdülər. 833-cü ildə ölümündən qısa müddət əvvəl xəlifə Məmun görkəmli din xadimlərinin açıq-aşkar şəkildə yaradılmış Quran təlimini qəbul etmələrini tələb edən bir siyasət mənimsədi. İbn Hənbəl bunu rədd etdi və həbs edilərək işgəncələrə məruz qaldı. Növbəti iki xəlifənin də Məmunun siyasətini davam etdirməsinə baxmayaraq, İbn Hənbəl iki il sonra həbsdən azad edildi. Lakin o, 847-ci ilə qədər açıq tədrisə davam etmədi, o vaxta qədər ki, yeni xəlifə, nəhayət, Mötəzilə təlimini tərk edərək hədis tərəfdarı Sünniliyi bərpa etdi.

Hüquq elmində də, hədisçilər aralarında yenə ən mühümü İbn Hənbəl olmaqla, Rasionalistlərə (əhli rəy) qarşı mövqedəydilər. Hədisçilər bütün hüquqi problemlərin hədislərdə ifadə edildiyi şəkildə Sünnəyə istinadən həll edilməsini istəyirdilər. Rasionalistlər isə, digər tərəfdən, bir hədisdə həlli tapmaqdansa, qərarlarını bir problemin üzərində düşünməklə əsaslandırmağa üstünlük verirdilər. Rasionalistlər müəllim və həmkarlarının fikirlərini mötəbər sayırdılar. Hədisçilər isə bunu etməklə onların bəşəri əqli mühakiməni Quran və Sünnədə əksini tapmış ilahi hidayətdən üstün bir məqama yerləşdirdiklərini düşünürdülər. Rasionalist fəqihlərin praktiki nəticələrinin hədisçi fəqihlərinkindən çox da fərqli olmadığına baxmayaraq, iki qrup arasında metodoloji fərqlər şiddətlə müzakirə edilmişdir.

Vəfat edərkən İbn Hənbəl üçün kütləvi yas saxladılar. Onun dərin biliyi, təqvası və mənəvi mətanəti onu hörmətli və məşhur alim etdi. Onun Bağdaddaki məzarı on dördüncü əsrdə sel fəlakəti nəticəsində məhv olana qədər çox ziyarət edilmişdir. İbn Hənbəlin şagirdləri onun təlimini davam etdirdilər. Onlardan bir çoxu, o cümlədən oğulları Saleh (ö. 879/880) və Abdullah (ö. 903) həmkarları və tələbələri tərəfindən ondan soruşulmuş ibadət, hüquq və təlimlə bağlı suallara verdiyi cavablardan ibarət "Masail" külliyyatını tərtib etdilər.

İbn Hənbəlin cavabları həm özünəməxsus məzmunu cəhətdən, həm də hədisçi metodun izahı cəhətdən əhəmiyyətlidir. Sünni islamın Hənbəli fiqh məzhəbi bu cavabların Hənbəli alimlərinin sonrakı nəsilləri tərəfindən şərhi əsasında inkişaf etdirildi. Oğlu Abdullah da atasının "Müsnəd"ini toplamış,

redaktə və şərh etmişdir. "Müsnəd" İbn Hənbəlin ən məşhur əsəridir. Sonrakı alimlər tərəfindən onlardan sitat gətirilməsinə baxmayaraq, onun əsərlərinin əksəriyyəti bütöv halda bizə gəlib çatmamışdır (İslam Ens.).

Günümüz islam dünyasında sünnilər əksəriyyət təşkil etməkdədir. Hər sünni müsəlman dörd fiqh məzhəbindən birinin ictihadlarına tabe olmaq məcburiyyətindədir. Ancaq bəzi mövzularda, möminə asanlıq olsun deyə, iki və ya daha çox məzhəbin ictihadları birlikdə tətbiq oluna bilər. Qeyd etmək vacibdir ki, İslamda baş verən məzhəb mübahisələri tez-tez acı intellektual ziddiyyətlərin inkişafına gətirib çıxarsa da və bəzən siyasi miqyas alsa da, sünni məzhəbinin fiqh alimləri adətən, dördü də eyni dərəcədə doğru olaraq qəbul edilən dörd klassik məzhəbin davamçıları tərəfindən ortaya atılmış fərqli fikirlərə qarşı böyük dözümlülük və hətta hörmət nümayiş etdirmişlər.

Şiə məzhəbləri:

Erkən şiə məzhəblərinin hüquqi təlimlərinin inkişafı onların ümmətin rəhbərliyinə (imam) varis olmaq üçün imamların haqqı ilə bağlı ortaq təlimindən savayı, görünür, bir qədər sonra başlayıb.

On İki İmam firqəsi: Xəlifə Əlinin ictihadlarını əsas alan Şiə fiqh məzhəbləri arasında ən geniş yayılmış olanı İmamilikdir. İmamilik məzhəbini mənimsəyənlər Peyğəmbərdən sonra imamlığın (ümmətin siyasi, ictimai və mənəvi başçılığının) Əbu Bəkrə deyil, Əliyə verilməli olduğuna, Əlidən sonra bu vəzifəyə növbəylə kimlərin gələcəyini bildirən hədislər olduğuna inanırlar. Bu inanca görə, bir hədisdə yer alan «hamısı Qureyşdən olan 12 xəlifə» ifadəsi Əlinin nəslindən gələn 12 imama işarə edir. Buna görə, Əlidən əvvəl xəlifə olan Əbu Bəkr, Ömər və Osmanın imamlığı kimi, daha sonrakı Əməvi, Abbasi və Osmanlı xəlifələrinin imamlığı da batildir. Peyğəmbərdən sonrakı həqiqi imamlar olaraq Əli, Həsən, Hüseyn, Zeynalabidin, Məhəmməd Baqir, Cafər Əs-Sadiq, Musa Kazım, Əli Rza, Məhəmməd Təqi, Əli Nağı, Həsən Əsgəri və Məhəmməd Mehdini qəbul edirlər. 12-ci və son imam olan Mehdi ölməyib və qiyamət yaxınlaşanda göydən enərək yer üzündə mütləq ədaləti bərpa edəcəkdir.

İmamilik inancına görə, Peyğəmbər (ə.s) və 12 imam Allah tərəfindən günah işləməkdən qorunmuşdur. Bu səbəbə görə imamların Söz və ya davranışları şəriətə zidd ola bilməz, onların sözləri də Şəriət sayılır.

İmamilikdə inanc, ibadət və fiqhin dörd təməl qaynağı Quran, Sünnə, icma və ağıldır. Quran və Sünnənin qaynaq alınması baxımından Sünnilik ilə İmamilik bir-birindən fərqlənmir. Ancaq sünnilər səhabənin nəql etdiyi hədisləri səhih qəbul etdikləri halda, imamilər isə yalnız imamların nəql etdiyi hədisləri səhih qəbul edirlər. Müvafiq bir ehkam tapılmayan və icmayla həll edilə bilməyən məsələlərdə sünnilər qiyas, imamilər isə ağıl yolunu seçirlər.

İran On İki İmam Şiəsinin hüquq düşüncəsində dərin və əhəmiyyətli bir ixtilaf Əxbəri və Usuli alt qollarının yaranmasına səbəb olmuşdur.

Zahiri məzhəbi: İslamın ilk əsrlərində təsis edilən digər fiqh məzhəbləri müasir dövrədək mövcudluğunu qoruya bilməmişdir. Yəqin ki, bunlardan ən nüfuzlusu Davud ibn Xələf (ö. 884) tərəfindən yaradılmış olan Zahiri məzhəbi idi.

Zahiri məzhəbi adını ərəbcə "zahir" kəliməsindən alır, bu da "aşkar olan" mənasına gəlir və bu məzhəbin *şəriətin Quran* və S*ünnə* kəlamlarına hərfi riayəti tələb etdiyi mövzusundakı israrına istinad edir. Zahiri məzhəbinə görə bu iki mənbədə ifadə edilən hökmlərin mənalarının insan tərəfindən şərhləri bağlayıcı deyildir.

Zahiri hüquq cərəyanı bu yolla *qiyası* rədd etdiyi üçün, legitimliyi inkar edilmiş və nəticə etibarilə islam hüququnun Sünni arenasından kənarlaşdırılmışdır. Bir vaxtlar bəzi görkəmli fəqihlər tərəfindən təmsil edilən bu "Literalist" məzhəbin indi demək olar ki, təqibçiləri yoxdur.

Davud ibn Xələf (ö. 884)

Fiqh məzhəbi seçməkdə müsəlman fərdlərin azadlığı: Bir başçı öz ərazisində tətbiq olunacaq fiqh məzhəbini seçməkdə sərbəst olsa da, bu seçim yalnız formal hüquq sistemini bağlayır. Bağlılığı dəyişməyə məcbur edən qeyri-adi xarici təzyiqlər olmadıqda, hər bir müsəlman seçdiyi məzhəbi izləməkdə sərbəst olaraq qalır. Adətən, müsəlmanlar özlərini atalarının izlədikləri məzhəbin davamçıları sayırlar və hətta Sünni məzhəbi içində belə, hansında ki, bütün dörd məzhəb bərabər şəkildə doğru hesab olunur, bir müsəlmanın məzhəb mənsubiyyətini dəyişdirməsi qeyri-adi haldır.

Hədisçi axın tərəfindən cəsarətləndirilən islam hüququnun inkişafında islamlaşma təkanı Abbasilər sülaləsinin rəsmi siya-sətiylə də dəstəkləndi, hansı ki, 750-ci ildə Əməviləri devirmələrini islami legitimliyə və təqvaya daha çox sahib olduqlarını irəli sürərək haqlı çıxartdılar.

Abbasilər onların hakimiyyəti altında olan bütün şəxslərin, o cümlədən hökmdarların şəriətin əmrlərinə və qadağalarına əməl etməli olduğuna dair iradəsini açıq şəkildə ortaya qoydu. Onlar şəriəti bu sahədə təcrübəli qazilər və hakimlər tərəfindən məhkəmələrdə tətbiq olunacaq rəsmi hüquq statusuna qaldırdılar. Ancaq, bir çox onillik keçmədən açıq şəkildə məlum oldu ki, Abbasilər üçün şəriət məsələsinin dəstəklənməsi tamamilə sülalənin siyasi məqsədlərinə nail olmaq üçün idi. Nəticədə, islam hüququnun müsəlman ümmətinin idarə edilməsində oynamalı olduğu rola dair idealist baxışlarını siyasi mənfəətin göstərişlərinə uyğunlaşdırmaq istəməyən əksər fəqihlər hökumət və məhkəmə idarələriylə bütün əlaqələrini kəsdilər. Böyük fəqihlər üçün məhkəmələrdəki vəzifələrindən ayrılmaq və akademik həyata və müzakirələrə qoşulmaq adi hala çevrildi. Bu siyasi müdaxilədən imtinayla, Sünni hüququnun müsəlman ümmətinin necə idarə edilməsinə dair əsas

ünsürlər Raşidun xəlifələr dövründən götürülmüş modellərin hazırlanması mərhələsində müəyyən edilmiş kimi görünürdü, baxmayaraq ki, bu modellərin praktik uyğunluğu dəyişən tarixi reallıqlara görə əvəz edilmişdir.

İslam fiqhinin klassik məzhəbləri inkişaf etdikcə onunla bərabər üsul əl-fiqhin, hüquq elminin kökləri və ya mənbələri prinsiplərinin ifadəsi də formalaşdı. Üsul əksər hallarda Şəriətin mənbələri adlandırılsa da, bu mənbələrdən yalnız Quran və Sünnə maddi mənbələrdir. Üsul əl-fiqhin tədqiqi islam perspektiviylə müstəqil hüquqi prinsiplərin çıxarılmasını təmin edəcək bir dəlil elminin təsisiylə məşğul olur ki, bu yolla fəqihə hansı fiqhi qaydanın Şəriət prinsiplərinin doğru ifadəsi olduğunu seçməyə imkan verir. Bu elm tərəfindən İslami cəhətdən mötəbər olduğu göstərilmiş qaydalar furu əl-fiqh, hüquq elminin sahələri olaraq bilinir.

Əsas mənbələrdən əqli mühakimə yoluyla əldə edilən dini biliklərin hamısına fiqh adının verilməsi və bu mənada fiqhin termin halına gəlməsinin tarixini Əbu Hənifə dövrünə qədər aparıb çıxaran tarixi qeydlər vardır. Fiqhin bu geniş mənası ən azı XI əsrə qədər davam etmiş, bu dövrdə iman və etiqad mövzusuyla əlaqədar biliklər "əl-Fiqh əl-əkbər, ilm əl-tavhid, ilm əl-usul əl-din" kimi adlarla tanınan ayrı bir elm sahəsinin, müsəlmanın yaxşı və pis xasiyyətləri, şəxsi həyatı, ictimai əlaqələri və davranışlarıyla əlaqədar mövzular isə əxlaq və təsəvvüf elm sahələrinin mövzusu halına gəldikdən sonra, fiqh termini dinin furu sahəsinə (elmihal və islam hüququ bilikləri) aid edilmişdir. İmam Şafiinin "Fiqh dinin əməli hökmlərini müəyyən dəlil və mənbələrindən çıxararaq əldə edilən bilikdir" şəklindəki təsviri getdikcə məşhur olmuşdur.

Fiqh dinin furusu, əməli həyata dair bilikləri və hökmləri ehtiva edən elm sahəsinin adı olduqdan sonra da əhatəsi geniş qalmış, dövrümüzə qədər elmihal, hüquq və hüquq metodologiyası, iqtisadiyyat, siyasət, idarəçilik elmləri və bu elmlərlə əlaqədar qurumlar islam elmləri təsnifatında fiqh qolu içində görülmüş və araşdırılmışdır. Fiqh üsulu (üsul əl-fiqh) adıyla bilinən və dünyada ilk dəfə müsəlmanlar tərəfindən qurulub inkişaf etdirilən elm qolu, fiqhin üsul-furu şəklində ikiyə ayrılaraq içərisində fiqhin bir alt elm sahəsini təşkil etməklə birlikdə, başlanğıcdan bu günədək (günümüzə qədər gələn ilk nümunəsi İmam Şafinin əl-Risaləsidir) ayrı bir elm qolu şəklində inkişaf etdiyi və bu sahədə ayrı bir ədəbiyyat meydana gəldiyi üçün yuxarıdakı ikili ayrım yerinə fiqh və üsul əl-fiqh ayrımı edilmiş, bunun nəticəsi olaraq da həmişə fiqh termini ilə furu əl-fiqh nəzərdə tutulmuşdur. Bununla yanaşı, fiqhin bütünlüklə ehtiva etdiyi mövzulardan bəziləri ya tədris səbəbiylə, yaxud da praktik ehtiyaclar səbəbiylə ümumi fiqh kitabları içində də olmaqla birlikdə ayrı adlar altında yazılan müstəqil kitabların mövzusunu təşkil etmişdir. İdarəetmə, konstitusiya, vergi və qismən də cəzanı ehtiva edən "əl-ahkam əl-sultaniyyə, siyasət əl-şəriyyə", dövlətlər hüququnu əhatə

edən “siyər”, daha çox vergi hüququyla əlaqədar olan “xərac” və “əmval”, miras hüququnu ehtiva edən “faraiz”, rəsmi və hüquqi yazışmaları və s. sənədləri əhatə edən “şurut”, mühakimə üsul hüququndan bəhs edən “ədəb əl-qazi”, bir növ müqayisəli hüquq demək olan “xilaf”, hüquq fəlsəfəsini əhatə edən “hikmət əl-taşri” xüsusi kitabların mövzusu olan bu qolların əsas nümunələridir. XIX əsrdən etibarən Qərbin təsiri nəticəsində qanunlaşdırılma hərəkatının başlamasıyla birlikdə çıxarılan qanunlara paralel olaraq fiqh elminin alt qolları və mövzuları yeni adlarla adlandırılmış və fiqhin yeni alt qolları meydana gəlmişdir. “Əhval əl-şəxsiyyə” (şəxs və ailə hüququ), “Munakəhət-mufarəkət” (ailə hüququ), “Uqud va iltizəmət” (borclar hüququ), “Cinayət” (cinayət hüququ), “Dustur” və ya “Nizam əl-hukm” (konstitusiya hüququ) bu dəyişikliyin nümunələridir. Fiqhin mütləq mənada hüquq biliyi, fəqihin isə hüquqşünas adlandırılaraq klassik fiqh termininin “İslam hüququ”, “Müsəlman hüququ” və ya “Şəriət hüququ” adlarıyla adlandırılması Qərb hüquq anlayışının təsiriylə yaranmış bu dəyişmənin nəticələridir.

Müasir hüququn ələ aldığı bütün mövzularla yanaşı, ibadət və əxlaqla bağlı mövzuları da əhatə edən fiqh, mövzuları baxımından: təmizlik, namaz, oruc, həcc, zəkat və qurban kimi ibadətlə bağlı mövzuları araşdıran *ibadat*; alış-veriş, şəriklik, borclar, mülkiyyət və miras kimi mövzuları ələ alan *muamalat*; evlənmə, boşanma kimi şəxs və ailə hüquqları ilə əlaqədar problemləri araşdıran *əhval əl-şəxsiyyə*; dövlət hüququnu, xüsusilə konstitusiya və inzibati hüququ əhatə edən, dövlət-fərd münasibətlərini, qarşılıqlı hüquq və vəzifələri tənzimləyən *siyasət əl-şəriyyə*; cinayət hüququnun qarşılığı olan və cəza tələb edən cinayətləri, bunlara tətbiq olunacaq cəzaları təyin edən, cəmiyyət nizamıyla bağlı hökmlər verən *uqubat*; dövlətlər hüququ olaraq islam dövlətinin digər dövlətlərlə əlaqələrini tənzimləyən *siyər*; əxlaq və ədəb qaydaları üzərində duran *adab* kimi yeddi əsas bölməyə ayrılır.

İslam fiqhinin yekun çərçivəsi ikisi material, ikisi də formal olmaqla, hüququn dörd mənbəyini tanıyır. İlk qaynaq Quran mətnidir, hansı ki, mütləq *qəti dəlili* təşkil edir. İkincisi isə *hədis* mətnləridir. Ancaq bunlar məzhəbdən məzhəbə xüsusilə Sünni və On İki İmam Şiə məzhəbləri arasında fərqlilik göstərə bilər. “Açıq-aydın mətn”in (nass) mövcud olmadığı yeni hallarda fəqih özü doğru cavab tapmaq üçün səy (ictihad) göstərməlidir. İctihad aləti analoji əqli mühakimədir (qiyas) ki, bu da (1) Quran və *hədisdə* yeni hala müvafiq mətn tapmaqdan, (2) iki hal arasında zəruri oxşarlıq və ya hüquqi əsası (ratio legis, illət əl-hukm adlanır) seçməkdən, (3) (furuq) fərqləri nəzərə almaq və onlarda güzəştə gedilə biləcəyini müəyyən etməkdən və (4) yeni halı əhatə etmək üçün hüquqi əsasın (ratio legis*)* genişləndirilməsi və ya şərhindən ibarətdir. Nəzəriyyədə yığcam ifadə edilməsinə baxmayaraq, ilk növbədə "müvafiq mətnlər" ilə bağlı fikir ayrılıqları səbəbiylə

(xüsusilə də hədis məsələsində) bu metodologiyanı praktikada tətbiq etmək çox çətin olmuşdur.

Dördüncü mənbə və ya prinsip icma və ya konsensus adlanır. Cəmiyyətin qeyri-rəsmi razılığı mənasında konsensus konsepsiyasının müəyyənləşdirilməsi məsələsində konsensus yoxdur: o, müəyyən bir dövrün "uləmalar"ının konsensusuyla, bütün ümmətin "uləmalar"ının konsensusuna ayrılır. Ayrıca müəyyən bir konsensusun bir sonrakıyla ləğv edilib-edilə bilməyəcəyiylə bağlı da fikir ayrılığı mövcuddur. Hədis tərəfdarlarının bu məsələyə cavabı, həmişə olmasa da, adətən mənfidir, müasir islahat tərəfdarlarının cavabı isə müsbətdir.

Hudud adlanan xüsusi cəzalar kateqoriyası fəqihlər tərəfindən təsis edilmiş və müəyyən cinayətlərə görə (qətl, oğurluq, zina və haqsız zina ittihamı, daha sonra bunlara sərxoşluq da əlavə edilmişdir) Quranda müəyyən edilmiş cəzalar daxildir. Nəzəriyyə belədir ki, Allah özü bu cəzaları müəyyən etdiyi üçün, onlar dəyişdirilə bilməz. Amma cəzaların ağırlığını nəzərə alaraq fəqihlər bu cinayətləri çox dar çərçivədə müəyyən etmiş və zəruri dəlil üçün elə ciddi şərtlər qoymuşlar ki, bu cəzaların tətbiqi demək olar ki, əlçatmaz olmuşdur. "Hər hansı bir şübhə varsa hədd cəzasını qaldır" hüquqi prinsipi irəli sürülmüş və klassik islam hüququnda *şübhə* termini məlum hər hansı digər hüquq sistemləri ilə müqayisədə, daha geniş bir yer tutmuşdur. Bundan əlavə, müsəlman fəqihlər *şəriət* hüququnda və onun tətbiqində asanlıq yaratmaq üçün iki prinsip bəyan etmişlər: zərurət və ictimai maraq. Siyasi hakimiyyət bu iki prinsip sayəsində yeni tədbirlər həyata keçirmiş və hətta *şəriət* qanunuyla bağlı prosedurları dayandıra bilmişlər. Orta əsrlərin sonlarında Osmanlı hökmdarları və digərləri şəriətin bu xüsusi prinsiplərinə əsaslanaraq sistematik şəkildə yeni qanunlar elan etmişlər.

Yuxarıda qeyd edildiyi kimi, fiqhin birinci mənbəyi Qurandır. Geniş yayılmış qənaətə görə, bu mənbə Allahın əbədi və yaradılmamış kəlamı, Onun zatından gələn bir şey olaraq görülməlidir. Baxmayaraq ki, Quran vəhyi şəriətin inkişafının başlanğıc nöqtəsini təşkil edir, şəriət qaydalarının nisbətən kiçik hissəsini Quran mətnində birbaşa görmək olar. İbadət və onların nəticəsi olan mərasim qaydalarını təsbit etməklə yanaşı, Quran vəsiyyətsiz vərəsəlik, əksər ailədaxili münasibətlər və qadınların statusu, bir sıra cinayətlərlə bağlı hökmlər, eləcə də bəzi dəlil və sövdələşmələrlə bağlı qaydalar haqqında geniş müddəalar ehtiva edir. Müsəlman fəqihlər Quranın bu cür ayətlərinin şərh edilməsi üçün dəqiq bir metodologiya inkişaf etdirmişlər və əslində bu metodologiya anlaşılmadan Quranın hüquqi əhəmiyyəti düzgün başa düşülə bilməz. Belə ki, müsəlman fəqihlərin özləri də Quranın bir çox xüsusi ayələrinin hüquqi əhəmiyyəti mövzusunda ayrılmışlar.

Qurandan çıxarılmış hüquqi prinsiplərdəki bəzi fərqlər islamdakı məzhəb bölünmələriylə əlaqədardır. Buna ən parlaq misal olaraq Sünnilərlə

Şiənin On İki İmam firqəsi arasında vəsiyyətsiz vərəsəlik hüquqlarını göstərmək olar. Hər hansı digər hüquqi mövzudan daha artıq bu mövzu ilə bağlı daha geniş olan eyni Quran ayələrindən bu iki qrup əhəmiyyətli dərəcədə təzad təşkil edən hüquqi qaydalar çıxarmışlar.

Sünni baxışa görə, Quran yalnız məhdud dəyişikliklərlə islamdan əvvəlki ərəblərdəki kişi xətti ilə varislik sxemini qoruyub saxlamağı nəzərdə tuturdu. Burada kişi xətti ilə varis olan kişilərin mirasın böyük bir hissəsini alması tələb edilirdi. On İki İmam Şiəsi fəqihlərinə görə isə, əksinə, qadınlar, uşaqlar və mərhumun valideynləri üçün miras paylarını təyin etmədə Quran islamdan əvvəlki Ərəbistanın adət hüququndan sözsüz imtina etmiş və vərəsəliyin tamamilə fərqli bir sxemini elan etmişdir. Nəticə etibarı ilə, Sünni fiqhi kişi qan qohumluğuna üstünlük verdiyi halda, On İki İmam fiqhi isə qadınlar da daxil olmaqla mərhumum uşaqları və valideynləri tərəfindən varisliyə üstünlük verir.

Fiqh üsulunun tədqiqi müsəlman fəqihlərin əsrlər boyu başlıca məşğuliyyətlərindən biri olmuşdur və iyirmi birinci əsrin başlanğıcında da belə olmağa davam etməkdədir. Şəriətin sonrakı inkişaf tarixinin də göstərdiyi kimi, Şafinin doqquzuncu əsrədək əsas etibarilə başa çatmış klassik Sünni usul əl-fiqh nəzəriyyəsinin formalaşmasına təsiri çox böyük olmuşdur. Belə ki, Şafi sonrakı fəqihləri Peyğəmbərin (ə.s) Sünnəsinin islam hüquq elminin ikinci kökü və Qurana bərabər bir mənbə hesab edilməli olduğuna inandırmağa nail olmuşdur. Ümumiyyətlə, müsəlmanlar Peyğəmbəri (ə.s) kamil bir insan və buna görə də təqlid edilməyə layiq biri kimi görməklə yanaşı, eyni zamanda onun ilahi vəhyə məzhər olduğu üçün din və şəriət hüququ məsələlərində heç bir səhv edə bilməyəcəyi qənaətindədirlər. Ancaq buna baxmayaraq, Peyğəmbərin (ə.s) Sünnəsinin anlaşılmasının əsaslandığı hədis ədəbiyyatının mötəbərliyinə çağırışlar əsassız və ya şübhəli rəvayətləri ayırmaq üçün hədis tənqidi elminin doğulmasına səbəb oldu. Bundan əlavə, müxtəlif hədislər və hədis və Quran ayələri arasında zahiri ziddiyyətlər və uyğunsuzluqları həll etmək üçün metodologiyalar işlənib hazırlandı. Quran mövzusunda olduğu kimi, hədis ədəbiyyatını da ənənəvi islam elmlərinin hədisin və müvafiq hüquq elminin hüquqi nəticələrini necə şərh etdiyini dərk etmədən oxumaq səhv nəticələrə gətirib çıxara bilər.

Əksər Sünni müsəlmanlar Hicrətdən sonra üçüncü əsrin sonlarına qədər gedib çıxan Əl-Buxari və Müslim kimi müəlliflərin müəyyən klassik külliyatlarında toplanmış hədislərin mötəbər qəbul edilməli olduğunu deyirdilər. Digər məzhəblərin davamçıları isə özlərinin hədis külliyyatlarına etibar edirdilər. Bu külliyyatlar isə digər külliyyatlarda olanlarla ziddiyyət təşkil edən və onların məzhəblərinə müvafiq hüquqi mövqelərini dəstəkləyən hədis rəvayətləri ehtiva edirdilər.

İslam tarixi boyunca müxtəlif formalarda dəfələrlə yaranmış olan hədislərin mötəbərliyilə bağlı problemlərin Şəriətlə bağlı mühüm nəticələri vardır. Hədis ədəbiyyatı çox geniş olduğu üçün (klassik külliyyatlar dörd mindən çox rəvayət ehtiva edir) və Qurandaki hüquqla bağlı ayələrdən daha geniş mövzuları əhatə etdiyi üçün o, şəriət hüququnun əsas hissəsi üçün islam məntiqi əsası təmin etmişdir və əgər hədis ədəbiyyatına qarşı inamsızlıq yaranmış olsaydı o, öz islami legitimliyindən məhrum olardı.

Qiyas, analoji əqli mühakimə mənbələrdə açıq şəkildə müraciət edilməmiş problemləri əhatə etmək məqsədiylə, Quran və Sünnədəki qaydaların genişləndirilməsi üsuludur. Əksər sünnilər qiyası fiqhin üçüncü kökü kimi qəbul edirlər. Qiyas, Quran və ya Sünnədə qeyd edilmiş bir məsələdən çıxarılmış hüquqi bir hökmün Quran və ya Sünnə mətnində göstərilməmiş, lakin analoji genişləməylə əhatə edilməyə imkan verəcək dərəcədə əlaqədar olan daha aşağı mahiyətdə bir məsələyə tətbiqini nəzərdə tutur.

Əksər fəqihlərin analoji mühakiməylə Quran və Sünnə prinsiplərinin sahəsinin genişləndirilməsinin həmin prinsiplərin təhrif edilmə riskini minimuma endirdiyini irəli sürməklə, qiyasın nəzəriyyədə istifadəsində israr etmələrinə baxmayaraq, bir neçə Sünni fəqih qiyasın subyektiv ünsür ehtiva etdiyini əsas gətirərək onun məhdudiyyətlərini tənqid etməyə davam etmişlər. Qiyas vasitəsilə qaydaların genişləndirilməsi son nəticədə insan mühakiməsini nəzərdə tutur, çünki əvvəlcə nassda ifadə edilmiş bu əsas qaydanın əsasını təşkil edən səbəbin müəyyən edilməsi lazımdır. Təcrübədə fəqihlər bu əsas səbəblərin müəyyən olunmasında həmfikir olmaqdan çox uzaq olmuş və nəticədə Quran və Sünnə qaydalarını müxtəlif şəkildə genişləndirmişlər.

Analoji mühakiməyə inam o deməkdi ki, Sünni fəqihlər mənbələrdən ümumi qaydalar çıxarmağa çalışmaqdan daha çox, xüsusi qaydaların tətbiqinin bir sıra konkret nümunələrini təhlil edirdilər. Yeni məsələlər ortaya çıxdıqca və analogiyadan istifadə vasitəsiylə yaradılmış islami qaydalar hazırlandıqca, bu qaydalar əsaslarını təşkil edən hüquqi prinsiplərin sintezi və sistemləşdirilməsi cəhdləri olmadan əvvəlki toplulara əlavə edildilər.

On İki İmam Şiəsi fəqihləri isə qiyasın Sünni modelini qəbul etmədilər. Onların bir çoxu Quran və Sünnənin mənasını izah etmək üçün analogiyadan istifadəylə məhdudlaşmayan hüquqi əqli mühakimə formalarından istifadə etdilər. Şəriət qaydalarının insan əqli mühakiməsiylə genişləndirilə biləcəyinə inanan və Usuliyyə kimi tanınan On İki İmam Şiəsi fəqihləri, tarixən digər fəqihlər qrupunun Əxbəriyyənin müxalifətiylə qarşılaşmışdır. Əxbəriyyə qrupu insan əqli mühakiməsiylə yaradılmış qaydaların şəriət hüququnun bağlayıcı hökmləri ola bilməyəcəyində israr etmiş və yalnız Quran və Peyğəmbərin (ə.s) və şiə imamlarının Sünnəsinin etibarlı rəhbər ola biləcəyini iddia etmişlər.

Dördüncü prinsip olan icma isə şəriət tələblərinin şərhinin düzgünlüyünün retroaktiv təsdiqinə əsaslanır. Sünnilərin əksəriyyəti bir nəslin bütün fəqihlərinin konsensusu mənasında icmanı fiqhin dördüncü kökü olaraq qəbul edirlər. Sünni əksəriyyətin mövqeyinə görə, bir hüquqi prinsip bu cür yekdil rəy qazananda, o, artıq qəti şəkildə əsaslandırılmış olur və sonrakı nəsillər tərəfindən də ona etiraz edilə bilməz (Şafinin icmaya dair fərqli baxışını daha əvvəl qeyd etmişdik).

Görkəmli Hənbəli alimlər isə əksəriyyət tərəfindən müəyyən edilmiş şəkliylə icmanın bağlayıcı gücünü rədd edənlər arasında olmuş və yalnız Peyğəmbərin (ə.s) səhabələrinin konsensusunun sonrakı müsəlmanları bağlaya biləcəyini iddia etmişlər.

İcmaya dair Sünni baxışın tənqidçiləri arasında yer alan On İki İmam Şiəsi də tarixən icmanın əhəmiyyəti və onun necə təşkil olunduğuyla bağlı müxtəlif mövqelərdən çıxış etmişdir.

Usul əl-fiqhin əsas qaydaları ilə yanaşı, şəriət hüququnun tələblərini şərh etmək üçün istifadə olunan törəmə qayda tapma prinsipləri də vardır. Əsas mənbələr şəriət hüququyla bağlı məsələlərin həllində birmənalı cavab təklif etmədikdə və ya işlə bağlı faktlar başqa bir tənzimləyici prinsipin tətbiqinin qeyri-qənaətbəxş nəticə doğuracağı hallarda, bu cür məsələlərin həllində bu prinsiplər fəqihə rəhbərlik edir. Təxmin edildiyi kimi, bu köməkçi prinsiplər məzhəb və firqə mənsubiyyətinə görə çox fərqlənir və hətta bir məzhəb daxilində belə fəqihlər bu prinsiplərin tətbiqiylə bağlı müxtəlif fikirlər ortaya qoya bilirlər.

Bu törəmə prinsipə bir nümunə maslaha və yaxud məsalihi mursələdir (açıq bir hökm olmayan məsələlərdə fərd və cəmiyyətin faydasını güdmək). Bu prinsip Maliki fiqhində xüsusi olaraq vurğulanmışdır. Maslaha meyarına istinadən, müsəlman fəqihlər cəmiyyətin rifahını yüksəltmək məqsədiylə şəriətin tələbləriylə bağlı şərhlərini uyğun hala gətirə bilərlər. Digər prinsiplər isə *istihsan* (səbəbin təsirini nəzərə alaraq açıq müqayisəni tərk edib gizli müqayisəyə müraciət etmək və ya bir dəlil səbəbiylə bir məsələni ümumi qaydadan ayırmaq), *səddi zərai* (pisliyə, zərərə və ziyana aparan yolları bağlamaq) və *istishabdır* (bir şeyin dəyişdiyini göstərən bir dəlil irəli sürülənədək, köhnə vəziyyətin etibarlı olduğunu qəbul etmək).

Usul əl-fiqhin əsas prinsipləriylə bağlı bu qısa xülasə, islam hüquq elminin islama əsaslanan hüquq qaydalarının müəyyənləşdirilməsiylə bağlı məsələlərin öhdəsindən gəlməyə qadir olduğuna dair həddindən artıq mürəkkəb və incə təhlili tam olaraq ifadə etmir. Usul əl-fiqhin problemləri əsrlər boyu ən yaxşı müsəlman alimlərin çoxunun diqqətini cəlb etmiş və hələ də mübahisə doğurmağa və mühüm intellektual inkişafa səbəb olmağa qadirdir.

İslam hüququnun klassik məzhəblərinin yaranması və usul əl-fiqhin fundamental prinsiplərinin hazırlanması ilə şəriət bir fəqihlər hüququna çevrildi. Artıq hüquq və köməkçi fənlər üzrə tam təhsil alma şəriətin müəyyən bir problemə necə tətbiq edildiyinin şərhi üçün zəruri idi. Hüquqşünas və ya fəqih müqəddəs qanunla bağlı ekspertizanın inhisarı nəticəsində böyük nüfuz qazandı. Hətta müsəlman cəmiyyətlərdə fəqihlərin bir sinif olaraq yeri və gücü bəzi hallarda islamın teokratik bir idarə sistemini nəzərdə tutduğuna dair səhv qənaətə gətirib çıxarmışdır. Əslində, ictimai nəzarət vasitəsi olması ehtimal edilən şey şəriətin özüdür və nəzəriyyədə şəriət qanununu dəyişdirmədə gücsüz olan fəqihlər onun yalnız sadiq şərhçiləridirlər. Ümumiyyətlə, fəqihlər hökumət işlərinə birbaşa iştirakdan və siyasi həyatda açıq rol oynamaqdan çəkinmişlər.

Şəriət tələblərini bu cür şərh etmə *ictihad*, şərh edən şəxs isə *müctəhid* adlanırdı. Erkən dövr fəqihləri tərəfindən ictihadın tətbiqi Miladi onuncu əsrədək şəriətin əsas çərçivəsini müəyyənləşdirmişdir. Sistemləşdirmə səyləri, hüququn rasionallaşdırılması və Quranın açıq şəkildə hökm vermədiyi hallarla bağlı hökmlər çıxarmaqda istifadə edilə biləcək əqli imkanların və yazılı qaynaqların təyin olunması üzərində sıxlaşmışdır. Ancaq məzhəblər bu imkanların yeri və etibarlılığı mövzusunda fərqli görüşlərə malik olmuşlar. *Fiqh* məhz böyük alimlərin müvafiq bir hüquqi vəhdət yaratma səyindən yaranmışdır. Bununla birlikdə, bu ictihad səylərinin əmələ gətirə biləcəyi mümkün fərqliliklərin camaatı parçalamasının qarşısını almaq üçün IX əsrdə ictihad qapısının bağlanılmasına qərar verilmişdir.

Sünni fiqhində geniş yayılmış inanca görə fəqihlər əvvəlki nəsil fəqihləri tərəfindən ortaya qoyulmuş hüquqi məsələlərin həllərinə bağlı hesab edilir. Buna əsas da, Məhəmməd Peyğəmbərin (ə.s) dövrünə daha yaxın olduqları üçün sonuncuların sonrakı nəsillərin alimlərinə nisbətən xəta etmə ehtimallarının daha az olmasıdır. Şəriət hüququnun əvvəlcədən qərara bağlanmış məsələlərinin yenidən incələnməsinin qarşısındakı bu maneə "ictihad qapısının bağlanması" olaraq adlandırılmışdır.

Bu tarixdən sonrakı bütün fəqihlər bu dövrdə qəbul edilən dörd böyük ictihad məzhəbindən birinə bağlı qalmaq məcburiyyətində olmuşlar. Günümüzdə də, şiələr istisna olmaqla, müsəlman dünyası bu dörd məzhəbə yayılmış vəziyyətdədir. Bunlardan *Hənəfilik* daha sərbəst və açıq fikri, *Hənbəlilik* isə daha qatı bir şəkilçiliyi təmsil edir.

"İctihad qapısının bağlanması" olaraq bilinən yeniliklə birlikdə fiqh məzhəblərinin Hicri dördüncü və beşinci əsrlər ərzində konkret və sistematik şəkildə təsis edilməsi başa çatmışdır. Ancaq bu dövrdən sonra islamda orijinal hüquqi düşüncə öz canlılığını itirmişdir. Yeni düşüncə nəzəri olaraq qadağan edilməsə də, ancaq sosial, intellektual və siyasi şərait bunun üçün əlverişsiz olmuşdur. Lakin daha sonra *talfiq* olaraq tanınan bir prosedur

təqdim olunmuşdur. Bu prosedura əsasən bir fiqh məzhəbində müəyyən bir hökm xüsusi çətinlik yaratdıqda, əqli mühakimə tərzini qəbul etmə zərurəti olmadan, digər fiqh məzhəbinin daha liberal hökmü qəbul edilə bilərdi. Məsələn, Hənəfi məzhəbinin əri itkin düşmüş bir arvadın yenidən ərə getməsi üçün doxsan ildən daha çox gözləməli olduğu (bu, qadının həyat yoldaşının təbii səbəblərlə öldüyü hesab edilənədək gözləməli olduğu mühakiməsinə əsaslanır) norması praktik olmadığı üçün, Maliki məzhəbinin qadının həyat yoldaşını dörd il gözlədikdən sonra ərə gedə biləcəyi (Malik, özünün də şahidi olduğu kimi, hamiləliyin maksimum müddətinin dörd il olduğunu düşünürdü) norması praktikada qəbul edilmişdir.

Var olan ənənəyə ehtiram Sünni çevrələrdə yenilikçi düşüncənin qabağını aldı və hüquqi islahatları gecikdirdi. On İki İmam Şiəsi fiqhi tərəfindən isə bu yanaşma heç vaxt qəbul edilmədi. Hənbəli məzhəbinin əksər fəqihləri isə öz sələflərinin ictihadlarına bağlılığı rədd etdilər.

Təqlid təliminin və ya mövcud hüquqi hökmə itaətin erkən mərhələdə mütləq şəkildə şəriət təlimlərini müəyyənləşdirdiyi və şəriət hüququnun təkamülünə əngəlləyici bir təsir göstərdiyi iddiası etirazla qarşılanmışdır. Təqlidin fəqihlərin, dəyişən mühitin ehtiyaclarına cavab vermək üçün, hüquqi təlimlər irəli sürmələrinə həqiqətən də və nə dərəcədə mane olduğu məsələsinin yenidən qiymətləndirilməsi lazımdır. Sünni fəqihlər özlərini ilk əsrlərdəki fəqihlərin ictihad etdiyi sahələrə bağlı hesab etmişlərsə də, onlar sələfləri tərəfindən qəti şəkildə həll edilməmiş məsələləri həll etmədə sərbəst hərəkət etmişlər.

Müsəlman cəmiyyətlərində islam hüququnun yeni əhəmiyyətli problemlərinin həlli ənənəvi olaraq ixtisaslı bir müctəhidə həvalə edilmişdir. Sünni mühitlərdə bu funksiya *müfti* statusu əldə etmiş alimlər tərəfindən icra edildi ki, bu da onların bu cür məsələlərlə bağlı fətvalar və ya bağlayıcı hüquqi qərarlar vermə səlahiyyətinə malik olduqları deməkdir. Bir müfti, şəriətin bir məsələyə necə tətbiq ediləcəyi haqqında sorğuyla ona müraciət edən şəxslərə şəxsi qabiliyyəti əsasında hərəkət edərək məsləhət verə bilərdi. Ancaq fəqihlər başçılar tərəfindən rəsmi və ya hökumət müftiləri olaraq təyin edilirdi. Geniş şəkildə müsbət qarşılanmış və daha çox istifadə və öyrənilmək üçün toplanmış fətvalar fiqh əsərlərinə daxil edilir və əhəmiyyətli dərəcədə istifadə olunaraq nüfuz əldə edirdi.

Şəriət qaydalarının inkişafında fətvaların oynadığı mühüm roldan fərqli olaraq, *qazilər* tərəfindən aktual məsələlərlə bağlı verilmiş qərarlar çox nadir hallarda fiqh ədəbiyyatında mötəbər qəbul edilmişdir. Fəqihlərin əksəriyyəti məhkəmə presedentinin bağlayıcılığını tanımamışdır. Belə ki, birinci Abbasilərin ardınca hökumətlə bağlı ümidləri puç olduqdan sonra daha görkəmli fəqihlərdən çoxu məhkəmə sistemindən uzaqlaşmağa üstünlük vermiş və hakimlik təklifi aldıqları zaman dəfələrlə xidmət etməyi rədd

etmişlər. Bununla əlaqədar bir mühüm istisna Mərakeşdə meydana gəlmişdir. Orada *amal* və ya məhkəmə praktikası mötəbər hesab edilmişdir.

Onuncu əsrdən Avropa imperializminin dağıdıcı təsirini Hindistanda hiss etdirdiyi on səkkizinci əsrədək və on doqquzuncu əsrdə müsəlman aləminin digər yerlərində klassik fiqh məzhəbləri təlimlərinin inkişafında əsaslı heç bir qırılma yaşanmadı. Əksinə, demək olar ki, bu dövr islam hüquq elminin erkən dövr yanaşma tərzlərinin saflaşdırılmasına və gücləndirilməsinə həsr olunmuşdur. Məzhəblər yetkinləşdikcə, onların təlimləri əksər hallarda, qeyd edildiyi kimi, öz eponim qurucularının fikirlərindən uzaqlaşaraq daha da mükəmməlləşdi. Məzhəblər bütün davamçılarının tamamiylə eyni təlimlərə bağlılığını tələb etməsə də, hər məzhəb daxilində geniş miqyasda qəbul edilmiş bir təlimlər özəyi özünü hiss etdirdi və bu da hüquqi məsələlərin həllində fərqli bir yanaşmanı təcəssüm etdirdi.

Müxtəlif məzhəblərin fəqihləri fiqhə dair risalələr yazdılar, bu da öz müasirləri və xələfləri tərəfindən qiymətləndirildi və yenidən tədqiq edildi. Bəzi əsərlər xüsusi şöhrət və hörmət qazanmış və geniş şəkildə yayılaraq tədqiq edilmişdir. Eyni əsər əksər hallarda sonrakı dövr alimlərinin haşiyələrindəki əlavə şərhlər və şərhçilərinin şərhləriylə köçürülmüşdür. Bu fiqh ədəbiyyatı genişləndikcə, müəyyən bir əraziдəki fəqihlər üçün, hakim fiqhi məzhəbin daha yüksək qiymətləndirilən risalələrdən birini öz yurisdiksiyalarındakı (mühakimə hüququ) hüquq təliminin mötəbər ifadəsi olaraq seçmək səciyyəvi hal aldı. Onlar həmçinin müəyyən bir məzhəbin təliminin klassik ifadələrinin orijinallarına nisbətən istifadəsinin və anlaşılmasının daha asan olması nəzərdə tutulan xülasələrini də hazırladılar. Buna baxmayaraq, fiqh əsərləri yalnız savadlı mütəxəssislər tərəfindən anlaşılacaq xüsusiyyətdə idi.

Fiqh və onunla bağlı sahələrdə şagird yetişdirmək üçün ali təhsil müəssisələri yaradılmışdı ki, bunlardan ilk və ən davamlı təsirə malik olanı, 972-ci ildə yaradılmış Qahirədəki Əl-Əzhər idi. İddialı fəqihlərin yiyələnmələri vacib olan yardımçı fənlərdən biri Qurandakı Allah kəlamının və hədislərin dili olan klassik ərəb dili idi. Ərəb dili şəriətin öyrənilməsi üçün zəruri dil olmağa davam etmişdir. Quran və ya hədislərin tərcümə edilmiş heç bir versiyası elmi araşdırmalarda istifadə üçün kifayət deyil. Həmçinin bütün klassik fiqh əsərləri də ərəb dilindədir. Bəzilərinin tərcümələri artıq mövcud olsa da, bunlar çox fərqli keyfiyyətdədir və böyük ehtiyatla istifadə olunmalıdır.

Məzhəblər ilkin mühitlərindən uzaqlara yayılmışdır. Bu və ya digər bir məzhəbə bağlılıq, eləcə də firqələrə bağlılıq əsrlər boyu müsəlman dünyasının müxtəlif yerlərində uğradığı bir çox siyasi çevrilişlər və dəyişikliklərə uyğun olaraq dəyişmiş və məzhəb və firqələrin yayılma xüsusiyyətləri islam tarixinin müxtəlif dövrlərində əhəmiyyətli dərəcədə fərqlilik göstərmişdir. Müsəlman başçısının müstəsna hüquqlarından biri də, bir firqənin və

ya adətən bir Sünni məzhəbin onun ərazisində rəsmi norma olacaq və məhkəmələr tərəfindən tətbiq olunacaq hüququnu seçmək olmuşdur. Bəzi böyük şəhərlərdə məhkəmə heyəti müxtəlif məzhəb və firqələrin hakimlərindən ibarət olurdu ki, müəyyən bir məsələ ilə bağlı tətbiq olunacaq hüquq tərəflərin mənsubiyyətinə uyğun seçilmiş olsun.

Qeyd etmək lazımdır ki, dörd klassik Sünni məzhəbindən hər biri bərabər dərəcədə doğru hesab olunur. Təlimlərin qatılığı və onlara bağlılıq bir fəqihin öz məzhəbinin var olan təliminə riayət etməsini tələb etsə də, fəqihlər üçün digər Sünni məzhəblərin fiqhini öyrənmək və ya hətta risalələrində digər məzhəblərin fikirlərinə geniş şəkildə müraciət etmək qeyri-adi hal deyildi. Buna baxmayaraq, bu yanaşma tərzi digər məzhəblərin fiqh prinsiplərinə münasibətdə daha az özünü göstərirdi. Sünni və On İki İmam Şiəsi tərəfləri arasında müvəqqəti nikah məsələsiylə bağlı uzun sürən polemika (hansı ki, birincisi haram olduğunu və fahişəliyə yaxın olduğunu, sonuncu isə Quran və hədisdə aydın şəkildə müəyyən edildiyini iddia edir) şəriət hüququnun tələblərinin şərhləriylə bağlı məzhəb mübahisələrinin doğurduğu ziddiyyətli münasibətlərin bir nümunəsidir. Bununla yanaşı, Sünni fəqihlər Zeydi Şiə fiqhinə müəyyən dərəcədə ehtiram göstərilməsinə imkan vermişlər, çünki Zeydilik öz fikirlərinə görə daha mülayim və Sünnilərə digər Şiə firqələrindən daha yaxın hesab olunur.

İslam dinini yaymaq üçün Hz. Məhəmmədin (ə.s) başlatdığı cihad ənənəsini xəlifələri də davam etdirdilər. Hz.Əbubəkr, Hz.Ömər və Hz.Osman zamanında islam hakimiyyəti Mesopotamiyaya, İranın böyük bir hissəsinə (637), Fələstin (636-640), Suriya və Misirə, ayrıca Trablusa qədər yayıldı. Xəlifə Əli dövründə islam ümmətinin siyasi birliyi pozuldu. Bir vətəndaş müharibəsi nəticəsində iqtidara gələn Əməvilər (661-750) sərhədlərini daha da genişləndirərək Şərqdə Çinin ucqar nöqtələrinə, Qərbdə isə Atlantik okeanına çatdırdılar. Şimali Afrika ilə İspaniyanı sistemli bir şəkildə fəth etdikdən sonra (711-714) Pireney yarımadasını keçərək Qalliyaya qədər irəlilədilər.

İslam coğrafiyasının bu dərəcədə geniş ərazilərə yayılması məzhəblərin fərqli coğrafiyalara yayılaraq inkişaflarını təmin etmələri üçün münbit şərait yaratmışdır.

Hənəfi fiqhının Osmanlı sultanları tərəfindən uzun müddət himayə edilməsi Hənəfi məzhəbinin Şərqi Aralıq dənizindəki ərazilərin əksəriyyətində hakim mövqeyə yüksəlməsinə səbəb oldu. Bu məzhəb günümüzdə də Orta Asiya, Türkiyə, Misir, Suriyə, İordaniya və İraqda geniş yayılmışdır. Həmçinin, Hindistan yarımadasının əsas Sünni məzhəbi olaraq da Hənəfi məzhəbi ən böyük fiqhi məzhəbdir.

Maliki məzhəbinin tərəfdarları müsəlman dünyasının qərb hissələrində, xüsusilə də Şimali və Qərbi Afrikada cəmləşməyə meyil etmişlər. Bu

məzhəbin davamçıları Şimali Afrikada Liviyadan Mərakeşədək yayılmışdır. Ancaq buna baxmayaraq, ərəb dünyasının digər hissələrində, o cümlədən Hicaz və Küveytdə də onlara rast gəlmək mümkündür.

Şafii məzhəbi Cənub-Şərqi Asiyada və bir xeyli ardıcılları ilə Misirdə yayılmışdır. Şafii məzhəbinin davamçılarının yayılması əsas ticarət marşrutlarının xarakterinə uyğunlaşmaya meyil etmişdir. Buna görə də bu məzhəbin icmaları əsasən sahil ərazilərində cəmləşmişdir. Onlara geniş miqyasda Şərqi Afrika, Şri- Lanka, Malayziya və İndoneziyada rast gəlmək olar.

Hənbəli məzhəbi isə Səudiyyə Ərəbistanında yayılmışdır. Hənbəli məzhəbi o dərəcə kiçilmişdir ki, onun tərəfdarlarına mərkəzi Səudiyyə Ərəbistanının xaricində çox az rast gəlinir. Ancaq bununla yanaşı, onun bəzi orta əsr fəqihlərinin geniş ölçüdə təqdir edilən orijinallığı və intellektual cəhətdən fərqli keyfiyyəti, bu məzhəbin davamçılarının saylarıyla tamamilə tərs mütənasib bir təsiri davam etdirməsini mümkün etmişdir.

Şiə hüququ çərçivəsində Cəfəri (On İki İmam Şiəliyi) məzhəbi İranda üstünlük təşkil edir. On İki İmam firqəsi şiələrin bu günədək ən çox tərəfdarı olan qoludur və İran, İraq və Azərbaycan əhalisinin əksəriyyəti, həmçinin Pakistan, Şərqi Ərəbistan və Livandakı əhəmiyyətli sayda azlıqlar bu qola bağlıdır. 1501-ci ildən etibarən On İki İmam Şiəliyi İranın rəsmi dini olmuş və xüsusilə bu ölkə ilə eyniləşmişdir.

Ağa xanın ardıcılları Şiə islamının İsmaili qoluna aiddirlər. Onun əcdadları vaxtilə paytaxtı Qahirə olan bir İsmaili dövlətini, güclü və intellektual cəhətdən nüfuzlu Fatimilər imperiyasını (909-1171) idarə ediblər. Ancaq günümüzdə İsmailiyyə hər yerdə azlıq təşkil edir və geniş şəkildə dünyaya səpələnmiş haldadır. Müəyyən sayda icmalar Hindistan yarımadası və Şərqi Afrikada qalmaqda davam edir.

Zeydiyə, 1960-cı illərədək bir Zeydi imam tərəfindən idarə olunan Yəmən Ərəb Respublikasında (Şimali Yəmən) cəmləşmişdir.

Xarici məzhəbi isə Omanda, qismən də Şərqi və Şimali Afrikada təmsil olunur. Çox kiçik, lakin intellektual cəhətdən əhəmiyyətli qrup olan Xaricilər və ya İbadiyə çoxu Şimali Afrikanın Bərbər əraziləri kimi müsəlman dünyasının daha ucqar yerlərində və Omanda yaşamağa davam etməkdədir.

Bir müsəlman əmir öz ərazisində tətbiq olunacaq fiqh məzhəbini seçməkdə sərbəst olsa da, bu seçim adətən yalnız formal hüquq sistemiylə məhdudlaşır. Bu bağlılığı dəyişməyə məcbur edən xarici təzyiqlər olmadıqda, hər bir müsəlman seçdiyi məzhəbi izləməkdə sərbəst olaraq qalır. Adətən, müsəlmanlar özlərini atalarının izlədikləri məzhəbin davamçıları sayırlar və hətta bütün dörd məzhəbin bərabər şəkildə doğru hesab olunduğu Sünni məzhəblər daxilində belə, bir müsəlmanın məzhəb mənsubiyyətini dəyişdirməsi qeyri-adi haldır. Daha ətraflı nəzər yetirdikdə görərik ki, müxtəlif

Sünni məzhəblərin qaydaları bir hüquqi mübahisənin nəticəsinə təsir edəcək dərəcədə tez-tez bir-birindən fərqlənir. Normal hüquqi məsələ üzərində, hər hansı Sünni məzhəbi ilə Şiə məzhəbi arasındakı doktrinal fərqin dərəcəsi adətən elə də böyük deyil. Hüququn mənbələriylə bağlı Sünni və Şiə fiqhinin irəli sürdüyü müxtəlif yanaşmalara baxmayaraq, ayrıca onların müsəlman ümmətini kimin idarə edəcəyi məsələsindəki fərqlərindən savayı, dini mərasim və ibadətlə bağlı bəzi məsələlər, nikah və boşanmanın müəyyən qaydaları və miras qanunları istisna olmaqla, bunlar arasındakı böyük ixtilaflar elə də çox deyil. Hətta orta əsr fiqh ədəbiyyatının istər dünyəvi istər dini muamalat qaydalarının Yaxın Şərq və Avropanın digər orta əsr hüquq sistemlərindəki qaydalarla müqayisəsi çox geniş oxşarlıqlar ortaya qoyur. Orta əsr fəqihlərinin vəsiyyətsiz vərəsəlik hüququyla bağlı çox inkişaf etmiş və mürəkkəb sxemləri isə heç şübhəsiz müqayisəli hüquq tarixi baxımından müsəlman fəqihlərin ən səciyyəvi nailiyyətidir.

II FƏSİL

İSLAM HÜQUQU SAHƏSİNDƏ GÖRKƏMLİ ALİMLƏR, ŞƏRİƏT VƏ FİQH ELMİNƏ DAİR MÜHÜM ƏSƏRLƏR

2.1. İslam hüququ sahəsində görkəmli şəxsiyyətlər

Şəriətə dair yazılar geniş bir külliyyat təşkil edir. Buna görə də, görkəmli simalardan bəzilərini qeyd etmədən islam hüququna dair hər hansı bir xülasə təqdim etmək ədalətsizlik olardı. Aşağıdakı siyahı islam hüquq irsinin bəzi mühüm aspektlərinin təmsilçiləri olan şəxslərdən yalnız seçilmiş bir qismi olaraq qəbul edilməlidir. Bu müəllifləri təqdim etməkdə məqsəd islam hüququnun müxtəlifliyi və zənginliyi haqqında bir fikir yaratmaqdır.

Malik bin Ənəs (ö. 795): Maliki məzhəbinin imamı, böyük müctəhid və mühəddis olan Əbu Abdullah Malik bin Ənəs bin Malik bin Əbi Amir əl-Əsbahi əl-Yəməni (ö. 179/795) Hicri 93-cü ildə (Miladi 712-ci il) anadan olmuşdur. Yəmən mənşəli olan Malikin babası Malik və ya onun atası Əbu Amir Yəməndən gələrək Mədinədə məskunlaşmışdı. Babası Malik tabiundan olub. Hz.Ömər, Hz. Osman, Talha bin Ubeydullah, Əbu Hüreyrə, Hassan bin Sabit və Hz.Aişədən hədis rəvayət etmişdir. Hz.Osman dövründə Quranın vahid versiyasının kitab halına salınması işiylə vəzifələndirilənlərdən biri olmuşdur.

İmam Malik dövrünün əhəmiyyətli elm mərkəzlərinin başında duran Mədinədə boya-başa çatdı. Əvvəlcə Abdurrahman bin Hurmuz əl-Arəcdən hədis dərsi almağa başladı. Eyni illərdə Qurani Kərimi də əzbərlədi. Məşhur fəqih Rabiaturrayın dərs halqasına daxil oldu. Fiqhi qabiliyyətlərinin inkişafında və üsulunun formalaşmasında rəy tərəfdarı bu müəlliminin böyük təsiri oldu. Daha sonra İbn Şihab əl-Zuhridən dərslər aldı. Hədis aldığı müəllimlərinin sayının təqribən doqquz yüz olduğu deyilir. Zəkası və çalışqanlığı sayəsində qısa müddətdə elmdə dərinləşən və müəllimlərinin təqdirini qazanan Malik iyirmi yaşlarında dərs və fətva verməyə başladı. Məscidi Nəbəvidəki dərs halqasıyla qısa müddətdə məşhurlaşdı. Xüsusilə Həcc mövsümündə dərs halqasında böyük izdiham yaşanırdı. O, Harameynə gələn Əbu Hənifə, Leys bin Sad, Əvzai, Əbu Yusuf və Muhammməd bin Həsən əl-Şeybani kimi alimlərlə söhbət və müzakirələr edərək elmini inkişaf etdirdi.

İmam Malikdən dərs alan tələbələrin sayı minləri ötsə də, onun baxışlarının və məzhəbinin yayılmasında ancaq bir qismi iştirak etmişdir. Məzhəbin Şimali Afrikada yayılmasına xidmət edənlər arasında İbn Ziyad əl-Absi,

İbn Qanim əl-Qadi, Bəhlul bin Raşid, İbn Farrux və Əsəd bin Furatı qeyd etmək olar.

Həyatının yarısını Əməvilər, yarısını Abbasilər dövründə keçirən Malik öz dövründəki siyasi hadisələrdən uzaq durmuş, nə mövcud idarəçilərə, nə də onların əleyhdarlarına açıq bir dəstək vermişdir. Onun siyasi hadisələr qarşısında bitərəf qalmasına, həm özündən əvvəl Hz.Hüseyn və Abdullah bin Zubeyr bin Avvamın Əməvi hakimiyyətinə qarşı müxalifəti, həm də öz dövründə Xarici lideri Əbu Həmzə əl-Sarinin Harameyndəki, Muhammməd əl-Nəfsuzzəkiyyənin Mədinədəki üsyanları ilə digər müxtəlif üsyanlar zamanı çox qan tökülməsinin səbəb olduğu mənfi vəziyyət və bunun Harameyn xalqında meydana gətirdiyi məyusluğun böyük təsiri olmuşdur. Qeyri məşru və ya ədalətsiz bir hakimiyyətə qarşı gələnlərin daha böyük zərərlərə səbəb olmaqla yanaşı, bu müxaliflərin digərlərindən fərqli olub-olmayacağına dair tərəddüdlər dövründəki bir çox böyük alim kimi Malikin də üsyana mənfi yanaşaraq, dövlət adamlarına haqqı tövsiyə etmə yolunu tutmasının başlıca səbəbi olmuşdur. Həm bu rəftarı, həm də xalq və idarəçilər qatındakı etibarı səbəbiylə Malik xilafət mövzusunda açıq fikir bəyan etməkdən çəkinmişdir.

Malik xəlifələrin idarəetmədə və qanunvericilikdə birlik və sabitliyi təmin etmə təkliflərinə hər alimin özünə gəlib çatan sünnə mirası və yaşadığı ətraf mühitin şərtlərinə bağlı olaraq fərqli görüşlər daşımasının təbii olduğunu, zidd bir görüş və praktikaya məcbur etmənin doğru olmadığını ifadə edərək qarşı çıxmışdır.

Hədis mövzusunda Əl-Muvatta ilə İmam Malik hədis elminin zirvələrindən biri qəbul edilir. Hədislərin doğruluq dərəcəsinin və sənədlərinin etibarlılığını bilmə mövzusunda çox nüfuzlu bir alimdi. Özü həddindən artıq etibarlı olduğu kimi, ravilər haqqında da eyni həssaslığı göstərməsi onun adının keçdiyi sənədlərin etibarlılığını ən yüksək səviyyəyə çıxarmışdır.

İmam Malik böyük bir mühəddis olmaqla yanaşı, fiqh sahəsindəki məlumatı, fətva və ictihad qabiliyyətiylə də nüfuzlu bir alim kimi qəbul edilir. Fiqhi bir mövzu haqqında ona müraciət edildikdə, dərhal fikir bəyan etməz, mövzu üzərində uzun müddət düşünər, araşdırma aparar, sonra cavabını verərdi. Tələbəsi İbn əl-Qasım onun "Bir məsələ haqqında on ildən bəri düşünməkdəyəm, ancaq hələ də qəti bir qənaətə gələ bilməmişəm" dediyini nəql etmişdir. Quran və Sünnəyə zidd davranmaqdan, Allah və Elçisi adına səhv bir hökm verməkdən çəkindiyi üçün fətva mövzusunda son dərəcə həssas davranar və tələsməzdi. Buna görə də hələ meydana gəlməmiş ehtimal edilən məsələlərlə əlaqədar olaraq fikir bəyan etməz, bir şeyin halal və ya haram olduğunu söyləməkdənsə, "Bu gözəldir və ya bundan xoşum gəlmir" kimi ifadələrdən istifadə edərdi. Bir dəfə ona qırx səkkiz məsələnin soruşulduğu, bunlardan otuz ikisinə "bilmirəm" deyə cavab verdiyi, bir dəfə də özünə soruşulan

qırx sualdan yalnız beşinə cavab verdiyi deyilir. Elmi mövzularda münaqişə etməkdən xoşu gəlməz, məclislərində buna icazə verməzdi. İmam Malikə görə, mübahisə etmək qəlbə zülmət çökdürür və kin yaradır.

Quranla bağlı teoloji mübahisələrdən uzaq duran İmam Malik, bu cür münaqişələrin insanları ilahi vəhyin əsl məqsədindən uzaqlaşdıracağını düşünür, Quranı dini hökmlərin ilk və ən əhəmiyyətli mənbəyi qəbul edirdi. İmam Malikə görə, Quran ərəb dilində olub, kəlimə və mənadan ibarətdir; tərcüməsi onu əvəz edə bilməz. Ərəb dilini və müxtəlif ləhcələrini bilməyən, ərəb üslubuna bələd olmayanların Quranı təfsir etməsi caiz deyil. Bir mövzuda Quranda dəlil olduğu təqdirdə o əsas alınır.

Dinin ikinci qaynağı olan Sünnə Quranın hökmlərini təsdiq etmək və ya açıqlamaqla yanaşı, yeni hökmlər də ortaya qoyar.

Əl-Muvattada görüldüyü kimi, İmam Malik icmadan tez-tez dəlil olaraq istifadə etmişdir. Ancaq onun burada dəlil qəbul etdiyi icma yaşadığı şəhər olan Mədinədəki alimlərin konsensusu idi. Ona görə, icmanın əsası yalnız Quran və Sünnə deyil, qiyas da ola bilərdi. Sonrakı Maliki alimləri, ümumiyyətlə Mədinə əhlinin ittifaqından başqa, digər uləmanın eyni dövrdəki ittifaqını da icma olaraq qiymətləndirmişlər. Qazı İyaz İmam Malikin Mədinə əhlinin icmasından başqa icma qəbul etmədiyinə və Mədinəli yeddi fəqihin (fuqahai səbə) konsensusunun da icma saydığına dair digər məzhəb davamçılarının irəli sürdüyü iddianın doğru olmadığını deyir. Bununla birlikdə İmam Malik, digər məzhəb imamlarından fərqli olaraq Hz.Peyğəmbərin (ə.s) və səhabənin əhəmiyyətli bir qisiminin içlərində olduğu Mədinə xalqının praktikasına böyük əhəmiyyət verirdi. Quran burada nazil olmuş, Sünnə burada praktik olaraq həyata keçirilmişdir; xalqı nəsildən-nəsilə bu dini mirası ötürdüyü üçün, yaşayan Sünnənin mərkəzi olaraq Mədinə digər şəhərlərdən fərqli bir mövqeyə yüksəlmişdir.

İmam Malik səhabə baxışlarını geniş mənada Sünnə kateqoriyasında qiymətləndirdiyi üçün Əl-Muvattada hədislərlə yanaşı, səhabə fətvalarına da geniş yer vermişdir. Haqqında nass, Mədinə icması və səhabə fətvası olmayan fiqhi məsələlərdə İmam Malik qiyasa müraciət edərdi.

İmam Malikin fiqh üsulunda əhəmiyyətli yeri olan digər dəlillər məsalihi mürsələ və tez-tez müraciət etdiyi səddi zərai idi. Buna görə, halal və harama aparan vasitələr onların hökmünü alır; ümumi mənfəəti təmin edən şey arzu edilir, zərərə yol açan şeyin qarşısı alınır və qadağan edilir. Bir davranış tək başına mübah olsa da harama və zərərə səbəb olarsa, haram hökmünü alar. Buna görə İmam Malik muamalatla bağlı ictihadlarında obyektiv ünsür qədər niyyət və qəsdi də diqqətə alan subyektiv metoda da əhəmiyyətli dərəcədə yer vermişdir. Müctəhidin bir başqa müctəhidi təqlidini caiz görməyən İmam Malik bir mövzuda ortaya qoyulan fərqli ictihadlardan yalnız birinin doğru olduğunu ifadə etmişdir.

Həcc və ya umrə üçün Məkkəyə ziyarətləri istisna olmaqla Malik Mədinədən ayrılmamış, Xəlifə Mehdi-Billahın onu Bağdada dəvətinə də müsbət cavab verməyib əfvini istəmişdir.

İmam Malik keçirdiyi qısa müddətli bir narahatlıqdan sonra 14 Rəbiüləvvəl 179 (7 iyun 795-ci il) tarixində Mədinədə vəfat etmişdir. Rəvayətə görə Malik gözəl və bahalı paltarlar geyər, bunu elm əhli üçün lazımlı sayardı. Evinin səliqəsinə və görünüşünə diqqət yetirər, evinə gözəl əşyalar alardı. Yemək-içmək mövzusunda da diqqətli olduğu qeyd olunur. Çox müttələqi və abid bir şəxs olmuşdur. Güclü yaddaşı və dərin anlayışıyla birlikdə səbri, nizam-intizamı və ixlası sayəsində hədis və fiqh sahələrində böyük bir alim olan İmam Malik öz dövründə və daha sonra gələn alimlər tərəfindən tərifləanılmış, islam ümmətinin yetişdirdiyi görkəmli şəxsiyyətlər arasında yerini almışdır.

Əbu Hənifə (ö. 767): Əbu Hənifə əl-Numan b. Sabit islam fiqhinin Hənəfi məzhəbinin eponim qurucusu olmuşdur. Onun doğum tarixləri müxtəliflik ərz edir, ancaq 699-cu il bir çox bioqrafik lüğətlərə əsaslandığı üçün ən inandırıcı sayılır. Əbu Hənifə 767-ci ildə vəfat etmişdir. 1066-cı ildə Əbu Hənifənin məzarı üstündə kiçik bir türbə tikilmiş və şəhərin dörddəbir hissəsi onun *əl-İmam əl-Azəm*, yəni "Böyük İmam" ləqəbinə istinadən əl-Azəmiyyə adlandırılmışdır.

İbn Əbi əl-Vəfa *Cavahir əl-mudiyyada* Əbu İshaq İbrahim b. Muhammməd əl-Sarifiniyə (ö. 1243) istinadən bir şəcərə təqdim edir ki, bu şəcərə Əbu Hənifənin ailəsini Sasani hökmdarları, Kayani şahları və Yaqub peyğəmbərin ən böyük oğlu Yəhudayla bağlayır. Bir çox mənbələr Əbu Hənifənin fars mənşəli olduğunu və ailəsinin ipək satıcıları olduğunu qeyd edir. Şəms əl-Din əl-Zəhəbi (ö. 1374) məlumat verir ki, deyilənə görə Əbu Hənifənin babası Zurti (həmçinin Zuta kimi də adı keçir) Kabildən alınıb Kufəyə gətirilmiş bir qul olub ki, Kufədə ailə burada ərəb tayfası Taym-Allah b. Salaba bağlanmışdır. Digər mənbələr isə iddia edir ki, Əbu Hənifənin ailəsi Mesopotamiyadan və ya Ənbər şəhərindən (Bağdaddan qırx mil uzaqda Fərhat kənarında) idi.

Əksər müsəlman bioqrafik lüğətləri Əbu Hənifənin hədis rəvayətləri nəql edən biri kimi nisbi mötəbərliyinə diqqəti çəkir. Deyilənə görə, Əbu Hənifənin yaşadığı müddətdə bir sıra daha gənc ahaba (səhabələr) hələ yaşamaqda idilər, lakin o, bunlardan yalnız birindən, tanınmış Ənəs b. Malikdən hədis nəql etmişdir. Tabiunlardan (səhabələrin ardıcılları) hədis nəql etdikləri arasında Ata b. Əbi Rabah (ö. 732 və ya 733), Əl-Şabi (ö. 724) və Nafi vardır. Bir çox mütəxəssis Əbu Hənifəni etibarlı bir ravi hesab edirlər, ancaq digərləri onun mənbələrinin mötəbərliyini sual altına qoyurlar. Əl-Zəhəbi özünün "Mizan əl-itidal"ında belə fikirlər sitat gətirir ki, "Əbu Hənifə bir hədis ravisi kimi zəif hesab edilməlidir və onun fiqhi hökmləri rəyə

əsaslanır". Əbu İshaq əl-Şirazi (ö. 1083) Əbu Hənifəni hədis rəvayətlərinin əksəriyyətini onun sağlığında hələ etibarlı ravilər sayılan səhabələrdən deyil, daha çox İbrahim əl-Nəxaidən aldığına görə tənqid edir.

Bir fəqih kimi nüfuzu baxımından Əbu Hənifə Hənəfi fiqh məzhəbini yaratdığına görə hörmət qazanmışdır və bu roluna görə ona "imam" ləqəbi verilmişdir. Özünün "Tazkirat alhuffaz*"*ında Əl-Zəhəbi Yəzid b. Harunun Sufyan əl-Savri (ö. 778) hədisdə daha bilikli idi, lakin Əbu Hənifə hüquq elmində və fiqhdə daha bilikli idi dediyi bir söhbəti təkrarlayır. Hətta fiqhi hökmləri əksər hallarda Hənəfilərinkiylə rəqabət aparan Muhammməd b. İdris əl-Şafinin (ö. 820) Əbu Hənifəyə fiqh elmində böyük töhfə verdiyi bildirilir. Bir çox mənbələr Hammad b. Əbi Süleymandan (ö. 738) Əbu Hənifənin fiqh elmində əsas müəllimi kimi bəhs edir və Joseph Schacht Əbu Hənifənin fiqhi hökmlərinin çoxunu ona uyğunlaşdırdığını irəli sürür. Yəzid b. Harun həmçinin Əbu Hənifədən daha dindar və rasional birini tanımadığını bildirir. Bişr b. əl-Vəlid Əbu Hənifənin bütün gecə ibadət etdiyini və heç vaxt özünün əməl etmədiyi heç bir hədisi öyrənmədiyini və nəql etmədiyini bildirir.

Əbu Hənifə, bir nəfərin nəql etdiyi səhih olmayan hədislərə söykənərək hökm verməkdən çəkinmişdir. Səhabənin söz və hərəkətlərini isə ancaq Sünnəyə əsaslandığı ölçüdə qaynaq saymış, səhabənin fərdi ictihadlarını təməl hesab etməmişdir.

Əbu Hənifənin ölümündən sonra onun hüquqi fikirləri və nəql etdiyi hədis rəvayətləri mətnlər şəklində tərtib edilmişdir. Əbu Hənifənin özü tərəfindən tərtib edilmiş mövcud heç bir əsərlər külliyyatı yoxdur. Onun hüquqi düşüncələri Əbu Yusufa (ö. 798), Əbu Hənifənin ən yaxın tələbəsinə aid edilən *İxtilaf Abi Hanifa va İbn Abi Leyla* və *al-Radd ala siyar al-Avzaidə* mövcuddur. Əbu Hənifənin digər şagirdinə, Muhammməd əl-Şeybaniyə (ö. 805) *al-Hucca fi ixtilaf ahl Kufa va ahl al-Madina* və *Kitab al-asl fi al-furu* aid edilir ki, hər ikisi də daha sonra Əbu Hənifənin Hənəfi hüquq tədqiqatının əsası olan fiqhi hökmlərini ehtiva edir. Əbu Hənifə tərəfindən nəql olunmuş bəzi hədis rəvayətlərinə Əhməd b. Muhammməd əl-Tahavinin (ö. 933) *Şarh maani al-athar* və *Bayan muşkil alhadis*ində və daha sonra Əbu əl-Muayyad Muhammməd b. Mahmud əl-Xarizmi (ö. 1257) tərəfindən tərtib edilmiş *Cami masanid Abi Hanifada* rast gəlmək olar.

Klassik Hənəfi hüquq elmi əsasən Əbu Hənifənin fiqhi hökmlərinin xülasələri və şərhləri kimi və onların əsas tələbələri olan Əbu Yusuf və Muhammməd əl-Şeybani tərəfindən şərh edilərək inkişaf etdirilmişdir. Əhməd b. Muhammməd əl-Quduri (ö. 1037) tərəfindən yazılmış "Muxtasar fi al-fiqh Abi Hanifa al-Numan*"* əsəri və həmçinin Muhammməd b. Əhməd əl-Sərəxşinin (ö. 1090) " Kitab al-mabsutu" bu üç nüfuzlu Hənəfi alimin fikirlər toplusunu ehtiva edir. Əbu Bəkr b. Məsud əl-Kasani (ö. 1191), Əli b. Əbi Bəkr əl-Marğinani (ö. 1197), Abdallah b. Əhməd əl-Nasafi (ö. 1310), Usman b.

Əli əl-Zaylai (ö. 1342), İbn Nucaym (ö. 1562) və Abd əl-Hakim əl-Əfqani (ö. 1907) kimi sonrakı Hənəfi alimlərinin əsərləri əsasən Əbu Hənifə və onun yaxın şagirdlərinə gedib çıxan bu erkən dövr fikirlərinin kompilyasiyalarına əsaslanır. Əbu Hənifə və onun əsas tələbələrinin fikirlərinə əsaslanan bu əsərlər islam hüquq nəzəriyyəsinin və presedent hüququn inkişafında Əbu Hənifənin təsirini göstərməkdədir.

Əbu Hənifə həmçinin iman və etiqadla bağlı bir sıra əsərlərə görə də tanınmışdır. Bu əsərlərdən ikisi "al-Alim va al-mutaallim*"* və "Fiqh al-absat"dır ki, bunlar Əbu Hənifə ilə şagirdi Əbu Muti əl-Balxi (ö. 799) arasındakı bir sıra sualları və cavabları ehtiva edir. Bizə qədər gəlib çatmış olanı isə Əbu Hənifə tərəfindən Usman əl-Battiyə yazılmış bir məktubdur. Bu, digər əsərlərdə görülən perspektivi xatırladır. Həmçinin, "Fiqh əl-Əkbər, Fiqh əl-Əkbər II" adlanan əsər və "Vasiyyat Əbi Hanifa" da Əbu Hənifəyə aid edilir. *Fiqh əl-Əkbərin* on etiqadi yazısı *Fiqh əl-Əbsatdakı* düşüncələrlə yaxından paralellik təşkil edir, lakin Arent Jan Wensinck kimi alimlər sonrakının "Fiqh əl-Əkbər II" və "Vasiyyat Əbi Hanifa"ya aid olduğunu müəyyən etmişlər. Ancaq onlar daha əvvəlki əsərlərdən də təsirlənmiş ola bilərlər. Tahavi və Əbu əl-Leys əl-Səmərqəndi (ö. 993) kimi daha sonrakı dövrə aid Hənəfilərin etiqadi əsərləri də Əbu Hənifənin təsirini göstərə bilər. Əbu Hənifənin etiqadi açıqlamalara yaxın əlaqəsinə görə, sonrakı alimlər Əbu Hənifənin müsəlman inancının geniş yayılmış və rəsmi şəkildə qəbul edilmiş anlayışlarının inkişafına təsirini vurğulamışlar.

İkinci əsrin birinci yarısında İraqın rəhbərlik etdiyi hüquqi cərəyan əsasən Əbu Hənifə ilə, buna görə də əqli mühakimənin daha sərbəst istifadəsi ilə tanınırdı. O, islam hüququnun üç mənbəyini tanıyırdı: heç şübhəsiz, birinci Quran, onun ardınca Peyğəmbərin hədisləri və sonra da Səhabələrin ittifaqı sayılan *icma*. Əbu Hənifənin hədislərin qəbul edilməsi mövzusunda nisbətən ehtiyatlı və məhdudlaşdırıcı yanaşma tərzi var idi. O, hədislərin hüquqi məzmununa daha çox ağırlıq verirdi, nəinki sözlərin özlərinin hərfi anlaşılmasına. Səhabələrin fərqli rəylərinə isə onlar arasından birini seçməzdən əvvəl qiymətləndirilməli olan müxtəlif seçənəklər kimi yanaşırdı. O, bu qiymətləndirmənin metodoloji əsasının *qiyas* (analoji mühakimə) adlanan bir metodologiya olduğunu müdafiə edirdi. Bu metodologiya bir fəqihin cari işin nəticəsini müəyyən edərkən presedentlər üçün əvvəlki hallara baxmasını tələb edirdi. Bu *qiyas* metodu vasitəsilə fəqih indiylə keçmiş arasında əlaqələr təsis edə və beləliklə də sistemli hüquqi rəylər ortaya qoya bilərdi. Ancaq bu, oxşar hallar tapıla bilməyəndə və ya onların oxşarlıqları yalnız səthi olanda bəzən uğursuz alınırdı. Belə zamanlarda, Əbu Hənifə qiyası tərk edərək, əvəzində sərbəst mühakiməni və ya istihsanı tətbiq edərdi.

Əbu Hənifə tabiinlərin nəql olunmuş rəylərinə qarşı maraqsızdı. Öz dövrünün fəqihlərinin mühakimə qabiliyyətlərinə isə əminlik nümayiş etdi-

rirdi. Sərbəst mühakimənin etibarlılığına qarşı bu inam iraqlı fəqihlərin mətnlə bağlı və ya sistematik məhdudiyyətləri rədd etmələrinə imkan verdi. İraqlı fəqihlər həmçinin, Suriyada yerləşən Əməvi siyasi iqtidarına da qarşı çıxdılar. Bu, onların hökumətə xidmət etmədikləri və buna görə də bu cür siyasi mənsubiyyətin zorla qəbul etdirə biləcəyi praktik məhdudiyyətləri yerinə yetirmək üçün öz metodologiyalarından güzəştə getmək məcburiyyətində olmadıqları mənasına gəlirdi. Lakin bu cür siyasi məcburiyyətdən azadlıq uzun müddət davam etməyəcəkdi.

Əbu Yusuf (ö. 798): Tam adı Yaqub ibn İbrahim əl-Ansari əl Kufi olan Əbu Yusuf islam fiqh alimi və Muhammməd ibn Həsən əl-Şeybani (ö. 805) ilə yanaşı, Hənəfi fiqh məzhəbinin qurucularından biridir. Əbu Yusuf hüquq nəzəriyyəsinin müstəqil şəkildə, coğrafi şərtlərin müəyyənləşdirmiş olduğu məktəblərdə idealist dini alim qrupları tərəfindən məhkəmə praktikası əsasında tərtib edildiyi keçid dövründə yaşamışdır. Eyni zamanda, ayrı-ayrı alimlər dövlət tərəfindən, xüsusilə Abbasilərin hakimiyyəti altında, *qazi* və ya hakim təyin olunurdu ki, bunlar da dini hüquqa rəsmi dəstək siyasətini gücləndirirdilər. Bu dövr, həmçinin, texniki hüquq fikrinin ədəbi ifadəsinin başlanğıcıyla üst-üstə düşür. Əbu Yusufun həyatı və təlimləri bütün bu yeniliklər kontekstində görülə bilər.

Əbu Hənifənin tələbəsi və şagirdi olaraq Əbu Yusuf dini hüquq və ənənələr cəhətdən əsasən Kufə ənənəsi ilə tanınır. Kufədə anadan olmuşdu, ancaq əslən isə mədinəliydi. Onun Mədinədə Malik ibn Ənəs və digərləri ilə birlikdə təhsil aldığı məlumdur, lakin rəvayətə görə Əbu Hənifə yoxsul gəncin mənəvi və intellektual mükəmməlliyini hiss etmiş və onu himayəsi altına almışdır. Əbu Yusuf Abbasi xəlifəsi Harun ər-Rəşid tərəfindən paytaxtın (Bağdad) *qazi*si və ya onun fəxri adının (*qadi al-qudat*) da göstərdiyi kimi, baş hakimi təyin olunana qədər təcrübəli bir hakim kimi Kufədə yaşamışdır. Bu adı alan ilk adam olaraq Əbu Yusuf bütün dövlətdə məhkəmələrin təyin edilməsi və vəzifədən azad edilməsi işlərində məsləhət verməklə yanaşı, həmçinin hüquqi və inzibati məsələlər və maliyyə siyasəti üzrə xəlifənin məsləhətçisi kimi də işləyirdi.

Əbu Yusufun təlimi daha heterogen mühitdə yaşamış və Sünnəyə bağlı mədinəlilərin izlədiklərindən daha azad bir araşdırma metodundan ilham almış iraqlı alimlərin inkişaf etməkdə olan texniki hüquq düşüncəsi çərçivəsi daxilində görülə bilər. Yeni yaradılan *qadi əl-qudat* (baş qazi) vəzifəsinə təyin edilən Əbu Yusufa bütün məhkəmə idarəçiliyi üzərində diskresion səlahiyyət verilmişdi. Onun birinci vəzifələrindən biri yeni məhkəmə və maliyyə qaydalarıyla bağlı qanunların və siyasi kursun sistemləşdirilməsini əhatə edən böyük layihə idi. Bu, daha əvvəllər İraq hüquq məktəbinin heç vaxt qarşılaşmadığı bəlli dərəcədə mətn oriyentasiyası tələb edirdi.

Lakin, Əbu Yusuf fiqhi hökmlərin əsası kimi *hədisə* Əbu Hənifədən daha çox etibar etməyə meyilliydi, yəqin ona görə ki, Peyğəmbərin (ə.s) mötəbər hədislərindən çoxu Əbu Yusufun dövrünədək meydana çıxmışdı. Bundan əlavə, Əbu Hənifə nəzəri fərziyyə və sistematik ardıcıllıq xətti boyunca davam etdiyi halda, təcrübəli bir *qazi* olaraq Əbu Yusufun təcrübəsi müəlliminin formalizmini aradan qaldırmağa imkan verdi. Tədrislə məşğul olan bir fəqih və Kufə məktəbini sistemləşdirən biri kimi Əl-Şeybanidən fərqli olaraq Əbu Yusuf məhkəmə dairələrində təsiri hiss edilən işgüzar bir adam idi. Əbu Hənifə özü hüquqa dair heç bir yazılı əsər miras qoymadığı üçün, bu iki şəxsin fəaliyyəti sayəsində qədim Kufə məktəbi Hənəfi fiqh məzhəbinə çevrilməkdə idi.

Əbu Yusufun bizə gəlib çatan əsas əsəri vergi, dövlət maliyyəsi və cinayət hüququ haqqında yazmış olduğu "Kitab əl-xarac*"* (Vergi Kitabı) risaləsidir. Bu risalə xəlifənin xahişi ilə yazılmışdır və ona ünvanlanan uzun bir girişi ehtiva edir. Digər başlıca əsərləri "Kitab əl-Əthar", "İxtilaf Əbu Hanifa va İbn Əbi Leyla və əl-Radd alə Siyər əl-Avzai"dir.

Əl-Şeybani (ö. 805): Əbu Yusufun traktatı regionlararası yaradıcılıq və hüquqi düşüncənin inkişafının vəziyyəti barədə dərin fikirlər ortaya qoyurdu. İslam cəmiyyətinin doğulduğu yer olaraq Mədinə ənənəvi islam üçün xüsusi bir üstünlüyə malik idi və islam hüquq elmi üçün əsas çəkici mərkəz olaraq da qaldı. Bu sahədə Mədinənin nüfuzu *aməl əhl əl-Mədinə* (Mədinə xalqının əməli) anlayışı ilə ifadə edilmişdir ki, bu da islam dünyasında müvafiq təcrübə nümunəsi kimi görülmüşdür. Buna görə də fəqihlərə islam qanunlarını daha yaxşı anlamaq istədikdə Mədinə nümunəsini başa düşmək əmr olunmuşdu. Mədinəyə verilən bu mühüm rol, axırda ona qarşı çıxacaq olan Şeybani (ö. 804) və Şafii (ö. 819) kimi bir neçə mühüm fəqihin elmi diqqətini cəlb etdi. İraq məktəbinin əsas fəqihi olan Şeybani *əl-Muvatta* adlanan hədisləri, Malikin əsas hüquq məzmunlu külliyyatını oxudu. Şeybani öz əsərində iraqlı fəqihlərin Malikin irəli sürdüyü fikirlərə qarşı ixtilaflı fikirlərindən tez-tez bəhs edir. Bundan başqa, Şeybani *əl-Huccə alə əhl əl-Mədinə* (Mədinə əhlinə qarşı dəlil) adlı müstəqil bir əsər də tərtib etdi.

Muhəmməd əl-Şeybani yeni Abbasi rejimi tərəfindən təyin olunmuşdu və qazi və fiqh müəllimi kimi xidmət edirdi. Şeybani Əbu Yusufdan rütbə etibarilə aşağı olsa da, daha məhsuldar bir müəllif idi və buna görə də Hənəfi hüquq məktəbi üçün daha həqiqi tərəqqiyə nail oldu. Onun birlikdə "Zahir əl-rivaya" (Etibarlı rəvayətlər) adıyla tanınan başlıca əsərləri aşağıdakı başlıqlardan ibarətdir: əl-Asl, əl-Cami əl-kəbir, əl-Cami əl-səğir, əl-Siyər əl-kəbir, əl-Siyər əl-səğir və əl-Ziyədət. Ümumiyyətlə, müharibə və sülh qanunları kataloqu olan *əl-Siyər əl-kəbir* və *əl-Siyər əl-səğir* istisna olmaqla, bu əsərlər, ibadət, vergi, nikah, boşanma, ticarət və cəza kimi geniş dini-hüquqi məsələləri əhatə edir. Həmçinin, erkən dövr Hənəfi hüquq düşüncəsini

təmsil edən bu əsərlər onuncu əsrdə əl-Hakim əl-Şahid əl-Marvazi (ö. 955) tərəfindən toplanıb və *əl-Kafi* adı ilə təqdim edilmişdir. Onlar daha sonra Sarakşi (ö. 1090) tərəfindən *əl-Mabsut* başlığı altında yenidən şərh edilib təfərrüatlı şəkildə hazırlanmışdır.

Şeybaninin əsəri, eləcə də Sarakşinin şərhi İraqda, Əbu Hənifə və onun sələfləri tərəfindən müdafiə edilən əqli mühakimənin sərbəst istifadəsiylə başlayan və daha böyük miqyasda mətn oriyentasiyasına və struktur tənzimləməsinə doğru hərəkət edən hüququn təkamülünü açıqlayır. Hüquqi prinsiplərin institutlaşmasına doğru bu meyil Əbu Hənifədən sonrakı aparıcı iraqlı fəqihərin rəsmi iqtidar dairələrinə nüfuz etməsi, daha sonra isə əl-Şafiinin (ö. 819) silinməz təsiri kimi iki amil ilə izah oluna bilər.

Muhammməd bin İdris əl-Şafii (ö. 819): Mədinə və İraq hüquq anlayışlarını tədqiq edən Şafii, hər ikisinə də əks mövqe tutaraq, regional anlayışların aradan qaldırılması və əvəzində əhatəli bir hüquqi düşüncə sistemi qurulması lehinə çıxış etdi. Şafiinin görüşünə görə, İraq anlayışları qeyri-dəqiq və ziddiyyətli, Mədinədə yerləşən Hicaz məktəbi isə çox regional xarakterdə idi. Hüquqi düşüncədə bu cür regionlararası mübahisələrə əsaslanan dialoqlar vasitəsilə yaranmış müxtəliflik, tədricən, supra-regional hüquqi düşüncə sisteminin təkamülünün yolunu açdı. Bu təkamül Şafiinin rəhbərliyindən ruhlanmışdı.

Əl-Şafii islam hüquq nəzəriyyəsinin növbəti təkamül mərhələsinə hakim oldu. O, hüquqi biliyi dörd legitim mənbə ilə məhdudlaşdırdı: *Quran*, *sünnə*, *icma* və *qiyas*. O, Əbu Hənifə tərəfindən irəli sürülmüş *istihsan* prinsipini tamamilə rədd etdi. Şafiinin qəbul edilmiş dörd mənbədən hər birinə qarşı yanaşma tərzi islam hüququnun mərkəzləşdirilmiş bir qavrayışının inkişafını vurğuladı və hüququn bu unitar konsepsiyasına zidd olan regional variantların etibarlılığını qəbul etmədi. Bundan başqa, öz "əl-Risalə*"* adlı əsərində islam elmi üçün yeganə uyğun dilin Ərəb dili olduğunu iddia etdi.

Şafiinin ərəb dilini Quranın dili olaraq vurğulaması Quranın başqa dillərə tərcümələrinin Quranla eyni olmadığı mənasına gəlirdi. Bundan da belə bir nəticə çıxır ki, yalnız müqəddəs kitab və elm deyil, həm də möminlərin ibadəti də Ərəbcə olmalıdır. Çünki dilin vacib bir element olduğu qəbul edilmişdir. Bu mövqe, ibadətlərdə Quranın farsca oxunmasına icazə verən Əbu Hənifənin mövqeyindən tamamilə fərqli idi. Şafiinin literalist yanaşması hakim mövqeyə yüksəlincə, Əbu Hənifənin şagirdləri öz müəllimlərinin (Farsca ibadətin caiz olduğuna dair) mövqeyini insanlar Quran ayələrini düzgün oxumağı öyrənənədək müəyyən xüsusi hallarda tətbiq edilə biləcək müstəsna və müvəqqəti bir hal kimi şərh etməyə məcbur qaldılar.

Şafii hədisləri ilahi ilham qaynağından gələn Peyğəmbəri (ə.s) daha da müqəddəsləşdirərək, hədislərin ravilər tərəfindən nəqlinin mötəbərliyinin onların rəvayətlərinin literal dəqiqliyindən birbaşa asılı olduğunu müdafiə

etdi. Başqa sözlə, sünnətlə bağlı rəvayətlərin legitimliyinin müəyyənləşdirilməsində birinci dərəcəli olan hədisin məzmunu deyil, onun hərfiydi (sənədi). Bu yanaşma tərzi daha çox Mədinə ənənəsi və təcrübəsi ilə bağlı olan və Peyğəmbərin (ə.s) mirasını əks etdirən Mədinənin Sünnə anlayışına ziddir. O, hədislərin etibarlılığını onların hərflərindən ayrı olaraq məzmununa əsaslanaraq hökm verən əvvəlki İraq hüquq cərəyanlarından da fərqlənirdi. Şafiinin bu literalist anlayışı Hənəfi hüquq düşüncəsi üzərində uzunsürən bir təsirə malik oldu. Məsələn, Hənəfi məktəbinə mənsub olan Əbu Bəkr əl-Cassas (ö. 980) Peyğəmbərin(ə.s) ən azından bəzi fikirlərinin vəhy mənşəli olduğunu və ya ilham edildiyini, ancaq digərlərinin isə onun adi və ya daha çox bir insan olaraq ortaya qoyulmuş fikirlərini əks etdirdiyini qəbul etdi.

Şafiinin icmaya yanaşma tərzi bəlkə də ən mübahisəli yanaşma idı. Şafiiliyə görə, *icma* bütün ümmətin (cəmiyyətin) konsensusu deməkdir və bu da hər bir müsəlmanın fərdi iştirakı olmadan mümkün deyildi. İcmayla bağlı bu anlayış *icma* anlayışlarını Mədinə xalqının təcrübəsində öz əksini tapmış Mədinə alimlərinin konsensusuyla məhdudlaşdıran mədinəli fəqihlər tərəfindən müdafiə olunan anlayışla ziddiyət təşkil edirdi. O, həmçinin, yalnız İraq hüquq cərəyanı fəqihlərinin konsensusunu tələb edən erkən dövr İraq *icma* anlayışına da zidd idi. Lakin, Şafiinin arqumentləri daha aydın şəkildə yaxın müasirlərinin, Əbu-Hənifədən sonrakı dövrün iraqlı fəqihlərinin görüşlərinə qarşı yönəlmişdi.

Şafiinin arqumentinə qarşı irəli sürülən iddialara görə, bütün müsəlmanların və ya hətta sadəcə fəqihlərin belə hüquqi şəxsi rəydə (*ictihad*) həqiqi konsensusuna nail olmaq mümkün deyil. Ən yaxşı halda o, yalnız aydın ola bilər, çünki şifahi ifadə edilmiş bir konsensus asanlıqla səssiz ixtilafları gizlədə bilər. Şafiinin fikrincə, yeganə yaşayan icmaya (ibadətin zərurətinə iman kimi) fərz olan məsələlərin hər bir müsəlman tərəfindən artıq mövcud olan fərdi qəbulunda rast gəlmək olar. Ancaq aydındır ki, bu *icma* təsəvvürü davranış məsələləri ilə bağlı olan hüquqi məqsədlərdən daha çox, inanc əsaslarını tənzimləyən etiqadi məqsədlərə daha uyğundur.

Şafiinin bütün fəqihlərin icmasını təkzib etməsi məntiqi cəhətdən əsaslandırılmış ola bilər, lakin bu, hüquqi məqsədlər üçün yersiz olan anlayışı ifadə edir. Buna baxmayaraq, həm əl-Cassas, həm də əl-Sarakşi onun nəticələri ilə mübarizə aparmaq məcburiyyətində qaldılar. Onlar buna icmanı iki əsas növə ayırmaqla cavab verdilər. Birincisi, Şafiinin bütün müsəlmanları ehtiva edən formulunu izlədi, ikincisi isə xüsusilə yalnız fəqihlərin konsensusuna əsaslandı.

Şafiinin qiyasa yanaşma tərzi onun istihsanı rədd etməsinə əsaslanırdı. Qiyasın legitimliyi onun yeni hallarla əvvəlkilər arasında əlaqə qurması faktından irəli gəlirdi. Bu retrospektiv prosesdə qiyas fəqihi son nəticədə hüquqi biliyin əsas mənbələrinə geri çəkirdi: Quran, Peyğəmbərin sünnəsi və

icma. Digər tərəfdən, Şafii hüquqi düşüncə məktəbi istihsanı qəbul edilmiş bu üç bilgi mənbəyinin mətnindən ayrılma olaraq gördü. Çünki, qiyasdan fərqli olaraq o, hüququn legitim mənbələrinə istinad etmədən sərbəst əqli mühakiməni nəzərdə tuturdu. Həmçinin, konsensus nusus (müqəddəs mətnlər), furud və muharramatda olduğu kimi (hansılar ki, ilahi mənşəli olduqları qəbul edilir), Peyğəmbər sünnəsi (ilahi ilhamdan qaynaqlı hesab edilir) və Quran çərçivəsi ilə məhdudlaşdırıldığı zaman sərbəst əqli mühakiməyə imkan verən heç bir legitimlik ola bilməzdi. Şafiinin istihsanın tətbiqi ilə bağlı mövqeyindən irəli gələn təzyiqə təslim olaraq Hənəfi məktəbi nəticədə, istihsanın qiyasın başqa bir növü olduğunu ifadə etmək üçün *istihsan* terminini "gizli qiyas" adıyla əvəz etdi.

İslam hüquq nəzəriyyəsinin inkişafında Şafii regional hüquq məktəblərinə və onların müxtəlif metodologiyalarına meydan oxumaqla və bu regional məktəblərin öz anlayış və terminologiyalarını mərkəzləşdirilmiş bir islam hüquq düşüncəsi istiqamətində inkişaf etdirmələri üçün onlara motivasiya vermədə həlledici rol oynadı.

Əhməd ibn Hənbəl (ö. 855): Əhməd bin Muhammməd ibn Hənbəl tanınmış hədisçi, ilahiyyatçı və fəqih idi. Bağdadda anadan olmuş və həyatının çox hissəsini orada öyrənməklə və tədrislə keçirmişdi. Bir gənc olaraq o, təhsiliylə bağlı İraqda Kufə və Bəsrə, Ərəbistanda isə Məkkə və Mədinə şəhərlərinə çox səyahət etmişdi. O, Məkkəyə beş dəfə həcc etdi. İbn Hənbəl cüzi bir mülk miras aldı və vaxtının əksər hissəsini təhsilə sərf edə bildi. O, hər hansı bir mədrəsənin üzvü deyildi, lakin onun bilik sahəsində nüfuzu artıqca, hüquq və dinlə bağlı bütün məsələlər üzrə bir mütəxəssis kimi ona müraciət edilirdi.

Hədisi vurğuladığı üçün Şafiinin pərəstişkarı olan Əhməd İbn Hənbəl Hənbəli məzhəbi adlandırılan qəti surətdə hədis yönümlü hüquq cərəyanının ilham qaynağı oldu. İbn Hənbəl "rasionalist" Abbasi rejiminin (xüsusilə də əl-Məmun və əl-Mutasımın) Quranın *məxluq* (yaradılmış) olduğuna dair teoloji etiqadın lehində danışmağı əmr edən rəsmi təzyiqinə qarşı nonkonformist mövqeyi ilə tanındı.

İbn Hənbəl hörmətli bir hədis alimi idi, lakin o, bir fəqih kimi məşhur deyildi. Onun mövqeyi və hədisi diqqət mər-kəzinə alması hüquqi düşüncənin hədis tərəfdarı cərəyanına ilham qaynağı oldu. Bir alim kimi İbn Hənbəl hədisçilər və ya *əhl əl-hədis* adlanan bu qrupun ən qabaqcıl üzvlərindən biri idi. Hədisçilər inanırdılar ki, dini biliyin bir mənbəyi kimi Sünnə və ya Peyğəmbərin (ə.s) və müsəlmanların ilk icmasının praktikası yalnız Qurandan sonra ikinci gəlir və Sünnə ənənələrin və ya hədisin tədqiqi yoluyla müəyyən edilə bilər.

Peyğəmbərin (ə.s) vəfatından sonra erkən icma üzvləri Sünnə biliklərini şifahi şəkildə və epizod formasında nəql etdi. Lakin zaman keçdikcə və

müsəlmanların ilk bir neçə nəsli vəfat etdikcə Sünnənin xatırlanması və yazılması mühüm bir elmi vəzifəyə çevrildi.

Hədis külliyyatları Sünnənin sənədlərini təmin edir. Hər hansı hədis bir mətndən və ən yaxın olandan başlayaraq mətnin şifahi ravilərinin (isnad) zəncirindən ibarətdir. Ən erkən ravilər adətən Peyğəmbərin (ə.s) bir qohumu, ona yaxın biri, onun əshabı, onun əshabından birini və ya bir neçəsini tanıyan bir kimsədir. İbn Hənbəlin külliyyatı, onun Müsnədi Sünni hədis külliyyatlarının ən çox rəğbət görənlərindən biridir.

İbn Hənbəlin dövrünə qədər minlərlə hədis yayılmışdı ki, bəziləri açıq şəkildə, bəziləri isə qismən uydurmaydı. Hədisçilər səhih olanı uydurma olandan ayırdılar və sonra isə səhih hədisləri intizamlı şəkildə tərtib edərək təqdim etdilər. Bu, istinadlardakı insanların etibarlılığı və eləcə də hər mətnin predmeti barədə məlumat tələb edirdi. İbn Hənbəlin hədislərə dair biliyi dərindir və hədisçilər xüsusi olaraq ondan öyrənmək üçün islam dünyasının digər yerlərindən Bağdada səfər edirdilər. Onun Müsnədi iyirmi yeddi və ya iyirmi səkkiz min arası hədis ehtiva edir, Standart sünni hədis külliyyatları, Kutubi Sittə isə bu rəqəmin yarısından azını ehtiva edir. Bundan əlavə, bir qədər sonrakı külliyyatlardan fərqli olaraq, *Müsnəd* mövzuya görə deyil, ilk ravinin xüsusiyyətinə görə tərtib edilmişdir.

İbn Hənbəlin fəaliyyəti tədrislə və hədisə dair sualları cavablandırmaqla məhdudlaşmırdı. Kəlam sahəsində hədisçilərlə "rasionalistlər" (əhli rəy) arasında ixtilaf vardı və burada da İbn Hənbəl hədisçilər arasında irəlidə gedirdi. Onlar rasional fərziyyədən çəkinirdilər və Quran mətninin ilahi təbiətinə imanın və onun hökmlərinə Peyğəmbərin (ə.s) praktikasına uyğun şəkildə itaətin əsl möminin məqsədi olduğunu müdafiə edirdilər. Rasionalistlər Allahın təbiəti (*zat*), Onun keyfiyyəti (*sifətlər*) və Onun yaradılmış olan dünyaya münasibəti haqqında spekulyativ fikirlər irəli sürürdülər. İbn Hənbəlin yaşadığı vaxtda bu cür spekulyativ kəlamla məşğul olan rasionalistlər qrupu Mötəzilə idi. Hədisçilərlə Mötəzilə arasında xüsusi mübahisəli məsələ Quranın təbiəti məsələsi idi. Mötəzilə Allahın Quranı zaman içində yaratdığını (yəni Quranın *məxluq* olduğunu) müdafiə edirdi. Hədisçilər isə Quranın Allahın məxluq olmayan kəlamı olduğunu irəli sürürdülər. 833-cü ildə ölümündən qısa müddət əvvəl xəlifə Məmun görkəmli din xadimlərinin açıq-aşkar şəkildə yaradılmış Quran təlimini qəbul etmələrini tələb edən bir siyasət mənimsədi. İbn Hənbəl bunu rədd etdi və həbs edilərək işgəncələrə məruz qaldı. Növbəti iki xəlifənin də Məmunun siyasətini davam etdirməsinə baxmayaraq, İbn Hənbəl iki il sonra həbsdən azad edildi. Lakin o, yeni xəlifə Mötəzilə təlimini tərk edərək hədis tərəfdarı Sünniliyi bərpa edənədək, yəni 847-ci ilə qədər açıq tədrisə davam etmədi.

Hüquq elmində də hədisçilər aralarında yenə ən mühümü İbn Hənbəl olmaqla, rasionalistlərə (əhli rəy) qarşı mövqedəydilər. Hədisçilər bütün

hüquqi problemlərin hədislərdə ifadə edildiyi şəkildə Sünnəyə istinadən həll edilməsini istəyirdilər. Rasionalistlər isə, digər tərəfdən, bir hədisdə həlli tapmaqdansa, qərarlarını bir problemin üzərində düşünməklə əsaslandırmağa üstünlük verirdilər. Rasionalistlər müəllim və həmkarlarının fikirlərini mötəbər sayırdılar. Hədisçilər isə bunu etməklə onların bəşəri əqli mühakiməni Quran və Sünnədə əksini tapmış ilahi hidayətdən üstün bir məqama yerləşdirdiklərini düşünürdülər. Rasionalist fəqihlərin praktiki nəticələrinin hədisçi fəqihlərinkindən çox da fərqli olmadığına baxmayaraq, iki qrup arasında metodoloji fərqlər şiddətlə müzakirə edilmişdir.

Öldüyü vaxt İbn Hənbəl üçün kütləvi yas saxladılar. Onun dərin biliyi, təqvası və mənəvi mətanəti onu hörmətli və məşhur alim etdi. Bağdaddaki məzarı isə on dördüncü əsrdə sel fəlakəti nəticəsində məhv olana qədər çox ziyarət edilmişdir. Şagirdləri onun təlimini davam etdirdilər, bir çoxu, o cümlədən oğulları Saleh (ö. 879/880) və Abdullah (ö. 903) həmkarları və tələbələri tərəfindən ondan soruşulmuş ibadət, hüquq və təlimlə bağlı suallara verdiyi cavablardan ibarət *masail* külliyyatını tərtib etdilər.

İbn Hənbəlin cavabları həm özünəməxsus məzmunu cəhətdən, həm də hədisçi metodun izahı cəhətdən əhəmiyyətlidir. Sünni islamın Hənbəli fiqh məzhəbi bu cavabların Hənbəli alimlərinin sonrakı nəsilləri tərəfindən şərhi əsasında inkişaf etdirildi. Oğlu Abdullah da atasının "Müsnəd"ini toplamış, redaktə və şərh etmişdir. "Müsnəd" İbn Hənbəlin ən məşhur əsəridir. Sonrakı alimlər tərəfindən onlardan sitat gətirilməsinə baxmayaraq, onun əsərlərinin əksəriyyəti bütöv halda bizə gəlib çatmamışdır.

Davud bin Xələf (ö. 884): Şafii nususda kökünü tapmaqdansa, istihsanı insan ağlının məhsulu olduğu üçün rədd etmişdi. Bu mövqe ilahi və insan qərarları arasında fərq qoyduğu üçün Davud əl-İsfəhaninin (ö. 883) diqqət və heyranlığını cəlb etdi. Nəticədə, Davud qiyasın da bəşəri əqli mühakiməni ehtiva etdiyini dərk etdi. Beləliklə o, Şafiidən daha radikal bir addım ataraq, istihsandan əlavə, qiyası da rədd etdi. Bu mövqe ətrafında formalaşan hüquqi düşüncə cərəyanı Zahiri (literalist) fiqh məzhəbi olaraq tanındı. Çünki bu fiqh məzhəbinin nəzəriyyəsinə görə, dini hüquqda legitimlik Qurana uyğun gələn nusus və icmanın literal çərçivəsi və məzmunuyla məhdudlaşırdı. Ayrıca Peyğəmbərin (ə.s) davranışlarının və təcrübəsinin literal rəvayətləri olduğu qəbul edilən hədislər də, həmçinin, şərh edilə bilməzdi. Beləliklə, bu düşüncə cərəyanı dini qanunqoyuculuqda talildən (əqli mühakimə) istifadəyə qəti surətdə qarşı çıxdı.

İbn əl-Muqaffa (ö. 756): Miladi təqribən 750-ci ildə Əməvilərin Abbasi inqilabı ilə devrilməsi nəticəsində islam dünyasında güc mərkəzi Şamdan Bağdada keçdi. Yeni rejim islam cəmiyyətinə yeni bir nizam gətirməyə çalışdı. Bu dəyişiklik ehtiyacını ən çox hiss edən, məhkəmə sisteminə dözülməz qüsurlu vəziyyət diaqnozu qoyan və insanlara əziyyət verən ədalət-

sizlikləri açıq şəkildə qınayan, Abbasi xəlifəsi Əbu Cəfər əl-Mənsurun baş müşaviri İbn əl-Muqaffa idi. İbn əl-Muqaffa xəlifədən məhkəmə idarəçiliyində sabitlik və qanunların tətbiqi üçün ciddi bir sistem yaratmaq yoluyla məsələnin nəzarətini ələ almasını xahiş etdi. Ayrıca o, hüquq sisteminin daimi şəkildə qorunub saxlanması üçün xəlifəni hüququ kodlaşdırmağın vacibliyinə inandırdı. Bundan əlavə o, bu vəzifələri yerinə yetirəcək fəqihlər qrupunun seçilməsində xəlifəyə məsləhət verdi və bunun üçün digər bölgələrdən olan alimlərdən deyil, məhz iraqlı alimlərdən istifadə olunmasının vacibliyini güclü şəkildə əsaslandırdı.

İbn əl-Muqaffanın şəriətin roluna dair konsepsiyası onun mühafizəkar müasirlərinin konsepsiyasından fərqlənirdi. Ancaq onun şəriətdəki erkən dövr fiqh məktəbləri fəqihlərinin ziddiyyət təşkil edən şərhlərindən qaynaqlanan qarışıqlıq və uyğunsuzluqlara son qoymaq üçün şəriəti sistemləşdirmə və kodlaşdırma çağırışı nəticəsiz qaldı. O, iddia edirdi ki, şəriət xəlifənin bütün mülkündə tətbiq edilən vahid qanunvericilik rolu oynamalıdır. Lakin ideyalarının düzgünlüyünə başqalarını inandırmaqdakı uğursuzluğu, şəriətin siyasi hakimiyyətdən asılı olmayan və toxunulmaz bir fəqih hüququ olaraq görülməyə davam edəcəyi mənasına gəlirdi. Ancaq buna baxmayaraq, Abbasi rejimi İbn əl-Muqaffanın tövsiyələrinə əməl etməklə, çoxdan bəri İraq məktəbinin alimlərini səciyyələndirən məşhur fəqihlərin hakimiyyətə xidmətetmə istəksizliyini aradan qaldırmağa nail oldu.

İbn Hazm (ö. 1065): Yox olmazdan əvvəl, bir vaxtlar nüfuzlu Zahiri məzhəbi müsəlman İspaniyasında çiçəklənmə dövrü yaşamışdır. Ən məşhur və görkəmli Zahiri mütəfəkkir, digər fiqh məzhəblərinin təlimlərinə etdiyi sərt hücumlar zamanı bir çox düşmən qazanan güclü polemikaçı İbn Hazm idi. O, hədis ədəbiyyatının əksəriyyətinin mötəbərliyinə etiraz edərək, *qiyası* və onun ortaya qoyduğu qaydaları rədd etmişdir. İcmanı isə Peyğəmbərin (ə.s) səhabələriylə məhdudlaşdıraraq, Quran və Sünnədə açıq-aydın əmrlər olmadığı təqdirdə, bütün əməllərin dini qanunun maraq dairəsindən kənar hesab olunmasında təkid etmişdir.

İbn Hazm tərəfindən böyük səylə müdafiə edilən və sistemləşdirilən Zahiri məzhəbi ağılın dini hüquqda qərar qəbul etmənin bir parçası ola bilməyəcəyində israr edir.

Əl-Qəzali (ö. 1111): İslam intellektual tarixinin ən görkəmli simalarından biri olan əl-Qəzali şəriət təlimlərini öz ilahiyyat və fəlsəfi baxışları işığında araşdırdı. İslam ilahiyyatının əsaslarının arayışı ilə daha çox tanınmasına baxmayaraq, əl-Qəzali də Şafii fiqhi haqqında bir sıra əhəmiyyətli kitablar yazmışdır. Ən böyük əsəri "İhya ulum əl-din"də (Din elmlərinin ihyası) əl-Qəzali İslam təlimlərinin sintezinə nail olmağa və şəriətin dinin digər aspektləri ilə nisbətdə rolunu müəyyən etməyə çalışdı. Onun əsərini orta əsr islamında Sünni mühafizəkarlığın ən mükəmməl ifadəsi olaraq görmək olar.

İbn Teymiyyə (ö. 1328): Ən orijinal orta əsr fəqihlərindən biri Hənbəli İbn Teymiyyə idi. İbn Teymiyyə müsəlmanları erkən dövr fəqihlərinin şərhlərinə bağlayan təqlid təlimini sərt şəkildə tənqid etdi. O, ixtisaslı müsəlman mütəfəkkirlərin Quran, Sünnə və səhabələrin icmasına qayıtmaqda və onları yenidən şərh etməkdə sərbəst olduğunu iddia etdi.

İbn Qeyyim əl-Cevziyyə (ö. 1350): İbn Qeyyim əl-Cevziyyə İbn Teymiyyənin nüfuzlu bir davamçısı olmuşdur.

Muhammməd ibn Abd əl-Vahhab (ö. 1792): Ərəbistanda və başqa yerlərdə bir çox ardıcıllar qazanan Vəhhabi islahat hərəkatının lideri Muhammməd ibn Abd əl-Vəhhab İbn Teymiyyənin klassik fiqh məzhəblərinin hakimiyyətini rədd edən və təzə ictihada təkid edən fikirlərinə istinad etdi.

Əl-Şatibi (ö. 1388): Şəriət tələblərinin əsasını təşkil edən başlıca məqsədlərin müəyyənləşdirilməsi, onlara riayət edilməsi və bu tələblərin sosial ehtiyaclara cavab verəcək bir şəkildə şərh edilməsi ehtiyacı haqqında nəzəriyyələr Maliki fəqih əl-Şatibi tərəfindən işlənib hazırlanmışdır.

İbn Nucaym (ö. 1562): Bir Hənəfi fəqihi olan İbn Nucaym başlıca şəriət prinsipləri olaraq gördüyünü fiqhdə müəyyən edilmiş qaydaların tətbiqinin xüsusi nümunələrindən seçib ayırdı.

Avranqzib Alamqir (ö. 1707): Özü bir fəqih olmasa da, Moğol imperatoru Avranqzib Alamqir Hənəfi fiqhinin əhatəli toplusu məşhur "Fatava Alamqiriya"nın tərtibini sifariş etməklə islam hüquq tarixinə möhrünü vurmuşdur.

Muhammməd Abduh (ö. 1905): Muhammməd Abduh Misirin baş müftisi kimi xidmət göstərdi və bu səlahiyyəti çərçivəsində və islam hüququna dair yazılarında şəriətin rasionalist və liberal islahatçı şərhlərini təklif etdi. Abduhdan ilhamlanmış və şagirdi Rəşid Rıdanın rəhbərlik etdiyi nüfuzlu Sələfilik hərəkatı şəriətin Orta əsr fiqhinin tədqiqinə həsr olunmuş əsrlər ərzində inkişaf etmiş versiyalarından daha mötəbər saf bir versiyasına geri dönüşü müdafiə edirdi.

Abduhun yanaşmasının bir nümunəsi onun şəriətin çoxarvadlılığı qadağan etdiyinə dair məşhur arqumentində görülə bilər. Fəqihlər arasında çoxarvadlılığa ənənəvi dəstəyi rədd edərək, Abduh Qurana geri döndü və iki kritik ayəni yenidən şərh etməyi təklif etdi. Onun iddiasına görə, əvvəllər müxtəlif məsələlərə tətbiq edilsə də, bu iki ayəni birlikdə dəyərləndirmək lazım idi. Quranın 4,3 ayəsi ənənəvi olaraq bir kişinin eyni zamanda dördə qədər qadınla evlənməsinə icazə verəcək şəkildə şərh edilirdi. Ancaq eyni zamanda qadınlar arasında ədalətin qoruna bilinmədiyi təqdirdə yalnız biri ilə evlənilməsi istiqamətində mənəvi bir tədbir qərarı da istisna edilirdi. Bütün xanımlarına qarşı ədalətli davranmağın bir kişi üçün qeyri-mümkün olduğunu ifadə edən 4,129 ayə ənənəvi olaraq, çoxarvadlı bir ərə onun zövcələrindən birinə qarşı güclü sevgi və cazibə hiss etməklə günah işləmədiyinə

dair bir təskinlik kimi şərh edilirdi. Daha əvvəlki ayədə arvadlara qarşı bərabər ölçüdə ədalətlə davranma əmrinə caiz bir nikah üçün hüquqi bağlılığı olan bir şərt kimi yanaşaraq, Abduh axırıncı ayəni bu şərtin praktikada yerinə yetiriləməyəcəyinin sübutu kimi istifadə etdi. Belə ki, şəriətə görə heç bir çoxarvadlı nikah caiz ola bilməzdi.

Abduhun şəriət qaydalarını maarifləndirici sosial siyasət məqsədlərinə xidmət edəcək şəkildə şərhetmə təcrübəsinin geniş intellektual nəticələri oldu. Onun ideyaları bir çox Yaxın Şərq müsəlmanlarını XX əsrin birinci yarısında islam hüququna dair şərhlərində liberal siyasi, iqtisadi və sosial islahatlara yer verməyə təşviq etdi.

Muhammməd ibn Əl-Həsən Əl-Tusi (ö. 1067): On İki İmam Şiəsi fiqhinin əsas nümayəndələrindən olan Muhammməd ibn əl-Həsən əl-Tusi Şiə fiqhi prinsiplərinin klassik ifadələri sayılan bir sıra əsərlər yazdı.

Muhaqqiq Əl-Hilli (ö. 1277): Digər mühüm bir fəqih olan Muhaqqiq əl-Hillinin yazıları da həmçinin Şiə fiqhi prinsiplərinin klassik ifadəsi sayılmaqdadır.

Muhammməd Baqir Əl-Məclisi (ö. 1699): On İki İmam Şiəliyinin Əxbəri qolunun mühüm nümayəndəsi Muhammməd Baqir əl-Məclisi idi. O, fiqhin ensiklopedik ifadəsini ortaya qoymaqla yanaşı, həmçinin hakim olaraq xidmət etmiş və Səfəvilər hakimiyyəti dövründə ən güclü məhkəmə xadimi olmuşdur. Səfəvilər On İki İmam Şiəliyini İranın dövlət dini elan etdikdən sonra, o da, bir çox böyük Şiə fəqihləri kimi, Şiə ruhaniləri ilə dövlət arasında müvafiq siyasi münasibətləri müəyyən etməyə çalışdı. Əl-Məclisi ruhanilər üçün güclü, müstəqil bir siyasi rol təsəvvür etmişdir.

Murtada Ansari (ö. 1864): Oxşar dərəcədə tanınmış olan, lakin On İki İmam düşüncəsində çox fərqli tendensiyaları təmsil edən digər bir fəqih Murtada Ansari idi. XIX əsrdə İranda üs-tünlük təşkil edən Usuli məktəbinin bir nümayəndəsi olaraq o, Usuli mənbələr nəzəriyyəsinə dair başlıca risaləni yazdı. O, yazılarında hər bir qeyri-peşəkar insanın yaşayan fəqihlərin ən aliminin, marcai taqlidin fiqhi şərhlərini izləmək məcburiyyətində olduğuna dair fikirlər irəli sürdü və ictihadı ardıcılları üçün tamamilə bağlayıcı oldu. O, dövlət hüququnun şəriətin əsl maraq dairəsində olmadığı fikrini müdafiə etdi və əvəzində onun əxlaqi ölçülərini vurğuladı.

Qazi Əl-Numan (ö. 974): Ən mühüm İsmaili fəqih olan Qazi əl-Numan Fatimi imperiyasının ən yüksək hakimi olaraq xidmət etmiş və İsmaili hüququnun böyük bir risaləsini yazmışdır.

2.2. İslam hüququna dair mühüm əsərlər və əsas mövzular

İslam hüququna dair klassik fiqh əsərləri həmişə eyni olmasa da, oxşar mövzulara ayrılır. Bu əsərlər fərdin Allah qarşısında öhdəliklərinin sadalandığı çox geniş olan *ibadat,* yəni ibadətlərə dair bir bölmə ilə başlayır. Qalan mövzular isə *muamalat* kateqoriyasına aiddir və (tam olmasa da, nümunə bir siyahı olaraq) nikah, boşanma, qulların azad edilməsi, əhdlər, cəzalar, müsəlman ümmətiylə qeyri-müsəlmanlar arasındakı münasibətlər, xəzinə, itkin düşmüş şəxslər, tərəfdaşlıq, vəqflər, satış, zəmanət müqavilələri, borc ödənişləri, hakimlərlə bağlı qaydalar, dəlil, hüquqi iddialar, hüquqi öhdəliklərin qəbul edilməsi, hibə, icarə, qulların azadlığını alması, əmlakı qəsb etmə və ona zərər vurma, alış-veriş, vasitəçilik, əkinə yararlı torpaqların becərilməsinə dair müqavilələr, heyvanların kəsilməsi (yeyinti üçün), heyvan qurban etmə, xoş görülməyən adətlər, xam torpaqların becərilməsi, qadağan olunmuş içkilər, ovçuluq və yarış bəhsləri, mənəvi zərər, qan pulu (diyə) və cərimələr, vəsiyyətsiz vərəsəlik, vəsiyyətlər və s. mövzuları əhatə edir.

Tarixən, klassik fiqhdə şəriət hüququnun ən çox inkişaf etmiş sahələri şəriət məhkəmələrində qazilərin mübahisələrdə yurisdiksiyanı ən yaxşı həyata keçirə bildikləri sahələrə müvafiq gəlirdi. Digər sahələrdə isə hüquqi məsələlər dünyəvi məhkəmələr tərəfindən daha çevik prosedurlarla həll edilirdi.

Vəsiyyətsiz vərəsəlik və ailə hüququyla bağlı şəriət qaydaları şəriətin iki ən inkişaf etmiş sahələridir və bu mövzularda mübahisələrin həlli üçün şəriət məhkəmələrinə müraciətlər çox idi. Şəriət məhkəmələri dini ianələr (vəqflər) üzərində də vəkalət hüququna malik idi. Bu vəqflər ənənəvi İslam cəmiyyətlərində, xüsusi mülkiyyətin konsolidasiyası və qorunması üçün imkan yaradan və əksər hallarda məktəblər, xəstəxanalar, məscidlər və digər ictimai müəssisələr üçün maliyyə təminatı yaradan çox əhəmiyyətli hüquqi müəssisələr idi. Vəqflər tamamiylə ləğv edildikləri və ya onlarda əhəmiyyətli dərəcədə islahatların aparıldığı iyirminci əsrədək bu funksiyaları yerinə yetirməkdə davam etdilər.

Müqavilələrlə, xüsusilə də satış müqavilələri ilə bağlı şəriət hüququ da kifayət qədər genişdir. Bəzi şəriət müqavilə qaydalarının yerinə yetirilməsiylə bağlı çətinliklər, məsələn, faizin haram olması bəzi Hənəfi və Şafii fəqihlər tərəfindən hüquqi texniki istilahların (hiyal və ya "hüquqi hiylələr" deyə adlandırılır) məharətli şəkildə istismarı vasitəsilə çətin qaydalardan yayınmağa dair yardımçı bir hüquq ədəbiyyatı ortaya çıxarmışdır.

İslam hüququ ədəbiyyatının klassik dövrünü əhatə edən mühüm əsərlər aşağıdakılardır:

Qurani Kərim

Qurana dair ümumi təfsir kitabları.

Ehkam ayətlərinin təfsirinə dair *"Ahkamul Quran"* növlü əsərlər, "**Tahavi**, **Cassas**, **Kiya əl-Harrasi"** və "**Əbu Bəkr İbn əl-Ərəbi"**nin eyni adı daşıyan əsərləri mövcuddur.

Hz. Peyğəmbərin sünnəsi

Bütün hədis kitabları *Kutubi Sittə* Fiqh mövzularına görə tərtib edilən *"sünən"* növü kitablar hədislərdən fiqhi hökmlər çıxarma məsələsində birinci sırada gəlir. Bu təsnif dövrü mənbələrinin əsl qayəsi səhih hədisləri bir yerə toplamaq olmuşdur. Daha sonrakı dövrlərdə yazılmış məzhəb fiqhinə əsaslanan hədis kitabları isə aşağıdakılardır:

Tahavi

"Şərh Məani əl-asar"

Beyhaki

"*əl-Sunən əl-kubra*"

Səhih hədis mənbələrindən toplanan ehkam hədislərinə dair əsərlər:

İbn Hacər əl-Əskalani

"*Buluğ əl-məram"*

Şevkani

"*Neyl əl-əvtar"*

Fiqhə dair ilk əsərlər I (VII) əsrin sonlarıyla II (VIII) əsrin əvvəlində yazılmağa başlanmışdır. Bunlardan bu günə gəlib çatanlar aşağıdakılardır:

Suleym bin Qeys əl-Hilalinin bir əsəri, **Qatadə bin Diamənin** Həccə dair bir risaləsi, **Zeyd bin Əlinin** (ö. 122/740) Həccə dair bir risaləsi və **"***əl-Məcmu"* əsəri. Bu sonuncu əsər bu günə gəlib çatan ən qədim iki fiqh kitabından biridir. Kitab müxtəlif fiqh mövzularını əhatə edir.

II əsrin birinci yarısından etibarən fiqh məzhəbləri təşəkkül etməyə başlamış və məzhəb imamlarına aid baxışlara əsaslanan sistematik hüquqi mətnlər ortaya çıxmışdır. Bu ilk mətnlər və onlara əsaslanan əsas mətnlər və bunlar üzərinə yazılmış əsərlər aşağıdakılardır:

HƏNƏFİ MƏZHƏBİ

Əbu Hənifə (ö. 150/767)

Hənəfi məzhəbinin qurucusudur. Mühitində qarşılaşılan məsələlər və şəxsən özünə yönəldilən suallarla bağlı həyatı boyunca bir çox ictihad etməklə yanaşı, bunları yazmamış və ictihad metodunu açıqladığı hər hansı bir kitab da qələmə almamışdır. Ona aid edilən əsərlər, ümumiyyətlə, əqaidə dair əsərlərdir. Fiqhi məsələləri tələbələriylə müzakirə etdikdən sonra ortaya çıxan nəticələri onlara yazdırmışdır.

Muhammməd bin Həsən əl-Şeybani (ö. 189/805)

Əbu Hənifənin tələbələrindən biridir.

"*əl-Əsl* (əl-Məbsut)"

"*əl-Ziyadat"*

əl-Cami əl-kəbir"

"əl-Cami əl-səğir"
əl-Siyər əl-kəbir"

Əsərdə dövlətlər hüququna dair mövzular yer alır. Əsər **Şəmsuləimmə əl Sərahsi** tərəfindən şərh edilmişdir.

"əl-Siyər əl-səğir"

Bu əsərlər Əbu Hənifənin baxışlarına əsaslanaraq tərtib edildikləri və ondan da təvatür və şöhrət yoluyla nəql edildikləri üçün *"zahir əl-rivayə"* (əl usul) olarak anılmaqda və Hənəfi fiqhinin ilk və ən güvənilən mənbələrini təşkil etməkdədir.

Əbu Cəfər əl-Tahavi (ö. 321/933)

"əl-Muhtaşar"

Hənəfi məzhəbində məlumat kitabı mahiyyətində ilk əsərdir. Əsərdə Əbu Hənifə və iki tələbəsi Əbu Yusif ilə Şeybaninin baxışları xülasə şəkildə yer almaqda və bir müctəhid olan müəllifin öz baxış və seçimləri ifadə edilməkdədir.

Hakim əl-Şəhid (ö. 334/945)

"əl-Kafi"

Əsərdə Şeybaninin qeyd olunan altı kitabındakı baxışları tərtib edilmişdir.

Şəmsuləimmə əl-Sərahsi (ö. 483/ 1090)

"əl-Məbsut"

Hakim əl Şəhidin "*əl-Kafi"* əsərinin şərhidir. Hənəfi fiqhinin əsaslandırıldığı, bu məzhəbə aid baxışların dəlillərinin açıqlandığı və sistemli bir təhlilinin aparıldığı ilk və ən həcmli əsərdir.

Quduri (ö. 428/1037)

"*əl-Muhtaşar"*

Hənəfi məzhəbinin ən məşhur məlumat kitablarından biridir. Əsər Hənəfilər arasında İbn Əbu Zeyd əl-Qayravaninin əl Risaləsinə Maliki çevrələrində göstərilən hörmətə malikdir. Maliki məzhəbindən Xəlil bin İshaq əl-Cundinin Əl-Muhtaşarı kimi *"əl-Kitab"* deyə də anılmaqdadır.

Əsərin ən məşhur şərhləri:

Haddad

"əl-Cavharat əl-neyyirə"

"*əl-Sirac əl-vahhac"*

Meydani

"*əl-Lubab fi şərh əl-Kitab"*

Əlaəddin əl-Səmərqəndi (ö. 539/ 1144)

"*Tuhfətu əl-fukaha"*

Əsər Qudurinin *əl-Muhtaşarına* əsaslanaraq yazılmışdır. O dövrə qədər qələmə alınmış əsərlərdən fərqli bir sistematikaya malikdir.

Kasani (ö. 587/1191)

Səmərqəndinin tələbəsi olmuşdur.

"*Bədai əl-Sanai"*

Səmərqəndi`nin *"Tuhfətu əl-fukaha"* əsəri tərtib və metod cəhətdən nümunə götürülərək qələmə alınmışdır. Əsər Hənəfi tabaqat kitablarında *Tuhfənin* şərhi olaraq göstərilir. Klassik şərhlərə oxşamamaqda və həm məzmun, həm də metod cəhətdən fərqlənməkdədir.

Burhanəddin əl-Mərqinani (ö. 593/1197) Kasaninin müasiri olmuşdur.

"*Bidayetu əl-mubtədi"*

Əsər Şeybaninin əl-Cami əl-sağiri ile Kudurinin əl-Muhtaşarına əsaslanaraq yazılmışdır.

"əl-Hidayə"

Bidayətu əl-mubtədinin şərhidir.

Mutaahhirin dövrü Hənəfi uləması arasında ən çox rəğbət görən əsərlərdən ən mühümüdür. Əsərin nəşr olunmuş mühüm şərhləri aşağıdakılardır:

Cəlaləddin əl-Kurlani

əl-Kifayə"

Əkmələddin əl-Baberti

"əl-İnayə"

Bədrəddin əl-Ayni

"*əl-Binayə"*

İbn əl-Humam

"*Fəth əl-qadir"*

Əbu əl-Fəzl əl-Mavsili (ö. 683/1284)

"əl-Muxtar"

Mutaahhirin dövrü Hənəfi alimləri arasında şöhrət tapan iki əsərdən biridir. Əbu Hənifənin baxışlarına əsasən yazılmış bir ixtisardır. Müəllifi tərəfindən *əl-İxtiyar li təlil əl-Muxtar* adı altında şərh edilmişdir.

Muzaffəruddin İbn əl-Saati (ö. 694/1295)

"*Məcmə əl-bəhreyn"*

Mutaahhirin dövrü Hənəfi alimləri arasında məşhur olan iki əsərdən digəri. Qudurinin əl-Muhtaşarına və Əbu Hafs Nəcməddin əl-Nəsəfinin əl-Manzumatu əl-Nəsəfiyyəsinə əsasən yazılmışdır.

Əbu əl-Bərəkat əl-Nəsəfi (ö. 710/ 1310)

"*əl-Vafi"*

Şeybaninin "*Zahiru əl-rivayə"* kitabları ilə Tahavinin "*əl-Muhtaşar"*ı, Əbu Hafs əl-Nəsəfinin "əl-Manzuməsi", Mərginaninin əl-Hidayəsi və digər bəzi "nəvazil" və fətva kitablarından faydalanılaraq qələmə alınmışdır.

"*Kənz əl-daqaiq"*

"əl-Vafi" əsərinin ixtisarıdır. Əsərə dair ən mühüm şərhlər aşağıdakılardır:

Fəxrəddin əl-Zəylai

"Tabyin əl-haqaiq"

Bədrəddin əl-Ayni

"Rəmz əl-haqaiq"

Molla Miskin

"Şərh Kənz əl-daqaiq"

Zaynuddin İbn Nucaym

"əl-Bəhr əl-raiq"

Tacuşşaria (VIII/XIV əsr)

"*Viqayət əl-rivayə*"

Marginani'yə aid *əl-Hidayə* əsəri ixtisar olunaraq yazılmışdır. Əsərə yazılmış mühüm haşiyələr bunlardır:

Sadruşşaria əl-Sani

"Şərh əl-Viqayə"

"*əl-Nuqayə"*

Əsər "*Viqayə"*nin ixtisarıdır. Əsərə yazılmış ən mühüm şərh:

Kuhistani (ö. 950/1534)

"*Cami əl-rumuz"*

Ahizadə

"Zahirətu əl-uqba"

Qudurinin əl-Muhtaşarı, Nəsəfinin Kənz əl-daqaiqi və Tacuşşarianın əl-Viqayəsi Hənəfi uləması arasında "mutuni sələsə"; *Kənz əl-daqaiq* və *əl-Viqayə* ilə birlikdə Mavsilinin *əl-Muxtar* və İbn əl-Saatinin Məcmə əl-bəhreyni isə "mutuni ərbəə" kimi tanınır.

Molla Husrev (ö. 885/1480)

"Ğurar əl-ahkam"

"Durar əl-hukkam"

Əsər "*Ğurar əl-ahkamın*" şərhidir. Hənəfi məzhəbindəki mötəbər fikirlərə əsaslanılaraq yazılmışdır. XV və XVI əsrlərdə qələmə alınan iki mühüm mətndən biri sayılmaqdadır. Osmanlı Dövlətinin bir növ yan rəsmi hüquq külliyyatı olaraq rəğbət qazanmış, əsrlər boyu qazi, müfti və müdərrislərin müraciət etdiyi kitablardan olmuşdur.

İbrahim əl-Hələbi (ö. 956/1549)

"Multaqa əl-əbhur"

Əsər Qudurinin əl-Muhtaşarı ilə *əl-Muxtar*, *Kənz əl-daqaiq* və *əl-Viqayə* kimi mətnlərə əsaslanır. XV və XVI əsrlərdə qələmə alınan iki mühüm mətndən digəridir. Bu əsər də Osmanlı Dövlətinin bir növ yan rəsmi hüquq külliyyatı olaraq rəğbət qazanmış, əsrlər boyu qazi, müfti və müdərrislərin müraciət etdiyi kitablardan biri olmuşdur.

Əsərin şərhləri:

Şeyxzadə

"Məcmə əl-ənhur"

Əsər "Damad" adıyla məşhur olmuşdur.

Haskefi

"əl-Durr əl-muntaka"

Şəmsəddin əl-Timurtaşi (ö. 1004/1596)

"Tənvir əl-əbşar"

Hənəfi fiqhi sahəsində son dövrlərdə yazılmış bir mətn.

Əsərin şərhi:

Haskefi

"əl-Durr əl-muxtara"

Tahtavi

"Haşiyə alə əl-Durr əl-muxtar"

İbn Abidin (ö. 1252/1836)

"Rədd əl-muxtar alə əl-Durr əl-muxtar"

Əsər ilk dövrdən müəllifin dövrünədək qələmə alınmış, demək olar ki, bütün əsas Hənəfi mənbələrinə əsaslanması, hökmlərin əsaslandığı dəlillərin göstərilməsi, məzhəbdəki zəif, səhih və etimad edilən fikirlərə işarə edilməsi, daha əvvəl aydınlaşdırılmış bəzi mürəkkəb məsələlərin həll edilməyə çalışılması və əvvəlki əsərlərdə görünən xətaların düzəldilməsi cəhətdən əhəmiyyət daşımaqdadır.

Hənəfi fiqhinə dair X əsrdən etibarən ilk mənbələrdə verilən biliklərə əlavə olaraq daha sonra ortaya çıxan məsələlərə uləmanın tapdığı həllərin və verdiyi fətvaların yer aldığı bir çox başqa əsərlər də qələmə alınmışdır.

MALİKİ MƏZHƏBİ

İmam Malik (ö. 179/796)

"əl-Muvatta"

Əsər bu günə gəlib çatan ən qədim iki fiqh kitabından biridir. Əsər ibadət və hüquq sahəsindəki Sünnəni və buna əsaslanan Mədinə və ətrafının əməlini (aməl əhl Mədinə) ehtiva edir.

"*əl-Muvatta"*nın ilk iki rəvayətinə dair bir çox mühüm şərhlərdən bəziləri:

İbn Abdulbər əl-Nəməri

"əl-İstizkar fi şərhi məzəhibi uləma əl-əmsar əl-Tamhid lima fi əl-Muvatta min əl-məani va əl-əsanid"

Əbu əl-Vəlid əl-Baci

"əl-Muntaqa"

Cəlaləddin əl-Suyuti

"Tənvir əl-havaliq"

Muhammməd bin Abdulbaki əl-Zurqani

"Şərh əl-Muvatta"

Abdulhay əl-Laknavi

"əl-Taliq əl-muməccəd alə Muvattai Muhammməd"

Muhammməd Zəkəriyyə Kandəhləvi

"Əvcəz əl-məsəlik ilə Muvattai Malik"

Əsəd bin Furat

İmam Malikin tələbələrindən biri olmuşdur.

"əl-Əsədiyyə"

Əsər, İmam Malikin məşhur tələbələrindən olan İbn əl-Qasımdan nəql edilən İmam Malikin müxtəlif fiqh mövzularıyla bağlı baxışlarını və ictihadlarını ehtiva edir.

Abdussalam bin Səid əl-Tənuhi (ö. 240/854)

Sahnun ləqəbiylə tanınmışdır.

"əl-Mudəvənətu əl-Kubra"

Əsər Maliki fiqhinin "əl-Muvatta"dan sonra ikinci əsas mənbəyi sayılır. "əl-Əsədiyyə"nin təshih edilən və İmam Malikin digər tələbələrinin baxışlarının da əlavə edilərək fiqh mövzularına görə sistematik bir tərzdə təsnif edilən yeni nüsxəsi əsasında yazılmışdır.

Əsərin şərhləri:

İbn Əbu Zeyd əl-Kayravani

"əl-Nəvadir va əl-ziyadat Muhtaşar əl-Mudəvvənə"

Əbu Səid əl-Bərazii

əl-Təhzib fi ihtişari əl-Mudəvvənə

İbn Rüşd əl-Cəd (ö. 520/1126)

"əl-Muqaddimatu əl-muməhhidat"

"əl-Mudəvvənə"nin çətin hissələrinin açıqlanıb çatışmazlıqlarının aradan qaldırılması üçün qələmə alınmış bir əsərdir.

İbn Həbib əl-Suləmi (ö. 238/853)

Əndəlüslü fəqih olmuşdur.

"əl-Vazihə"

Əsər "*əl-Mudəvvənə"* nümunə götürülərək yazılmışdır.

Muhammməd bin Əhməd əl-Utbi (ö. 255/869)

Əl-Suləmi-nin tələbəsi olmuşdur.

"əl-Mustəxrəcə min əl-əsmia mimma leysə fi əl-Mudəvvənə"

Əsər qısaca "*əl-Utbiyyə"* adıyla tanınır.

Əsərin şərhləri:

İbn Rüşd əl-Cədd

"əl-Bəyan va əl-tahsil va əl-şərh va əl-tavcih va əl-talil fi əl-məsəil əl-Mustəxrəcə"

İbn əl-Məvvaz (ö. 269/ 883)

"əl-Məvvaziyyə"

Əsər Maliki məzhəbinin məşhur ilk mənbələrindən biridir. Günümüzə bəzi hissələri gəlib çatmışdır.

İbn Əbu Zeyd əl-Kayravani (ö. 386/996)

"Kiçik Malik" ləqəbiylə tanınır. Maliki fiqhini ixtisar etdiyi məşhur bir risalə yazmışdır.

Risaləyə yazılmış şərhlər:

İbn Naci

"Şərh alə Risaləti ibn Əbi Zeyd Əli bin Muhammad"

əl-Mənufi

"Kifayətu əl-talibi əl-rabbani"

Muhammad bin İbrahim əl-Tətai

"Tənvir əl-məqalə fi həlli əlfaz əl-Risalə"

Cəssus

"Şərh alə Risaləti ibn Əbi Zeyd"

Cəmaləddin İbn əl-Hacib (ö. 646/1249)

Əsərlərində Misir Malikiləri ilə Şimali Afrika Malikilərinin doktrinlərini şərh etmişdir.

"Cami əlummahət"

Maliki fiqhinin mühüm bir məlumat kitabı olan əsər "*əl-Muhtaşar" "əl-fəri"* olaraq tanınır.

Əsərin şərhləri:

Xəlil bin İshaq əl-Cundi

"əl-Tavzih"

Xəlil bin İshaq əl-Cundi (ö. 776/1374)

"əl-Muhtaşar"

Şimali Afrikada müəyyən dərəcədə əl-Muvatta və əl-Mudəvvənətu əl-kubranı əvəz edən bu əsər "*əl-Kitab"* adıyla tanınır.

Əsərə yazılmış şərh və haşiyələr:

Məvvaq

"əl-Tac va əl-iqlil"

Xəttab

"Məvahib əl-cəlil"

Əbdulbaki bin Yusif əl-Zurkani

"Şərhu Muhtaşari Xalil"

Xaraşi

"Şərhu Muhtaşari Xalil"

Dərdir

"əl-Şərh əl-kəbir"

İbn Asim əl-Qırnati (ö. 829/ 1426)

"*Tuhfətu əl-hukkam fi nukəti əl-ukud va əl-ahkam"*

Əsər "*əl-Asimiyyə"* adıyla tanınır. Maliki məzhəbinin digər məşhur bir məlumat kitabıdır.

Əsərə yazılmış şərhlər:

Muhamməd bin Əhməd əl-Fasi

"əl-İtqan va əl-ihkam"

İbn Sudə əl-Tavudi

"Haly əl-məaşim"

Əli bin Abdussəlam əl-Təsuli

"əl-Bəhiyyə"

Osman bin Məkki əl-Təvzəri

"Tavzih əl-ahkam"

İbn Rüşd əl-Hafid (ö. 595/1198)

Maliki fəqihi və filosofu.

"Bidayətu əl-muctəhid"

Əsər, Maliki məzhəbinin baxışlarıyla yanaşı, Şafii və Hənəfi məzhəblərinin, səhabə və tabiundan başlayaraq bir çox müctəhidin baxışlarının yer aldığı mühüm bir mənbə hesab olunur.

Əhməd bin Yəhya əl-Vənşərisi (ö. 914/ 1508)

"əl-Miyar əl-murib va əl-cami əl-muğrib an fətava ulamai İfriqiyyə va əl-Əndəlus va əl-Mağrib"

İmam Malikin tələbələrindən müəllifin öz dövrünə qədər Əndəlus və Şimali Afrikada Maliki uləmasının verdiyi fətvaların toplandığı bir əsərdir. Əsər Maliki fiqhi və praktikası cəhətdən mühüm əhəmiyyətə malikdir.

ŞAFİİ MƏZHƏBİ

İmam Şafii (ö. 204/ 820)

Yalnız fiqhi mövzulara dair baxışlarını deyil, digər məzhəb imam-larından fərqli olaraq, bunları əsaslandırdığı metodologiyasını (usul) da qələmə aldığı üçün usuli fiqhin qurucusu sayılmaqdadır.

"əl-Risalə"

İmam Şafiinin usuli fiqhə dair əsəridir.

"əl-Um"

İmam Şafiinin baxışlarının və bunların əsaslandığı dəlillərin yer aldığı ən həcmli əsəridir.

Yuxarıdakı hər iki əsər Şafiinin tələbəsi Rəbi bin Süley-man əl-Muradi tərəfindən rivayət edilmişdir.

Buveyti

Şafiinin iki məşhur tələbəsindən biri olmuşdur.

"əl-Muhtaşar"

Əsər əlyazma halındadır.

Muzəni

Şafiinin iki məşhur tələbəsindən digəri.

"əl-Muhtaşar"
*"əl-Um"*un kənarında çap olunmuşdur.
Əsərin şərhləri:
Mavərdi (ö. 450/1058)
"əl-Havi əl-kəbir"

Əsərdə Şafii məzhəbindəki baxışlar və ixtilaflarla yanaşı, digər məzhəblərin baxışları da təqdim edilərək müzakirə olunmuşdur.

İmam əl-Harəmeyn əl-Cuveyni (ö. 478/1085)

Qəzzalinin müəllimi olmuşdur.

Nihayət əl-mətləb fi dirayət əl-məzhəb

Əsərdə İmam Şafii və tələbələrinin baxışları toplanmışdır.

Qəzzali (ö. 505/1111)

"əl-Basit"

Müəlliminin *Nihayət əl-mətləb fi dirayət əl-məzhəb* əsərinin ixtisarıdır.

"əI-Vasit"

Əsər əl-Basitin ixtisarıdır.

"əl-Vəciz"

"*əl-Vasit"*in ixtisarıdır.

Əbu İshak əl-Şirazi (ö. 476/1083)

"*əl-Tənbih"*

"əl-Muhəzzəb"

Əsər İmam Şafiinin fiqhi baxışlarını və bunların əsaslandığı dəlillərlə birlikdə Şafiinin tələbələrinin və daha sonrakı tanınmış Şafii uləmasının baxışlarını ehtiva edir.

Əsərin şərhləri:

Nəvəvi

"əl-Məcmu"

Əbu Şuca əl-İsfahani (ö. 500/1107-dən sonra)

"Qayətu əl-ihtişar"
"əl-Muhtaşar"
"*əl-Taqrib"* adıyla da tanınır.

Əsərin şərhləri:

İbn Qasım əl-Qazzi

"Fəth əl-qarib əl-mucib fi şərhi əlfəz əl-Taqrib"

Xatib əl-Şirbini

"əl-iqna fi həlli əlfəzi Əbi Şuca"

Bu əsərlərdən birincisinə Bacurinin, ikincisinə isə Buceyriminin yazdığı və dəfələrlə çap olunmuş haşiyələr məşhurdur.

Rafii (ö. 623/1226)

"əl-Muharrər"

Əsər *əl-Vəciz* və digər bəzi əsərlər əsasında yazılmışdır.

"*Fəth əl-aziz"* (əl-Aziz)

Əsər "*əl-Vəciz*"in şərhidir. *əl-Şərh əl-kəbir* adıyla da tanınır.

İbn Həcər əl-Əsqəlani

"Təlxis əl-xəbir fi təxrici əhədis əl-Rafiiyyi əl-kəbir"

Nəcməddin əl-Qəzvini (ö 665/1266)

"əl-Havi əl-səğir"

Əsər "*əl-Vəciz*"in ixtisarıdır.

İbn əl-Muqri əl-Yəməni

"İrşad əl-ğavi fi (ilə) məsəlik əl-Havi"

Əsər *əl-Havi əl-səğirin* ixtisarıdır.

İxlas əl-navi fi irşad əl-ğavi

Əsər *İrşad əl-ğavi fi (ilə) məsəlik əl-Havinin* şərhi olub, xüsusilə Orta və Şimali Afrika, həmçinin Yəməndə böyük şöhrətə malikdir.

İbn Həcər əl-Heytəmi

"Fəth əl-Cəvad fi şərh əl-İrşad"

Əsər *İrşad əl-ğavi fi (ilə) məsəlik əl-Havinin* şərhidir.

Nəvəvi (ö. 676/1277)

Rafii və Qəzvininin müasiri olmuşdur. Müəllifin iki əsəri mutaaxxirin dövrü uləması arasında böyük rəğbət qazanmışdır.

"Ravzatu əl-talibin"

Əsər Rafiiyə aid *Fəth əl-azizin* ixtisarıdır.

"Minhəc əl-talibin"

Əsər Rafiiyə aid əl-Muharrərin ixtisarıdır.

Əsərin şərhləri:

Cəlaləddin əl-Məhəlli

"Şərh əl-Minhəc"

İbn Həcər əl-Heytəmi

"Tuhfətu əl-muhtac"

Xətib əl-Şirbini

"Muğni əl-muhtac"

Şəmsəddin əl-Rəmli

"Nihayətu əl-muhtac"

HƏNBƏLİ MƏZHƏBİ

Əhməd bin Hənbəl (ö. 241/855)

"Kitab əl-Salət"

"Kitab əl-Əşribə"

İbn Hənbələ aid edilən və günümüzədək gəlib çatmış kiçik həcmli risalələr.

"Məsəil"

Əsər İbn Hənbəlin fiqh, əqaid və əxlaqa dair suallara verdiyi cavablar toplanaraq yazılmışdır.

Əbu Bəkr əl-Həllal (ö. 311/ 923)

"Kitab əl-Cami"

Hənbəli məzhəbinin ilk böyük hüquq külliyyatıdır. Əsərdə Əhməd bin Hənbəlin fiqhi mövzulara dair baxışları bir yerə toplanmışdır. Əsər Taqiyyuddin İbn Teymiyyə və İbn Qayyim əl-Cevziyyə tərəfindən istifadə edilmişdir. Hicri VII əsrə (Miladi XIV əsr) qədər tam şəkildə mövcud olmuş əsərin günümüzədək yalnız kiçik bir hissəsi gəlib çatmışdır.

Qulam əl-Həllal

Əbu Bəkr əl-Həllalın tələbəsi olmuşdur.

"Zad əl-musafir"

Əsər Həllalın yarımçıq qoyduğu məsələlər bir yerə toplanaraq yazılmışdır.

Əbu əl-Qasım əl-Hiraqi (ö. 334/945)

Həllalın müasiri olmuşdur.

"əl-Muhtaşar"

İlk Hənbəli fiqh məlumat kitabıdır.

Əsərin şərhləri:

Əbu Yəla əl-Fərranın şərhi

Əbu Talib əl-Basri əl-Daririn şərhi

İbn əl-Bənna əl-Bağdadi

"əl-Muqni fi şərhi Muhtaşar əl-Hiraqi"

Muvaffaquddin İbn Qudamə

"əl-Muğni"

Əsərdə Hənbəli məzhəbindəki fərqli rəvayət və baxışlarla yanaşı digər məzhəb imamları, səhabə və tabiun müctəhidlərinin baxışlarına da geniş şəkildə yer verilmişdir. Əsər müqayisəli bir islam hüququ kitabı mahiyyətindədir.

Şəmsəddin əl-Zərkəşi

"*Şərhu Muhtaşar əl-Hiraqi"*

Əsər, Əhməd bin Hənbəldən gələn çox sayda rəvayəti nəql etməsi, qiymətləndirməsi, hər məsələdə məzhəbin baxışını qeyd etməsi və Hənbəli uləmasının fikirlərinə çox yer verməsiylə fərqlənir.

Əbu əl-Xəttab əl-Qəlvəzani (o. 510/1116)

Əbu Yəla əl-Fərranın tələbəsi olmuşdur.

əl-Hidayə fi əl-fiqh

Əsərdə Əhməd bin Hənbəldən nəql edilən fiqhi baxışlar yer almaqdadır.

İbn Qudamə (ö. 620/1223)

Hiraqinin əl-Muhtaşarına yazdığı əl-Muğni adlı şərhindən başqa, İbn Qudamənin Hənbəli məzhəbinin əsas mətnləri arasında yer alan əsərləri:

"əl-Umdə"

Müəllifin məzhəbdə seçmiş olduğu tək baxışa yer verdiyi müxtəsər bir kitabıdır.

"əl-Kafi"

Əsərdə fiqhi məsələlər müxtəlif rəvayət və dəlilləriylə birlikdə verilmişdir.

"əl-Muqni"

Müəllifin sonrakı Hənbəli uləması tərəfindən daha çox rəğbət görmüş əsəridir.

Əsərə yazılmış şərhlər:

Əbu əl-Fərəc İbn Qudamə əl-Maqdisi (ö. 682/1283)

"əl-Şərh əl-kəbir"

Şərhi:

Burhanəddin İbn Muflih

"əl-Mubdi fi şərh əl-Muqni"

Aləəddin əl-Mərdavi

əl-İnsaf fi mərifəti əl-racih min əl-xiləfə

Əsər *əl-Mubdi fi şərh əl-Muqninin* şərhidir.

əl-Tənqih əl-muşbi fi təhriri əhkəm əl-Muqni

Əsər *əl-İnsaf fi mərifəti əl-racih min əl-xiləfənin* ixtisarıdır.

Şəmsəddin İbn Muflih (ö. 763/1362)

"əl-Furu"

Əsərdə məzhəbdə üstün tutulan baxış qeyd edilmişdir. Bu baxışla bağlı ixtilaflar qeyd edilməklə yanaşı, digər məzhəblərin baxışlarına da yer verilmişdir.

Həccavi (ö. 968/ 1560)

"əl-İqna li-talibi əl-intifa"

Əsər dəlillərə yer vermədən daha əvvəlki uləmanın mənimsədiyi tək baxışa əsaslanaraq yazılmış ixtisardır.

"Zadu əl-mustaqni"

Əsər İbn Qudamənin əl-Muqnisinin ixtisarıdır.

Taqiyyuddin İbn əl-Nəccar əl-Futuhi

Həccavinin müasiri olmuşdur.

Muntəh əl-iradat fi cəmi əl-Muqni məa əl-Tənqih va əl-ziyədət Əsər, *əl-Muqni* və *əl-Tənqih əl-muşbi* birləşdirilərək bəzi əlavə və çıxarmalarla meydana gətirilmiş digər mühüm bir məlumat kitabıdır.

Buhuti (ö. 1051/1641)

"Kəşşaf əl-qına an əl-iqna"

Əsər əl-İqnanın şərhidir.

əl-Ravz əl-murbi

Əsər Zad əl-mustaqninin şərhidir.

"Dəqaiqu ul əl-nuha li-şərh əl-Muntəhə"

Əsər Muntəhəi-iradatın şərhidir.

Osman bin Əhməd əl-Nəcdi

"Hidayətu əl-raqib"

Əsər Buhutinin "*Umdətu əl-talib"* adlı əsərinin şərhidir.

Məri bin Yusif əl-Kərmi (ö. 1033/1624)

Son dövr Hənbəli müctəhidlərindən olmuşdur.

Qayətu əl-muntəhə fi əl-cəm beynə əl-İqna va əl-Muntəhə

Əsərdə *əl-İqna* və *Muntəhəi-iradat* bir yerə toplanmışdır.

Dəlil əl-talib li-neyl əl-mətalib

Əsər son dövrün məşhur məlumat kitablarından biri sayılır.

Əsərə yazılmış şərhlər:

İbn Əbu Tağlib

"Neyl əl-məarib"

İbn Duvayyan

"Mənar əl-səbil"

Son iki şərh **Əli Abdulhəmid Baltaci** və **M. Vəhbi Süleyman** tərəfindən *əl-Mutəməd fi fiqh əl-İmam Ahməd* adı altında tək kitab halına salınmışdır. *əl-İqna*, *Dəlil əl-talib*, *Şərhu Muntəhə əl-iradat* və *əl-Ravz əl-murbi* Səudiyyə Ərəbistanında ali təhsil müəssisələrində dərs kitabı kimi tədris olunur.

ON İKİ İMAM ŞİƏSİNİN CƏFƏRİ FİQH MƏZHƏBİ

Şiə məzhəbinin böyük bir qisminin bağlı olduğu Cəfəri fiqh məzhəbinin klassik fiqh ədəbiyyatı aşağıdakı əsərləri ehtiva edir.

Hz. Peyğəmbərin (ə.s) sünnəsi və İmamlardan gələn xəbərlər

Bunlar birlikdə Şiə fiqhinin Qurandan sonra ikinci mənbəyini təşkil etməkdədir.

Kuleyni (ö. 329/941)

"əl-Kafi"

İbn Babəveyh əl-Qummi (ö. 381/991)

"Mən lə yəhduruhu əl-fəqih"

Əbu Cəfər əl-Tusi (ö. 460/ 1067)

"əl-İstibsar"

"Təhzib əl-əhkəm"

Yuxarıda qeyd olunan bu dörd əsər Cəfəri fiqh məzhəbində, Sünni dünyasında "Kutubi Sittə"nin malik olduğu əhəmiyyəti daşımaqda və "Kutubi Ərbəə" olaraq tanınmaqdadır. Bunlara aşağıdakıları da əlavə etmək olar:

Feyzi Kaşani

"əl-Vafi"

Hur əl-Amili

"Vəsəil əl-Şiə"

M. Taqi əl-Məclisi

"Bihar əl-ənvar"

M. Taqi Nuri

"Mustədrək əl-Vəsəil"

İbn Əbu Ukayl əl-Hazza (ö. 369/979)

"əl-Mustəmsək bi həbli Ali əl-rəsul"

İbn əl-Cuneyd əl-İskafi (ö. 381/991)

"Təhzib əl-Şia li əhkəm əl-Şəria"

Yuxarıda qeyd edilən iki əsər ilk fiqh mənbələrindən olub, sonrakı əsərlərdə bunlara istinad edilməkdədir.

Şeyx Mufid

"əl-Muqnia"

Şərif əl-Murtaza

"əl-İntisar"

Əbu əl-Salah əl-Hələbi

"əl-Kafi fi əl-fiqh"

Bu üç müəllif Cəfəri fiqhində "Kəlamçılar dövrü"nün üç mühüm siması sayılmaqdadır.

Şeyxuttaifə Əbu Cəfər əl-Tusi (ö. 460/1067)

Sünni fiqhindən faydalanaraq və ondan iqtibaslar gətirərək Cəfəri fiqhini sistem və məzmun cəhətdən müstəqil hala gətirmişdir.

"əl-Məbsut"

"əl-Nihayə"

Əsər əsrlər boyu ən mühüm mətn olaraq rəğbət qazanmışdır.

"Təhzib əl-əhkəm"

Əsər müəllimi Şeyx Mufidin "əl-Muqnia"sının şərhidir.

Muhaqqiq əl-Hilli (ö- 676/1277)

Əxbəri və usuli metodlarını müəyyən ölçülər çərçivəsində uzlaşdıran Tusinin əsərlərini sistemləşdirmişdir.

"Şəraiu əl-İslam"

Əsərin şərhləri:

Həsən bin Muhammməd əl-Nəcəfi

"Cəvahir əl-kəlam"

Şəhidi Sani

"*Məsalik əl-əfham"*

"əl-Muhtasar əl-Nafi"

Əsər "*Şəraiu əl-İslam"* əsərinin ixtisarıdır.

"Nukətu əl-Nihayə"

Əsər Tusinin "*əl-Nihayə"* əsərinin şərhidir.

İbn əl-Mutahhar əl-Hilli (ö. 726/1325)

Hillinin tələbəsi olmuşdur. Tusinin yazdıqlarını sistemləşdirməyə, onun Sünni fiqhindən aldıqlarını Şiə fiqhi prinsipləriylə birləşdirməyə və çatışmazlıqlarını tamamlamağa çalışmışdır.

"Muxtəlaf əl-Şia"
"Təzkirətu əl-fuqaha"
"Qavaid əl-əhkəm"
"İrşad əl-əzhan"
"Tahrir əl-əhkəm"
"Muntəh əl-mətləb"

Şəhidi Əvvəl (ö. 786/1384)

Sünni fiqhindən iqtibaslar gətirmədən Cəfəri fiqhini sistemləşdirməyə çalışmışdır.

"əl-Qavaid va əl-fəvaid"
"əl-Lumatu əl-Dimaşqiyyə"

Əsərin şərhləri:

Şəhidi Sani (ö. 966/1558)

"əl-Ravzatu əl-behiyyə"
"əl-Əlfiyyə"

Əsərin şərhləri:

Şəhidi Sani (ö. 966/1558)

"əl-Maqasid əl-aliyyə"

Cəfəriliyin dövlətin rəsmi məzhəbi halına gəldiyi Səfəvilər dövrünün mühüm əsərləri:

Əli bin Hüseyn əl-Kərəki (ö. 940/ 1533)

Cəfəri fiqhinin əsaslandırılmasında böyük rolu olmuşdur.

"Camiu əl-maqasid"

Əsər "*Qavaid əl-əhkəm*"in şərhidir.

"Taliq əl-İrşad"

Əsər "*İrşad əl-*əzha"nın şərhidir.

"Fəvaid əl-Şərai"

Əsər "Şəraiu əl-İslam"ın şərhidir.

Əhməd bin Muhammməd əl-Ərdəbili (ö. 993/1585)

Bu dövrün ikinci mühüm şəxsiyyəti olmuşdur. Usuli metodunu cəsarətlə müdafiə edib inkişaf etdirmiş və şəxsi ictihadlar irəli sürmüşdür.

"Məcməu əl-faidə va əl-burhan"

Əsər "*İrşad əl-əzhan*"ın şərhidir.

"Zubdətu əl-bəyan"

Muhammməd Bagir əl-Səbzəvari

"Zahirətu əl-məad"

Əsər "*İrşad əl-əzhan"*ın şərhidir.

"Kifayətu əl-əhkəm"

Muhammməd Əmin əl-Astarabadi (ö. 1036/1626)

Bu dövrün üçüncü mühüm şəxsiyyəti sayılır. Şəri dəlil olaraq əqli dəlil axtarışına qarşı çıxmış və bütün hədislərin səhih olduğunu, bunları fiqhin əsasları olaraq irəli sürmüş və əxbəri məktəbini yenidən canlandırmışdır.

Feyzi Kaşani

"Məfatih əl-Şərai"

Bahrani

"əl-Hədaiqu əl-nadira"

Hur əl-Amili

"Bidayətu əl-hidayə"

Muhammməd Bagir əl-Bihbəhani (ö. 1206/1791)

Əxbəri məktəbinin 150 illik hakimiyyətini əhəmiyyətli dərəcədə zəiflədərək usuli fiqhə yenidən canlılıq qazandırmışdır.

"Məşabih əl-zalam"

Əsər "*Məfatih əl-şərai"*nin şərhidir.

Bəhrululumi Tabatabai

"əl-Məsabih"

Kaşifulqıta

"Kəşf əl-ğıtai"

Əhməd əl-Nəraqi

"Mustənəd əl-Şia"

"Mənahic əl-əhkəm"

Həsən bin Muhammməd əl-Nəcəfi

"Cəvahir əl-kəlam"

Əsər "*Şəraiu əl-İslam*"ın şərhidir.

Cəfəri fiqhinin günümüzə qədər gəlib çatan son dövr mühüm əsərləri:

Şeyx Murtaza əl-Ənsari (ö. 1281/1864)

Fiqh və usulunu birləşdirərək yeni bir çığır açmışdır.

"əl-Məkasib"

Muhammməd Kazım əl-Şərif əl-Tabatabai

"əl-Urvətu əl-vusqa"

Əbu əl-Həsən əl-İsfahani

"Vasilətu əl-nəcat"

Muhsin Həkim əl-Tabatabai

"Mustəmsəku əl-Urvətu əl-vusqa"

DİGƏR MƏZHƏBLƏR

ZEYDİYYƏ

Zeyd bin Əli (ö. 122/740)

Hz. Hüseynin nəvəsidir. Zeydiyyə məzhəbi onun adıyla bağlıdır.

"əl-Məcmu" (Məcmu əl-fiqh)

Günümüzə qədər gəlib çatmış ən qədim fiqh kitabı olaraq qəbul edilir.

Hüseyn bin Əhməd əl-Həymi əl-Səyaqi (ö. 1221 /1806)

"*əl-Ravz əl-nadir şərhu Məcmu əl-fiqh əl-kəbir"*

Əsər "*əl-Məcmu"*nun şərhidir.

Həsən bin Muhamməd əl-Nəhvi (ö. 791/1389)

"əl-Təzkirətu əl-faxirə fi fiqh əl-itrəti əl-tahira"

Əsər Zeydiyyə məzhəbində mühüm bir məlumat kitabı olaraq qəbul edilir.

Mehdi Lidinilləh (ö. 840/1437)

"əl-Əzhar fi fiqh əl-əimməti əl-əthar"

Əsər başlıca olaraq *əl-Təzkirətu əl-faxirə fi fiqh əl-itrəti əl-tahira* əsəri əsasında yazılmışdır. Daha sonra böyük rəğbət qazanmış və Zeydiyyə məzhəbinin əsas kitabı halına gəlmişdir.

"əl-Ğaysu əl-midrar əl-mufəttih li-kəmaim əl-Əzhar"

Əsər "*əl-Əzhar fi fiqh əl-əimməti əl-əthar"*ın şərhidir.

"*əl-Bəhr əl-zəhhar"*

Zeydiyyə məzhəbiylə yanaşı əshab, tabiun, Əhli beyt və digər fuqahanın baxışlarına yer verən mühüm bir mənbə hesab olunur.

İbn Miftah

"əl-Muntəzə əl-muxtar min əl-Ğays əl-midrar"

Əsər əl-Ğays əl-midrar əl-mufəttih li-kəmaim əl-Əzharin ixtisarıdır.

Şevkani

"əl-Seyl əl-cərrar əl-mutədəffiq alə hədaiq əl-Əzhar"

Əsər "*əl-Əzhar fi fiqh əl-əimməti əl-əthar"*ın şərhidir.

Əhməd bin Qasım əl-Ənsi

"əl-Tac əl-muzhəb li-əhkəm əl-məzhəb"

Əsər "*əl-Əzhar fi fiqh əl-əimməti əl-əthar"*ın şərhidir.

İSMAİLİYYƏ

Qazi Numan (ö. 363/974)

"Dəaim əl-İslam"

İsmailiyyə Şiəsinin əsas fiqh kitabıdır.

"*əl-İxtisar"*

ZAHİRİYYƏ

İbn Hazm (ö. 456/ 1064)

"əl-Muhəllə"

Zahiriyyə məzhəbinin baxışlarını özündə cəmləşdirən ən mühüm əsərdir.

Muhamməd əl-Muntasır əl-Qəttani

"Məvsuatu taqribi fiqhi İbn Hazm əl-Zahiri"

Əsərdə İbn Hazma aid fiqhi baxışlar xülasə şəklində və ensiklopedik bir tərzdə tərtib edilmişdir.

İBADİYYƏ

Xaricilərin bir qoludur.

Amir bin Əli əl-Şəmmahi (ö. 792/1389-90)

"Kitab əl-İzah"

İbadiyyə məzhəbinin əsas fiqh kitablarından biridir. Şimali Afrika İbadiləri ilə yanaşı, Oman və Zəngibar İbadiləri də bu əsərə böyük əhəmiyyət verirlər.

Əbduləziz əl-Səmini (ö. 1223/1808)

Əlcəzairin cənubundakı Vadi Mizabda İbadilərin lideri olmuşdur.

Kitab "əl-Nil va şifa əl-alil"

Əlcəzair İbadilərinin əsas mənbəyidir. Daha əvvəlki İbadi əsərləri əsasında qələmə alınmışdır.

Əttafəyyiş

"Şərhu Kitab əl-Nil"

Əsər *Kitab "əl-Nil va şifa əl-alil*"in şərhidir.

Fiqh elminin qollarını əmələ gətirən xüsusi mövzular aşağıdakı başlıqlar altında tədqiq edilmişdir:

- Dövlət idarəçiliyi və dövlət hüququ

əl-əhkəm əl-sultaniyyə, siyasəti şəriyyə

- Məhkəmə hüququ

ədəb əl-qadi

- Ümumi qaydalar və oxşar məsələlər arasındakı müştərək və fərqli hökmlər

əl-əşbəh va əl-nəzair, furuq

- Vərəsəlik hüququ

fəraiz

- Müxtəlif dini və hüquqi suallarla bağlı cavablar

fətva

- Məzhəblərarası müqayisəli hüquq

ilmi xilaf

- Daha çox gündəlik həyatda qarşılaşan çətinliklər səbəbilə dini əmr və qadağalara riayət etməyənlərin, bu əməlləri görünüş cəhətdən hüquqa uyğun bir əməliyyat vasitəsilə həyata keçirmələri

hiyəl

- Ümumi bələdiyyə və polis xidmətləri

hisbə

- Beynəlxalq münasibətlər hüququ

siyər

- Hüquqi sənədlər

şurut va sicillət

- Dövlət maliyyəsi

Kitab əl-Xərac, Kitab əl-Əmval

Bu mövzulardakı əsərlər əksər hallarda eyni adı daşımaqla yanaşı, bəzən fərqli adlarla da qələmə alınmışdır.

III FƏSİL

İSLAM HÜQUQUNUN TƏNZİMLƏDİYİ HÜQUQ SAHƏLƏRİ VƏ TƏNZİMLƏMƏNİN XÜSUSİYYƏTLƏRİ

3.1. Ailə, əmlak, vərəsəlik, ticarət, maliyyə və təsərrüfat hüququ

Ailə quruluşu – Quranda, islam mədəniyyətində, əxlaqında və şəriət ehkamında diqqəti cəlb edən məsələlərdən biridir. İslam heç bir ictimai hüquqa malik olmayan, kölə olan qadınların Allah Təalanın göstərişinə müvafiq olaraq kişilərlə bərabər hüquqa malik olduqlarını bəyan etdi.

«Allahın (maddi, yaxud mənəvi cəhətdən) birinizi digərinizdən üstün tutduğu (birinizə digərinizdən artıq verdiyi) şeyi (özünüzə) arzulamayın. Kişilərin öz qazandıqlarından öz payı, qadınların da öz qazandıqlarından öz payı vardır. (Dilədiyiniz şeyi) Allahın lütf və mərhəmətindən istəyin! Şübhəsiz ki, Allah hər şeyi olduğu kimi biləndir» (“Ən-Nisə” surəsi, 32-ci ayə).

«Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi və mərhəmət yaratması da Allahın qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır» (“Rum” surəsi, 21-ci ayə).

İslamda ailə - nikah münasibətlərini təsvir etmək, bu münasibətlərin islamın başlıca mənbələri olan Quran və hədislərdə necə qoyulduğunu izah etmək və bu mənbələrin məsələ ilə bağlı tövsiyələrinə, əmr və qadağalarına hansı qaydada riayət etmək müsəlman ailə hüququnun əsas prinsipi olmuşdur.

İslamda və onun hüquq sistemində “Ailə cəmiyyəti” özünəməxsus həqiqətə və xüsusi hökmlərə malikdir. Cəmiyyət müxtəlif ailələrin birləşməsindən yaranır və bu iki təşkilatın hər birinin səadəti digərindən asılıdır. Məhz bu baxımdan, müsəlman ailə hüququnda ailələrin islah olunması yüksək qiymətləndirilmiş, bu işin icrasında ailənin hər bir üzvünün vəzifəsi təfsilatı ilə bəyan edilmiş, həmin qaydalara əməl olunub diqqət yetiriləcəyi təqdirdə, onların səadət və müvəffəqiyyətlərinə zəmanət verilmişdir.

Müsəlman hüququna əsasən, ailə kişi ilə qadın arasında nikah bağlanması nəticəsində qurulur. Nikah elə bir qanuni aktdır ki, ona əsasən kişi ilə qadın öz üzərlərinə birinin digərinə münasibətində şəriətdən irəli gələn bir sıra ictimai iltizamlar götürür.

Şəriət qaydasına əsasən, nikah elə bir müqavilədir ki, qadın nikahla bağlandığı kişi üçün daha naməhrəm, haram sayılmır.

Müasir müsəlman hüquq alimlərinin fikrincə, nikah kişi ilə qadın arasında birgəyaşayışı və onların biri-biri ilə ünsiyyətlərini halal edən, onlardan hər birinin hüquq və vəzifələrini müəyyən edən əqddir.

Nikah (əqd) məfhumunu şəriət müəyyən qaydalarla nizama salır. Müsəlman hüququna əsasən, kişinin və qadının razılığı nikah bağlamaq üçün kifayət deyildir. İstər daimi, istərsə də müvəqqəti nikah üçün kəbinkəsmə düsturu oxunmalı və nikah müqaviləsi bağlanmalıdır.

Kəbinkəsmə düsturunu bəylə gəlin, yaxud da onların vəkil etdikləri şəxslər oxuyurlar. Həm kişilər, həm də qadınlar onların vəkili ola bilərlər. Nikah müqaviləsi bağlamazdan əvvəl tərəflər arasında müəyyən şərtlərə riayət edilməsi tələb olunur. Bir qayda olaraq kəbinkəsmə düsturunu əvvəlcə gəlin, sonra isə bəy oxuyur. Vəkil edilmiş şəxslər də düsturu eyni qaydada təkrarlayırlar. Belə ki, əvvəlcə onu gəlinin vəkili, sonra isə bəyin vəkili tələffüz edir. Müsəlman ailə hüququna əsasən, həddi-buluğa çatmış və könüllü nikaha daxil olan şəxslərin nikaha salınmasının bəyənilməsi, qəbul edilməsi zəruridir. Evlənən tərəflər nikah həddinə çatmalı, məcburiyyət əsasında olmamalıdır. Nikahın qazi tərəfindən qeyd edilməsi anında şahidlər evlənənlərin arasında oturub hər iki tərəfin iradə ifadələrinin özlərinin həqiqi iradələri olmasına nəzarət etməlidir.

Eyni zamanda, razılığa əminlik üçün nümayəndədən də istifadə etmək olar. Belə ki, kişi öz nümayəndəsini, qadın da öz nümayəndəsini göndərir, hər ikisinin nümayəndələri şərtlərini bir-birinə çatdırır, razılıq əldə etdikdə onlar evlənirlər.

Nikah müqaviləsi bağlamaq üçün şəriət dörd şərtə riayət olunmasını tələb edir.

1. Kəbinkəsmə düsturu düzgün tələffüz edilməlidir.
2. Düsturu oxuyanlar (bəy, gəlin və ya onların vəkil etdikləri şəxslər) yetkinlik yaşına (həddi-büluğa) çatan və anlaqlı olmalıdır.
3. Düstur tələffüz edilərkən gəlinin və bəyin adları çəkilməlidir.
4. Bəylə gəlin nikaha məcburiyyət qarşısında deyil, könüllü razı olmalıdırlar.

İslamın etika və əxlaq normaları cavan qızlar üçün psixoloji sədd yaradır. Məhz bu baxımdan nikah müqaviləsi prosesində vəkillərin iştirakı vacibdir.

Şəriətdə mülayim şəkildə də olsa, gəlini atasından və ya ata tərəfdən, babasından asılı vəziyyətə salan xüsusi bir qayda vardır. Yetkinlik yaşına çatmış bakirə qız kəbin kəsdirmək üçün atasından və ya ata tərəfdən babasından icazə almalıdır. Bu da onunla izah olunur ki, gənc ailənin gələcəyi üçün onun buna böyük ehtiyacı vardır. Əgər qızın atası, babası yoxdursa və bakirə deyildirsə, o, bu adamların razılığı olmadan kəbin kəsdirə bilər. Bu zaman da vəkillərin iştirakı vacibdir.

Müsəlman ailə hüququna görə bütün möminlər - istər kişi, istərsə də qadın onlar üçün haram hesab olunan kənar şəxsə baxmamalıdır, qadınlar özlərini haram şeylərdən gizlətməli, zahiri bəzəkləri istisna olmaqla daxili bəzək və zinət şeyləri, bədənlərinin açıq yeri kənar kişilərə görünməməli, kişilərin diqqətini cəlb edəcək hərəkətlər etməməlidirlər.

Həddi-büluğa çatmış kişinin üzünə, hətta azyaşlı qız uşağının üzünə şəhvətlə baxmaq olmaz. Şəriət qaydasına əsasən, qadının gizli yerlərini ancaq onun ailəsi görə bilər.

Bir sözlə, nikaha ehtiyacı olan və onun şərtlərinə riayət edən hər bir müsəlman evlənə bilər. Yalnız nikaha ehtiyacı olmayanlar – xədim, anadangəlmə cinsi qüsurlara malik olanlar evlənməyə bilərlər.

Hər bir müsəlman üçün atasının arvadı, anası, qızları, bacıları, xalaları, analıqları, valideynlərinin ana, nənə, ulu nənə və onların bacıları, bacı və qardaş qızları, arvadının anası, arvadının yanında gətirdiyi qızlara evlənməsi haram hesab edilmişdir. Həmçinin, ərli qadınlarla evlənmək böyük qəbahət hesab olunaraq qadağan edilir. Hər bir müsəlmana dörd arvad almağa icazə verilsə də, iki bacını eyni zamanda alıb saxlamağa yol verilmir, yalnız nikahda olan bacı öldükdən və yaxud boşandıqdan sonra digər bacını almaq olar. Kişinin bir neçə qadınla evlənməsi digərlərinin razılığı ilə olmalıdır. Bu, həm də onunla izah edilir ki, həmin dövrlərdə illərlə davam edən müharibələrdə kişilər kütləvi surətdə qırılırdılar. Bu baxımdan, müəyyən şərtlərə əməl etməklə dörd qadınla evlənməyə icazə verilirdi.

Şəriətə görə müsəlman qadının başqa din əhlinə getməyə ixtiyarı yoxdur. Müsəlman kişinin başqa din əhli ilə evlənməyə ixtiyarı vardır. Belə ki, həmin qadınlar gələcəkdə islamı və onun şərtlərini gərək qəbul etsin.

Evlənmə zamanı kişi qadına mehr verməlidir. Mehrin miqdarı evlənən tərəflər, onların nümayəndələri tərəfindən müəyyən edilir, əgər müqavilə ilə nəzərdə tutulmuş məbləğ ödənilməzsə, qadın nikahdan imtina etməyə haqlıdır. Mehr qadına verilmədən kişinin və yaxud da onun nümayəndəsinin əlində tələf olarsa, əvəzi verilməlidir, qadının öz əlində tələf olarsa, əvəzini tələb etməyə haqlı deyildir. Yaxud mehr olaraq verilməsi müqavilə ilə şərtləşdirilmiş əşyaların yarısı verilməzsə, yaxud şəxs ölərsə, müqavilə pozulmuş sayılır.

Şəriət qaydalarına əsasən, həddi-büluğa çatmamışla nikaha daxil olunarsa mehr hökmən verilməlidir. Əvvəllər ərdə olmuş qadınla evləndikdə isə qadının öz razılığı ilə ona başlıq ver-mədən də evlənmək olar. Belə razılıq əldə edilib evləndikdən sonra qadının mehr tələb etmək haqqı yoxdur.

Kəbin kəsilərkən ərin nikah əlaqələrinə girmək müqabilində arvadına verdiyi mala mehr deyilir. İslama görə, mehr vacib sayılır, çünki Quranda deyilir ki, “Qadınlarınızın mehrlərini könül xoşluğu ilə verin!”, “Biz onların zövcələri barəsində nə hökm etdiyimizi, əlbəttə, bilirik!”.

Bir çox islamşünaslar qadına veriləcək mehri yaş həddi ilə əlaqələndirirlər. Şəriət qaydaları isə bunu inkar edir. Çünki nikah müqaviləsi bağlamaq üçün müəyyən olunan yaş həddi vardır ki, bəzən ilahiyyatçılar da bunu fərqli izah edir.

Müsəlman ailə hüququnda yetkinliyin müəyyən edilməsi də şəriətin tələb etdiyi şərtlərdən biridir.

Müsəlman hüququ doktrinasında hamı üçün eyni şəkildə müəyyən edilmiş nikah yaşı dəqiqləşdirilməmişdi. Bu məsələyə müxtəlif ölkələrin müsəlman əhalisinin hüququ adət və ənənələri də öz güclü təsirini göstərmişdir və bununla əlaqədar müxtəlif hüquq məktəblərinin ardıcıllarında da mühüm fərqlər aşkar edilir. Belə ki, fiqh bir sıra hallarda nikah yaşını kişilər üçün - 15, qadınlar üçün isə - 13 yaş müəyyən etmişdir, digər hallarda isə şəxsin fizioloji amillərinin üzə çıxmasına həlledici əhəmiyyət verirdi.

Məşhur mütəfəkkir, alim və fəqih İbn Rüşd yazırdı ki, həddi-büluğ yetkinliyə çatmaqla yetişir və onun vaxtı barədə ixtilaf olmamalıdır. Hüdudların ən çoxu 18 yaş, ən azı 15 yaş arasındadır. Beləliklə, demək olar ki, şəriət baxımından oğlanın yetkinlik, qızın isə heyz yaşına yetişməsi onların bioloji yetkinliyinə dəlalət edir, bu isə öz növbəsində onların nikah yaşına yetişdiklərini bildirir.

Fiqh alimləri nikah yaşını müsəlmanın əqli yetkinliyi, onda öz hərəkət və davranışının nəticələri üçün məsuliyyət hissəsinin formalaşması ilə əlaqələndirir və bu yaşı həddi-büluğ, həddi-təklif, həddi-idrak kimi qaydalarla ifadə edirlər.

Nikah onu bağlayan tərəflər üzərinə həm biri-birinə münasibətdə, həm də bu nikahdan əmələ gələcək uşaqlara münasibətdə müəyyən öhdəliklər, o cümlədən iqtisadi və mənəvi hüquq və vəzifələr qoyur. Odur ki, islam nikahın hüquqi cəhətdən qeyd olunmasını zəruri hesab edir. Əslində nikahı halal edən də elə onun bu hüquqi qeydiyyatıdır, yəni kəbin kəsilməsidir. Lakin islamda kəbinin qanuni sayılması üçün onun hökmən qazi, yaxud fəqih tərəfindən kəsilməsinə ehtiyac yoxdur, bunun üçün yetkinlik yaşına çatmış oğlan və qızın atalarının, yaxud himayələrində olduqları adamların razılığı və iştirakı ilə, eyni zamanda iki şahid yanında evlənmələrinə razılıq vermələri və şəriət baxımından zəruri sayılan bütün şərtlərə əməl etmələri kifayətdir.

İslamda nikahın iki əsas forması məlumdur: daimi nikah (bütün müsəlmanlar arasında) və müvəqqəti nikah (siğə).

Qeyd edildiyi kimi, daimi nikah barəsində islam məzhəbləri arasında ixtilaf yoxdur. Müvəqqəti nikah (siğə) şəriətin ailə-nikah müqavilələrinin ən arxaik formasıdır. Bu nikah forması islamın erkən dövründə mövcud olmuş, sonra ortodoksal sünnizm tərəfindən sıxışdırılmışdır. Şəriət isə müəyyən edir ki, siğəni kişi ilə qadın arasında qanuni akt hesab etmək olmaz. Bir sıra Qərb alimləri isə siğəni fahişəliyin açıq formada qarşısının alınması hesab

edirlər. Yəni müvəqqəti nikah yalnız kişinin şəhvətini ödəmək məqsədinə xidmət edir, halbuki islam nəsil artımını nikahın başlıca məqsədi hesab edir.

Beləliklə, deyə bilərik ki, islamda nikah Allaha xoş gedən saleh bir əməl kimi səciyyələnmişdir. Bütün məzhəblərdən olan müsəlman alimləri islamın lap erkən çağlarından indiyədək nikahı yekdilliklə kişi ilə qadın arasında müqəddəs və qanuni bir akt hesab etmişlər.

İslam hər iki cinsin nümayəndələri üçün cinsi əlaqəni yalnız nikah çərçivəsində məhdudlaşdırır və bu çərçivədə qanuni hesab edir. İslamda fərdi nikah cinslər arasında əlaqələrin yeganə tənzimçisidir. Bununla yanaşı, islam həm kişiyə, həm də qadına kəbin xaricində cinsi əlaqəyə girməyi qadağan etsə də, kəbin daxilində onların cinsi əlaqə imkanları müxtəlifdir. Lakin bütün hallarda hər şey nikah çərçivəsində olmalı və şəriət qaydaları ilə tənzimlənməlidir.

Müsəlman dini və şəriət nikahsızlığı arzuolunmaz vəziyyət, nikahı isə müsəlmanın dini vəzifəsi hesab edir.

Müsəlman ailə hüququ qadına və kişiyə eyni mövqedən, eyni tələblər və eyni meyarlar baxımından yanaşır və tərəflərin hüquq və vəzifələrini müəyyən edir. Müsəlman ailə mühitində ər və arvad bir-birinə nisbətdə qarşılıqlı hüquq və vəzifələrini yerinə yetirməli, məsuliyyətli olmalı, tam səfa və səmimiyyətlə yaşamalıdırlar. Bu baxımdan ərlə arvadın bir-birinə olan qarşılıqlı məhəbbəti ailə mühitinin sağlamlaşdırılmasının əsasını təşkil edir.

Peyğəmbər (ə.s) buyurur: "Sizin içərinizdə ən yaxşı adam odur ki, ailəsinə yaxşı münasibət bəsləsin". "Amandır, Allahdan qafil olmayın, qadınları unutmayın, qadınlar barəsində yaxşılıq edin! Onların hüquqlarını təmin edin, zülm etməyin. Onlar sizinlə yaşayırlar və sizin öhdənizdədirlər. İlahi əhd-peymanla onları özünüz üçün ömür-gün yoldaşı seçmisiniz. İndi o əhd-peymanı yadınızdan çıxarmayın".

Müsəlman ailə hüququ və islamın əxlaq normaları bir daha təsdiq edir ki, islam təkcə din və ibadət deyildir, həm də daha çox həyat tərzi, dünyagörüşü sistemidir. Bu sistemin əxlaq nəzəriyyəsi əhatə dairəsinə görə genişdir və müsəlmanın bütün sosial-mənəvi həyatına nüfuz edir. Bu baxımdan, islamın ailə-nikah münasibətləri sahəsində həyata keçirdiyi tədbirlər mütərəqqi xarakter daşıyır. Müasir tədqiqatçılardan Yermeyev bu barədə belə yazır: "Tarixi obyektivlik naminə qeyd edilməlidir ki, Məhəmməd Peyğəmbərin qayda-qanunları qadınların vəziyyətini yaxşılaşdırmış və ərəblərin islamaqədərki adətləri ilə müqayisədə mütərəqqi hadisə olmuşdur. Ailə-nikah müqaviləsinin bağlanma-sında tərəflərin razılığı, əmlak bərabərliyi, qadınların bərabərlik hüquqlarının mövcudluğu, eyni zamanda bir çox pis adətlərin ləğv edilməsində islamın rolu danılmazdır. Çünki müsəlman ailə hüququnda qadınların kişilərlə müxtəlif sahələrdə bərabər olmaları barədə ilahi bir qanun vardı".

Kişilər üçün layiqli hüquqlar olduğu kimi, qadınlar üçün də layiqli hüquqlar vardır, amma kişilər qadınlardan müəyyən cəhətlərdə üstündürlər.

İslamda ailə quruluşu qadın və kişi arasında qarşılıqlı münasibətdə heç bir fərq qoymamış, onların hər birinə eyni şəkildə müraciət edilmişdir. Zina məsələsində də islam həm qadına, həm də kişiyə münasibətdə eyni mövqe tutur. Zina kişi ilə qadın arasında nikahdan kənar, qeyri-qanuni cinsi əlaqə mənası daşıyır, odur ki, bu əməldə tərəflərin məsuliyyəti eynidir.

Şəriət nikah məqsədləri baxımından hər şeydən əvvəl Allahın öz hikmətinə görə insanları böyük nemət kimi dəyərləndirir. O, bəşər nəslinin yenidən istehsalı, davamı, insanın yer üzündəki xəlifəliyi üçün mühüm amil, ictimai mənafe baxımından borc və vacib bir əlaqə, fərdi mənafe baxımından isə kişi ilə qadın arasında sevgi, mərhəmət, ülfət, ünsiyyət, rahatlıq və dinclik vasitəsi hesab edilir.

İslam eyni zamanda, cinsi həyatda kişi ilə qadının rolları arasındakı təbii-bioloji fərqlər, cinsi həyatın onlardan hər biri üçün kəsb etdiyi əhəmiyyət məsələsinə də diqqət yetirir.

Beləliklə, müsəlman ailə hüququnda nikah bağlamanı yalnız o vaxta qədər qoruyub saxlamağa çalışır ki, ailədə mehribançılıq, qarşılıqlı anlaşma və sevinc, səmimilik əhval-ruhiyyəsi hökm sürsün, ən azı normal münasibətlər mövcud olsun.

Lakin bəzən elə səbəblər olur ki, ailə həyatını korlayır, zəhərləyir, dözülməz edir. Bu səbəblər müxtəlif ola bilər. İslama görə, ailə münasibətlərində gərginlik yarandığı təqdirdə hər iki tərəf özünü mümkün qədər saxlamağa, dözməyə, səbr etməyə, düşünüb səhvlərdən daşınmağa çalışmalıdır, belə olduqda ailə münasibətlərini zəhərləyən səbəblər aradan qalxa bilər. Odur ki, Quran belə hallarda ilk əvvəl ərlə arvadı barışdırmağa çağırır. Eyni zamanda islam ərə və arvada ya islah olunmaq, ya da boşanmaq hüququ verir.

Qeyd etdiyimiz kimi, şəriətdə boşanmanın əsasları və qaydaları mütləq göstərilirdi. Məsələn, islama və onun qaydalarına dönük çıxmaq da boşanmanın əsası ola bilərdi. Şəriət qaydasına əsasən, sadə boşanma qaydası da mövcud idi. Bu, o hallarda mümkün idi ki, ailədə əmlak bölgüsünə ehtiyac yox idi. Bunun üçün ər müəyyən ifadələr: "sən qovuldun" və ya "öz nəslinə birləş" ifadələri işlətməklə sadə boşanma formasından (talaq) istifadə edə bilərdi. Ər boşamış olduğu arvadına adətlərə müvafiq olaraq lazımı əmlak verməli idi.

Dörd nikahın hər biri pozula bilərdi. Boşanmaq üçün heç bir məhdudiyyət yox idi. Sınaq müddəti ilə müşaiət olunan qəti olmayan boşanma məlum idi. Yəni bu müddət ərzində tərəflər hərəkətlərini götür-qoy etməli və yekun nəticə çıxarmaq imkanına malik idi. Bu, ən çox tərbiyə xarakteri daşıyırdı. Ailə-nikah müqaviləsi bağlanan zaman iştirak edən şahidlər qəti olmayan boşanma zamanı müdaxilə etmək hüququna malik idilər.

Şəriət qaydasına əsasən, hər bir müsəlman dördə qədər arvad ala bilər, lakin bunun üçün onun maddi, cismani və mənəvi imkanları tam həddə olmalıdır. Eyni zamanda, hər birinin razılığının olması tələb olunur. Hər bir qadın üçün başlıq verə bilməyəcək, onları kifayət qədər maddi yaşayış vasitələri ilə təmin edə bilməyəcək şəxsin birdən artıq arvad almağa haqqı yoxdur. Çoxarvadlı hər bir kişi qadınların yanında olacağı günləri düzgün bölməli, aralarında fərq qoymamalı, gözəl və istəkli qadınlarına çox vaxt və maddi nemət ayırmamalı, onların hamısı ilə ədalətlə rəftar etməlidir. Eyni zamanda, onların hər birini əmlak, mənzil və geyimlə təmin etməlidir. Onlardan olan övladlarının yetkinlik yaşına çatana qədər tam təminatçısı olmalıdır. Göstərilən şərtlərin hər hansı birinə əməl etməmək boşanmanın əsası da ola bilərdi. Bu zaman qadın onun payına düşən əmlakı tələb etmək hüququna malik idi. Şərtlərə əməl edilməklə boşanmanı qadın tələb edirsə ona çatacaq əmlakın yarısı ödənməli idi. Eynilə ailə-nikah müqaviləsi bağlandıqdan sonra kişi həmin qadınla evlənmək istəməyib onunla cinsi münasibətdə olmadan boşamaq qərarına gələrsə, qadına verilmiş başlığın yarısı qaytarılmalıdır, bəzi hallarda bu, qaytarılmaya da bilərdi.

Həddi-büluğa çatmamış qızla evlənərkən verilmiş başlıq boşandıqda geri qaytarılır. Kişinin təşəbbüsü ilə boşanma zamanı başlıq geri qaytarılmır, boşanma qadının təşəbbüsü ilə olduqda isə başlıq geri qaytarılmalıdır. Həmçinin qadın evlənmə şərtlərinə uyğun olmayıb geri qaytarılarsa, məsələn, bakirə alınmış qızın bakirə olmaması aşkara çıxarsa, başlıq geri qaytarılmalıdır.

Qadına başlıq kimi verilmiş əmlak nikaha girməzdən əvvəl tələf olarsa, harada tələf olmasından asılı olmayaraq yarısı qadına verilməlidir. Şəriət qaydasına əsasən, bu şərtlərə əməl etmək vacib hesab edilir, həm də ona görə ki, boşanma zamanı əmlak mübahisəsi yaranmasın.

Kişinin əhd-peyman bağladığı qadına boşanma məqsədilə böhtan atarsa və zina etməkdə günahlandırmasını sübut etməzsə, ona ən ağır cəza tətbiq edilir. Quranda bildirilir ki, təmiz, əxlaqlı və şərəfli qadınların islam əxlaqının insan üçün ən müqəddəs, ən qiymətli şey hesab etdiyi şərəf və namusuna ləkə, böhtan atanlar, onları zinakarlıqda günahlandıranlar dörd nəfər şahid gətirə bilməsələr, onlar cəzalandırılırlar. Belə halda qadının kişini bağışlaması qəbul edilmir.

Quranda göstərilir ki, “Zinaya da yaxın düşməyin, çünki o, çox çirkin bir əməl və pis bir yoldur! (əl-İsra surəsi, ayə 32)”. Bu qayda nikah müqaviləsinə girənlərin hər ikisinə aid edilir və boşanma üçün bəhanə gətirilirsə, həmin şəxsə cəza tətbiq edilir və fərqli əmlak bölgüsü yaranır.

Şəriət qaydasına əsasən, boşanmış arvadın hamilə olub-olmamasını müəyyən etmək üçün o, üç ay ərzində keçmiş ərinin evində qalmalı idi. Hamilə olduğu halda boşanmaya yol verilmirdi. Uşaq doğularsa, o, atası ilə qalırdı və bu, razılıq əsasında mümkün idi. Arvadının ərindən boşanması üçün

əsaslar müxtəlif idi; arvadla amansız rəftar edilməsi, onun saxlanması üçün vəsait ayrılmaması, üzərinə düşdüyü ər-arvadlıq vəzifələrinin yerinə yetirilməməsi. Bir sözlə, tərəflərin hər hansı birinin narazılığı boşanmanın əsası ola bilərdi. Müsəlman ailə hüququna görə sadə boşanmadan fərqli olaraq boşanma zamanı mübahisə yaranardısa, tərəflər yalnız məhkəmə vasitəsilə boşana bilərdilər.

Boşanma məsələsində kişi qadından daha çox hərəkət sərbəstliyinə malik olsa da, eyni hüquq qadına da verilmişdir. Arvadından ayrılmaq istəyən kişinin qarşısında şəriətin qoyduğu yeganə şərtlər bunlardır ki, o, anlaqlı olmalı və arvadını boşamaq üçün heç kəs tərəfindən məcbur edilməməlidir. Bundan əlavə, boşanma zamanı qadının xəstələnmə dövrü keçməli və əri onunla intim münasibətdə olmamalıdır. Qadının xəstələnmə dövrü keçdikdən sonra ər onu aşağıdakı şərtlə boşaya bilər. Ya qadınla qətiyyən cinsi əlaqə olmamışdır, yaxud da qadın boylu deyildir. Əgər qadında xəstələnmə qurtardıqdan sonra əri onunla yaxın münasibətdə olmuşdursa, arvadından ayrılarkən o, sonrakı xəstələnməni gözləməlidir. Nikah müqaviləsinin pozulması da onun bağlanması kimi şəriət qaydalarına riayət etməklə həyata keçirilir. Əgər nikah müqaviləsi bağlanarkən düsturu birinci olaraq gəlin tələffüz edirdisə, boşanma zamanı əksinə, düsturu birinci olaraq kişi tələffüz edir. Boşanmanı ərin vəkili rəsmiləşdirə bilər. Əgər kişi arvadını xəyanətdə təqsirləndirdiyinə görə ondan ayrıldığını bildirərsə, qadının bir qayda olaraq buna etiraz etmək hüququ vardır. Xəyanətlə bağlı ərdən arvadın müqəssir olduğunu təsdiq edən şahidlərin ifadəsi tələb olunur. Əgər ər arvadın təqsirini sübut edə bilmirsə, müsəlman qadınına böhtan atdığına görə cəzalandırılır.

Şəriət müsəlmanın həyatının bütün sahələrinə müdaxilə edir. Ərini itirmiş qadının davranışı kimi sırf şəxsi məsələ də şəriət qaydaları ilə tənzim edilir. Əri ölən, hamilə olmayan qadın şəriətə görə dörd ay on gün gözləməli və yalnız bundan sonra ikinci dəfə ərə gedə bilər. Əgər ərinin ölümündən sonra qadın hamilə qalmışdırsa, gözləmə müddəti uşaq doğulanadək davam edir. Şəriətə görə boşanmanın dörd əsas növündən istifadə edilir.

1. Bəin boşanma (qəti boşanma).
2. Racə boşanma (ərin arvadın yanına qayıtması qaydası).
3. Xəal boşanma (müvəqqəti xarakter daşıması).
4. Mübarə boşanma (əlçəkmə vasitəsilə).

“Boşama” zahiri forma olaraq dillə, “səni boşadım”, “boşanmısan”, “azadsan” və s. bu kimi ifadələrlə izah edilməlidir. Harada və hansı şəraitdə olmasından asılı olmayaraq həmin ifadələri arvadına niyyətlə deyən şəxsin arvadı boşanmış olur, həmin söz deyildiyi andan arvadı ona naməhrəm sayılır.

“Bəin” boşanma zamanı ər əvvəlki arvadını ancaq yeni nikah müqaviləsi bağlamaq yolu ilə geri qaytara bilər. Bu cür boşanma qəti boşanma sayılır.

“Racə” sözünün mənası “qayıtmaq”dır. Bu boşanmanın mənası odur ki, ər arvadını boşadıqdan sonra təqsirini boynuna almışdır və arvadının yanına qayıtmaq, yaxud onu öz yanına qaytarmaq istədiyini bildirir. Belə boşanma zamanı ər arvadı ilə barışmaq və ailəyə qayıtmaq hüququnu itirmir. Bir qayda olaraq racə boşanma zamanı arvad ərin evini tərk etmir. Buna görə də şəriət tələb edir ki, əgər ər arvadını racə qaydası ilə boşamışdırsa, onu evdən çıxarmasın. Bu boşanma ayrılmadan çox ərlə arvadın mübahisəsinə oxşayır. Belə boşanma zamanı ər arvadla barışmaq və ailəyə qayıtmaq hüququnu itirmir. Əgər ər racə boşanmasından sonra arvadının yanına qayıtmağı qərara almışdırsa, bundan ötrü heç bir şahid tələb olunmur.

Müsəlman ailə hüququna əsasən, özünü yaxşı aparmayan, davranışında əxlaqsızlıq edən qadınları boşamaqdan başqa, boş buraxma, onu müdafiə etməmə, zəruri ehtiyaclarını ödəməmək, himayəçilik göstərməmək kimi normalar toplusu da vardır ki, buna “Xəal” deyilir. Xəal öz hüquqi nəticəsi etibarilə racə boşanmasına çox bənzəyir, lakin xəal boşanmada istər boş buraxanın niyyəti, istərsə də onun zahiri tərzi racə boşanmadan fərqlənir.

Xəal qaydasında boş buraxmaq həmçinin valideynlərinə münasibətdə hörmətsizlik edən, əmlakı israf edən, sərxoşluq edən övlada, kənizə və b. qarşı tətbiq edilə bilər.

Xəal üçün əsas məqsəd bundan ibarətdir ki, o, müvəqqəti xarakter daşımaqla tətbiq olunduğu şəxsi tabe etməyə, tərbiyələndirməyə, həm özü, həm də cəmiyyət üçün zərərli işlər görməkdən çəkindirməyə xidmət edir. Anlaqsız və azyaşlı nə qədər təqsirli olsa və pis işlər görsə belə xəal qaydasında boş buraxmaq olmaz. Çünki bu, onların həlakına və yaxud daha pis vəziyyətə düşməsinə səbəb ola bilər ki, bu da xəal qaydasında boş buraxmanın məqsədinə ziddir.

Xəal qaydasında boş buraxılmış qadın və yaxud kişi hər hansı bir ailə üzvü islah olunarsa, yenidən himayə altına alınır. Boş buraxılmış qadın tərbiyə olunmayıb, öz sabiq əməllərində qalarsa, talaq verilə bilər. Bu halda talaqvermənin bütün qaydalarına əməl olunmalıdır, o cümlədən mehri özünə qaytarılmalıdır.

Boş buraxma zamanı boş buraxılanın kim olmasından asılı olmayaraq vəkil tutulur, onun haqqı, əmlakı, əmlak xarakterli öhdəliklərdən əldə edəcəyi gəlirlər vəkilin iştirakı ilə özünə verilir. Əgər əmlak mübahisəsi yaranarsa xəal məsələsini qazi həll edir.

Ümumiyyətlə, boşanma zamanı da boşanan tərəflərin əmlak bölgüsü onların biri-biri ilə razılaşmalarından asılı dır.

Əlçəkmə yolu ilə boşanma (mübarə) müəyyən dərəcədə xəal boşanmasına bənzəyir. Lakin bunların arasında fərq də vardır. Əsas fərq ondan ibarətdir ki, xəal boşanma zamanı boşanma təşəbbüsünü qadın irəli sürür, ər isə buna razı olmur və yalnız arvadından maddi mükafat almaq şərti ilə

razılıq verir. Mübarə boşanması zamanı isə ərlə arvad hər ikisi buna razı olur, lakin ər birinci olaraq qarşıya şərt qoyur və maddi mükafat tələb edir. Halbuki, xəal boşanma zamanı bu mükafatı arvad özü təklif edir.

Beləliklə, islam boşanmaya, nikahın pozulmasına yalnız son tədbir kimi baxır və buna icazə verir, çünki belə hesab edir ki, ailə-nikah müna-sibətlərinin bu səviyyəsində ortaya çıxmış problemləri yalnız yaxşılıqla, ayrılmaq yolu ilə həll etmək mümkündür.

Müsəlman hüququna əsasən, ailə-nikah müqaviləsi bağlandıqdan sonra tərəflərin hüquq və vəzifələri yaranır. Ərlə arvadın, övladların hüquq və vəzifələri, valideynin hörməti, ata-ananın övlad, övladın ata-ana qarşısında borcu kimi mühüm məsələlər müsəlman ailə hüququnda aydın şəkildə göstərilmişdir.

Müsəlman hüququna əsasən, nikah qüvvəyə mindiyi andan etibarən kişi ilə qadının, həmçinin sonralar bu nikahdan doğulmuş uşaqların boynuna müəyyən hüquq və vəzifələr düşür. Tərəflərdən hər birinin hüquqları qarşı tərəfin vəzifələri sayılır və onlara əməl edilməlidir.

Bu hüquq və vəzifələr aşağıdakı qaydada müəyyən edilir:

1. Ərlə arvadın müştərək hüquqları;
2. Arvadın əri üzərində hüquqları;
3. Ərin arvadı üzərində hüquqları;
4. Ata-ananın övladlar üzərində hüquqları;
5. Övladların ata-ana qarşısında hüquqları;

İslama görə, nikah ailənin mövcudluq formasıdır və burada hüquq və vəzifələr dinin hökmləri əsasında tənzim edildiyindən nikahda iştirak edən tərəflərdən hər biri ona müqəddəs bir əlaqə kimi baxır. Belə hesab edilir ki, əgər tərəflərdən hər biri öz vəzifələrinə layiqincə əməl edərsə və onun da hüquqları razılıq və xoşluqla yerinə yetirilərsə, nikahda nəzərdə tutulan müqəddəs məqsəd həyata keçər, yəni cəmiyyətin ilkin özəyi düzgün, qarşılıqlı sevgi və məhəbbət əsasında qurular, fərdlərin qarşılıqlı maraqları təmin edilmiş olar.

Beləliklə, islam əxlaqında hüquq və vəzifələrin nikahla bağlı təhlili xüsusi yer tutur.

Şəriət hər şəxsin ilk növbədə öz ailəsindəki hüquqlarını tanımasını vacib hesab edir. Buna görə də insanın fərdi və ictimai hüquqlarını kamil surətdə özündə əks etdirən islam dininin qanunlarına əsaslanaraq ailənin sütunu sayılan valideynlərin hüquqlarına xüsusi diqqət yetirilir.

Ailə hüquq normalarına müvafiq olaraq, ata və ana övladların hüququ qarşısında eyni dərəcədə məsuliyyət daşıyırlar. Yəni ana da ata kimi maliyyə imkanlarına və şəxsi əmlaka malik olduğu təqdirdə övladının maddi ehtiyaclarının təmin edilməsi üzrə öz öhdəsinə düşən vəzifələri yerinə yetirməli-

dir. Hətta boşanma hallarında onlardan hər hansı biri imkansız olarsa, digəri övladlarının maddi ehtiyaclarının ödənilməsini öz öhdəsinə götürməlidir.

Ailə quruluşunda valideynlərin öz övladları ilə düzgün davranmaları onların yaxşı tərbiyə edilməsində və inkişafında mühüm rol oynayır. Övladların təbii ehtiyaclarına diqqət göstərilməsi, onlara məhəbbətlə yanaşılması, əxlaqlı olması, düzgünlük və doğruluq, əhd-peymanın yerinə yetirilməsi, habelə yeniyetmə mərhələsində maddi baxımdan təmin edilməsi valideynin öhdəsinə düşür.

Peyğəmbər (ə.s) buyurmuşdur: "Valideynlərin və övladların hüquq və vəzifələri qarşılıqlıdır. Valideynlər öz övladları üçün nə qədər məsuliyyət daşıyırlarsa, övladlar da valideynlər üçün bir o qədər məsuliyyət daşıyırlar".

Övladın valideyni qarşısında hüququ çox böyük məsuliyyət tələb edir. Ailə hüququ övlada valideynlərə münasibətdə nəvaziş göstərməyi, xoş davranmağı, onlara itaət və hörmət etməyi vacib sayır. Bu haqda Quranda belə buyurulur: "Biz insana ata-anasına yaxşılıq etməyi (onlarla gözəl davranmağı) tövsiyə etdik" ("Əl-Ənkəbut" surəsi, ayə 8). "Allahla yanaşı başqa tanrı qəbul etmə. Yoxsa kar olar, zəlil vəziyyətə düşərsən! Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: "Uf!" - belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!" (Əl-İsra surəsi, ayə 22, 23).

Müsəlman ailə hüququ valideynlərin övlad üzərində olan hüquqlarından bəzilərini bu qaydada izah edir:

- ehtiyaclarını dilə gətirməzdən öncə yerinə yetirmək, onlarla həlim davranmaq, əgər borcları varsa, onların əvəzində ödəmək, qocaldıqda əziyyətlərinə dözmək və onlara xüsusi qayğı göstərmək, onlara hörmətsizlik gətirəcək və insanlar tərəfindən qəbulolunmaz əməllər etməmək;

- övladları tərbiyə etmək və onlara qayğı göstərmək valideynlərin ən əsas vəzifəsi hesab edilir. Belə ki, valideynlər ilahi əmanət olan övladın tərbiyəsi qarşısında məsuliyyət hiss edərək öz vəzifələrini lazımınca yerinə yetirməlidirlər;

- islami hökm və qanunda ata və ana öz övladlarının qarşısında eyni dərəcədə məsuliyyət daşıyırlar. Eynilə, övladların və valideynlərin hüquq və təminatlarının təmin olunması qarşılıqlıdır.

Quranda buyurulur: "...Ya Rəbbim! Mənə öz tərəfindən pak bir övlad bəxş et..." ("Ali-İmran" surəsi, ayə 38).

Peyğəmbər (ə.s) buyurmuşdur: "İnsanın xoşbəxt olmasının əlamətlərindən biri sağlam və ləyaqətli övlada malik olmaqdır" "Uşağı olan hər bir kəs onunla uşaq kimi davranmalıdır. Məhz bu yolla uşağı tərbiyə etmək daha yaxşıdır". "Atanın övladına ən yaxşı hədiyyəsi onu düzgün tərbiyə etməsidir".

Müsəlman ailə hüququna əsasən, valideynlər öz övladlarına təlim-tərbiyə verərkən, özləri də nəzakətli və ədəbli olmalı, öz yaxşı, xeyirxah əməlləri ilə onları tərbiyə etməlidirlər. Çünki ləyaqətli övladlar İslam mənəviyyatına riayət edən ləyaqətli valideynlərdən yarana bilər.

Övladların hüquqlarının yerinə yetirilməsində valideynlərin ən mühüm vəzifələrindən biri də onların ana südü ilə qidalanması və bu qaydaya riayət olunmasıdır. Uşaqların anadan olmasından sonra ana südü onlar üçün faydalı, ən münasib qidadır və buna görə də müqəddəs Quranda bu məsələ dəfələrlə xatırlanmışdır.

İmam Əli ana südü barədə buyurmuşdur: "Heç bir süd uşaq üçün ana südü qədər münasib və bərəkətli ola bilməz".

Uşağın anası öldükdə, xəstə olduqda və yaxud ananın uşağı əmizdirməsi üçün başqa səbəblərdən imkan olmadıqda, əmizdirilməyə verilməlidir. Həmçinin ananın südünün uşağa düşməməsi, ona zərər verməsi aşkar olduqda da o, anasının südü ilə əmizdirilməyib, başqa qadına verilməlidir. Bu halda ana südünün zərərli olması dəqiqləşdirilməlidir. Əks halda ana cəzalandırılır.

Ailə hüququna görə süd vermiş qadın uşağın anası səviyyəsində tutulur, onun özü və övladları ilə evlənmək qadağan hesab edilir.

Fiqhdə süd vermək və süd verən ana və dayələrin hüquq və vəzifələrinə xüsusilə diqqət yetirilir. Ailədaxili mülkiyyət, uşaqların əmizdirilməsi, qəyyumluq münasibətləri ciddi normalaşdırılmış, bütün islam cəmiyyəti daxilində olduğu kimi, ailədaxili mülki münasibətlərdə də qanunsuzluğa yol verilməsinin qarşısının alınması üçün qadağalar qoyulmuşdur.

Ailə-nikah məsələlərində şəriətin qadağalarının qadınlara aid hissəsi xüsusilə ciddidir. Bu qadağalar ailə üzvlərinin hüquq və vəzifələrinin düzgün yerinə yetirilməsi və şəriət qaydalarına əməl edilməsi məqsədini daşıyır.

Ailə münasibətlərində qəbahətli hərəkətlər çox ola bilər və hər bir hərəkət üçün də fiqhin ayrı-ayrı institutlarında cəzalar və zərərin aradan qaldırılma yolları müəyyənləşdirilib. Fiqhdə ailə münasibətlərindən doğan qəbahətlər və onların qarşısının alınması haqqında normalar çoxdur. Əməlin xarakterindən asılı olaraq həmin normalar mülki, cinayət və məişətlə bağlı bölmələrdə toplanmışdır. Eyni zamanda, hər hansı bir səbəb üzündən atılmış və yaxud itkin düşmüş uşağın tapılmasını tənzim edən normalar işlənib hazırlanmışdır və buna görə də cəza tədbirləri nəzərdə tutulur.

Beləliklə, islam ailə hüququnun mühafizəsinə və əsaslarına yönəlmiş normalar ailə üzvlərinin hüquqlarının tam şəkildə müəyyən edilməsinə əsas verir.

Fiqhdə ən geniş yeri müsəlmanlar arasında əmlak münasibətlərini tənzim edən normalar tutur. Baxmayaraq ki, müsəlman hüququnun özünəməxsus forma və tərkibi bir sıra hüquq nəzəriyyəsi ilə məşğul olan mütəfəkkir-

lərdə belə bir fikir doğurmuşdur ki, müsəlman hüququnda mülki hüququn əsas hissələrindən olan ticarət hüququ və digər bölmələr sistemli formada mövcud olmamışdır, lakin əsl həqiqətdə isə müsəlman hüququnun ən çox işlənən mükəmməl sahəsi ticarət hüquq normalarıdır.

Fiqhdə mülki hüquq münasibətlərini tənzim edən hüquq institutları "Ticarət kitabı" bölməsi ilə başlayır. İnsan cəmiyyətinin yaşaması üçün birinci vasitə maddi nemətlər istehsalıdırsa, ikinci vasitə həmin maddi nemətləri cəmiyyət daxilində istehlakçılara çatdırma üsulu olan ticarətdir. Ticarətlə kütləvi istehsal, əmtəə istehsalı əkizdir. Buna görə də bütün hüquq sistemlərində ticarət qaydalarının normalaşdırılmasına xüsusi fikir verilmişdir.

Müsəlman hüququnda, ümumiyyətlə, sahələrə bölünmə olmadığından mülki hüquq da özünün institutları ilə fiqhə daxil edilmiş və hər bir sahə, yəni hüquq institutu ayrıca normalaşdırılmışdır.

Fiqhdə əmlakla əlaqədar ictimai münasibətləri tənzim edən hüquq institutları ibadətə dair normalardan dərhal sonra başlayır, ailə hüququna dair normalara qədər davam edir. Mülki hüquqa dair hüquq institutlarından birincisi ticarət hüququdur.

İstisnasız olaraq bütün fiqh əsərlərində ibadətə dair hüquq institutları əvvəldə, sonra isə mülki hüquq, ailə hüququ, vərəsəlik, cinayət, prosessual və s. sahələri əhatə edən hüquq institutları ardıcıllıqla verilmişdir. Hər bir konkret hal üzrə ayrıca hökm çıxarılması isə müsəlman hüququnun məcəllələşməməsi, hüququn ümumi xarakterli normalarının ardıcıl olması ilə bağlıdır.

Fiqh üçün xarakterik cəhətlərdən biri budur ki, müsəlman hüququ elmi cəhətləri də analiz etməsinə baxmayaraq, mülki hüquq münasibətlərini tədqiq edərkən subyektlər arasındakı fərqi sərf-nəzər edir, halbuki praktikada belə fərqlər çox olduğu kimi subyektlərin hüquq və vəzifələri də müxtəlif olub, hər bir konkret ictimai münasibət, mübahisə halında subyektlərin hüquq və vəzifələrinin də konkret müəyyən edilməsini tələb edir.

Müsəlman hüququ əmlak münasibətlərinə və onların nizamlanmasına xüsusi diqqətlə yanaşmışdır. Mülki hüquq münasibətlərini tənzim edən normalar özünün genişliyi və əhəmiyyətliliyi ilə fərqlənir. Fiqhdə ən geniş yeri, məhz mülki hüquq normaları tutur. Müsəlman mülki hüququna diqqətlə yanaşdıqda, görmək olar ki, əslində müasir hüquqşünasların ona qəribə, müasir hüquqdan tamamilə fərqlənən hüquq sistemi kimi yanaşmasının heç bir əsası yoxdur. Müsəlman mülki hüququ cəmiyyətdə insanların istehlakı ilə bağlı maddi nemətlərin bölüşdürülməsində, istifadə olunmasında zəruri qayda yaratmağa xidmət edir, məqsədi də maddi nemətlər üstündə vuruş və savaşın qarşısını alıb cəmiyyəti labüd məhvdən xilas etməkdir. Müsəlman mülki hüququnun müasir Avropa hüququndan fərqli cəhətləri isə islam dininin özünəməxsus tələbləri və islam cəmiyyətində mövcud olan ictimai

münasibətlərin xüsusiyyəti ilə bağlıdır. Bu baxımdan, müsəlman hüququnda mülkiyyət hüququ dərindən işlənib hazırlanmış hüquq institutudur.

Müsəlman mülki hüququ yalnız əmlak münasibətlərini tənzim edir. Əmlakla əlaqədar olan və olmayan qeyri-əmlak xarakterli münasibətlər onun tənzim obyekti deyil. Şərəf və ləyaqətin müdafiəsi ilə bağlı məsələlər fiqhin təqibat hissəsində normalaşdırılır. Yəni şərəf və ləyaqətin müdafiəsi ya islam dininin əxlaq normaları daxilində axirət dünyası ya da bu dünyada verilən cəzalarla və yaxud da fiqhin uqubat (cinayət və cəza, təqibat) hissəsində nəzərdə tutulan cəzalarla həyata keçirilir.

Müsəlman mülki hüquq münasibətlərini və əmlak mübadiləsini normalaşdıran qanunlara görə, subyektlər bərabər hüquqludurlar, müqavilələrdə və digər əqdlərdə iştirak edən tərəflər iradələrini ifadə etməkdə azaddırlar və iştirak etdikləri münasibətlərdə kimsəyə üstünlük verilmir. Lakin bir sıra istisnalar var ki, onlar da islam dininin tələbi ilə meydana çıxmışdır. Müsəlman mülki hüququ bir çox hüquq münasibətlərinin həllində müsəlmanlara digər şəxslərdən üstünlük vermişdir. Elə mülki münasibətlər vardır ki, hərbçilər, kafirlər, qeyri-müsəlmanlar onun subyekti ola bilməzlər. Məsələn, sədəqənin bölüşdürülməsi, qəyyumluq münasibətləri və s. Ümumiyyətlə, əmlak mübadiləsi ilə bağlı bir çox qaydalar da qadağan edilmişdir. Şəriət qaydasına əsasən, həmin əmlakın nədən ibarət olması müqavilə tərəflərinin vacib şərtlərindəndir. Müsəlman hüququna əsasən, mübadiləsi haram edilən əmlakın alqı və satqısı haram hesab edilir.

Müsəlman hüququ mülkiyyətçinin sahibliyindən çıxmış əmlakın geri qaytarılması, ümumiyyətlə, mülki tələblər üçün iddia müddəti müəyyən etməmişdir. Mülkiyyətçi başqasının qeyri-qanuni istifadəsində olan mülkiyyətini müddətsiz olaraq geriyə tələb edə və yaxud iddia qaldırıb mülkiyyətindən istifadəyə mane olan halı aradan qaldıra bilər. Qanun hər bir halda mülkiyyətçinin hüquqlarını müdafiə edir.

Ticarət haqqında şəriət qanunları əmtəə mübadiləsini məqbul sayır. Görünür, bu, insanların pul nə olduğunu hələ bilmədikləri və natural mübadilə yolu ilə ticarət etdikləri dövrlərin istehsal münasibətlərinin qalıqlarıdır. Ticarət mübadiləsinin şərtləri aşağıdakı prinsiplərlə tənzimlənir:

- əmlakın həcmi;
- miqdarı;
- çəkisi və ya ölçüsü məlum olmalı;
- mübadilə zamanı əmlak bilavasitə alıcıya verilməlidir (məsələn, əgər at mübadilə edilmiş və qaçmışdırsa, sövdə batil sayılır);
- dəyişdirilən əmlak mübadilə ediləndən fərqləndirilməlidir (eyni əmlakı dəyişdirmək mənasızlıqdır), başqa əmlakı dəyişdirilmək üçün deyil, girov kimi saxlanılmış əmlakı sahibinin icazəsi olmadan satmaq qadağandır. Borcları, yaxud müxtəlif xidmətlərin haqqını əmlak ilə ödəməyə icazə

verilir (məsələn, kirayənişin mənzil kirayəsi kimi ev sahibinə hər hansı bir ev əşyasını verə bilər).

Müsəlman mülki hüquq obyektləri öz dövrünün xüsusiyyətlərinə uyğun olaraq dəyişmişdir. Qızıl, gümüş, ev əşyaları və minik, yük heyvanları, pul, ev, bina, torpaq, silah, kölə və s. mülki hüququn obyektləridir. Lakin bu obyektlər çox vaxt özünəməxsus qaydada, maddiləşmiş, hansısa bir predmetə çevrilmiş şəkildə meydana çıxır. Əşya şəklində olan obyektlərin bölünməz, fərdən və cinsən, əsas və ya əlavə olmasının xüsusi əhəmiyyəti nəzərə alınaraq, hər bir halda konkret normalarla tənzim edilmişdir. Meyvə ağaclarının barı, pul və başqa gəlir gətirən obyektlərin xüsusiyyəti, meydana çıxa biləcək hallar müvafiq hüquq institutlarında öhdəçiliyin yerinə yetirilməsi şərtlərinə daxil edilmişdir.

Müsəlman mülki hüququnun daha bir xarakterik xüsusiyyəti də bundan ibarətdir ki, konkret iddia və ya tələb müddəti tanımır, mülkiyyətçi öz malını hər zaman qanunsuz əldə edəndən tələb edə bilər.

Əmtəə mübadiləsi zamanı müqavilənin icra müddəti isə ya tələbin meydana çıxması ilə və yaxud da tərəflər arasında bağlanmış müqavilə ilə müəyyənləşir. Müqavilələr əsasən şifahi bağlandığından, tələbin yaranma vaxtının müəyyən edilməsi də çox zaman tərəflərin şifahi sözləri üstündə qurulur. Ümumiyyətlə, müsəlman mülki hüququnda qərarın qanuni olması tərəflərin vicdanından çox asılıdır. Müddətlər bir çox hallarda təbiət hadisələri ilə müəyyən edilir. Məsələn, yazın başlanğıcında, payızda və s. aylar, günlər ilə hesablanan müddətlərə çox az yer verilir. Kənd təsərrüfatı, bağçılıq ilə əlaqədar müqavilələr məhsulun yığılması, yaxud becərmənin başlanması vaxtı ilə müəyyən edilir.

Mülkiyyət hüququnun obyekti ola biləcək maddi əmlak növləri heç nə ilə məhdudlaşmır. Bütün istehlak dəyərinə malik olan şeylər mülkiyyətin obyekti ola bilər. Bu halda bəzi istisnalar nəzərə alınmalıdır: İslam dini ilə haram hesab edilən şeylər müsəlmanın mülkiyyətində ola bilməz, qanunla da müdafiə olunmur və əmlak mübadiləsi qadağandır.

Müsəlman hüququna əsasən, mülkiyyət əldə etməyin əsas üsulu müqavilədir. Zəhmətlə qazanc əldə edilən gəlir halaldır. Bağışlama, tapıntı və digər yollarla ələ gələn maddi nemətlər yalnız o halda halal hesab olunur ki, fiqhin tələb etdiyi şərtlərə - müddətin keçməsinə bağışlanan malın halal olmasına və s. əməl edilsin.

Mülkiyyətçinin fəaliyyətinin digərlərinə zərər vura biləcəyi hallar istisna olmaqla, heç kəs onun öz əmlakı üzərində sərəncam vermək hüququna maneçilik törədə bilməz. Müsəlman hüququ xüsusi mülkiyyəti hərtərəfli mühafizə edir, ona görə də islam təlimində mülkiyyət kifayət qədər geniş işıqlandırılır. Şiə hüquq məzhəblərinin təliminə görə, mülkiyyət üç əsas əlamətə malikdir:

a) əşya (əmlak) üzərində müstəsna sahiblik. Mülkiyyətçi, ilk növbədə, sahiblik hüququna malik olmalıdır;

b) mülkiyyət üzərində mütləq sərəncam vermə hüququ, yəni digər şəxslərə zərər yetirmədən əşyadan (əmlakdan) qeyri-məhdud şəkildə istifadə edilməsi;

c) əşyanın (əmlakın) mövcudluğu ərzində mülkiyyət hüququnda daimilik.

Mülkiyyətin daimiliyi prinsipi islamın ilk illərində ciddi şəkildə gözlənilirdi. Sonralar əmlak üçün iddia müddətinin müəyyən edilməsi ilə bağlı fikirlər ortaya çıxdı. Hənəfilər və malikilər özlərinin hüquqi təlimlərində xüsusi əmlak üçün on beş illik, dövlət əmlakı üçün isə on illik iddia müddətləri müəyyən etmişdilər.

Müsəlman hüququnda əşyaların anlamı da öz xüsusiyyətləri ilə fərqlənir. Fəqhlərin fikrinə görə, əşyalar müəyyən əlamətlərə, dəyərliliyə, istifadə üçün yararlılığa, öz təbiəti etibarilə kiminsə mülkiyyətində olma səviyyəsinə malik olmalı idilər.

Müsəlman hüququ şəxsin əmlakının başqaları tərəfindən mənimsənilməsinin mülki-hüquqi həlli qaydalarını, yaranma əsaslarını və malın geri qaytarılması üsullarını fiqhin "Qəsb kitabı" bölməsində müəyyənləşdirir. Qəsb əmlak sahibinin razılığı olmadan, onun iradəsinin əksinə olaraq zəbt etməyə, istifadəsindən çıxarmağa deyilir. Bu da müsəlman üçün yolverilməz hərəkətlərdən biridir. Quranda və hədislərdə başqasının malını qəsb edənlərə axirət günündə ağır cəzalar veriləcəyi dəfələrlə qeyd olunmuşdur.

Şəxsin əmlakının qəsb yolu ilə mənimsənilərək mülki qaydada məsuliyyət törətməsinin cinayət yolu ilə mənimsənilməsindən əsas fərqi subyektin əməlinin obyektiv və subyektiv cəhəti ilə bağlıdır. Əmlakın mülki qaydada mənimsənilməsi o zaman mövcud olur ki, subyektin hərəkəti yalnız əmlaka yiyələnməyə yönəlir və o, bu hərəkətlərini özünün subyektiv hüquqlarını həyata keçirmiş kimi edir, zahirən belə görünür ki, subyekt qanuni hərəkət etmiş, öz hüququnu reallaşdırmışdır.

Qəsb olunmuş əmlak istifadə nəticəsində öz dəyərini itirmiş, qəsb edən ona dəyişikliklər etmiş, yararsız və yaxud həmin əmlakın adını dəyişdirəcək dərəcəyə gətirmişsə, sahibkar əmlakdan imtina edib ya dəyərini, yaxud da əvvəlki əmlakın dəyər və keyfiyyətində yenisini tələb etməyə haqlıdır. Qəsb olunmuş əmlaka əlavələr və dəyişikliklər aparmaqla zərər vurulmuşsa, sahibkar əmlakı qəbul edib zərərin ödənilməsini tələb edə bilər. Qəsb olunmuş əmlak qəsb edənin əlində, onun təqsiri üzündən tələf olar, itər, oğurlanarsa, qəsbkar əmlakın dəyərini sahibinə verməlidir.

Qəsb olunmuş əmlakın alınıb-alınmasına icazə verilmir. Kimsə qəsb olunmuş əmlakı almamalıdır. Əgər qəsb olunmuş əmlak satılmışsa, qəsb edən onu qaytarıb sahibinə verməyə borcludur.

Beləliklə, müsəlman mülki hüquq münasibətləri bütün incəliklərinə qədər işlənib hazırlanmış və həmin normalar bu gün mülki qanunvericilikdə də öz əksini tapmışdır. Ticarət hüququnda əmlak mübadiləsi və onun qanunauyğunluğu isə xüsusilə diqqət mərkəzində olmuşdur.

Maddi və mənəvi ehtiyacların ödənilməsi üçün əsas üsullardan biri kimi icarə və kirayə müqavilələri üzrə yaranan hüquq münasibətlərinin nizama salınması fiqhdə mühüm yer tutur. Ayrıca hüquq institutu şəklində təqdim olunan icarə və kirayə hüquq münasibətlərinin ticarətdən fərqi bundadır ki, müqavilə obyekti olan mal ticarətdə bir sahibkardan çıxıb başqa sahibkarın əlinə keçir, icarə və kirayədə isə mal mülkiyyətçisi dəyişilmir. Yalnız faydalı, insan ehtiyaclarını ödəyəcək keyfiyyətlərdən sahibkar olmayan başqa şəxs istifadə edir. Hər iki müqavilə növündə obyektin istifadəçisi dəyişir, pul ödənir, lakin ticarət müqaviləsində obyektin tam dəyəri ödənildiyinə və mülkiyyətçisi dəyişildiyinə görə yeni şəxs həm də sərəncamverici kimi malın taleyini həll etməyə səlahiyyətli olduğu halda, kirayə və icarə müqavilələrində icarə və kirayəyə götürən şəxs malın dəyərini yox, maldan istifadə üçün müqavilədə nəzərdə tutulmuş məbləği ödəyir, malın dəyərinin ödənilməsindən isə söhbət getmir.

Bununla belə, nəyi isə icarəyə vermək və ya kirayə vermək, yaxud almaq müsəlman Şərqində ən geniş yayılmış əməli sazişlərdən biridir. Xüsusi mülkiyyətin əsaslarının keşiyində duran islam dini icarənin xüsusi mülkiyyət sahiblərinin əsas gəlir mənbələrindən birinə çevrilməsinə kömək etmişdir. İcarə və kirayə məsələsi şəriətin hüquq normalarında dərindən və hərtərəfli əks etdirilmişdir.

Şəriətə görə, torpaq sahəsindən, evdən, əşyadan, heyvandan tutmuş insanadək hər şeyi icarə və kirayə vermək olar. Şəriət ancaq bunu tələb edir ki, nəyi isə icarəyə vermiş şəxs yetkinlik yaşına çatmış, sağlam düşüncəli, ağıllı adam olsun və icarəyə verilən əşyanın əsl sahibi olsun. Hər hansı bir əşyanı sahibinin tapşırığı ilə başqasının icarəyə və ya borc verməsi mümkündür. Yetkinlik yaşına çatmayanın əmlakını onun qəyyumu icarəyə verə bilər. Lakin uşaq böyüdükdən sonra icarə haqqında sazişi poza bilər, eləcə də həmin sazişi təsdiq edə bilər. Əgər yetkinlik yaşına çatmamış uşağın qəyyumu yoxdursa, qazinin və ya müctəhidin icazəsi olmadan onun əmlakını heç kəs icarəyə verə bilməz. Əgər hər hansı bir yerdə müctəhid və ya qazi yoxdursa, yetkinlik yaşına çatmayanın əmlakını ədalətli olması ilə ad çıxarmış bir neçə mömin şəxs icarəyə verə bilər.

İcarə və kirayə müqavilələri arasında olan fərq isə bundan ibarətdir ki, kirayə müqaviləsində müqavilə obyekti mülkiyyətçinin operativ idarəçiliyindən çıxıb müvəqqəti olaraq kirayəçinin operativ idarəçiliyinə keçdiyinə görə zahirən mülkiyyətçinin də dəyişməsi görünür. Məsələyə daha yaxından bələd olmayan şəxsə belə gələ bilər ki, kirayəçi mülkiyyətçidir. İcarə

müqaviləsində isə obyekt bu və ya başqa dərəcədə mülkiyyətçinin idarəçiliyində olduğundan, icarəçi sahibkar kimi çıxış edə və ya özünü göstərə bilməz.

Ticarət, icarə və kirayə müqavilələrinin bu xüsusiyyətlərinin üçüncü şəxslərin tərəflərlə olan münasibətlərinin tənzimlənməsində böyük əhəmiyyəti vardır. Malın sonradan alınıb-satılması təsadüfi tələf olma zamanı məsuliyyət, istifadənin təyinatı və müqavilə şərtlərinə əsasən həyata keçirilməsi, məhz bu xüsusiyyətlər nəzərə alınmaqla tənzim oluna bilər.

Şəriət icarəyə verilmiş əmlakın satılmasına icazə verir, lakin icarədarın icarə müddəti qurtaranadək həmin əmlakı (mülkü) öz əlində saxlamaq ixtiyarı vardır. Mülkün yeni sahibini icarə müddəti qane etmirsə, o, ticarət sazişini ləğv edə bilər.

Hər hansı bir istehlak dəyərinə, insan üçün faydalı xassəyə malik mal və ya materialın müqavilə ilə nəzərdə tutulmuş ödənc müqabilində başqa tərəfin istifadəsinə verilməsi haqqında bağlanmış əqd kirayə müqaviləsidir.

Şəriət vasitəçinin əli ilə əşyanın üçüncü şəxsə icarəyə verilməsini mümkün hesab edir. Lakin əgər icarə haqqında sazişin şərtlərində əşyadan onu icarəyə götürənin özünün istifadə edəcəyi göstərilmişdirsə, həmin şəxs icarəyə götürdüyü əmlakı üçüncü şəxsə icarəyə vermək ixtiyarına malik deyildir. Məsələn, ev kirayələmiş adam onun sahibi ilə sazişində evi başqa bir şəxsə kirayəyə verəcəyi barədə şərt kəsməmişdirsə, evi kirayəyə verməyə ixtiyarı yoxdur. Vasitəçinin köməyi ilə əmlakın üçüncü şəxsə kirayəyə verilməsi müsəlman ölkələrində çox geniş yayılmışdır. Məsələn, bir çox hallarda sahibkardan bir neçə ev kirayə götürən şəxslər sonra müxtəlif ev əşyaları alıb mənzilləri kirayəyə verirlər. Belə vasitəçi bir qayda olaraq, ev sahibinin iş icraçısı sayılır və çox vaxt kirayənişinlər evin əsl sahibinin kim olduğunu bilmir və ancaq vasitəçini tanıyırlar.

Şəriət əmlakın icarəyə verilməsinin aşağıdakı şərtlərini müəyyənləşdirmişdir:

1. İcarə obyekti son dərəcə konkret göstərilməlidir. Məsələn, icarəyə otaq verən ev sahibi məhz hansı otağı icarəyə verdiyini və otağın əlamətlərini konkret surətdə göstərməlidir.

2. Əşyanın real surətdə icarəyə verilməsi üçün imkan olmalıdır. Məsələn, həyətdən qaçıb getmiş atın icarəyə verilməsi icarə haqqında sazişi batil edir.

3. İcarəyə ancaq elə əşyanı və ya əmlakı vermək olar ki, istifadə edilərkən tükənməsin. Məsələn, çörəyi, meyvəni və ya digər ərzaq məhsullarını icarəyə vermək olmaz.

4. Qabaqcadan aydın olmalıdır ki, icarəyə götürülən torpaqdan, əşyadan, əmlakdan ancaq nəzərdə tutulan məqsəd üçün istifadə edilə bilər. Məsələn, əgər torpaq sahəsini suvarmaq mümkün deyildirsə, həmin torpağın

əkinçilik üçün icarəyə verilməsi batil sayılır. Şəriət belə torpaq sahəsinin ancaq otlaq üçün icarəyə verilməsini mümkün hesab edir.

5. İcarəyə hər kəs ancaq öz əmlakını verə bilər, özgənin əmlakını yalnız sahibinin icazəsi ilə vermək olar.

Maraqlıdır ki, bar verən ağacın icarəyə verilməsi təqdir edilmir (hərçənd qadağan da olunmur). Südəmər körpəsi olan qadın ərindən icazə almadan başqasının uşağını əmizdirmək üçün "özünü icarəyə verə bilər". Lakin bu halda, ərin hüququna müəyyən qədər xələl gəlirsə, qadın onun razılığı olmadan icarə obyekti ola bilməz.

Şəriət icarənin aşağıdakı əsas şərtlərini nəzərdə tutur:

1. Halal (şəriətin mümkün hesab etdiyi) qaydalara riayət edilməlidir.

2. Əgər bir əşyadan istifadə edilməsi faydasızdırsa, həmin əşya icarəyə verilməməlidir.

3. Əgər icarəyə verilən əşyadan müxtəlif məqsədlər üçün istifadə edilə bilərsə, ondan məhz hansı məqsədlərlə istifadə ediləcəyi göstərilməlidir (məsələn, icarəyə götürübmüş atın minik heyvanı kimi və ya yük heyvanı kimi, yaxud da həm minik, həm də yük heyvanı kimi işlədiləcəyi göstərilməlidir).

4. İcarə müddətinin təyin edilməsi mütləqdir. Tərəflərin hər ikisinin razılığı ilə bu müddət uzadıla da bilər.

Əgər birisi öz evini gəlmə adama və ya zəvvara kirayəyə verirsə və həmin adam bu evdə neçə gün qalacağını bilmirsə, sövdələşməni hər gecənin haqqını müəyyən etməklə rəsmiləşdirmək olar. Lakin bu halda, kirayə müddəti aydınlaşdırılmadığına görə, evin sahibi onu istənilən vaxt boşaltmağı tələb etmək ixtiyarına malikdir.

Şəriət yalnız icarə haqqını konkret müəyyən etməklə torpaq sahəsinin icarəyə verilməsinə ixtiyar verir. Əgər icarə haqqı gələcək məhsulun müəyyən faizi ilə ödənilmək şərti ilə müəyyənləşdirilmişdirsə, saziş batil sayılır. Həmişə olduğu kimi, burada da şəriət qanunları mülkiyyətçinin mənafeyini, çəkdiyimiz misalda torpaq sahibinin mənafeyini müdafiə edir (çünki birdən məhsul götürülməyə bilər, yaxud təbii fəlakət baş verə bilər). İcarəçi icarə əşyasını qəbul etməyəndə, yaxud icarəyə götürdüyü əşyadan axıradək istifadə etməyəndə də icarəçinin mənafeyi müdafiə olunur, yəni bu halda icarəçi icarə haqqını və ya kirayə haqqını razılaşdırıldığı qaydada ödəməlidir.

Əgər bir nəfəri müəyyən bir iş görmək üçün muzdla tutmuşlarsa, lakin onu işlə təmin etməmişlərsə, bütün hallarda razılaşma əsasında onun haqqını ödəməlidirlər.

Şəriət məhkəməsinin nümayəndələri icarə işində dini göstərişlərin pozulmamasına ciddi göz qoyurlar. Əgər muzdla tutulmuş qəssab heyvanı şəriət qaydaları ilə kəsməmişdirsə və bunun nəticəsində ət "haram" olmuşdursa, qəssab heyvan sahibinin zərərini ödəməlidir. Əgər icarəyə götürülmüş

heyvan ölərsə, icaraçi heyvanın dəyərini ev sahibinə ödəməli, yaxud sahibinin razılığı ilə ona başqa heyvan qaytarmalıdır. Lakin əgər icarəyə götürülmüş yük heyvanı sürüşüb yıxılmışsa və belindəki hər hansı bir əşya məhv olmuşdursa, heyvanın sahibi bunun üçün cavabdeh deyildir.

İcarə müqaviləsinin daha bir xüsusiyyəti isə bundan ibarətdir ki, o, həmişə işləməklə və işlətməklə bağlıdır. İcarəyə götürülən obyekt ya işlədilir, ya da üzərində iş görülür. İcarəyə götürmüş şəxs ya özü, ya da onun sərəncamında olan başqa şəxslər icarə obyektini işlədir, yaxud da üzərində işləyir.

Şəriətdə icarə və kirayə haqqında sazişin pozulması qaydaları da nəzərdə tutulmuşdur. Saziş tərəflərin hər ikisinin razılığı ilə, yaxud sazişdə aldatma aşkar edildikdə pozula bilər. Məsələn, əgər ev sahibi kirayə iki otaq vermişdirsə, otaqlardan biri yaşayış üçün yararsız hala düşmüşdürsə və sahibi təcili tədbirlər görmürsə, kirayəçinin kirayə haqqında sazişi pozmağa hüququ vardır. Əgər sahibkar icarəyə torpaq sahəsi, ev və ya başqa əmlak vermişdirsə, o, bu əmlakı icarə müddəti qurtarmadan həmin icarəçiyə sata bilər. Lakin icaraçi icarə müddəti qurtaranadək icarə haqqını ödəməkdə davam edir.

Şəriətdə kirayə müqaviləsi konsessualdır, əvəzlidir və ikitərəflidir. Malın və pulun təqdim edilməsi tərəflərin razılaşdığı vaxtda və şərtlərlə həyata keçirilir. Müqavilə bağlayan tərəflər biri-birini aldatmamalı, özlərinə məxsus olmayan və yaxud da müqavilə bağlanan zaman öz idarəçiliyində, sərəncamında olmayan mal və yaxud pulun verilməsi barədə müqavilə bağlamamalıdırlar.

Kirayəyə verilən əmlakın bütün zəruri göstəriciləri bəlli olmalıdır. Çəki ilə ölçülən əmlakın həcmi, sahənin ölçüsü və s. dəqiq bilinməli, keyfiyyətlə bağlı göstəricilər şərtləndirilməlidir.

Kirayə verən şəxs müqavilə obyektinin zahirən görünməyən gizli keyfiyyətlərini, xasiyyətlərini, lazım gələrsə, istifadə edilmə xüsusiyyətlərini qarşı tərəfə bildirməlidir. Əks təqdirdə, gələcəkdə baş verə bilən bədbəxt hadisələr, dəymiş ziyanlar üçün məsuliyyət daşıyır. Kirayə verən müqavilə obyekti olan əmlakın eyni qəbildən olan digər əmlaklardan fərqləndirici xüsusiyyətlərini təsvir etməyə borcludur.

Birdəfəlik istehsal şeyləri kirayə müqaviləsinin predmeti ola bilməz. Kirayə müqaviləsinin əsas elementlərindən biri də əmlakın istifadəyə müvəqqəti olaraq verilməsidir.

Kirayəyə götürülmüş əmlakın kirayəyə götürən tərəfindən kirayəyə verilməsinə yol verilmir. Müstəsna hallarda malın sahibinin razılığı ilə kirayəyə verilə bilər. Bu da yeni kirayə müqaviləsi bağlanması deməkdir.

Xüsusi qulluğa ehtiyacı olan malın, heyvanın, quşun kirayəyə verilməsinə yol verilmir. Haram hesab olunan şeylər, istifadə edliməsi faydasız olan əmlak kirayə və icarə müqaviləsinin obyekti ola bilməz.

Aşağıdakı hallarda kirayə müqaviləsinə xitam verilir:

1. Tərəflərin razılığı ilə;
2. Əgər kirayəyə götürülmüş əmlak təyinatı üzrə istifadə olunmursa;
3. Əmlakın vəziyyəti qəsdən və yaxud ehtiyatsızlıq üzündən pisləşib, xarab edilərsə;
4. Kirayə haqqı vaxtlı-vaxtında ödənilmirsə;
5. Müqavilə üzrə əmlakın təmiri kirayə götürənin üzərinə qoyulduğu halda zəruri təmir işləri aparılmırsa;
6. Kirayəyə verilən əmlak müəyyən olunmuş vaxtda yararlı hala gətirilmirsə;
7. Əmlak kirayə götürəndən asılı olmayan səbəbdən sıradan çıxarsa və yaxud yararsız hala düşərsə.

Müqaviləyə vaxtından əvvəl xitam verildiyi halda, tərəflər dəymiş zərəri və yaxud ödənmiş kirayə haqqının artıq hissəsini qarşı tərəfə qaytarmalıdır.

İcarə və kirayə haqqında şəriət qanunları xüsusi tapşırığın, "cüalə" adlanan xüsusi bir xidmətin yerinə yetirilməsi üçün xüsusi haqq-mükafat nəzərdə tutur. Məsələn, birisi itirdiyi bir əşyanı tapan adama müəyyən məbləğdə haqq verəcəyini elan edir. Beləliklə, iki tərəf arasında saziş yaranır.

Fiqhdə mülki hüquq müqavilələrindən biri kimi girov qoyma da ayrıca hüquq institutu olaraq təqdim olunur. Fiqh girovu borcun verilməsini təsdiq edən vasitə kimi tanısa da, tərəflərin hüquq və vəzifəsini geniş normalaşdırmışdır. Girov qoyulmuş əmlak verilmiş borcun müqabilində borcun qaytarılmasını təmin etmək, qaytarılmadıqda satılıb əvəzini götürmək üçün vasitədir.

Quranda verilmiş borcun müqabilində girov tələb etməyə və saxlamağa icazə verilir. Girov müqaviləsinin şərti icab və qəbuldur. Tərəflər borca dair müqavilələrindən əlavə girova dair müqavilələr də bağlamalıdırlar. Girov qoyulan əmlak borcu təmin edəcək həddə olmalıdır. Buna görə də hər bir halda borc verən girovu bəyənməli, şərtləri qəbul etməlidir. Borcu təmin edə bilməyəcək, dəyəri borcdan çox aşağı olan hər hansı bir şeyin girov qoyulmasından söhbət gedə bilməz.

İslam dini müsəlman qardaşa hər cür yardım edilməsini iman sahibinin ən yaxşı əməllərindən sayır. Borc vermə isə müsəlmanın yaxşı əməllərinin yaxşısıdır.

Girov müqaviləsi borc müqaviləsi ilə sıx bağlı olduğuna görə, borc müqaviləsi kimi realdır. Girov qoyulan əmlak dərhal, yəni girov müqaviləsi reallaşan kimi girov qoyan şəxs girov götürənin ancaq sahibinə icazə verdikdə istifadə edə bilər.

Haram hesab olunan mallar istisna olmaqla, bütün mübadilə dəyəri olan şeylər girov qoyula bilər. Girov qoyulan şey saxlanmalı, xarab olub

istifadədən çıxmağa, öz dəyərini itirməyə qoyulmamalıdır. Girov qoyulan şeydən istifadə edilməsi, xarab edilməsi girovun şərtlərinin pozulması deməkdir ki, buna görə girov qoyan müvafiq miqdarda ödəniş tələb edə bilər. Girov qoyulan şeyin istifadə edilməsi onun dəyərinin azalması ilə müşayiət edilməyə bilər, belə halda da istifadə etmək qadağandır. Məsələn, brilyant sırğanı taxıb qonaq getmək, onun dəyərini az da olsa azaltmaz, lakin girov olduğu halda taxılmasına icazə verilmir.

Borc və girov üzrə müqavilənin müddəti qurtardıqdan sonra qarşılıqlı hesablaşma aparılarkən girov qoyulan əşyanın dəyərini itirməsi və ya daha da qiymətli olması, məhsul gətirməsi, artması, həmçinin xidmət tələb edən mal-heyvana çəkilən xərclər nəzərə alınmalıdır.

Girov qoyulan şeyin keyfiyyəti və əlamətləri, cinsi şahidlərin iştirakı ilə qeyd edilməlidir ki, sonradan borc ödənilmədikdə girov qoyulan şey satılarsa, dəyişdirilməsi mümkün olmasın, həqiqi dəyəri bilinsin. Girov qoyan və girov götürən ölərsə, onun hüquq və vəzifələri müvafiq həcmdə hüquqi varislərinə keçir, varislər öhdəçilikləri icra etmək istəməsələr, bunu qarşı tərəfə bildirməlidir.

Beləliklə, müsəlman mülki hüququnun əsas vəzifələrindən biri cəmiyyətin mülki hüquq münasibətlərini qorumaqdan ibarət olmuşdur. Şəriət mülki hüquq münasibətləri ilə bağlı bütün incəlikləri işləyib hazırlamışdır.

Hüquq xüsusi mülkiyyətin meydana gəlməsi nəticəsində insanlar arasında yaranan antoqonist ziddiyyətlərin tənzim edilməsi vasitəsi kimi insan cəmiyyətinin müəyyən mərhələsində ortaya çıxmışdır. Hüququn ilk tənzim obyekti də insanlar arasında əmlak münasibətlərindən doğan digər hüquq münasibətləri olmuşdur.

Əmlak münasibətlərini tənzim edən normalar və vərəsəlik hüquq normaları yarandığı vaxtdan bir-birini izləmiş və tamamlamışdır. Çünki normalar mülkiyyət sahibinə həyat verən, onu daimiləşdirən əsas vasitədir. Vərəsəlik olmadan sözün əsl mənasında, mülkiyyətdən söhbət gedə bilməz. Vərəsəlik və sahiblik bir-birini şərtləndirməsə və mövcudiyyətini təmin etməsəydi, nə xüsusi mülkiyyət yarana bilərdi, nə də onun mühafizəsini müəyyən edən normalar mövcud olardı. Bu baxımdan, vərəsəlik hüququ mülkiyyət hüququnun və bütün mülki hüquqlar kompleksinin hərəkətverici qüvvəsi hesab oluna bilər.

Əmlak və vərəsəlik müsəlman qanunvericiliyində diqqət mərkəzindədir. İslam dini cəmiyyət üzvlərinin bərabər əmlak hüquqlarından istifadə etməsini, haram gəlirə sahib olmamasını müdafiə edir, vərəsəlik hüquqlarına dəqiq əməl olunmasını tələb edir. İslam dininin tələblərinə görə, insan Allahın qulu olduğu kimi, əmlakı da Allahın nemətidir, yerdə və göydə nə varsa, hamısı Allaha məxsusdur və Allahın göstərişlərinə uyğun da istifadə olunmalıdır, müsəlman vərəsəlik hüququ da ya bilavasitə Allahın göstərişidir, ya

da Allahın göstərişlərinə müvafiq surətdə islam hüquqşünasları tərəfindən yaradılmışdır. Məhz buna görə də, müsəlman vərəsəlik hüququ digər hüquq sistemlərindən fərqli olaraq, iki hissəyə ayrılır: *fəraiz* və *vəsiyyət.*

Müsəlman vərəsəlik hüququnun xarakterik cəhətlərindən biri də budur ki, müsəlmanın əmlakının əsas hissəsinin bölünmə qaydalarını normalaşdıran "fəraiz" Allahın iradəsini ifadə etdiyinə və yalnız fiqh ehkamına tabe olduğuna görə xüsusi normalar sistemi kimi təqdim olunsa da, "vəsiyyət" mülki-hüquqi əqdlərin, daha dəqiq deyilsə, müqavilələrin bir növü hesab olunur.

Ölmüş şəxsin əmlakının bölünməsi qaydalarını müəyyən edən "fəraiz" müsəlman hüququnun ayrıca hissəsi, şəriət elmlərindən biri kimi öyrənilir. Bununla belə, bütün fiqh əsərlərində fəraiz ayrıca hüquq institutu kimi verilir. Bu, hər şeydən əvvəl, fəraizin çox mürəkkəb və əhəmiyyətli olması ilə bağlıdır.

Demək olar ki, bütün mütəfəkkir fəqihlər fəraizin öyrənilməsinə dair əsər həsr etmiş, payların bölünməsinə, müxtəlif mürəkkəb məsələlərin həllinə dair nümunələr vermişlər. Fəraizin zəngin və mürəkkəb olması onu fəqihlərin bilik və savad dərəcəsinin ölçü meyarına çevirmiş, fəraizi yaxşı bilmək fiqh elmini yaxşı bilmək kimi qiymətləndirilmişdir. Təsadüfi deyildir ki, ölmüş şəxsin əmlakının varislər arasında bölüşdürülməsi və vəsiyyətin tərtibi xüsusi bilik və hazırlıq, riyazi hesablamalar və qaydalar tələb etdiyi üçün o zamankı dahi alim və riyaziyyatçıları da məşğul etmişdir.

Fəraiz üzrə payların düzgün bölünməsini təmin etmək hər bir müsəlmanın, pay sahibləri və onların yaxın adamlarının borcudur. Payların bölünməsi zamanı narazılıq və şikayətin olmaması qayğısına qalmaq varislərin ümdə vəzifəsidir. Əgər payların düzgün bölünməsi mümkün deyilsə, yaxud bölgünü düzgün aparmağı bacarmırlarsa, həmçinin varislərin dairəsini dəqiq müəyyən etməyə nail olunmursa qaziyə, müctəhidə, fəraiz qaydalarını yaxşı bilən bir şəxsə müraciət olunmalıdır.

Beləliklə, müsəlman hüququnda vərəsəliyin iki növü: qanun üzrə vərəsəlik və vəsiyyət üzrə vərəsəlik nəzərdə tutulur.

Müsəlman vərəsəlik hüququ fəraizlə varis olmanın dörd əsas şərtini göstərir. Həmin şərtlərin üçü xüsusi, biri isə ümumi şərt hesab olunur.

Birinci şərt qohumluq əlaqələrinin mövcud olmasıdır. Şəriət vərəsəlik qaydasını və bu zaman kimə üstünlük verməli olduğunu vəsiyyət edənlə qohumluq əlaqəsinin dərəcəsindən asılı olaraq, varislərin üç qrupu əsasında müəyyən etmişdir. Həm də şəriət belə möhkəm qayda qoymuşdur: əgər birinci qrupa mənsub heç olmazsa bir nəfər varis vardırsa, bütün miras ona çatır, ikinci və üçüncü qruplar isə heç nə almırlar; əgər birinci qrupa mənsub varis yoxdursa, miras ikinci qrupa çatır, üçüncü qrup heç nə almır; üçüncü

qrupa mənsub varislər yalnız o halda mirasa yiyələnirlər ki, birinci və ikinci qrup varislərdən heç kəs olmasın.

Bu şərtə görə, varis mərhumun ata və ya ana tərəfindən qohumu olmalıdır, yəni atası, anası, bacısı, qardaşı, övladı və b. qohumların sayı və dərəcəsi Quranda çox az müəyyən edilmişdir, lakin sonradan daha uzaq qohumlar, xala, bibi, dayı, əmi, əmi oğlu, dayı oğlu, və digərləri varis ola biləcək qohumlar sırasına daxil edilmiş, ata və ana qohumluq xətləri ayrılaraq hüquqları, pay normaları, varislik ardıcıllığı müəyyənləşdirilmişdir.

İkinci şərt əsas mərhumla nikah münasibətində olmaqdır. Yalnız müsəlman hüquq normaları ilə müəyyən edilmiş qaydada bağlanmış nikah müqaviləsi varis olmanın əsasıdır. Müsəlman ailə hüququ ilə kişinin dörd arvadı ola bildiyi kimi, dördü də varisi ola bilər, qadınların isə yalnız bir əri ola bildiyindən, biri də varisi olmalıdır. Hər bir halda, nikah münasibətində olan şəxs ölənin varisidir, o cümlədən qul, kəniz öz ağası ilə nikah münasibətinə girmişsə, varislik hüquqlarını daşıyır.

Üçüncü şərt əsas ölmüş şəxslə dostluq və yaxınlıq münasibəti olmasıdır. Müsəlmanın ən savab əməllərindən biri də qul azad etməkdir. Azad edilmiş qul özünün keçmiş ağasının yaxın adamı, dostu hesab olunur. Buna görə də, qohumluq və nikah əsasları üzrə varislərdən sonra azad edilmiş qullar öz ağasının varisi olur.

Dördüncü şərt əsas ümumi xarakter daşıyır və ümumi şərt hesab olunur. Ümumi şərtin mahiyyəti bundan ibarətdir ki, əgər mərhumun yuxa-rıda qeyd olunan əsaslar üzrə varisi yoxdursa, yəni nə qohumluq, nə də nikah münasibətləri üzrə varis yoxdur və azad edilmiş qul da mövcud deyilsə, irs əmlakı beytül-mala verilib yoxsullara, dilənçilərə, şikəstlərə və b. ehtiyacı olub islamın zəkat verilməsi caiz gördüyü şəxslərə sərf olunmalıdır. Göründüyü kimi, axırıncı şərt varislikdən çox varisin olmamasına görə malın ümumcəmiyyət mənafeyinə sərf olunmasını nəzərdə tutur.

Vərəsəliyin bu şərtləri fəqihlər tərəfindən işlənmiş, Quran ehkamının şərhinə və inkişafına yönəldilmiş nəzəri müddəalardır. Fəqhlər tərəfindən meydana gətirilmiş bu müddəalar müsəlman olmayanların varisliyinin qarşısını almış, qulların və mərhumun dostlarının varis olmasına şərait yaratmışdır. Birinci və ikinci şərt müasir dövrdə qanunda mövcud olan vərəsəlik hüququnda da nəzərdə tutulur, dördüncü şərt isə irsin dövlətə keçməsi kimi qiymətləndirilə bilər.

Fəraiz üzrə kişi cinsindən olan varislər ilə qadın cinsindən olan varislər bir-birindən ayrılır. Çünki məhz cins kateqoriyasının payların miqdarına və ya bütövlükdə varis olmağa təsiri böyükdür. Kişi cinsindən olan varislərin Quranla müəyyən edilmiş sayı dörddür: ata, oğul, qardaş, ər. Fəqihlər onların sayını artırıb 10 nəfərə çatdırmışdır: oğlunun oğlu (əgər atası yoxsa),

atanın atası (əgər şikəst və ya xəstədirsə), qardaş oğlu (ana tərəfindən qardaşın oğlu bura daxil deyil), əmi, əmi oğlu və azad edilmiş qul - mütəqə.

Qadınlar tərəfindən varislərin Quran ilə müəyyən edilmiş sayı dörddür: qız, ana, arvad, bacı. Fəqihlər qadın varislərin də sayını artırıb 7 nəfərə çatdırmışlar. O cümlədən bura daxildir: oğlunun qızı (əgər oğlu yoxdursa), nənə (əgər şikəst və ya xəstədirsə), azad edilmiş kəniz - mütəqə.

Payların bölünməsi vaxtı varislərdən hər hansı biri uzaq səfərdə olduğuna görə öz payını ala bilməzsə payı beytül-mala verilir, həmin şəxs səfərdən qayıtdıqdan sonra irs olaraq almalı olduğu malı beytül-maldan tələb edib almağa haqlıdır.

Müsəlman hüququ vəsiyyətnaməni mülki müqavilələrin bir növü hesab edərək mülki hüquqa dair hissədə yerləşdirmişdir. Vəsiyyət edən şəxs vəsiyyətnamədə nəzərdə tutulan şəxsin vəsiyyəti qəbul etməsi barədə fikrini qabaqcadan bilməli, onun şərtlərini eşitməlidir. Çünki vəsiyyəti qəbul edən şəxs özlüyündə öz üzərinə bir sıra öhdəliklər götürmüş olur. Bununla da, həmin öhdəliklərin icraçı üçün nəzərdə tutulan maddi, fiziki və mənəvi zərərlərlə razılaşmış olur. Həmin öhdəliklərə ölmüş şəxsin dəfnini təşkil etmək, qəbirüstü əşyaları hazırlamaq, meyitin yuyulması, kəfənlənməsi, mərhumun uşaqlarının zəruri tələbatının ödənməsi, qulları ilə bağlı işlərin görülməsi, borclarının ödənməsini təşkil etmək və sair daxildir.

Vəsiyyət edən şəxs əmlakın üçdə bir hissəsini istədiyi şəxsə vəsiyyət edə bilər. Vəsiyyət qanuni vərəsələrin xeyrinə tərtib oluna bilməz.

Müsəlman hüququ vəsiyyəti, vərəsəlik hüququnu - ölmüş şəxsin əmlakının bölünməsi və yaxud şəxsin öz əmlakına dair göstəriş yox, mülki-hüquqi müqavilənin bir növü hesab edir. Tərəflərin hüquq və vəzifələr daşıması, qabaqcadan razılıq əldə edilməsi əsas götürülərək, şəxsin öz əmlakının ancaq üçdə birini vəsiyyət etməyə hüququ olmasını göstərir.

Şəriət müsəlmanlara ölməmişdən qabaq vəsiyyət etməyi vacib buyurur: "Sizin hər birinizi ölüm haqlayan zaman qoyub gedəcəyiniz maldan valideynlərinizə, yaxın qohumlarınıza verilməsi üçün ədalət üzrə (malın üçdə birindən çox olmamaq şərti ilə) vəsiyyət etməniz zəruridir ("Əl-Bəqərə" surəsi, ayə 180). Ölənin vəsiyyətini eşitdikdən sonra onu dəyişdirənlər günah sahibi olurlar. Şübhəsiz ki, Allah hər şeyi eşidən və biləndir!" (Əl-Bəqərə, 181).

Miras qoyan şəxsin ölümündən sonra onun əmlakı aşağıdakı qaydada bölüşdürülür:

1) mərhumun sosial vəziyyətindən asılı olaraq onun dəfninin təşkili və yasının başa çatdırılması üçün çəkilən xərclər;

2) mərhumun borclarının ödənilməsinə sərf edilən vəsait;

3) əmlakın üçdə biri məbləğində edilmiş vəsiyyətin icra edilməsi;

4) qalan əmlakdan mərhumun qanuni varisləri arasında pay bölgüsünün aparılması.

Qanun üzrə vərəsəlik, yəni fəraiz üzrə miras əmlakda payların bölüşdürülməsi haqqında fiqhin normaları mühüm əhəmiyyət kəsb etməklə yanaşı, öz xüsusi mürəkkəbliyi ilə seçilir. Fəraiz üzrə pay bölgüsü yalnız mərhumun özünə məxsus olan əmlakına aiddir, buna görə də mərhumla birlikdə yaşayan şəxslərə məxsus əmlak ayrılmalı, qarışıq düşməsinə yol verilməməlidir.

Müsəlman öz əmlakının, qeyd etdiyimiz kimi, bir hissəsini başqasına verməklə, vəsiyyət oluna bilən şəxslərin dairəsi də konkretləşdirilmişdir. Vəsiyyət edən şəxs şahidlərin iştirakı ilə vəsiyyət olunanı vəsiyyətlə tanış edib razılığını almalıdır. Əgər vəsiyyət olunan vəsiyyəti qəbul etməkdən imtina edir və ya vəsiyyətnamə tələblərinə cavab verəcək subyekt deyilsə, vəsiyyətnamə tərtib edilmir, tərtib edilmiş olsa belə batildir.

Məhəmməd Peyğəmbər (ə.s) demişdir: "Müsəlmanın xəstəlikdən sonra vəsiyyət etmədən iki gecə yataqda yatmağa ixtiyarı yoxdur". İstər Quranda, istərsə də sonradan yaradılmış qanunvericlik sənədlərində vəsiyyətin şifahi və ya yazılı edilməsi zərurətindən söhbət açılmamışdır. Lakin o zamanlar yazılı sənədləşmələr aparılması halları çox az olduğundan şifahi vəsiyyət edilməsi qanuni sayılırdı.

Vəsiyyətin yazılı olmasında isə heç bir qanunsuzluq yoxdur. Quranda isə vəsiyyətin iki nəfər şahidin iştirakı ilə edilməli olmasının göstərilməsi şifahiliyin məqbul olmasına işarədir.

Quranın "Əl-Maidə" surəsində deyilir. "Ey insanlar, ölüm yaxınlaşdıqca vəsiyyət zamanı sizdən və ya aranızdan iki kişini şahid tutun. Ölüm müsibəti səfər zamanı başınızda dolaşarsa, sizdən olmayan iki şahid tutun. Əgər onlardan şübhəniz olarsa, namazdan sonra "And olsun Allaha heç bir mənfəət qarşısında, qohum belə olsa, şahidliyimizi gizlətməyəcək, gizlətsək, Allahın qəzəbinə gələk" deyə and için". Əgər bitərəf adamlardan şahid olmasa, varislər özləri də şahid ola bilərlər, lakin onlar da eyni məzmunlu şəhadət andı içməlidirlər.

Vəsiyyət edən mükəlləf, ağıllı, həddi-büluğa çatmış qəyyumluq altında olmayan şəxs olmalıdır, əks halda vəsiyyətin hüquqi gücü olmur.

Vəsiyyətin əsas prinsipləri fəraizdən köklü surətdə fərqlənir. Fəraizdən fərqli olaraq, vəsiyyətnamə tərtibində, istər vəsiyyət edənin, istərsə də vəsiyyət olunanın dini mənsubiyyəti nəzərə alınmır, müsəlman qeyri-müsəlmanın xeyrinə vəsiyyət etməyə ixtiyarlı olduğu kimi, qeyri-müsəlman da müsəlmanın xeyrinə vəsiyyət edə bilər. Vəsiyyət olunan əmlak və tərəf vəsiyyət edənin istəyinə görə seçilə bildiyi üçün müsəlman hüququnun vəsiyyətə dair normaları dünyəvi xarakter daşıyır. Mahiyyəti etibarilə fəraiz Allah

iradəsinə bağlı olduğundan xalis dini hökmdür, tərəflərin iradəsi ilə dəyişdirilə də bilməz.

Prinsip etibarilə belə qənaətə gəlmək olar ki, müsəlman hüququ vəsiyyət olunanların dairəsini məhdudlaşdırmır, amma bu da nəzərə alınmalıdır ki, əmlakı mürtədlərə, islam ölkəsi ilə müharibə aparan ölkənin vətəndaşlarına vəsiyyət etmək yaramaz əməl hesab olunmuşdur. Həmçinin vəsiyyət obyekti olan əmlakın da dairəsi islam dini və müsəlman hüququnun ümumi prinsiplərindən kənara çıxa bilməz. Şəriət qaydasına əsasən, haram hesab edilən şeylər, qəsb olunmuş əmlak və s. müsəlmanın mülkiyyətində ola bilmədiyi kimi, həmin şeylərin vəsiyyətnamə ilə başqasına verilməsinə də yol verilmir.

Müsəlman ölkəsində yaşayan qeyri-müsəlman əmlakını müsəlmana da, qeyri-müsəlmana da vəsiyyət edə bilər. Lakin bu hal nəzərə alınmalıdır ki, haram şeyləri vəsiyyət etməyə yol verilmir. Həmçinin, müsəlman hüququ ilə haram, murdar hesab edilən yerlərə də vəsiyyətlə əmlak verilməsi qadağan edilir. Bu cür yerlərə şərab içmə yerləri, meyxana, fahişəxana, qumarxana və s. daxildir.

Müsəlman üçün vacib savab gətirən əməllərdən biri də məscid tikdirmək, körpü saldırmaq, xeyriyyə işləri görməkdir. Buna görə əmlakı vəsiyyətnamə ilə həmin tikintilərin aparılması üçün vəsiyyət etmək savab işdir.

Vəsiyyəti qeyri-müsəlman ölkəsində yaşayan yəhudi, xristian xeyrinə etməyə də yol verilir. Ölmüş şəxsin adına vəsiyyət mərhumun qohumlarının icazəsi ilə edilməlidir.

Vəsiyyətnamə tərtib olunduqdan sonra kimsənin onu dəyişdirməyə ixtiyarı yoxdur. Hətta oğulun mənafeyinə belə vəsiyyətnaməni dəyişdirmək olmaz. Vəsiyyətnamə üzrə varis olan hər bir kəs öz payını götürməlidir. Əgər vəsiyyətnamə tərtib olduqdan sonra vəsiyyətnamədə nəzərdə tutulan kateqoriyadan olan qohum ortaya çıxsa, yaxud vəsiyyət edənin sağlığında belə övladı olsa da vəsiyyətnamənin tələbindən kənara çıxıb onlara vəsiyyət üzrə pay verilməsi mümkün deyil.

Vəsiyyət real olmalıdır. Şəxs vəsiyyətində faktiki olaraq mülkiyyətində olmayan əmlakı, görülməsi mümkün olmayan işin görülməsini vəsiyyət etməməlidir. Murdar hesab edilən şeylərin vəsiyyət edilməsinə yol verilməsə də, öyrədilmiş ev heyvanlarının, quşların, sirkdə, meydanlarda oyun göstərən itin, filin, ov edən quşların vəsiyyət edilməsinə yol verilir.

Vəsiyyət hərəkətlər, işarələr yox, konkret sözlərlə edilməli, şeylərin adı, pulun məbləği dəqiq ifadə olunmalı, əlamətə, miqdara aid ifadələr konkret göstərilməlidir.

Vəsiyyət olunan vəsiyyət edəndən tez ölsə, vəsiyyət xitam olunur.

Əgər vəsiyyət olunan vəsiyyət üzrə əmlakı qəbul edib onu yenidən başqasına vəsiyyət etsə, yenə də ancaq həmin əmlakın üçdə birini vəsiyyət

etməyə hüququ vardır. İkinci vəsiyyət edənin varisi də vəsiyyət olunmuş əmlakı eyni əsaslarla alır.

Varis vəsiyyət olunan əmlakı tezliklə öləcək adamdan qəbul etmişsə, həmin andan da əmlakın mülkiyyətçisidir və həmin əmlaka sərəncam vermək hüququna malikdir.

Vəsiyyət üzrə varis həddi-büluğa çatmışsa, vəsiyyət olunmuş əmlakı özü alır, çatmamışsa, əmlak onun qanuni nümayəndəsinə, yaxud qəyyumuna verilir, həddi- büluğa çatdıqdan sonra özünə qaytarılır.

Beləliklə, vəsiyyət və fəraizin birlikdə çox mürəkkəb sistem yaratmasını nəzərə alan müsəlman dünyasının fəqih və riyaziyyatçıları hər iki xətt üzrə əmlak bölgüsü qaydalarını, nümunələrini işləyib hazırlamışlar. Bəllidir ki, qohumluq münasibətləri və yaxınlıq əlaqələri vəsiyyətlə birlikdə çox uzun bir silsilə əmələ gətirir.

Məhz müasir dünyamızda insanların genetik xüsusiyyətləri barədə elmi kəşflər də vərəsəliyə müsəlman hüququ baxımından yanaşılmasının əsaslı olmasını sübut edir.

Ticarət müsəlman Şərqində ən geniş yayılmış məşğuliyyətlərdən biridir. Təsadüfi deyildir ki, orta əsrlərin hələ erkən çağlarında bir çox səyyahlar Şərq şəhərlərini "böyük bazarlar" adlandırırdılar.

Səciyyəvi haldır ki, şərqdə adamlar ən qədim dövrlər dən bu günədək şəhərlərin sakinlərinin firavanlığını bazar meydanlarındakı bolluqla və izdihamla qiymətləndirirlər. Buna görə də müsəlman qanunları toplusunda ayrıca hüquq sahəsini təşkil edən "ticarət hüququ" ətraflı şərh olunmuşdur.

Şəriət ticarət işləri ilə məşğul olanlardan aşağıdakıları tələb edir:

1. Ticarət qaydalarını bilməyi;
2. Alıcılar arasında müsəlmanları ayırmamağı;
3. Malların qiyməti barəsində sərtlik göstərməməyi;
4. Əgər ticarət sazişi bağlamış tərəf fikrindən daşınıb bu sazişin ləğv olunmasını tələb edərsə, onunla razılaşmalı.

Ticarətlə məşğul olmağı qərara almış şəxsin qarşısında şəriət aşağıdakı şərtləri qoyur:

1. Yetkinlik yaşına çatmalıdır.
2. Sağlam düşüncəli və anlaqlı şəxs olmalıdır.
3. Öz əmlakını mənasız işlərə israf etməməlidir.
4. Ticarətlə məşğul olmağı qəti niyyət etməlidir.

Şəriət hər bir insanın zorla ticarətə cəlb olunmasını qadağan edir. Yetkinlik yaşına çatmayan şəxslərin valideynləri onların ticarət sazişi bağlamasına hətta razılıq vermiş olsalar da, şəriət belə şəxslərlə ticarəti qadağan edir. Lakin əgər yetkinlik yaşına çatmayan şəxs alıcı ilə satıcı arasında vasitəçilik edirsə (satıcıya pul çatdırıb onun malını alırsa və alıcıya təqdim edirsə), şəriət buna etiraz etmir.

Lakin belə bir yəqinlik olmalıdır ki, yetkinlik yaşına çatmamış şəxs bu işin öhdəsindən gələ biləcək, ya yox. Çünki pul və ya əşya itərsə, uşaq da, onun valideynləri də bunun üçün məsuliyyət daşımırlar.

İslam hüququnda ticarət və maliyyə sövdələşmələrində qadağalar (haram sayılanlar), şəriətin pislədiyi və bəyənmədiyi müəyyən göstərişlər son dərəcə böyük yer tutur.

Şəriətdə ticarət sövdələşməsini qadağan edən (haram hesab edən) hallar aşağıdakılardan ibarətdir:

- "haram" malların (mübadiləsi qadağan olunan əmlak alqı-satqısı);
- qəsb edilmiş əmlakın alqı-satqısı;
- satanın mülkiyyəti olmayan əmlakın alqı-satqısı;
- qadağan edilmiş ehtiraslı oyunlarla bağlı ticarət işi;
- sələmçiliklə (riba) əlaqəsi olan sövdələşmə;
- bir-birindən ayrılması mümkün olmayan "qarışıq malların" satılması halları.

Şəriət ticarət sazişinin özbaşına pozulmasına yol vermir. Bunun üçün əsas olmalıdır. Ticarət müqaviləsini pozmaq üçün malın aşkar və gizli qüsurları olmalıdır. Məsələn, əgər şəxs aldığı heyvanın qüsurlu olduğunu görərsə, sazişi poza bilər. Lakin əgər alıcı əmlakın aşkar qüsurunu görsə və sazişin pozulmasını dərhal tələb etməsə sonradan müqaviləni pozmaq məsələsini qaldırmağa onun hüququ yoxdur. Şəxs sazişi pozmayıb əmlakın qüsurunun müqabilində müəyyən məbləğdə pul da tələb edə bilər.

Şəriət ticarət sazişlərini aşağıdakı hallar olduqda ləğv edir:

- ticarət sazişi bağlayan tərəflərin həmin yeri tərk etməmiş ticarət sazişini pozmaq bəyanı (yəni tərəflər dağılmamış sazişin ləğv olunmasına icazə verilir);
- ticarət sazişində aldatma (qəbn) aşkar edildikdə;
- ticarət sazişində hər iki tərəfin (və ya onlardan birinin) müqaviləni pozmaq hüququna malik olduğu barədə şərt qoyulduqda;
- sazişdə saxtakarlığa yol verildikdə;
- ticarət müqaviləsi bağlanarkən satıcı və ya alıcı elə bir şərt qoyur ki, onun yerinə yetirilməməsi sazişi ləğv edir;
- malın qüsurları və ya keyfiyyətsizliyi aşkar edildiyinə görə ticarət sazişini pozmaq hüququ;
- satılan malın bir hissəsinin sazişə razılıq verməyən başqa şəxsə məxsus olduğu aşkara çıxarsa, ticarət sazişi ləğv edilir. Bu halda alıcının müqaviləni pozmağa və ya əmlakın əvəzinə pul almağa hüququ vardır;
- əgər alıcı satıcı ilə saziş bağlayıb malı ondan nəğd pula alacağına söz vermiş, lakin üç gün ərzində pulu təqdim etməmişdirsə, satıcının sazişi pozmaq hüququ vardır. Çünki alıcı əmlakın haqqını gec ödəyəcəyi haqqında

şərt qoymamışdır. Əgər satılan əmlak tez xarab olan məhsuldursa, saziş birinci günün axırı üçün pozula bilər;

- əgər müəyyən olunmuş əmlak əvəzinə başqa bir əmlak satılmış və ya mübadilə edilmişdirsə, üç gündən sonra ticarət sazişini pozmaq hüququ yaranır;

- malın alıcıya təqdim edilməsinin qeyri-mümkünlüyü (məsələn, satılan at qaçmışdırsa) nəticəsində ticarət sazişini pozmaq hüququ.

Ticarət-maliyyə əməliyyatları qaydalarının şəriətdə çox böyük diqqətlə və ətraflı təhlil edilməsi müsəlman cəmiyyəti üçün ticarətin böyük təsərrüfat, iqtisadi əhəmiyyət daşıdığına sübutdur.

Şəriətdə zəmanət, səfalət və əmanət qaydalarına da böyük yer verilir.

Quranın "Ən-Nisa" surəsinin 58-ci ayəsində Allah Təala insanlara buyurur ki, "Allah sizi əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Həqiqətən, Allahın bununla (belə bir tapşırıqla) sizə verdiyi öyüd necə də gözəldir! Əlbətdə, Allah (hər şeyi) eşidən və görəndir!"

Şəriət qaydalarında əşyaların saxlanması üçün verilməsi əşyadan istifadə olunmasının "ariyət" adlanan xüsusi formasını nəzərdə tutur ki, buna da əmanət hüququ deyilir.

Saxlamaq üçün əşya verən və əşyanı saxlamağa götürən adam yetkinlik yaşında və anlaqlı olmalıdırlar. Əgər birisi əşyanı qoruyub saxlaya biləcəyinə əmin deyildirsə, onu qəbul etməməlidir. Əşyanı saxlamağa vermiş şəxs onu istənilən vaxt geri götürə bilər. Əgər mühafizə edən ona verilmiş əşyaları daha özündə saxlamaqdan boyun qaçırarsa, bunları ya sahibinə, ya onun etibar etdiyi şəxsə, ya qəyyuma təqdim etməli, yaxud da əşyaların sahibinə bildirməlidir ki, onları özündə saxlamaq istəmir. Əgər mühafiz əşyaları daha özündə saxlamaq istəmədiyini bildirməsə və əşyalar itsə, o, itkinin əvəzini ödəməlidir. Lakin əgər mühafiz əşyaların itməsində müqəssir deyildirsə, bunun üçün məsuliyyət daşımır. Tərəflərin razılığı ilə mühafiz əşyaların saxlanması yerini özü seçə bilər. Əgər əşyaların sahibi ölərsə, mühafiz onları mərhumun varislərinə qaytarmalıdır.

Ticarət, maliyyə və təsərrüfat münasibətlərinin nizamlanmasında bu hüquqlarla yanaşı, şəriət borcun ödənilməsi qaydaları haqqında da normalar müəyyən etmişdir. Bir sözlə, islam dini müsəlmanlar arasında ticarət-iqtisadi əlaqələri və borc münasibətlərini ciddi tənzim edir. Borc vermək nəcib iş sayılır və həm şəriət, həm də islam ehkamları ilə təqdir edilir. Bu barədə Quranda və hədislərdə çoxlu göstəriş vardır. Hədislərin birində deyilir: "Kim öz müsəlman qardaşına borc versə, öz sərvətini daha da artıracaq, mələklərin mərhəmətini qazanacaqdır. Borc verdiyi adamla nəzakətlə rəftar edənlər qiyamət günü Sirat körpüsündən (Quranda cəhənnəmin üstündən keçən körpüdür) bir an içərisində heç bir sorğu-suala tutulmadan keçəcəklər.

Öz müsəlman qardaşına borc verməkdən imtina edənlərin cənnətə getməsi qadağandır".

Borc insanların öz ehtiyaclarını ödəmək üçün başqalarının maddi imkanlarından istifadə etmə üsullarından biridir. Qeyd etdiyimiz kimi, borc vermə müsəlmanın ən yaxşı əməllərindən sayılır. Məhəmməd Peyğəmbər (ə.s) demişdir: "Kim borc verdiyi adamı təntitmirsə, borcu ödənilənədək keçən hər gün onun üçün verdiyi borc qədər sədəqə vermiş sayılır".

Borc öz pulundan başqasına onun ehtiyaclarını ödəmək üçün qaytarılmaq şərtilə verilir. Borc fırıldaq gəlmə, aldatma, şəxs üzərində öz təsirini yaratma, özünü göstərmək niyyətilə, qazanc əldə etmə, sələm alıb varidatı artırma məqsədilə verilməməlidir.

Borc pul şəklində verilir və dəqiq miqdarı, qaytarılma vaxtı göstərilir. Buna görə, borc veriləndə miqdarı mücərrəd qalmamalı, konkret göstərilməlidir. Borc müqaviləsində tərəflər borc verən və borc alandır. Borc müqaviləsi real müqavilədir, tərəflər razılığa gəldiyi vaxt borc müqaviləsinin obyekti olan pulu verib-almalıdırlar. Əks halda, müqavilə bağlanmamış hesab olunur. Fiqhdə borc müqaviləsi yazılı və şifahi ola bilər. Müddət tərəflərin razılığı ilə müqavilə bağlanan zaman şərtləndirilir.

Əgər zamin olmaq istəyən varsa, borc verənə bildirir ki, borc alanın əvəzinə borc qaytarmaq məsuliyyətini öz üzərinə götürməyə hazırdır. Borc verən razıdırsa, borclunun razılığı tələb olunmur. Müsəlman Şərqində hüquq praktikasında olan bu cür işlər Qərb hüquqşünaslığı sistemində yoxdur. Səciyyəvi haldır ki, zamin olmaq və borclunu verəcəyi borclardan xilas etmək niyyətinə düşmüş şəxs şəraitdən asılı olaraq bu barədə borclunu xəbərdar edə də bilər, etməyə də bilər. Bir qayda olaraq, borclu onu bu borclardan kimin xilas etdiyini bilir. Ola bilər ki, ömrünün axırınadək həmin şəxsi tanımasın.

Əgər zamin olan adam borc verənə sadəcə olaraq bildirsə ki, borclu borcunu qaytarmazsa, onun əvəzinə borcu ödəyəcəkdir, bu zaminlik etibarsız (batil) sayılır. Bir şəxs yalnız bu şərtlə zaminliyi öz boynuna götürə bilər ki, borc verən, borclu, borcun növü və məbləği dəqiq, konkret müəyyən edilmiş olsun. Əgər borc verən alacağı borcu zaminə bağışlayırsa, borcludan verəcəyi məbləği tələb etməyə hüququ yoxdur. Əgər həmin adam hər hansı bir borclunun borcunu qaytarmağa zamin olursa sonradan zaminliyindən imtina etməməlidir. Lakin o, zaminlikdən imtina edə biləcəyi haqqında borc verənlə şərt kəsə bilər. Əgər birisi borclunun icazəsi olmadan onun borclarını ödəyərsə, borcludan heç nə tələb etməyə hüququ yoxdur.

Şəriətdə işlədilən "kəfalət" termini o deməkdir ki, zamin borc verənin borcunu onun tələbi ilə istənilən vaxt qaytaracağına təminat verir. Zaminlik haqqında öhdəlik qəbul edən adam "kəfil" adlanır. Beş halda kəfalət ləğv edilmiş olur:

- zamin duran əmanəti iddiaçıya qaytardıqda;
- borc verən iddiaçının borcu ödəndikdə;
- borc verən iddiaçı öz tələbindən əl çəkdikdə;
- borclu vəfat etdikdə;
- iddiaçı zamin duranı zaminlikdən könüllü surətdə azad etdikdə.

Beləliklə, müsəlman hüququnda mülki hüquq münasibətləri ilə bağlı bütün normalar işlənib hazırlanmışdır. Şəriət qanunlarında ticarət dövlətin əsas mədaxil mənbələrindən biri hesab edildiyindən, müsəlman dövlətlərinin ali hakimiyyət orqanları ticarətə hər vasitə ilə rəvac vermişlər.

İslam dininin hələ erkən çağında, Mədinədə ilk müsəlman icmasının yarandığı vaxt Məhəmməd Peyğəmbər (ə.s) ticarət məsələlərinə xüsusi fikir verirdi. Peyğəmbər özü ticarəti müqəddəs və faydalı iş sayırdı.

Müsəlman Şərqində ticarət uzun bir inkişaf yolu keçmiş, feodal-patriarxal və tayfa məhdudiyyətlərini aşıb kənara çıxmışdır. İslamda ticarət şirkətinin fəaliyyətinin təsdiq edilməsi isə onu göstərir ki, şəriət qanunlarının hələ təşəkkül tapdığı dövrdə ticarət kapitalının inkişafı nisbətən yüksək səviyyədə olmuşdu.

Müsəlman hüququnun yarandığı Ərəbistanın Məkkə və Mədinə şəhərlərində əhalinin dolanışığının əsasən ticarətlə bağlı olması, islam dininin və hüququnun yaradıcısı Məhəmməd Peyğəmbərin (ə.s) hələ cavan yaşlarında ticarət etməsi, Quranın özündə belə ticarətdən, ticarətdən gələn gəlirdən, onun bölgüsündən dəfələrlə söhbət açılması bu məşğuliyyət sahəsinə nə dərəcədə ciddi fikir verilməsini sübut edir.

Müsəlman hüququnda ticarət alqı-satqı müqaviləsi kimi yox, daha geniş ictimai hadisə kimi təqdim olunur.

Allah Təala ticarəti və ticarətdən gələn gəliri halal buyurmuşdur. Lakin ticarət kələk, fırıldaqla, alıcıları çəkidə, ölçüdə, qiymətdə aldatmaqla müşayiət olunmamalı, alınan mal bəyənilməli və qarşılıqlı razılaşma əsasında dəyəri ödənilməlidir.

Quranda buyurulur: "Vay olsun əskik satanların halına! Onlar ki, xalqdan alanda ölçünü doldurur, amma xalq üçün çəkdikləri və ölçdükləri zaman onu aldadırlar".

Ticarətdə satılan əmlak hər bir şey ola bilər, quldan başlamış ən kiçik əşyalara qədər hər şey alqı-satqı predmetidir. Lakin müsəlman hüququ ilə murdar hesab olunan şərab, məstedici maddələr, donuz əti, murdar olmuş heyvan əti alınıb-satıla bilməz. Yuyulmaq və ya başqa vasitələrlə təmizlənməyən şeylər, məsələn, süd, yağ, maye məmulatı, un, ərişdə və s. haram hesab edilən hər hansı bir şeyə bulaşdıqdan sonra alınıb satıla, ticarət münasibətinin obyekti ola bilməz. Həmçinin, insan üçün faydası olmayan şeylər - səhrada qum, çayda su, torpaq satmaq, həşərat, qumar və əyləncə vasitələri ticarət obyekti ola bilməz. Halal yolla əldə edilməyən əmlak, oğurluq, qarət

nəticəsində əldə edilmiş, məsciddən, vəqf idarəsindən qanunsuz olaraq götürülmüş əmlak, hətta evdən arvadın razılığı olmadan əldə edilmiş ümumi əmlak alqı-satqı obyekti ola bilməz.

Qəsb olunmuş əmlakın üzərinə daha az dəyərli başqa bir şey əlavə olunubsa və həmin əlavə olunan əmlakı ayırmaq mümkün deyilsə, sahibkar az dəyərli əmlakın dəyərini qəsb edənə ödəyib bütünlüklə götürməyə haqlıdır və yaxud da qarşılıqlı razılıq əsasında qəsbkar əsas əmlakın dəyərini ödəyir, bütün əmlak qarışığı ilə birlikdə ona qalır. Məsələn, min dinarlıq mərcana 50 dinarlıq da ucuz muncuq qatılıbsa, onu ayırmaq mümkün olmasa, sahibkar 50 dinar verib əmlakın hamısını götürür.

Əmlakı qəsb edəndən vicdanlı yolla almış şəxs əmlakı əsl sahibkara qaytarmalıdır. Qəsb edəndən əmlakı qəsb etmiş şəxs də onu sahibinə qaytarmalı, kimsədən də iddiası olmamalıdır. Əmlak qəsb olunduqdan sonra dəyəri aşağı düşübsə, sahibkar əmlakın əvvəlki dəyərini tələb edə və ya ona dəymiş zərəri iddia edə bilməz.

Qəsb olunmuş şeylər yalnız müsəlman qaydası ilə halal hesab olunan maldırsa, tələb qanuni sayılır. Şərab, donuz əti və s. haram hesab edilən şeylər qəsb olunubsa, sahibinin tələbini şəriət məhkəməsi müdafə etmir.

Qəsbkar qəsb etdiyi əmlakı sahibinə qaytarmaq istəyirsə, sahibkar əmlakı ona bağışlaya bilər, lakin əmlakı qəbul etməyib əlavə şeylər də tələb edərsə, qəsb edən əmlakı məhkəmə yolu ilə sahibinə qaytarmalıdır. Qəsb etmiş şəxs fəaliyyət qabiliyyətli deyilsə, cavabdeh onun qəyyumu, yəni valideynidir. Qul, kəniz qəsb etmişsə, cavabdeh sahibdir.

Qəsb olunmuş əmlakın alınıb-satılmasına icazə verilmir, kimsə qəsb olunmuş əmlakı almamalıdır. Əgər qəsb olunmuş əmlak satılmışsa, qəsb edən onu qaytarıb sahibinə verməyə borcludur.

Xüsusi mülkiyyətin mövcudluğu şəraitində şərikli əmlakın olması, hər cür mülkiyyətin alınıb-satılması və bu zaman digər mülkiyyətçilərin də hüquqlarına və əmlaklarına toxunulması halları tez-tez baş verir. Şərik mülkiyyətin, yaxud da gediş-gəliş, suvarma sistemləri, birgə istifadə edilən bina, tarla, bağ-bağça satılarkən şərikin digər istifadəçilərə alqı-satqı müqaviləsi bağlamaqda üstünlük verilməsinə fiqhdə üstün alma hüququ deyilir. Bu sahəyə aid olan normalar "Şəf"ə kitabı" (Üstün almaq kitabı) bölməsində toplanmışdır.

Üstün alma hüququ olan şəxs məlum şərtlər əsasında əmlakı almaq istəməsə mülkiyyət başqasına satılır. Fiqh şəxsi münasibətlərə görə əmlakın başqasına, münasib olmayan şəxslərə qəsdən satılmasını və yaxud üstün alma hüququndan istifadə edilməsini qadağan edir.

Malı satan üstün alma hüququ olan, bütün şəxslərə, qonşulara, varislərə və başqalarına əmlakını satması barədə xəbər verməli, alqı-satqı qaydalarına tam əməl olunmasına şərait yaratmalıdır. Qiymətlərin müəyyən edilmə-

si, seçmə qaydaları, eyiblərin aşkarlanması sahəsində ticarət qanunlarına əməl edilməli, bütün tərifl ər üçün şərtlər eyni olmalıdır. Üstün almaq hüququ olan şəxslər əmlakın alqı-satqısında iştirak etməyə tələsməlidirlər, satıcının təqsiri olmadan alqı-satqıda iştirak etməyən şəxs sonradan iddia etməyə haqlı deyildir. Satıcı üstün alma hüququ olanlara xəbər vermə vəzifəsini yalnız imkan daxilində yerinə yetirməyə borcludur, yeri bəlli olmayan və yaxud gediş-gəliş olmayan məkanlarda yaşayış və yaxud da həddindən artıq uzaqda olanlara xəbər vermək məcburi deyil. Malın satışını yubatmağa icazə verilmir, lakin üzrlü səbəb olarsa, qısa müddətə yubadıla bilər, bu şərtlə ki, şərait dəyişməsin.

Şəriət ticarət hüququ münasibətlərinin yaranmasında tərəflərin razılığını əsas şərt kimi qəbul edir. Üstün alma hüququnda və digər hüquq münasibətlərinin yaranmasında şəriət şəxslərin özlərinə aid edilən şərtlər də tələb edir.

Belə ki, ticarət hüquq münasibətinə girmiş tərəflərin, yəni satıcı və alıcının iradələrinin öz həqiqi iradələrinə uyğun olması üçün malın qiyməti və keyfiyyəti dəqiq müəyyən edilməli, bəyənilməlidir. Satıcı malın dəyəri ilə razılaşdığını formal hərəkətlə "razıyam", "halallaşdıq" və s. sözlərlə, alıcı isə "qəbul etdim", "mən bu malı aldım" sözlərini deməklə və yaxud da sözsüz hərəkətləri ilə malı bəyəndiyini bildirməlidir. Satıcı satdığı malın əsas keyfiyyətlərini bildirib çatışmazlıqlarını, qüsurlu cəhətlərini göstərməyə borcludur. Satıcı malına aid olan qüsurları gizlədərsə, yəni tərəfi bu barədə xəbərdar etməzsə, alıcını aldatmış olarsa, mal geri qaytarıla bilər. Malın geri qaytarılması vaxtını tərəflərin müəyyən etməsindən asılı olaraq, mal dərhal və yaxud sonra qaytarıla bilər. Lakin hər bir halda mal istifadə edilməməli, qüsur aşkara çıxarılan kimi geri qaytarılması üçün tədbir görülməlidir.

Alıcı qüsuru olan malı geri qaytarmaqdan başqa, dəymiş zərərin də ödənilməsini, malın eyni növ dəyərə malik başqası ilə dəyişdirilməsini, qüsurların aradan qaldırılmasını və yaxud da dəyərin müvafiq miqdarda aşağı salınıb artıq verilmiş hissəsinin geri qaytarılmasını tələb edə bilər. Satıcı bu şərtlərdən birini qəbul etməyə borcludur.

Ticarət müqaviləsi bağlanan zaman tərəflər malın keyfiyyəti barədə qəsdən, qarşılıqlı razılığa gəlirlərsə, yaxud onlardan qüsur meydana çıxarsa, malın qaytarılmayacağına razılıq verilirsə, mal heç bir halda geri qaytarıla bilməz. Həmçinin, alıcı malın qüsurlu olduğunu bilir və qəbul edirsə, mal geri qaytarıla bilməz. Geri qaytarılmış mal azalmış, öz keyfiyyətini itirmişsə, dəymiş zərər satıcıya ödənilməməlidir. Alqı-satqı nəğd pulla və ya malla, yaxud da kredit yolu ilə icra edilir. Kreditə mal alınarkən borcun qaytarılacağı vaxt bildirilməlidir. Əgər borclu həmin vaxt çatanadək vəfat edirsə, mərhumun varisləri borclu olurlar. Əgər borclu təyin edilmiş vaxtda borcunu qaytara bilmirsə, şəriət həmin vaxtı uzatmağı, borclunun öz borcunu

ödəməsinə imkan yaratmağı təklif edir. Bütün bu şərtlər ticarət müqavilələri bağlanarkən nəzərə alınmalıdır. Əks halda, tərəflərin hər hansı biri müqavilədə göstərilməyən şərtləri tələb etmək hüququna malik olmaz.

Dörd halda alıcı aldığı əmlakın keyfiyyətsizliyinə görə ticarət müqaviləsini poza bilməz:

1. Mal alarkən onun qüsurundan xəbərdar olarsa;
2. Qüsuru olan malı alacağına qabaqcadan razılıq verərsə;
3. Mal alarkən qüsur tapacağı təqdirdə, iddia irəli sürməyəcəyini və qüsur üçün haqq tələb etməyəcəyini bildirərsə;
4. Malın qüsuru haqqında alıcıya məlumat verilərsə. Əgər alıcı malda satıcının qabaqcadan bildirmədiyi başqa qüsurlar aşkar edərsə, onun sazişi pozmaq və əlavə haqq tələb etmək hüququ vardır.

Üç halda alıcının sazişi pozmaq hüququ olmur və ya sazişi poza bilməz:

1. Mal alındıqdan sonra ondan istifadə edilmişdirsə;
2. Şəxs ticarət sazişi bağladıqdan sonra malı satıcıya qaytarmaq hüququnu ləğv etmişdirsə;
3. Malın qüsuru ticarət sazişində göstərilən müddət qurtardıqdan sonra aşkar edilərsə.

Müsəlman hüququnda alıcının hüquq və vəzifələri olduğu kimi, satıcının da müvafiq hüquq və vəzifələri vardır. Alıcı aldığı malın dəyərini dövriyyədə olan qanuni, razılaşdırılmış pul vahidi və yaxud da mal və ya material ilə ödəməlidir. Əgər tərəflər malın dəyərini qızılla, yaxud gümüşlə ödəməyə razılaşmışsa, başqa bir şeylə ödəməyə yol verilmir. Satıcı müqaviləni ləğv etməyə, malını geri almağa, dəymiş zərəri isə ödətdirməyə haqlıdır. Hər bir halda, malın daşınması (əgər yalnız həmin müqavilə üçün gətirilibsə), keyfiyyətinə, həcminə xələl gəlməsi nəzərə alınmalıdır.

Əgər satıcı və alıcı ticarət müqaviləsi bağlamaq üçün vaxt təyin ediblərsə, tərəflərdən hər hansı biri müəyyən edilmiş vaxta qədər müqavilə bağlamaqdan imtina etməyə haqlıdır. Belə qərara gəlmiş tərəf qarşı tərəfə öz qərarını maksimum qısa müddətə çatdırmağa borcludur. Müştəri alacağı əmlakın bir qismindən hələ malı tam aparmamışdan istifadə etmişsə, müqavilə bağlamağa razılaşmadığı təqdirdə, həmin miqdar malın pulunu və ya əvəzini verməlidir.

Satıcı satışdan sonra əmələ gəlmiş qüsurlar üçün cavabdeh deyildir. Buna görə, alıcı geriyə qaytarmaq istədiyi malın qüsurunun məhz ticarət müqaviləsi bağlamazdan əvvəl mövcud olmasını sübut etməlidir. Əgər alınmış malın qüsurlu olması aşkara çıxarsa, mal o halda geri qaytarıla bilər ki, sahibkar bu haqda alan tərəfə məlumatı əvvəlcədən verməmiş olsun.

Fəqihlər ticarət hüquq münasibətlərində mübahisə və ziddiyyətlərin aradan qaldırılmasını həll etmək üçün malların böyük ölçüdə, bağlı, qablaşdırılmış halda, yoxlamadan satılmasını qadağan etmişlər.

Mal keyfiyyət və xüsusiyyətləri tam öyrənilə biləcək şəkildə bölünüb ayrılmalı, yoxlandıqdan və bütün göstəricilər üzrə razılıq əldə edildikdən sonra ticarət müqaviləsi bağlanmalıdır.

Fiqhə görə, ticarət müqaviləsi əsasən real müqavilədir, razılaşdırılmış malın alqı-satqısı yerində həyata keçirilməlidir. Orta əsrlərdə müqavilələr demək olar ki, həmişə şifahi bağlandığından müqavilənin həyata keçirilməsini təmin etmək üçün çox zaman şahidlərin iştirakı vacib olmuşdur. Ticarət sahəsində ikitərəfli müqavilə bağlanarkən, şahidin iştirakı ilə müqavilə şərtləri razılaşdırılır, sonradan tərəflər arasında və ya məhkəmədə mübahisə yarandığı halda onların ifadələri əsas götürülürdü.

Zəruri olduğu halda, alınmış ağac və ya bağın bar verməsi, heyvanın doğub-doğmayacağı da ticarət müqaviləsi bağlanarkən danışıq mövzusu olmalıdır.

Şərikli əmlakın satılması və alınmasının əsas xüsusiyyətləri budur ki, ticarət müqaviləsi bağlanarkən şəriklərin hamısı ya bilavasitə özü və yaxud da nümayəndələri vasitəsilə iştirak etməli, müqavilə şərtləri ilə tanış olub rəyini bildirməlidir. Şərikli mal yalnız bütün şəriklər razı olduqda satıla bilər, bölünməz əmlakın hissəvi satılmasına yol verilmir.

Müsəlman hüququnda ticarət sövdələşməsinə bilavasitə aid olmayan, lakin xarakter etibarı ilə alqı-satqıya çox oxşayan işgüzar sazişlər (sülh) də mövcuddur. Bu saziş elə tərəflər arasında bağlanır ki, onlardan biri öz vardövlətinin bir hissəsini hər hansı bir başqasına həvalə edir, mədaxil isə qarşılıqlı surətdə əlverişli şərtlərlə bölüşdürülür. Əlbəttə, bunların hamısı müqavilənin əsas şərti hesab edilən tərəflərin razılığı ilə həyata keçirilir. Razılaşmadan asılı olaraq, sahibkar müəyyən şərtləri razılaşdırmaqla heç nə almaya da bilər. Bu cür sazişin pozulmasında da alqı-satqı haqqında şəriət qaydalarından istifadə edilir.

Müsəlman hüququnda sələm faizi (riba) almaq, eləcə də qəlp qızıl satmaq ciddi surətdə qadağan edilir. Hədislərin birində bu barədə deyilir: sələmçiliklə məşğul olmaq və faiz almaq zinakarlıqdan (ərə və ya arvada xəyanətdən) yetmiş qat artıq günahdır. Şəriət əmtəə mübadiləsinə bu şərtlə yol verir ki, orda sələmçilik olmasın.

Beləliklə, ticarət Məkkə qüreyşlərinin ən şərəfli və vacib məşğuliyyətlərindən biri olmuş, müsəlman mülki hüquq normalarının yaranmasına və inkişafına böyük təsir göstərmişdir.

Ərəb istilaları münbitlik və coğrafi şərait baxımından ən müxtəlif torpaqları olan çox geniş bir ərazini onların hakimiyyəti altına salmışdır. Torpağın suvarılması, icarəyə verilməsi, vergi alınması və başqa bu kimi məsə-

lələrlə bağlı münasibətlərin tənzimlənməsi üçün torpaq kateqoriyalarını müəyyən etmək lazım idi. Hələ Məhəmməd Peyğəmbərin (ə.s) sağlığında və onun vəfatından sonra 632-ci ildən 661-ci ilədək hökmranlıq etmiş Rəşidi xəlifələrinin dövründə torpaq dörd kateqoriyaya bölünmüşdü.

Birinci kateqoriyalı torpaqlara müsəlmanların əkin üçün yararlı hala saldıqları torpaqları (xərac vergisi alınmayan üşr torpaqları) aid etmişlər.

İkinci kateqoriyalı torpaqlara elə torpaqlar aid edilmişdi ki, sahibləri onları öz əllərində saxlamaq (bu torpaqlar üzərində üstün hüquqa malik olmaq) üçün islamın şərtlərini qəbul etmişlər. Belə torpaqlar üşr torpaqlarına bərabər tutulur və onlardan xərac vergisi alınmırdı. Lakin müsəlman qanunşünası Əbu Hənifə yazmışdır: "İmam öz mülahizəsinə görə həmin torpaqlara xərac və ya üşr vergisi təyin edə bilər".

Üçüncü kateqoriyalı torpaqlar döyüşlərdə "kafirlərdən" zəbt edilmiş torpaqlardır. Müsəlman hüquq məktəbinin banilərindən biri Əş-Şafiinin fikrincə, belə torpaqlar qənimət kimi onları zəbt etmiş adamların arasında bölünərkən, onlara üstünlük verilməlidir. Bu torpaq xərac vergisi alınmayan torpaqlar kateqoriyasına daxildir. Müsəlman qanunşünası Malik ibn Ənas belə torpaqları vəqf hesab edir.

Dördüncü kateqoriyalı torpaqlara xərac vergisi alınan torpaqlar daxildir. Bunlar da iki növə ayrılır:

1. Sahiblərinin atıb getdiyi və buna görə də döyüşsüz müsəlmanların əlinə keçən torpaqlar (bunlar bir növ bütün müsəlmanların xeyrinə olaraq vəqf sayılır və buna görə də satılmasına yol verilmir);

2. Sahiblərinin atıb getdikləri, lakin müsəlmanların nəfinə xərac ödəyəcəkləri haqqında onlarla müqavilə bağlayan şəxslərin torpaqlarıdır.

Dördüncü kateqoriya torpaqların ikincü növü də iki yarımnövə ayrılır:

Birinci yarımnöv sahibləri müsəlmanların xeyrinə olaraq mülkiyyət hüququndan imtina etdikləri torpaqlardır. Bunlar sahibləri tərəfindən atılıb gedilmiş torpaqlar kimi müsəlmanların vəqf torpaqları sayılır. Belə torpaqlar üzərinə qoyulan xərac vergisi bir növ icarə haqqıdır və torpaqların sahibləri islamın şərtlərini qəbul etdikdən sonra da bu vergi saxlanılır.

Belə torpaqlardan istifadə edənlər "kafir" olaraq qalmasından və ya islam dinini qəbul edib-etməməsindən asılı olmayaraq müqaviləyə riayət etdikcə bu torpaqlar üzərində üstünlük hüququna malik olurlar. İcarəyə götürülmüş torpağı icarədarın əlindən almaq mümkün olmadığı kimi, həmin torpaqları da belə adamların əlindən almağa icazə verilmir. Əgər onlar əhl əzzimmə (yəni müsəlman dövlətinin təbəəsi olan qeyri-müsəlman) olaraq qalırlarsa və yeni yaşayış yeri seçirlərsə, xərac ödəmələri onları can vergisindən, yəni cizyədən azad etmir. Əgər onlar müsəlman dövlətinin himayəsini (zimmə) qəbul etməyib müqaviləyə riayət edirlərsə, lakin cizyə ödəmirlərsə, bu vəziyyətin bir ildən artıq qalmasına icazə verilmir.

İkinci yarımnövə aid olan torpaqlar müsəlmanların xərac ödəmək şərti ilə torpaqlar üzərində öz mülkiyyət hüququnu saxlamış adamların torpaqlarıdır. Belə adamlar kafir olaraq qalırlarsa, onlardan xərac - cizyə alınır, lakin onlar islamın şərtlərini qəbul edən kimi bu vergidən azad edilirlər. Həmin adamlardan can vergisi almamağa yol verilir.

Belə adamların öz torpağını istədiyi adama, yəni istər öz həmməzhəbinə, istərsə də müsəlmana və ya əhl əz-zimməyə satmasına icazə verilir. Həm də onlar torpağı öz həmməzhəbinə satırsa, bu torpaqdan sonra da xərac alınır, əgər müsəlmana satırsa, xərac alınmır.

Şəriətə görə torpaq dövlət mülkiyyəti sayılır. Lakin dövlət başçısı torpağa sahiblik hüququ əsasında və vergi ödəmək şərtilə ayrı-ayrı şəxslərə verə bilər. Mülkədar isə torpağı icarə qaydasında birbaşa istehsalçı kəndliyə vermək hüququna malikdir. Bunun müqabilində kəndli feodal rentası ödəməli idi.

Qeyd etdiyimiz kimi, şəriət normalarında bütün əmlakın, ilk növbədə, torpaq əmlakının təsnifatı diqqəti cəlb edir. Burada dövlət torpaqları, ayrı-ayrı şəxslərə məxsus torpaqlar, istifadə olunmayan torpaqlar, şumlanma üçün yararsız olan torpaqlar və s. göstərilirdi.

Torpağın böyük bir hissəsi və suvarma şəbəkələri dövlətin mülkiyyətində idi. İrriqasiya sistemindən istifadə etmək üçün dövlət mülkiyyətində xeyli qul var idi. Torpaqların bir hissəsi xəlifənin ailəsinə məxsus idi. Ayrı-ayrı şəxslərin də xüsusi torpaq mülkiyyəti vardı. Şəriət normalarına görə xüsusi mülkiyyət hüququnun ilahi mənşəli olduğu göstərilir. Mülkiyyətçi öz əmlakına azad sərəncam verə bilərdi. Bununla belə, müəyyən kateqoriya əmlak ümumi sayılırdı və xüsusi mülkiyyətdə ola bilməzdi. Bunlara dəniz, hava, səhra, məscid və s. aid idi.

Şəriətdə mülkiyyət hüququnun yaranması vasitələri reqlamentləşdirilmişdi. Ümumi qaydaya görə istifadə olunan torpaqlar dövlətin mülkiyyətinə keçir, xəlifə və əmirlərin sərəncamına verilirdi. Hərbi yürüşlər nəticəsində ələ keçirilmiş digər əmlak bir neçə hissəyə bölünürdü. Onun bir hissəsi əmlakı əldə etmiş şəxsə, bir hissəsi dövlətə, bir hissəsi məscidə və başqa yerlərə verilirdi. Mülkiyyət hüququnun yaranması vasitələrinə, həmçinin vərəsəlik, müqavilə və s. aid idi.

Feodal torpaq mülkiyyətinin əsas növlərindən biri dövlət torpaqları idi. Belə torpaqlar divan və xəlifə torpağı adlanırdı. Varissiz ölən şəxslərin əmlərinə görə vəzifəsindən qovulan məmurların torpağı da divan torpağına qatılırdı.

Geniş yayılmış torpaq mülkiyyəti formalarından biri iqta idi. Bu cür mülkiyyət forması orta əsrlərdəki feodal dövlətlərinin hamısında var idi. İqta hüququ adamlara orduda göstərdiyi hərbi hünərə və sədaqətli xidmətlərinə görə dövlət tərəfindən verilirdi. İqta divan torpağından verilirdi. Bəzi

hallarda hərbçilərə vəqf torpağından da iqta verilirdi. Bir sıra ölkələrdən fərqli olaraq Xilafətdə iqta sahibi məcburi hərbi mükəlləfiyyət daşımır, xəzinəyə müəyyən miqdarda vergi verirdi. İqtanın iki forması mövcud idi. Onlardan biri bağışlanan iqta idi ki, o, sahibinin şəxsi mülkiyyətinə çevrilə bilir və nəsildən-nəsilə keçirdi. Bu cür iqta torpağı bir qayda olaraq vərəsəsi olmayan, sahibi ölmüş və becərilməyən torpaqlardan verilirdi. Bağışlanan (xüsusi) iqta şairlərə, xüsusi istedadlı şəxslərə və dövlət qarşısında böyük xidmətləri olan adamlara verilirdi.

İqtanın formalarından biri də icarə edilən iqta idi ki, onu hərbçilərə verirdilər. Bu cür torpaqlar irsən keçə bilməz, lazım gəldikdə isə geri alına bilərdi. Xüsusi mülk torpaqlarının bir hissəsini bağışlanan torpaqlar (buna "xəlifə iqtası" da deyilirdi), digər hissəsini satın alınan torpaqlar təşkil edirdi.

Müsəlman hüquqşünaslığında torpaq hüququ həmişə ikili xarakter daşımışdır. Bir tərəfdən, torpaq sahəsi mülkiyyət kimi toxunulmazdır, digər tərəfdən isə torpağın suvarılması məsələsində torpaq sahibləri bir-birindən asılı ola bilərlər. Mülkiyyətçilərin mənafeyi burada toqquşur. Məsələn: əgər birisi öz torpaq sahəsində başqasının sahəsindən su arxı çəkmək istəyirsə, ikinci torpaq sahibinin buna mane olmağa ixtiyarı yoxdur, yoxsa bu, başqasının hüquq və azadlığının pozulması kimi qiymətləndirilər. Müsəlman qanunvericiliyinin bu ikili xarakteri çox vaxt torpaq mülkiyyətçilərinin toqquşmasına səbəb olurdu. Şəriət başqasının "hüququnun pozulmasını" qadağan edir və belə hallarda ciddi cəzalar nəzərdə tuturdu.

Müsəlman hüququnun yaranmasının məkanı olan Ərəbistan yarımadasında kimsəyə mənsub olmayan susuz boş səhralar ərazinin böyük bir qismini təşkil edirdi. Buna görə də, fiqhə istifadəsiz torpaqların hüquqi rejimini müəyyən edən normalar sistemi daxil edilmişdi.

Torpaq orta əsr dünyasında, sözün əsl mənasında, bütün zənginliklərin mənbəyi olduğundan əkilib-becərilməsi cəmiyyətin diqqət mərkəzində olmuşdur.

Məhəmməd Peyğəmbərin (ə.s) hədislərindən:

- Heç bir kəsə aid olmayan yeri yararlı hala salan adamın o yerdə hamıdan çox haqqı vardır.
- Yararsız qalmış bir yeri cana gətirən adam bəri başdan savaba nail olur, orada nə əkib-becərsə, oradan nə götürsə, özünə sədəqə sayılır.
- Kim başqasının torpağının bir hissəsini zor ilə əlindən alırsa, Tanrıya, Tanrının özünə qarşı çıxmış sayılır.

Bütün müsəlmanlara istifadə olunmayan və kimsənin mülkiyyətinə daxil edilməmiş torpaqları istifadəyə, yararlı hala gətirib, əkib-becərmələrinə icazə verilir.

Ölü torpaqlar iki yerə bölünür:

- birinci, uzun müddət istifadə olunduqdan sonra sahibinin köçməsi və ya müharibələr nəticəsində əhalinin qırılması ilə boş qalan, lakin suyu, yolu və başqa əkinçilik imkanları mövcud olan istifadəyə yararlı torpaqlardır;
- ikincisi isə heç zaman istifadə olunmamış, təsərrüfatçılıq imkanları son dərəcə məhdud olan, böyük əmək və sərmayə qoyuluşu tələb edən torpaqlardır.

Fiqhə görə, ölü torpaqlara yiyələnmək üçün dini rəhbərin, imamın, şeyxin, müftinin razılığı olmalı idi. Lakin təcrübədə ölü torpaqların əsl sərəncamçısı dövlət başçısı, dövlətin torpaq idarəçiliyinə baxan orqanları olmuşdur. Hətta dini idarələrə də torpaqlar dövlət orqanları tərəfindən istədikləri vaxt verilir və ya verilməsindən imtina edilirdi.

Torpaq üzərində mülkiyyət hüququ get-gedə daha çox dövlətə keçmiş, fiqhin hökmləri formal olaraq yaşasa da, tətbiq edilməmişdir. Ölü torpaqlardan alınan vergilər də dövlət qanunları ilə tənzim olunurdu. Bu torpaqlardan vergi alınmaya da bilərdi.

Ölü torpaqlarda olan filiz, neft, qızıl, mineral su mədənləri əgər açıqda olubsa, torpağı dirildənə aid olmur, o, ancaq həmin mədənlərin qəyyumu hesab olunur. Əgər ölü torpaqdakı mədəni torpağı dirildən aşkara çıxarılıbsa, mədən onundur, lakin qazancdan xüsusi qaydada vergi, xüms verməlidir.

Ölü torpağı diriltmək üçün ətrafda olan çaylardan, bulaqlardan, kəhrizlərdən su gətirmək üçün arx, gediş-gəliş üçün yol çəkilməsi zəruri olduqda kimsənin mane olmağa haqqı yoxdur. Əgər arx və ya yol həmin sahəyə bitişik sahələrə qədər gəlirsə, ölü torpağın sahibi də həmin arxlar və yollardan istifadə edir, lakin cari xərclərdə də iştirak etməyə borcludur. Əgər arx və ya yol hökmən başqasının torpağından keçməlidirsə, həmin torpağın sahibi arx və ya yol çəkilməsinə mane olmamalı, öz torpağından yol verməlidir.

Ölü torpaqlara su çəkildikdə bütün ölü torpaq sahibləri bərabər hüquqla istifadə edirlər, hər kəs öz torpağına çatacaq qədər və ya bərabər vaxt və miqdarda su aparmalıdır.

Müsəlman hüququ torpaq üzərində mülkiyyət formalarını və ya onun əldə edilmə üsullarını, eyni zamanda sahibsiz və istifadəsiz torpaqları əldə etməyin xüsusiyyətini və qaydalarını normalaşdırır. Torpağın alqı-satqı, bağışlama, vərəsəlik və ya digər üsullarla əldə edilməsi mülkiyyətin başqa növlərinin əldə edilməsi kimidir. Torpaq üzərində mülkiyyətin digər formaları müsəlman hüququnun tənzim obyektinə o zaman çevrilir ki, o, qanunla nəzərdə tutulan hər hansı bir ictimai münasibətin yaranması, dəyişilməsi və ya xitam edilməsinə səbəb olsun; mülki hüquq obyekti olsun.

Müsəlman hüququnda tarlaların becərilməsi haqqında şəriət müqaviləsindən (müzaraə), suvarma qaydaları haqqında (musaqat), habelə torpaq sahibi ilə əkinçinin hüquq və vəzifələri ilə bağlı bəzi məsələlərdən torpaq

sahiblərinin xüsusi mülkiyyətinin və mənafeyinin şəriət tərəfindən qorunması məsələsi işlənib hazırlanmışdır.

Müzaraə müsəlman Şərqində ən geniş yayılmış kənd təsərrüfatı sazişlərindən biridir. Saziş aşağadıkı qaydada bağlanır:

- torpaq sahibi əkinçiyə becərmək üçün torpaq sahəsi verməsi haqqında onunla saziş bağlayır. Torpaq sahəsindən istifadə üçün haqq olaraq torpaq sahibinə oradan götürülən məhsulun bir hissəsi verilir. Nə qədər ki, əkinçi torpağı becərməyə başlamamışdır, tərəflərdən hər hansı birinin arzusu ilə saziş pozula bilər;

- əkinçi də, torpaq sahibi də yetkinlik yaşına çatmış sağlam düşüncəli adamlar olmalı və sazişi könüllü surətdə bağlamalıdırlar;

- əgər sazişdə məhsulun hamısının tərəflərdən ancaq birinə çatmalı olduğu haqqında hər hansı şərt vardırsa, saziş etibarsız sayılır;

- icarə haqqı kimi verilən məhsulun bir hissəsi belə müəyyən edilir: ya məhsul tərəflər arasında tən bölünür, yaxud da razılaşmaya görə tərəflərdən biri məhsulun üçdə bir hissəsini alır. Əgər torpaq sahibi əkinçiyə desə ki, "torpağı becər və məhsulun istədiyin qədərini mənə ver", saziş etibarsız sayılır, çünki hər kəsin payı müqavilədə dəqiq təyin edilməlidir;

- torpağın becərilməsinin müddəti də müəyyən edilməli, həm də bu müddət torpağın becərilməsi və məhsulun yığılması üçün kifayət edən qədər olmalıdır;

- əkinçiyə təhvil verilən torpaq becərilmək və məhsul yetişdirmək üçün yararlı olmalıdır, yaxud belə bir əminlik olmalıdır ki, həmin torpaq sahəsini becərmək üçün yararlı hala salmaq mümkündür. Yalnız bu şərtlə müqavilə etibarlı sayıla bilər;

- əgər torpaq sahibinin müxtəlif yerlərdə bir neçə torpaq sahəsi vardırsa, sazişdə həmin sahələrdən məhz hansının əkinçiyə verildiyi göstərilməlidir, əks təqdirdə saziş etibarsız sayılacaqdır;

- sazişdə torpağın becərilməsinə tərəflərin hər birinin çəkəcəyi xərc müəyyən edilməlidir.

Beləliklə, şəriət qanunları torpaq üzərində feodal mülkiyyətinin möhkəmlənməsinə hər vasitə ilə kömək edir və hər kəsin mülkiyyət hüququnu qoruyur.

İslam dini cəmiyyət həyatında rəhbərliyi öz üzərinə götürməklə dövləti funksiyaları da icra etməyə başladı. Məhəmməd Peyğəmbər (ə.s) isə dinin yaradıcısı olmaqla yanaşı, həm də müsəlmanların dünyəvi rəhbəri, hələ rüşeym halında olan, gələcəkdə böyük qüdrətə çevriləcək dövlətin başçısı idi. Aramsız ideoloji mübarizə və müharibələr islam cəmiyyəti içərisində dövləti funksiyaların formalaşması və təkmilləşməsini sürətləndirirdi. Müsəlmanları digər insanlardan min dürlü üsullarla ayırıb vahid toplum şəklinə salan Məhəmməd Peyğəmbər (ə.s) çox keçmədən ciddi ictimai çətinliklərlə,

xüsusən iqtisadi, maddi çətinliklərlə qarşılaşdı. Bu çətinlikləri önləmək və aradan qaldırmaq üçün mütləq yeni dövlət funksiyası yaradılması və bütün qüvvələrin səfərbər edilməsi zərurəti meydana çıxdı. Bunu nəzərə alan Məhəmməd Peyğəmbər (ə.s) bütün müsəlmanları ümmət və bir-birinin qardaşı elan etdi. Bu üsul az-çox varı olan müsəlmanların maddi imkanlarından başqalarının da istifadə etməsinə şərait yaradır, maddi vəsaitlərin kənara axımının qarşısını alır, qənimətlərin düzgün bölünməsini təmin edirdi.

Müsəlmanları yaşatmaq və qələbəyə doğru aparmaq üçün daha kəsərli vasitə ilə maddi nemətləri toplamaq, yoxsullara, imkansızlara vermək lazım idi. Buna da yalnız dövləti funksiya kömək edə bilərdi.

Məhəmməd Peyğəmbər (ə.s) müsəlman dövlətinin ilkin funksiyalarından biri olan islam vergi sistemini yaratdı. Məhəmməd Peyğəmbər (ə.s) deyirdi: "Hər bir varlıda yoxsulun payı var". Kimsənin vergi öhdəçiliyindən boyun qaçırmaması üçün islam dövləti vergisinə zəkat (təmizləmə, böyütmə, artırma) adı verərək islamın beş əsasından biri elan etdi. Heç də təsadüfi deyil ki, zəkat vermə hicrətin ikinci ilində fərz (yəni, həyata keçirilməsi Allah qarşısında vacib əməl) buyurulmuşdur.

Şəriət verginin bir çox formalarını nəzərdə tutur: xüms, zəkat, zəkat-əl-fitrə, sədəqə, cizyə, xərac, xərac və üşr.

Xüms (ərəbcədir, "beşdə bir" deməkdir) – müsəlman qanunvericiliyində vergi növlərindən biridir, müxtəlif mülkiyyət və mənfəət növlərindən (qazancdan, mədənlərdən və dəfinələrdən, hərbi qənimətdən) dövlətin nəfinə tutulur. İslamın erkən çağlarında hərbi qənimətin Peyğəmbərin (ə.s) və onun yaxınlarının, sonralar isə Rəşidi xəlifələrinin sərəncamına verilən hissəsinə xüms deyilirdi.

Haramın halal edilməsi üçün, yəni bir şəxsin qeyri-qanuni yolla əlinə keçmiş malı halal etməsi, xəzinə və ya yer altından, evdən, eşikdən tapılan şeylər – bütün bu qeyd olunan mallardan zəkat malın və onun dəyərinin beşdə biri miqdarında, yəni xüms şəklində ödənilirdi.

Zəkat – şəriət qanunu ilə əmlak və gəlir üzərində qoyulan vergidir. Nəzəri cəhətdən bu vergi icmanın ehtiyaclarına sərf olunur və yoxsul müsəlmanlar arasında bölüşdürülürdü. Sonralar bu vergi növü fiqh ilə müəyyən olunmuş qaydaya əsasən tənzimlənirdi.

Zəkat müsəlman vergi hüququnda mühüm yer tutur. Məhəmməd Peyğəmbər (ə.s) söyləmişdir: "Zəkat islamın qüvvətlənmə körpüsüdür". Zəkat haqqında islamın hüquq normaları fəqihlər tərəfindən inkişaf etdirilərək ayrıca hüquq institutu halına gətirilmişdir.

Zəkat vermək o kəslər üçün vacibdir ki, zəkat verilməli malı və ya qazancı olsun. Zəkat verən kəs müsəlman, anlaqlı, həddi-büluğa çatmış və azad adam olmalıdır. Qul zəkat verə bilməz, çünki o, özü də kimsənin malıdır, qazancı da sahibinə çatır.

Zəkat vermənin müddəti bir ildir, yəni əmlak və ya qazanc bir il ərzində azala və məhv ola bilər. Qazanc isə tamamilə ya itirilə bilər, ya da arta və azala bilər. Əkinçilik məhsullarının əldə edilməsindən bir il keçməsinə ehtiyac yoxdur.

Qaramal, qoyun, dəvə, qızıl və ya gümüş sahibi olan müsəlman il ərzində ruhi xəstəlik keçirərsə, ondan zəkat vergisi tələb olunmur. Lakin əgər ilin axırında o sağalarsa, vergi verməlidir.

Başqasının əlindən zorakılıqla alınmış əmlak üçün zəkat vergisi təyin edilmir. Əgər borc alınmış qızıldan və ya gümüşdən dəyərinə görə zəkat alınmalıdırsa və bunlar il ərzində əvvəlki sahibinə qaytarılmamışdırsa, borc alan həmin varidat üçün zəkat verməlidir. Həmin qızılı və ya gümüşü borc verən adam isə bu halda zəkat vermir.

Taxıldan və giləmeyvədən zəkat tutulması zamanı şəriət vergiyığanları xüsusi çəki ölçülərindən istifadə edirlər. Əgər zəkat vergisi ödənən dövrdə əmlak sahibi vəfat edərsə, vergi onun əmlakından tutulur. Əgər o, vergi toplanan vaxtdan tez ölmüşdürsə, zəkatı ölənin varisləri, hərəsi öz payından ödəyir. Qazılar xüsusi vergiyığanlar təyin edirlər. Onlara əvvəlki məhsulun əvəzini başqa məhsulla zəkat almaq hüququ verilir. Əgər xurma və ya üzüm bağları, buğda və ya arpa zəmisi vergi yığılanadək satılmışdırsa, bunların yeni sahibləri zəkat verməlidirlər. Əgər vergi ödənilməzsə qazılar ticarət sazişini ləğv edə bilərlər.

Şəriət zəkat yığılmasının ən xırda təfərrüatını nəzərə alır. Məsələn, əgər bir torpaq sahəsi süni suvarılırsa, bu zaman qonşu sahəyə hopan su bu sahənin suvarılmasına ehtiyacı aradan qaldırırsa, zəkat vergisi aşağıdakı hesabla tutulur: suvarılan torpağın məhsulunun onda biri ödənilməlidir.

Zəkat yoxsullara, miskinlərə, zəkat toplayanlara, müsəlmanlığı yenicə qəbul etmişlərə, qullara, borclulara, iflasa uğramışlara, din yolunda vuruşmağa gedənlərə, yolda qalıb evinə qayıda bilməyənlərə verilir. Yoxsul o kəslər hesab olunur ki, ailəsini dolandırmaq imkanı olmasın. Ehtiyacını ödəyə biləcək miqdarda malı və ya qazancı olmayan zəkat verə bilməz. Bu zümrədən daha kasıb olanlar isə miskinlərdir, beləliəri hətta qarnını doyura biləcək qədər imkana belə malik olmur. Zəkat toplayanlara isə ona görə zəkatdan pay ayırırlar ki, başqa işlə məşğul olmadıqlarına görə dolanışıqları yalnız zəkata bağlı olur. Başqa yerdən gəliri olan şəxs zəkat toplanmasında iştirak etsə də, ona zəkat çatmır. İslamı yeni qəbul etmiş şəxslərə isə zəkat yalnız ona görə verilir ki, islama rəğbətləri artsın. Zəkat verilən şəxs zəkatı qəbul etməyə də bilər.

Zəkatın qul azad edilməsinə xərclənməsi isə daha savablıdır. Qulların mövcud olduğu vaxtlarda bəzən elə olurdu ki, qulun bir hissəsi azad olur, qalanı beşdə biri, ya üçdə biri azad olmurdu. Buna görə qul köləlikdə qalırdı. Belə hallarda qulun azad olmayan hissəsinin dəyəri onun sahibinə

ödənir, tamamilə azadlığa buraxılırdı. Ümumiyyətlə, islam dini quldarlığın əleyhinə olmuş, hər vasitə ilə qulları azad etməyə çalışmışdır. Belə hesab edilirdi ki, insan yalnız Allahın qulu ola bilər. Qul azad etmək müsəlman üçün ən bəyənilən əməl hesab edilirdi.

Zəkat yalnız halal mal və qazancdan verilir, haram malın hamısı, yəni zəhmət bahasına başa gəlməyən mal yoxsullara, fəqirlərə paylanmalıdır. Müsəlman haram mala sahib ola bilməz. Zəkat verməli olan müsəlman əvvəlcə öz qohum-əqrəbaları arasındakı yoxsulları arayıb-axtarıb zəkatını onlara, elələri olmazsa, başqalarına verməlidir.

Zəkat alan şəxs, həqiqətən də, onu almağa haqlı olmalıdır, əks halda böyük günah işlətmiş olur. Zəkat almağa haqlı olmayan birisinin haqqını yemiş, onu ac qoymuş olur. Belələrini axirətdə ağır cəzalar gözləyir.

Zəkat verən zəkatı bacardıqca gizli verməli, zəkat alanın utanmasına, ehtiyacdan əzab çəkməsinə yol verməməli, əməlinin hər hansı bir şəxs yox, Allah yolunda edildiyini dərk edib başa qaxmamalı, incitməməlidir. Buna görə zəkat verilərkən niyyət edilməsi vacibdir.

Niyyət, zəkatın başqa bağışlamalardan fərqləndirilməsini də nəzərdə tutur. Orucluğun qurtarması münasibətilə yoxsullara verilən fitrə və nəzir deyilərək yoxsullara və ya dini idarələrə verilən pul və s. şeylərin zəkatdan əsas fərqi niyyətdir. Daha bir fərq isə budur ki, zəkat islamın beş əsas şərtindən biri kimi məcburi olaraq verilir, fitrə və nəzir isə könüllü yardımdır.

Zəkat islam aləmində çox yüksək qiymətləndirilir. Zəkat müsəlmanları bir-birinə yaxınlaşdırır, insanlara inam və hörmət hissi aşılayır, təsadüf və ya zərurət üzündən yaşayış vasitələrindən məhrum olmuş şəxslərin özünü və ailəsini fəlakətdən, dilənçilikdən, alçalmaqdan qoruyur. Zəkat cəmiyyəti bir müvazinət halında saxlamaq üçün insanların düşünüb tapdığı və tətbiq etdiyi sosial-təminat üsullarından biri hesab edilir.

Zəkat əl-fitrə - müsəlman orucluğunun qurtarması ilə əlaqədar olaraq verilən sədəqə (fitrə).

Zəkat əl-fitrə orucluq ayının qurtarması münasibətilə pəhrizə yekun vurulan günün axşamının düşməsi münasibətilə paylanır. Bu verginin mahiyyətini şərh etməzdən əvvəl onun zəkatdan fərqini izah etmək lazımdır. Zəkatı da, zəkat əl-fitrəni də imkanlı müsəlmanlar ildə bir dəfə ödəyirlər. Lakin zəkat rəsmi vergidir və onu ailə başçısı ödəyir. Zəkat əl-fitrə isə hər bir varlı müsəlman ailəsinin hər yaşlı üzvü üçün ödənilir. Zəkat əl-fitrə orucluğun qurtarması münasibətilə ildə bir dəfə ödənilirsə, zəkat vergisi ondan sonra başqa vaxtlarda ödənilir.

Zəkat əl-fitrə bir çəkidən ibarətdir ki, bu da 3 kq buğda, arpa və ya çəltiyə, xurmaya, kişmişə, qarğıdalıya və başqa məhsullara bərabərdir.

Sədəqə - yoxsullara verilən ianədir. Hər bir imkanlı şəxsin könüllü verdiyi pay sədəqə sayılır. Zəkat əl-fitr vergisi ilə sədəqə vergisi arasında

fərq ondan ibarətdir ki, birinci verginin (məbləğini, ödəmə vaxtını) konkret olaraq şəriət müəyyən edir, ikinci vergi isə istənilən vaxt, istənilən məbləğdə və istənilən şeylə ödənilə bilər.

Cizyə - müsəlman ölkələrində yaşayan qeyri-müsəlmanlardan alınan can vergisidir. Xəlifələrin hakimiyyəti dövründə qeyri-müsəlmanların müdafiəsi ilə əlaqədar tətbiq olunan bu vergi növünə xüsusi diqqət vardır.

Xərac – torpaq vergisidir. Müəyyən torpaq sahələrindən məhsulun bir hissəsi şəklində və ya qəti normalarla (natura və ya pul ilə) tutulan vergidir.

Müsəlman ölkələrində xərac vergisi almaq üçün vahid sabit sistem olmamışdır. Orta əsrlərin ilk çağlarında xərac ərəblərin əsarət altına aldıqları qeyri-müsəlman əhalidən torpaq sahibliyi üçün alınan vergi idi. Müəyyən vaxtlara qədər "xərac" termini cizyənin (müsəlman ölkələrində qeyri-müsəlmanlardan alınan can vergisi) sinonimi kimi işlədilirdi. Torpaq sahibi olan müsəlmanlardan da xərac alınırdı. Xərac vergisi alınarkən şəriət torpağın münbitliyini, suvarılma üsulunu, orada becərilən bitki növünü, becərilən torpaqla becərilməyən torpağın nisbətini, məhsuldarlığını, bazaradək olan məsafəni və başqa amilləri nəzərə almağı tələb edir.

İslamın hüquq mənbələrində xəracın torpaq vergisi olduğu qeyd edilir ki, bu da ümumən onun tarixi mənasına uyğun gəlir.

Xərac və üşr – torpaq vergisi (məhsulun onda biri qədər vergi), yəni torpaqdan gələn gəlirdən alınan vergidir. Bu vergi növü müsəlmanlardan, zimmələrdən və qeyri-müsəlman ölkələrindən gələnlərdən fərqli qaydada tutulurdu.

Gördüyümüz kimi, müsəlman qanunvericiliyi müsəlmanların tabeliyində və himayəsi altında olan, yəni müsəlman ölkələrinin sakinləri olan qeyri-müsəlmanlarla qeyri-müsəlman ölkələrindən və ya hərb ölkələrindən gələn qeyri-müsəlmanlar arasında fərq qoyurdu. Alınan vergi müsəlman ölkələrində yaşayan qeyri-müsəlmanlara nisbətən üç dəfə çox, müsəlmanlarla müqayisədə isə dörd dəfə çoxdur. Beləliklə, üşr vergisi hamıdan tutulan vergidir. Bu vergi əkinçilik, heyvandarlıq məhsulları, balıq ovu və satış üçün nəzərdə tutulan və qiyməti 200 dirhəmdən artıq olan başqa məhsullara qoyulur. Formaca, üşr vergisi bazar rüsumuna bənzəyir, dövlətin öz təbəələrindən, habelə gəlmə tacirlərdən və ticarət müəssisələrindən vergi şəklində alınan mədaxilinin xeyli hissəsini təşkil edir.

Müsəlman hüququ müsəlman ölkəsində yaşayan və dövlətin müdafiəsi və himayəsi altında olan qeyri-müsəlmanların - zimmilərin həyatının, əmlakının, hüquqlarının, dini etiqadının qorunması üçün təminat verir.

Şəriət vergi sistemində istər müsəlmanlardan, istərsə də qeyri-müsəlmanlardan vergi alınmasının formaları, metodları və məbləğləri haqqında islam qanunvericiliyi ümumiləşdirilmişdir.

Ümumiyyətlə, xüms, zəkat, xərac və digər növ vergilər islamın vergi sistemində mühüm yer tutur. Vergilərin toplanmasının dövlət həyatındakı önəmli rolunu nəzərə alaraq bu işə nəzarət Daxili İşlər Divanına həvalə edilmişdi.

Beləliklə, göstərilən vergilərin bəziləri müsəlmanlardan, bəziləri qeyri-müsəlmanlardan, yaxud həm müsəlmanlardan, həm də qeyri-müsəlmanlardan, lakin müxtəlif həcmlərdə alınırdı.

Şəriətə görə qeyri-müsəlmanlardan cizyə, xərac, xüms və üşr vergiləri tutulur. Zəkat vergisi ancaq müsəlmanlardan, cizyə vergisi isə ancaq qeyri-müsəlmanlardan alınır. Müsəlman ölkəsinə satmaq üçün hər hansı bir mal gətirən şəxs öz mallarını sata bilməyəndə və həmin mal ilə eyni ölkəyə ikinci dəfə gələndə üşr vergisini təkrar ödəyirlər.

Şəriətə görə, əgər "müqəddəs kitab əhlindən" biri zimməyə, yəni müsəlman dövlətinin təbəəsinə çevrilərsə və himayəsində "müqəddəs kitab əhlindən" kimsə vardırsa, onlar şəriət qanunu qarşısında bərabərləşir və hər ikisindən can vergisi - cizyə tutulur. Bu hallarda bir qayda olaraq hər bir kəs üçün vergi ödənilməlidir.

Məhəmməd Peyğəmbərin (ə.s): "xalqı, onun imkanından artıq vergi ilə yükləmək yolverilməz bir haldır" kəlamını əldə əsas tutan müsəlman qanunşünasları müsəlman vergi sistemini ayrılıqda işləyib hazırlamışlar.

3.2. Müsəlman cinayət hüququ

Müsəlman cəmiyyətini yaşatmaq və inkişaf etdirmək, onu cinayətkar qəsdlərdən qorumaq, insanların əmlakını, həyatını və səhhətini əminliklə saxlamaq zərurətinə görə müsəlman hüququnun fəqihləri cəmiyyət üçün ciddi təhlükə törədən cinayət əməllərinə görə cəza verilməsini müəyyən edən normalar yaradaraq fiqhə daxil etmişdilər.

"Təqibat" və ya "Uqubat" adı ilə tanınan müsəlman cinayət və cəza hüququ şəriət qanunları ilə təsbit edilmiş, Allahın qoyduğu hüdudların pozulmasının hüquqi nəticələrini nəzərdə tutan, insanların fiziki sağlamlığını, həyatını, əmlakını, ümumilikdə, cəmiyyəti cinayətkar qəsdlərdən mühafizə edən hüquq normalarının toplusundan ibarətdir.

Müsəlman cinayət hüquq normaları cəmiyyəti cinayətkar qəsdlərdən qorumağa xidmət edərək, islam dini və müsəlmanların şəxsi, maddi və fiziki tələbatını təmin etməyə yönəldiyindən tənzim etdiyi ictimai münasibətlər də islam cəmiyyətinin xüsusiyyətlərinə müvafiqdir. Müsəlman cinayət hüququ strukturunda tənzim olunan hüquq münasibətləri xarakterinə və bir sıra cəza növlərinə görə digər dövrlərdə mövcud olan cinayət hüquq normalarından fərqlidir. Cinayət hüququnun əsas məqsədi islam dövlətində mövcud olan dini, əxlaqi qaydaların toxunulmazlığını təmin etmək, insanlar arasında

özbaşınalığı, zorakılığı aradan qaldırmaq və cəmiyyətdə hüquq bərabərliyi yaratmaqdır.

Cinayətkarlıq islamdan əvvəl də mövcud olmuşdur. Lakin müsəlman hüququ cinayət törədilməsindən doğan ictimai münasibətləri öz nəzarəti altına almaqla, əvvəla islam dininin mövqeyini möhkəmlətməyi və qorumağı; ikincisi, cəmiyyət daxilində mövcud olan qeyri-bərabər gücə malik qüvvələrin vahid, ahəngdar qaydalar daxilində yaşayıb bir-birini məhv etməklə cəmiyyətə böyük zərər vurmalarının qarşısını almaq məqsədi daşıyır. Bir-birini tamamlayan cinayət və cəza müsəlman hüququnda özünəməxsus şəkildə tətbiq olunur. Cinayət heç də həmişə cəzalandırılmır, hətta ən yumşaq şəkildə belə cəza verilməyən əməllər mövcuddur. Həmçinin, cinayət olduğu halda belə cəzalar verilmir və yaxud o biri dünyada ən amansız cəzalar veriləcəyi bildirilir. Buna görə də, cinayətlə bağlı ictimai münasibətlər dairəsi cinayət hüququ ilə tənzim olunan ictimai münasibətlər dairəsindən daha geniş olmuşdur. Odur ki, dövlətin hüquqi yaradıcılıq fəaliyyəti cinayət hüququna daha tez sirayət etmişdir.

Qeyd etdiyimiz kimi, cinayətin heç də həmişə cəzalandırılmaması cinayətin subyektiv cəhətinə aid edilir. Müsəlman cinayət hüququnda şəxsin cinayəti hansı məqsədlə törətməsi həmin cinayətə görə cəza həddini müəyyən edir, onu tənbeh edir və yaxud da bağışlayır. Məsələn, qəsb, əmlakın sahibinin razılığı olmadan, iradəsinin əksinə olaraq zəbt etməyə, istifadəsindən çıxarmağa deyilir ki, bu da müsəlman üçün qəbuledilməz hərəkətlərdən biridir. Quranda və hədislərdə başqasının əmlakını qəsb edənlərə axirət günündə ağır cəzalar veriləcəyi dəfələrlə göstərilmişdir.

Şəxsin əmlakının qəsb yolu ilə mənimsənilərək, mülki qaydada məsuliyyət törətməsinin cinayət yolu ilə mənimsənilməsindən əsas fərqi subyektin əməlinin obyektiv və subyektiv cəhəti ilə bağlıdır. Əmlakın mülki qaydada mənimsənilməsi o zaman mövcud olur ki, subyektin hərəkəti yalnız əmlaka yiyələnməyə yönəlir və o, bu hərəkətlərini özünün subyektiv hüquqlarını həyata keçirmiş kimi edir, zahirən belə görünür ki, subyekt qanuni hərəkət etmiş, öz hüququnu reallaşdırmışdır.

Cinayət yolu ilə (məsələn: oğurluq, quldurluq, yolkəsmə) əmlakı mənimsəmə zamanı isə subyektin əmlaka heç bir hüququ olmur və ehtimal da edilmir. Onun hərəkəti başqasının əmlakını gizli və ya zorakılıq yolu ilə mənimsəməyə yönəlmiş olur. Müsəlman hüququ ilə əmlakın cinayət nəticəsində mənimsənilməsi, əməllərinin tərkibi bir tərəfdən zorakılığın mövcud olması ilə ictimai təhlükəlilik dərəcəsinin yüksək olmasını nəzərdə tutursa, digər tərəfdən tərəflərin ehtimal olunan subyektiv hüquqlarının bərabərliyini əsas götürür.

Qəsb başqasının tarlasını, ağacını özünə götürmək, atını minib aparmaq, evini zəbt etmək, evindən nəyi isə götürmək və s. əməllərlə ifadə oluna

bilər. Bu kimi hərəkətlər bütün ictimaiyyətin gözü qarşısında özünü real və ya ehtimal olunan hüquqlarını həyata keçirmək adı ilə edildikdə, ona qarşı mübarizə aparmaq asan olur. Buna görə də böyük ictimai təhlükə törədən əməl hesab olunmur. Amma eyni əməl gizli yolla, zorakılıqla müşayiət edildikdə ictimai-təhlükəlilik daha çox artdığına görə cinayət əməli kimi qiymətləndirilir. Mülki qaydada qəsb sübut olunarsa, əmlak sahibinə qaytarılır və dəymiş zərər ödətdirilirsə, cinayət yolu ilə qəsb edilmiş əmlaka görə cinayət qanunları ilə müəyyən edilmiş qaydada cəza verilir.

Müsəlman hüququ cinayət qaydasında cəzalar verilməli əməllərin dairəsini dar götürmüş, bəzi cinayətlərə görə cəzanın az verilməsinə daha çox meyilli olmuşdur. Xüsusən, dünya malı kimi fani bir şeydən ötrü insanları ağır məhrumiyyətlərə düçar etməkdən vaz keçərək malın və zərərin ödətdirilməsi ilə zərərçəkmişin əvvəlki vəziyyətinə qaytarılmasını üstün tutur. Bu, zərərçəkmiş üçün daha məqbul variant hesab olunur.

Müsəlman hüququnda qəsblə bağlı hüquq münasibətləri zərər vurmadan doğan öhdəliklərə də yaxındır.

Müsəlman cinayət hüququ ilə cəza nəzərdə tutulan fəaliyyət, hər şeydən əvvəl, Allahın iradəsi əksinə həyata keçirilən və buna görə də Allah tərəfindən cəza verilməsi müəyyənləşdirilən əməldir. Çünki Allah Təala hər kəsin əməlinə görə cəzasını verir. Günah işlədən kimsə cəzasız qalmır. Buna görə də əməlin cinayət kimi qiymətləndirilməsində Allahın iradəsi şərtdir. Hərçənd ki, cinayət hüquq münasibətləri mükəlləf şəxslər arasında baş verən ictimai münasibət hesab olunur. Bu cəhətdən, fəqihlərlə sufilər arasındakı mükəlləfin əməlinin cəzalandırılmalı olmasında alın yazısı, qədərin Allah tərəfindən müəyyən edilməsinin təsir məcəlləsindəki fikir ayrılıqları yenidən ortaya gəlir.

Bununla belə, fəqihlər insanın öz əməlini özünün iradəsi ilə seçməsini, konkret fəaliyyətin bir sıra mərhələlərdən keçməklə icra olunduğunu, həmin mərhələlərdən hər hansı birindən imtina edib, düz yola qayıtmağın mümkünlüyünü təsbit etmişlər. İnsan hər hansı bir fəaliyyəti öz iradəsi ilə seçir, onun edilməsini arzulayır, icraya hazırlaşır, nəhayət, icra edir. Bu mərhələlərdən hər hansı birində fikri dəyişib başqa tərəfə yönəlmək şəxsin öz iradəsindən asılıdır. Buna görə də, mükəlləf olan (yəni cinayət hüququ üzrə subyekt olan) hər bir kəs öz əməli üçün cavabdehdir, cəzalandırılmalıdır, qeyri-mükəlləflərin əvəzinə cəza onun hərəkətlərinə məsul olan mükəlləf şəxsə verilir. Məsələnin bu qaydada həlli nə qədər şübhə doğursa da, cinayətkarların cəzalandırılmalı olması mübahisə doğurmamışdır, əksinə, cinayət üzrə cəzaların ağırlaşdırılmasına tövbə etmək, üzr istəmək və s. üsullarla cəzadan azad edilmənin aradan qaldırılmasına çalışmışdır.

Fiqhin cinayət hüquq sahəsi də digər sahələrdə olduğu kimi ümumi formada normalaşdırılıb, konkret maddələr, dispozisiya və sanksiya müəy-

yən edilməyib. Cinayət hüququnun hər bir institutu ümumi şəkildə qadağan olunan əməlləri, onların forma və xüsusiyyətlərini müəyyənləşdirərək, cəzanın forması və həddini göstərmişdir. Cinayət əməlləri konkret hüquq institutu kimi təqdim olunan müsəlman cinayət hüququnda cinayət və cəzaların növləri, obyekt, subyekt, obyektiv və subyektiv cəhətə dair nəzəri normalar çox az olduğundan, hüququn ümumi prinsiplərindən nəticə çıxarılır. Törədilmiş cinayət əməlinə görə cəza verilərkən, nəzərdə tutulacaq cəzanı ağırlaşdırıcı və yüngülləşdirici hallar, əməlin qəsdən və yaxud ehtiyatsızlıqdan edilməsinin cəzaya təsiri və s. bu kimi bir sıra digər məsələlər də konkret hüquq pozğunluğunun əks olunduğu normalarla birlikdə verilmişdir.

Müsəlman hüququnun delikt (cinayət hüququ) sahəsi müasir anlamda cinayətin zərər vurduğu obyektlərə görə xarakterizə edilsə də, əsasən iki böyük sahə nəzərdə tutulur.

Birincisi, bütün islam cəmiyyətinin mənafeyini ifadə edən, buna görə də cinayətkar əməlin bütün müsəlmanların mənafeyinə zərbə vurulmasını qəbul edən oybektlər, məsələn: mürtədlik, şərab içmə, zinakarlıq və s.

İkincisi, konkret şəxslərin mənafeyinə zərbə vuran cinayət əməlləri, məsələn: adam öldürmə, təhqir, oğurluq və s. bu iki obyekt arasındakı fərqlər də mütləq deyil, şərtidir. Əslində, şəxslərə qarşı cinayət edilməsi özlüyündə bütün cəmiyyətə zərər vurduğu kimi, cəmiyyətə vurulmuş zərbə də dolayısı ilə şəxslərin mənafeyini tapdalayır, maddi və mənəvi cəhətdən onların vəziyyətini pisləşdirir. Cinayətkar əməlin qəsd etdiyi obyektin əhəmiyyətliliyi cəzanın ağırlığına təsir etsə də, cəza hədd deyildir. Hər iki obyektin cəmiyyət üçün əhəmiyyətli olmasının nəticəsidir ki, cəza müəyyən edilməsi və yaxud baş vermiş nəticələrin aradan qaldırılması üçün tədbirlər müəyyən edilərək fərq qoyulmur və yaxud da hansınınsa üstünlüyündən danışılmır. Cinayət əməlinin yönəldiyi obyekt və predmetlərin fərqləndirilməsi də fəqihlərin müzakirə mövzusu olmamışdır. Əsas budur ki, cinayət qanunu ilə nəzərdə tutulmuş konkret əməl həyata keçirilmiş və nəzərdə tutulmuş zərəri vurmuşdur.

Fiqh cinayət təqibatı və cəza müəyyən edərkən obyektin islam cəmiyyəti üçün əhəmiyyətni və roluna qiymət verir. Dini rəhbər ideologiya və cəmiyyətin əsası hesab olunduğu bütün orta əsr dövlətlərindəki kimi, islam dövlətlərində də cinayətin qəsd etdiyi obyektlər müəyyən edilərkən dinin müvafiq tələbləri nəzərə alınmışdır. Müsəlman cinayət hüququnda cinayətkar qəsdlərdən qorunması nəzərdə tutulan bir sıra obyektlər digər hüquq sistemində cinayət obyekti deyildir. Məsələn, spirtli içkilərin içilməsi, islam dinini danıb başqa dinə keçmək yalnız islam dininin mövcud olduğu dövlətlərdə cinayət hesab oluna bilərdi. Bu cəhətdən cinayətin predmeti hesab edilmir.

İslam dini daha bir çox hallarda cinayətin obyektinin müəyyən edilməsində, bütövlükdə cinayət huququ üzrə normaların yaradılmasında və cəza müəyyən edilməsində əsas rol oynayır.

Cinayət hüququnun oybektlərini müəyyən edərkən fəqihlər hər şeydən əvvəl əhalini islamlaşdırmaqla cəmiyyətin əsaslarını möhkəmlətməyi, islama rəğbət yaratmağı, əhalini müsəlman kimi yaşamağa öyrətməyi qarşıya məqsəd qoymuşlar.

Müsəlman cinayət hüququnun daha bir xüsusiyyəti budur ki, qul, kəniz, azadlığı olmayan şəxslər cəmiyyətin üzvündən çox, maddi dəyərə malik bir şey hesab olunur. Hərçənd ki, Məhəmməd Peyğəmbər (ə.s) qulların da müsəlmanların, öz ağalarının qardaşı olmasını elan etmiş, qullarla yaxşı rəftar etməyi öz hədislərində təbliğ etmişdir. Qulun cinayət oybekti kimi əhəmiyyəti maddi əşyalardan fərqlənmir, qulun öldürülməsinə görə məsuliyyətin onun dəyərinin ödənilməsindən ibarət olması buna sübutdur.

Müsəlman cinayət hüququ cinayətkar qəsdin obyektini müəyyən edərək hər şeydən əvvəl törədilən əməlin vuracağı ictimai zərərli nəticəni nəzərdə tutur. Qurana əsasən, donuz əti yemək, nəcasət murdarlığında dini ayinləri icra etmək və s. qadağalar qoyulmuş və vacib əməllər sırasına daxil edilərək cəza verilməsi zəruri sayılmışdır. Lakin həmin əməllərdən yalnız şərab içməyə, həm də şərab içdikdən sonra ictimai yerlərdə başqalarını da şərab içməyə sövq edə biləcəyinə görə cinayət cəzası verilir. Digər haram əməllər cinayət cəzasına səbəb olmur, verilməli cəza isə şəxsin özünə aiddir. Bir çox hallarda tam nominal xarakter daşıyır, əgər təqsirli şəxs daxili inamı ilə nəzərdə tutulan cəzanı yerinə yetirməsə (nəfəqə, kəffar verməsə), cəzanın icrası qalacaq o biri dünyaya. Yəni mümkün deyil ki, hər hansı bir şəxs günah işlərinə görə cəzasız qalmış olsun. Beləliklə, müsəlman cinayət hüququnun ümumi obyekti hansı formada olmasından, şəxsi və ya ictimai statusa aid olmasından asılı olmayaraq bütün islam cəmiyyətinin mənafeyidir. Xüsusi obyekt isə hüquq institutu ilə müəyyən edilmiş ictimai qayda, fərdlərin mənafeyi, dövlət mənafeyi, vətəndaşların əmlakı, canı, mənəvi dəyərə malik digər keyfiyyətləridir.

Müsəlman cinayət hüququ üzrə subyektlərin başlıca özünəməxsus keyfiyyətlərindən biri cinayət hüququ münasibətlərində dövlətin tərəf kimi çıxış etməməsidir. Müsəlman cinayət qanunvericiliyi islam dini nümayəndələrinin səlahiyyətində olduğu üçün dövlət qanunvericilik fəaliyyətindən kənarda durur və subyekt də deyildir. Ədalət mühakiməsini həyata keçirən qazi məhkəməsi də əslində dövlətin yox, Allahın və müsəlman cəmiyyətinin iradəsini yerinə yetirmiş olur, cinayət hüququ münasibətlərinin iştirakçısı da ya fəaliyyət qabiliyyətli şəxslər, ya da bir tərəfdə şəxs (şəxslər qrupu), digər tərəfdə Allahın iradəsinin təmsilçisi olan islam dini nümayəndələridir. Doğrudur, cinayətkarların cəzalandırılması, məhkəmə hökmlərinin icrası, qazilə-

rin bir çox tələblərinin yerinə yetirilməsi dövlət orqanlarının, polisin, valinin iştirakı ilə olmuşdur. Lakin bu halda həmin orqanlar yalnız icraçı kimi islam dövlətində Allahın iradəsini həyata keçirən orqan kimi çıxış etmişlər. İslamın ilk dövrlərində qazi vəzifəsini də çox zaman valilər və onların təyin etdiyi xüsusi şəxslər icra etmişlərsə də, həmin vəzifəli şəxslər də Allahın iradəsinin icraçısı, xəlifənin, yəni Allahın rəsulunun işinin davamçısı kimi çıxış etmişlər.

Qeyd etməliyik ki, cinayət hüquq normalarına müsəlman hüququnun demək olar ki, bütün sahələrində rast gəlmək mümkündür. Bu da cinayətlə bağlı ictimai münasibətlər dairəsinin genişliyi ilə xarakterizə edilir.

Fiqhdə əks etdirilən cinayət hüquq normaları ümumi şəkildə qadağan olunan əməlləri, onların forma və xüsusiyyətlərini müəyyənləşdirərək, cəzanın forması və həddini göstərmişdir. Həmin konkret hüquq pozuntularının müəyyən edildiyi normalarla birlikdə törədilmiş cinayət əməlinə görə cəza verilərkən nəzərdə tutulacaq cəzanın ağırlaşdırıcı və yüngülləşdirici halları, əməlin qərəzlə və ya xətaya yol verməklə edilməsinin cəzaya təsiri və s. bu kimi bir çox digər məsələlər də verilmişdir.

Müsəlman cinayət hüququnda törədilmiş əmələ görə verilən cəzalar heç də həmişə günahın böyüklüyünə görə deyil, islam cəmiyyətindəki mühüm ictimai münasibətlərə yetirilən ziyana görə müəyyən edilir. Bu baxımdan, cinayətin obyektini müəyyən edərkən onun yetirəcəyi ictimai zərərli nəticə nəzərə alınır.

Erkən feodal münasibətlərinin formalaşması və möhkəmlənməsi şəriətdə daha çox cinayət hüququnda öz əksini tapmışdır.

Şəriət haram sayılan, pislənən, təqdir edilən başqa əməllər kimi cinayət əməllərini də Allahın qoyduğu hüdudların pozulması kimi qiymətləndirir. Quranda isə göstərilmişdir ki, "ilahi intizam" vardır və onu pozmaq olmaz. Belə deməklə, sosial-hüquqi və ailə-məişət münasibətlərinin pozulmasının ən müxtəlif formaları üzərində qadağalar nəzərdə tutulur ki, bu da müsəlman cinayət hüququnda öz əksini tapmışdır.

Şəriətin müəyyən etdiyi cinayət əməlləri üstündə bütün cəzalar dörd əsas növə ayrılır:

1. Eyni cür hərəkətlə, yəni qətl üstündə qətl ilə, təhqir üstündə təhqirlə, yaralamaq üstündə yaralamaqla və başqa bu kimi hərəkətlərlə qisas (həm də şəriət zərər çəkən şəxsin özünün, onun qohumlarının) alınmasını mümkün hesab edir, yaxud Allah tərəfindən cəza verilməsinə bel bağlayır.
2. Tökülmüş qana görə qan bahası və ya cərimə (diyə): bunlar həm qətl üstündə, həm də yaralama və ya xəsarət yetirmə üstündə alınır.
3. Bənzətmə (qiyas) əsasında qanunun müəyyən etdiyi cəza.
4. Qazının özü bildiyi kimi müəyyən etdiyi cəza.

Müsəlman cinayət hüquq normaları öz arxaikliyi ilə fərqlənir. Bu normalar islamın dini və əxlaq göstərişlərindən dəqiq ayrılmamışdır. Müsəlman hüququnda cinayətin ümumi anlayışı verilməmiş, bir sıra cinayət hüquq institutları - sui-qəsd, iştirakçılıq, əməli ağırlaşdıran və yüngülləşdirən hallar işlənib hazırlanmışdı. Bununla belə, qanunları bilməmək, peşimançılıq, residiv və s. anlayışlar məlum idi.

Məsuliyyətin xarakteri baxımından şəriət cinayətlərin iki növünü göstərir:

- öz bədəni və ya həyatı ilə cavab verməli olan cinayətlər;
- cərimə cəzası ilə cəzalandırılan cinayətlər.

Birinci növ cinayətləri oğurluq və quldurluq (bunlara görə əlin kəsilməsi cəzası verilirdi), arvadın zina etməsi, quldurluq zamanı adam öldürmə (bu cür əməllərə görə ölüm cəzası verilirdi) və s. təşkil edirdi.

İkinci növ cinayətlərə isə əsasən qəsdən və ehtiyatsızlıqdan adam öldürmə və müxtəlif növ xəsarət yetirmə aiddir.

Hələ orta əsrlər dövrünün müsəlman hüquqşünasları cinayətləri qruplaşdırmışdılar. Onların fikrincə, birinci qrup cinayətlər Məhəmməd Peyğəmbərə (ə.s) qarşı cinayətlər idi. Xüsusi təhlükəli sayılan bu cür cinayətlərə Allah əleyhinə yönəlmiş hərəkətlər aiddir. Bunlar bağışlana bilməzdi. Bu cür cinayətlərdən biri islama dönük çıxanların əmlakı müsadirə olunaraq ölüm cəzası ilə cəzalandırılması idi. Bu qrup cinayətlər sırasında idarəçilik əleyhinə olan cinayətlər – üsyan, dövlət hakimiyyətinə müqavimət, habelə ağır dini günah sayılan quldurluq (qarət məqsədilə silahlı basqın), oğurluq, spirtli içkilər içmək, zinakarlıq, zinakarlıqda yalan ittiham etmə göstərilirdi.

Din əleyhinə cinayətlərin və idarəçilik əleyhinə olan cinayətlərin, habelə bəzi digər cinayətlərin bir qrupda göstərilməsi təsadüfi deyildi. Şəriət normaları mövcud quruluşa qarşı müqavimət göstərməyin yolverilməz olduğunu bildirirdi. Çünki bu cür dəyərlər həm Allah, həm də Məhəmməd Peyğəmbər (ə.s) tərəfindən müqəddəs hesab edilirdi.

Şəriət normalarında bir sıra əməllər, məsələn, imkanlılara paxıllıq etmək günah sayılırdı. Bu baxımdan mövcud quruluşa, dövlətin əsaslarına qarşı əməl, islamın müqəddəs saydığı dəyərlərə qəsd din əleyhinə cinayət kimi qələmə verilir. Din əleyhinə cinayət isə dövlət əleyhinə cinayət kimi dəyərləndirilirdi.

İkinci qrupu ayrı-ayrı şəxslərin hüquqlarına qəsd edən cinayətlər təşkil edirdi. Bu qrup normalar qəbilə-tayfa quruluşu dövrünün adətlərinə uyğun idi. Bu cür cinayətlərə görə zərərçəkmiş günahkardan qisas ala bilərdi. Belə ki, qəsdən adam öldürmə üstündə ölənin qohumları qisas da ala bilərdilər. Qatili bağışlaya da bilərdilər. Bu cür hallarda qisas pulla əvəz olunurdu. Ehtiyatsızlıq zəminində adam öldürən şəxs öldürülənin qohumlarına yalnız cərimə verirdi. Cinayət başında tutulmuş oğrunu öldürməyə icazə verilirdi.

Ehtiyatsızlıqdan bədən xəsarəti yetirmə üstündə cərimə cəzası nəzərdə tutulmuşdu.

Üçüncü qrup cinayətlər ərəb xilafəti təşəkkül tapdıqdan sonra meydana gəlmişdi. Bunlar şəriətin ilk mənbələrində öz əksini tapmışdı. Feodal münasibətləri inkişaf etdikcə dövlət quruluşunun əsaslarını və ictimai qaydanı daha da möhkəmləndirmək zərurəti ortaya çıxdı. Bununla əlaqədar olaraq, bir sıra əməllər - zəkat ödəməmə (yoxsulların xeyrinə vergi), yüngül bədən xəsarəti, təhqir, xuliqanlıq, dələduzluq, rüşvətxorluq və s. cinayət sayılırdı. Bu növ cinayətlərin cəzası müctəhidlərin fikrindən və hakimlərin müstəqil hökmlərindən asılı idi.

Fiqhin normalarında əks etdirilmiş əksər cinayət əməlləri, o cümlədən cihaddan (müqəddəs müharibədən) yayınma, adam öldürmə, zinakarlıq, böhtan atma və s. kimi əməllər ağır cinayətlər hesab edilirdi.

Müsəlman hüququnda cinayətlərin digər bir bölgüsünə görə, onlar kəbir (iri) və səqir (xırda) cinayətlərə ayrılırdı. Şiə hüquq məzhəbləri tərəfindən həyata keçirilən bu bölgüdə kəbir cinayətlərin şəriət qaydalarında müəyyən olunması, səqir cinayətləri isə qazinin özünün müəyyən etməsi nəzərdə tutulurdu.

Fiqhin cinayət hüququnda cinayətlərin başqa bir bölgüsü də onların törədilməsinə görə verilməli olan cəzaların xarakteri və növləri ilə uzlaşdırılmışdır. Bu baxımdan da şəriətin müəyyən etdiyi cinayət əməlləri və onlara görə verilən cəzalar 4 əsas qrupa ayrılır: qisas, diyə, həd, təzir.

İslam cahiliyyət dövründə insanlar arasında hökm sürən sərt sosial qaydaların, qan intiqamının, ədavətlə bağlı ifrat adət-ənənələrin yumşal-dılması və ədalətlə tənzim edilməsi sahəsində mühüm işlər gördü. Hələ Məkkədə nazil edilmiş ilk vəhylərində nahaq qan tökülməsini haram elan edən Peyğəmbər (ə.s) "Allahın haram buyurduğu şəxsi, müsəlman və ya əhli-zimməni haqsız yerə öldürməyin" buyurmuşdur. Quran Mədinədə hökm verdi ki, qəsdən adam öldürmə üstündə qatili ölüm cəzası gözləyir: “Ey iman gətirənlər! (Qəsdən) öldürülən şəxsdən ötrü sizin üçün qisas alma hökmü qərara alındı (vacib oldu...)” (əl-Bəqərə, 178).

Göründüyü kimi, islam hələ cahiliyyət dövrü ərəblərinin arasında məqbul sayılan qan intiqamı (əl-qisas) prinsipini saxlamışdır. Lakin bu prinsipi müsəlman hüququ ədalətli əsaslar üzərində qaydaya salmışdır. Müsəlman cinayət hüququna əsasən, qisas haqqında hökm çıxarılması imama, şəriət məhkəməsinə həvalə edilir, qan sahibi qisası özbaşına yerinə yetirə bilməz, həm də qətl üçün yalnız qatil özü məsuliyyət daşıyır. Burada artıq qisas prinsipinə yeni münasibət nəzəri cəlb edir: qisas yalnız qatilin özündən alınmalıdır və əgər qatil bilsə ki, o, özü də etdiyi cinayət üstündə öldürüləcək, adam öldürməzdən qabaq düşünüb bu bəd əməlindən daşınar. Bu münasibət Quranda öz ifadəsini belə tapır: “Ey ağıl sahibləri, bu qisas (qisas

hökmü) sizin üçün həyat deməkdir. Ola bilsin ki, (bununla) pis əməldən (qətldən) çəkinəsiniz" (əl-Bəqərə, 179). Müsəlman fəqihləri bu ayəni belə təfsir edirlər: Qisas haqqında bilgi qatili qətldən çəkindirir və iki nəfərin həyatını qoruyur. Cahiliyyət dövrü adamları ədavət naminə qatildən başqa digər adamları da öldürür, bir adamın intiqamını camaatdan alırdılar. Əgər qisas yalnız qatildən alınarsa, çox adamın həyatı qorunar.

Əgər qan sahibləri intiqam almaq haqlarından keçib, qatili sağ saxlamaq istəsələr, qatil və onun qohumları qan bahası (diyə) ödəməlidirlər.

Həddcinayətləri Quranda və hədislərdə müəyyən edilmiş və başlıca olaraq, Allaha qarşı yönələn cinayətkar əməllərdən ibarətdir. Həmin cinayətkar əməllərin törədilməsinə görə müvafiq olaraq müəyyən edilən cəzalar da həddadlanır. Allaha qarşı işlənən günahlar Quranın özündə əks etdirildiyindən onlar dəyişilməz, sabit olaraq qalmışdır.

Fiqhdə həddcinayətlərinin dairəsi aşağıdakı kimi müəyyənləşdirilmişdir: dindən dönmə, zinakarlıq, qəzf və ya zina iftirası, dövlətə qarşı qiyam, oğurluq, yol kəsmə, spirtli içkilər içmə.

İslamda bütün cinayətlərə "ilahi qanunların" pozulması kimi baxılır və ona görə də təəccüblü deyil ki, yuxarıda sadalanan bəzi həddcinayətləri insanların haqqının pozulmasına yönəldilsə də, eyni zamanda Allahın qoyduğu qaydalara qarşı edilmiş sayılır.

Təzir cinayətləri törədilməsinə görə hakimin, qazının öz bildiyi kimi müstəqil olaraq müəyyən etdiyi cəzaların verilməsini nəzərdə tutan cinayət əməllərini əhatə edir. Şəriətə görə təzir cinayətkarın təqsirini yüngülləşdirici halların olduğu təqdirdə hakimin qanunun hüdudlarından kənara çıxa bilməsi və hər hansı cinayətə münasibətdə başqa bir cəzanın tətbiqinin mümkün ola bilməsi - hallarında tətbiq edilir.

Həddcinayətlərinə görə cəza təyin edilərkən mütləq əməlin xüsusiyyətləri nəzərə alınmalı idi. Məsələn, əgər uşaq oğurluq edərsə o, tənbeh olunur. Oğruya cəza verilməsində qadınla kişi arasında heç bir fərq qoyulmur. Eyni zamanda, müsəlman cinayət hüququna əsasən, oğru həddi-büluğa çatmış olsun, anlaqlı olsun, möhtac olmasın (qəhətlikdən və ya acından ölmək qorxusu olmasın), oğurlanmış malı yaxşı mühafizə olunan yerdən (məsələn, qapısı qıfıllanmış yerdən) çıxarıb aparmış olsun, oğurlanmış malın dəyəri üstündə sikkə olan bir dinarın (qızıl pul) dörddə birindən (və ya onun dəyərindən) az olmasın.

Bəzi fəqihlər oğurluğun hansı miqdarda olmasından asılı olmayaraq cəza təyinini vacib hesab edirlər. Lakin göründüyü kimi, əməlin xarakterindən asılı olaraq cəza təyin edilməyə və hətta cəzadan azad edilə də bilər. Əgər bir kəs möhtac olsa və ehtiyacını (məsələn, aclığını) dəf etmək üçün oğurluq etmiş olarsa, ona ağır cəza tətbiq edilmir.

Eyni zamanda, şəriət normalarında bir sıra cinayətlərə görə feodalizm dövrü üçün səciyyəvi olan amansız cəzalar da nəzərdə tutulmuşdu. Belə ki, edam cəzası boğazdan asma, şaqqalama, suda boğma, diri halda basdırma formalarında icra olunurdu. Barmaqların, əl və ayaqların kəsilməsi, qamçılama, daşlarla döymə və s. kimi şikəstedici və cismani cəzalardan istifadə olunurdu. Bundan başqa, saqqalın qırxılması, çalma gəzdirməkdən məhrum etmə kimi rüsvayçı cəzalar, habelə həbsxanada saxlama, əmlakın müsadirə edilməsi və bəzi digər cəzalar tətbiq olunurdu.

Müsəlman cinayət hüququnun islam dininə bağlılığı subyektlərə, onların hüquq və vəzifələrinin müəyyən edilməsinə də təsir etmişdir. Heç də bütün subyektlər bərabərhüquqlu olmur və heç də bütün vətəndaşlar cinayət hüququnun subyekti kimi deyil.

Müsəlman cinayət hüququ, subyektlərin hüquq və vəzifələrini, verilməli olan cəzaların həddini müəyyən edərkən, müsəlmanlara başqalarına nisbətən bir çox üstünlüklər vermişdir. Müsəlman qeyri-müsəlmanı öldürərsə cəzası qeyri-müsəlmanın müsəlmanı öldürməsindən artıqdır. Eyni nəzəriyyə cinayət törətmiş şəxsə diyə ödətdirilərkən, diyənin miqdarı müəyyən edilərkən, cəza kimi qisas alınmanın mümkünlüyü müəyyən edilərkən də ortaya çıxır.

Cinayət işləri üzrə təhqiqat aparılarkən də subyektlərin şəxsiyyəti, müsəlman, qeyri-müsəlman olması nəzərə alınır. Müsəlmanın dediyi söz başqalarının dediyi sözdən üstündür, daha tez inanılır və o, Qurana əl basaraq and içir.

Müsəlman cinayət hüququ subyekt olmanın konkret yaşını müəyyən etmir, işlənmiş cinayətdən asılı olaraq cinayət törətmiş şəxsin subyekt olmasını qazi məhkəmə proseduruna əsasən, qanunun analogiyasını tətbiq etməklə müəyyən edə bilər. Bu da onunla izah edilir ki, əgər həmin şəxs bilavasitə cinayət əməlinin törədilməsinin iştirakçısı və yaxud icraçısıdırsa, mütləq yaş həddi müəyyən edilməklə cəzalandırılır. İslam dini ilə fərz hesab edilən əməllərin icrasına qızlar 13 yaşından, oğlanlar isə 15 yaşından başladığından, dindən qaçma cinayəti üzrə subyekt olma yaşı da o zamandan hesablana bilər. Digər hallarda da bu cür qiymətləndirilir. Hər bir halda subyekt ağıllı, mükəlləf şəxs olmalı, hərəkətlərinin qiymətini bilməlidir.

Qulun subyekt olmasının xüsusiyyəti isə bundan ibarətdir ki, o, cinayət üzrə subyekt hesab olunaraq cəzalandırılsa, ağası da onunla birlikdə məsuliyyət daşıyırdı. Məsələn, qul törətdiyi cinayətə görə diyə ödətdirilməsi tələb olunduğu halda, ağası diyəni ödəməyə borcludur. Göründüyü kimi, müsəlman cinayət hüququnda bir şəxsin başqasının əvəzinə cavabdehlik daşımasına yol verilir. Bu hal hər hansı bir cinayətin törədilməsində azyaşlılara da aid edilir ki, onların valideynləri, qəyyumları və qanuni nümayəndələri məsuliyyət daşıyırlar.

Dövlətin vəzifəli şəxsləri və ədalət mühakiməsini həyata keçirən şəxslər də subyekt ola bilər. Bu halda da cinayət və cəza fərdi xarakter daşıyır və hər kəs öz əməlinə görə cavabdehdir.

Obyektiv cəhətdən cinayətin hərəkətlə törədilməsi nəzərdə tutulur. Orta əsr Azərbaycan fəqihlərinin fiqhə dair əsərlərində nəzərdə tutulmuş cinayətlərin hamısı aktiv və ya passiv hərəkətlə həyata keçirilir. Hərəkətsizlik obyektiv cəhətin ünsürü hesab edilmir. Doğrudur, cinayətin iştirakçılıqla edilməsi zamanı cinayət törədənlərin hər hansı biri fəal hərəkət etməyə bilər və yaxud da islamdan üz döndərmə də fəal olmayan hərəkətlərlə icra olunmaya bilər. Lakin müsəlman hüququ həmin halların da məhz hərəkətlə (passiv də olsa) icra olunmasını nəzərdə tutur. Hərəkətsizliklə edilən cinayəti və yaxud cinayət hesab edilən əməli fikrində tutub, hansı səbəbdənsə icra etməməyin (məsələn: başqasının ailəsinə yaxınlıq etməyə çalışmağın, əslində islamdan üz çevirsə də zahirdə bunu gizlətməyin) cəzası da, ittihamı da Allahın öz yanında, qiyamətdə olacaqdır.

Fiqh cinayət törətmənin şərti kimi ağır nəticənin baş verməsini nəzərdə tutursa da, onu mütləqləşdirmir. Cinayətə sui-qəsd edilməsi cəza verilməsi üçün əsasdır. Cinayətkarın özündən asılı olmayan səbəblərə görə məqsədinə çata bilməməsi onu cəzadan azad etmir. Məsələn, birisinin cibindən oğurluq etməyə çalışan oğurluq edərkən yaxalanarsa, oğurluq etmiş kimi cəzalandırılmalıdır. Lakin zərərçəkmiş (müddəi) şikayət etməyə və iddia qaldırmaya bilər. Baş vermiş cinayətin törətdiyi zərərli nəticə ilə cinayətkarın hərəkəti arasında səbəbli əlaqə olması müsəlman cinayət hüququnun zəruri şərtlərindən biridir. Lakin həmin hal hər bir konkret cinayət üzrə müəyyən edilməlidir. Cinayətin törədilmə şəraiti, vaxtı, yeri, törədilmə üsulu da cəza verilərkən nəzərə alınır.

Cinayətin motivi də bir çox hallarda cəzaya təsir edir. Şəxsə öz şərəfini qorumaq üçün törətdiyi cinayətə görə bir sıra hallarda ya yüngül cəza verilir, ya da heç bir cəza verilmir. Müsəlman hüququ şəxsin müqəssirliyini müəyyən edərkən subyektiv cəhətin əsas ünsürü olan həddi-büluğa çatma, ağıllı, öz hərəkətlərinə qiymət vermə qabiliyyətinə malik olmaya xüsusi fikir verir. Azyaşlı və mükəlləf olmayanlar hərəkətinin doğuracağı nəticəni anlamaq qabiliyyətindən məhrum olduğuna görə müqəssir də hesab oluna bilməz. Cinayət törədən şəxs törətdiyi əməlin cinayət olmasını və ictimai nəticəsini bilməlidir, əks halda müqəssir hesab oluna bilməz. Məsələn, şərab içən şəxs içdiyinin şərab olduğunu bilməzsə, cəza verilmir. Bununla belə, müsəlman hüququ subyektin səhv edərək cinayət törətməsini sərf-nəzər edir, cinayət törədilməsi faktı varsa, cəza verilməsini labüdləşdirir.

Müsəlman hüququ cinayətin törədilməsində iştirak etmiş şəxslərin hamısına cəza verməyi nəzərdə tutur. Bu halda nəzərə alınmalıdır ki, cinayətə təhrik etmə, məsləhət vermə və sair hallar iştirakçılıq hesab olunmur. Lakin

cinayətin törədilməsində bilavasitə iştirak edənlər cəzalandırılır, subyektin anlaqlı olmasına qoyulan tələb də məhz bunun üçündür.

Müsəlman cinayət hüququ cinayətkar tərəfindən törədilmiş bir çox cinayəti qiymətləndirərkən və cəza verərkən subyektin hər bir cinayəti ayrıca qəsdlə etməsini və cəmiyyətə hər birinin ayrıca zərər vurmasını nəzərdə tutur. Məsələn, bir şəxs müxtəlif vaxtlarda iki oğurluq etmişsə, hər birinə görə ayrıca cəza almalıdır.

Müsəlman cinayət hüququ ilə tətbiq olunan cəzaların əhatə dairəsi olduqca genişdir. Müxtəlif üsullarla öldürmədən tutmuş, məzəmmətə, hətta ən ağır cinayət törətmiş şəxslərin heç biri şərt qoyulmadan tamamilə azad olunmasına qədər müxtəlif təsir tədbiri tətbiq edilə bilər. Müsəlman hüququ ilə cəza yalnız cinayətə görə verilmir. Dini öhdəlikləri yerinə yetirməməyə, aktiv fəaliyyətdə təzahür etməyən, müsəlman əxlaq normalarına sığmayan hərəkətlərə görə də cəzalar verilə bilər. Hətta kimsə bu günahdan xəbər tutmasa belə, şəxs özü o biri dünyada cəzadan yaxa qurtarmaq üçün özünü tənbeh etməlidir.

Cinayət cəzasının digər əməllərə görə verilən cəzalardan fərqi ondadır ki, fiqhin təqibata dair hissəsində toplanmış cinayət hüquq institutları ilə nəzərdə tutulan əməllərə və həddə görə verilir. Hərçənd ki, müsəlman hüququ bəzi hallarda cəzanın konkret həddini də dəqiq müəyyən etməmişdir.

Müsəlman cinayət hüququ ilə cəza həm şəriət məhkəmələri tərəfindən, həm zərərçəkmişin özü, həm də cinayət törətmişin özü tərəfindən verilə bilər. Birinci hal ən çox təqib olunaraq cəza verməyin ən düzgün və geniş yayılmış forması olmuşdur. İslam cəmiyyətində ədalət mühakiməsinin həyata keçirilməsi də məhz şəriət məhkəmələrinə həvalə edilmişdir. Bir sıra cəzalar da öz xarakterinə görə yalnız şəriət məhkəmələri tərəfindən verilə bilər. Məsələn, şəxsin edam etdirilməsi, həbsə alınması və s. cəzaları məhkəmələrdən başqası verə bilməz.

Cinayətə yol vermiş şəxs öz əməlindən peşman olub özünü cəzalandıra bilər. Məsələn, islam dinindən dönmüş adam öz günahlarını yumaq və yenidən islama qayıtmaq üçün özünə müxtəlif cəza verə, kəffarə ödəyə bilər. Bu halda şəxs özü cəza tətbiq edən tərəf kimi çıxış edir. Müsəlman hüququnun bu özünəməxsus xüsusiyyətləri orta əsrlər dövrünün, xüsusən islamın və islam dövlətlərinin yenicə meydana çıxdığı və hələ kamilliyə çatmadığı dörvün tələbləri ilə bağlıdır. Demək olar ki, bütün hüquq sistemləri yarandığı ilk dövrlərdə vətəndaşların öz həyatını və əmlakını cinayətkar qəsdlərdən qorumasını onların həm hüququ, həm də vəzifəsi olmasını məqbul saymış və buna görə də geniş səlahiyyətlər vermişdir.

Diyə qanunu – tökülmüş qana görə qanbahası alınmasının forma və metodları başa düşülür. Bu qanunda müsəlman Şərqində cəzalandırmanın səciyyəvi xüsusiyyətləri və özünəməxsusluğu özünü göstərir. Halbuki,

cəzanın axırıncı iki növü xeyli dərəcədə cinayət qanunvericiliyinin hamıya məlum olan forma və normalarına bənzəyir. Müsəlman hüququnun əsas qanunu, Quran, gəldikdə, orada ancaq cəzanın iki növü: qisas və diyə haqqında məlumat vardır.

Qan intiqamı Quran və şəriətə, islamaqədərki ərəblərin və başqa xalqların qədim adəti olmuşdur. Burada həmin adət qadağan edilməsə də, xeyli dərəcədə məhdudlaşır, yəni ancaq müqəssirdən qisas almaq olar. İslamaqədərki dövrdə isə ərəb tayfaları arasında qan intiqamının geniş yayılması bir adamın öldürülməsinə görə bəzən yüzlərlə adamın və hətta bütöv tayfaların qırılmasına səbəb olurdu. Bütpərəstlərin adətini mötədilləşdirən Quran qan intiqamının qanbahası ilə (diyə) əvəz edilməsinə üstünlük verir.

«...Öldürülən şəxsin qardaşı, (varisi) tərəfindən (müəyyən bir şey, qanbahası müqabilində) bağışlanmış qatil ilə adətə görə yaxşı rəftar edilməlidir. Bağışlanmış qatil də yaxşılıqla qan sahiblərinə "diyə" (qanbahası) verməlidir. Bu (qisası qanbahası ilə əvəz etmək hökmü), Rəbbiniz tərəfindən sizin üçün bir yüngüllük və mərhəmətdir. Bundan (diyə müqabilində bağışlanmaqdan) sonra təcavüzkarlıq edən (qatili öldürən və ya onun qohum-qardaşı ilə düşmənçilik edən) kimsəni (qiyamətdə) şiddətli əzab gözləyir!» (Əl-Bəqərə surəsi, ayə 178). Eyni zamanda, müsəlman cinayət hüququ bu əməllər üçün də cəza nəzərdə tutmuşdur.

İslama görə, xəta üzündən (dalaşarkən, ehtiyatsızlıq ucbatından, təcrübəsizlikdən) baş vermiş qətlə görə də cəza hökmü qanbahası verilməsini nəzərdə tutur: Hər kəs bir mömini səhvən öldürərsə, o zaman o, mömin bir qul azad etməli və öldürülmüş şəxsin ailəsi qanbahasını sədəqə olaraq bağışlamadıqda, onlara (öldürülmüş şəxsin varislərinə) tam şəkildə qanbahası verilməlidir.

İslam qanunvericiliyinə görə, əgər birisi qərəzli niyyətlə və haqsız olaraq başqasını öldürərsə, ölənin qohumları və ya qəyyumları hər şeydən keçib qətli bağışlaya bilər və ya qətl üstündə canidən qanbahası – diyə tələb edə bilərlər. Əgər qətl qərəzsiz törədilmişdirsə, ancaq qanbahası ala bilərlər.

Qanbahası olan diyə islamın erkən mərhələsində qətl üstündə ödənilirdi. Sonralar bədənin ayrı-ayrı hissələrinin zədələnməsi üstündə də diyə ödənməyə başlandı. Bununla əlaqədar olaraq şəriət diyə ödəməyin aşağıdakı növlərini (qətl üstündə, diyə əsasında) müəyyən etmişdir:

1. Tam diyə – hər iki gözün və ya onların qapaqlarının zədələnməsi ilə əlaqədar olaraq adamın tamamilə kor edilməsi üstündə; bir gözün kor edilməsi üstündə isə müvafiq surətdə yarım diyə cərimə düşür.

2. Bədənin hər hansı bir orqanının zədələnməsi – yarım diyə, kəsilməsi və ya məhv olması, bir diyə cərimə ödənilməklə müəyyən edilir.

Qərəzli olmayan qətl üstündə bir diyə cərimə ödəmək və bir qul azad etmək lazım gəlir. Əgər təqsirkar qulu azad edə bilmirsə, iki ay oruc tutma-

lıdır, əgər bu da mümkün deyilsə, altmış yoxsulu doyurmalıdır. Həm də qərəzli olmayan qətl zamanı caninin günahı bağışlanmış olsa da, bu cəzalar məcburidir.

Əgər hamilə qadın öz əməlləri nəticəsində yarımçıq uşaq salmışdırsa, özü varisə (uşağın varisi isə atası və ya babasıdır) bir diyə cərimə verir. Əgər bir şəxs hamilə qadını öldürərsə, ikiqat məbləğdə – həm qadın üçün, həm də uşaq üçün diyə verir.

Cəza tədbirləri müəyyənləşdirilərkən şəriət psixoloji cəhətləri də nəzərə alır. Şillədən və ya üzə dəyən zərbədən qızartı qalarsa – bir misqal qızıl məbləğində cərimə, əgər zərbənin yeri göyərərsə – üç misqal qızıl məbləğində cərimə alınır. Lakin eyni dərəcədə güclü zərbə nəticəsində qızaran və ya göyərən yer bədənin görünməyən hissəsindədirsə (məsələn, paltarın altında qalan hissəsindədirsə) əvvəlkinin yarısı qədər cərimə ödənilir. Çünki heç kəsin görmədiyi zərbə göyərtisi daha az təhqiramiz sayılır.

Bir qədər sonralar müsəlman hüququ ev heyvanlarının öldürülməsi və ya onlara xəsarət yetirilməsi üstündə də diyə cəriməsi müəyyən etmişdir. Məsələn, heyvanı yaralayan və onun ətindən bir tikə qoparan şəxs heyvanın sahibinə onun tam dəyərinin yarısı qədər cərimə verməlidir.

Müsəlman hüququ uşaqların tərbiyəsi və təlimində cismani cəza verilməsini mümkün hesab edir. Tərbiyəçi və ya müəllim uşaqlar tərbiyəli olanadək onları tənbeh edə bilər. Bu, cəza demək deyildir. Lakin şəriət tələb edir ki, uşaqlara qarşı bu tədbir hər şeydən əvvəl tərbiyə xarakteri daşımalıdır.

Adam öldürmə (qətl) cinayətinə görə müsəlman hüququnda üç növ cəza nəzərdə tutulur: qisas, diyət, kəffarət.

Hər üç növ cəza xüsusi şəraitdən asılıdır. Belə ki:

- qisas (əvəz çıxma) zimminin öldürdüyü şəxs müsəlman, zimmi və ya müstəməndirsə və qabaqcadan şərtlər mövcuddursa, qisas alına bilər. Hərgah zərərçəkən (yəni öldürülən) mürtəddir və yaxud hərbçidirsə qisasa yol verilmir. Hərgah qatil müsəlmandırsa, öldürülən zimmi və ya müstəməndirsə, bir qayda olaraq, hüquqçular qisası qeyri-mümkün hesab edirlər. Bunun əksinə olan fikirlər də vardır;

- diyə (qan bahası) haqqında müxtəlif fikirlərin olmasına baxmayaraq əksər hüquqşünaslar hesab edirlər ki, qatilin və öldürülənin kimliyindən asılı olmayaraq diyətə yol verilir;

- kəffarət (günah bağışlamaq) ibadətlə əlaqədar olduğu üçün zimmi və müstəmən qatillərinə tətbiq olunmur.

Müasir dövrdə islam ölkələrinin bir çoxu, bir qayda olaraq cinayətlər üçün qoyulan şərtləri qəbul etmişlər. Belə ki, müsəlman hüququ zərərçəkmişin özünə canını və malını hər cür qəsdlərdən qorumaq səlahiyyəti verdiyi kimi zərər vurmuş, qəsd etmiş şəxslərdən qisas almaq hüququ da vermişdir. Qisas qan intiqamı almaqda cinayətkara verilən cəza deməkdir. Fərq ancaq

cəzanı tətbiq edənin zərərçəkmiş və ya onun qanunla müəyyən olunmuş yaxın qohumu, nümayəndəsi olmasındadır. Bu halda cəza verən zərərçəkmiş və ya onun qanuni nümayəndəsi subyekt rolunda çıxış edir.

Şəriət nöqteyi-nəzərindən ən böyük "günah" sayılan cinayətlərdən biri - zina hesab edilir. Öz yaxın qadın qohumları ilə, məsələn, anası, bacısı və başqa məhrəm qohumları ilə zina (qeyri-qanuni cinsi əlaqədə olmaq) üstündə müsəlman edam edilməlidir. İlahiyyatçılar iddia edirlər ki, zinakarlıq üstündə bu cəza tədbiri Məhəmməd Peyğəmbərin (ə.s) kəlamlarından irəli gəlir və islam qanunlarının mahiyyəti ilə bağlıdır.

Müsəlman cinayət hüququnda bu cinayətlər namusa (irzə) qarşı işlənən cinayətlər qrupuna aid edilir. Öz növbəsində bu cinayətlər iki növdür: zina, iftira.

Zina (özgəsinin namusuna xəyanət) cinayətinə görə ağır cəzanın labüd olmasını müsəlman fəqihləri müdafiə edirlər. Yəni subay zimmi zina etsə, çubuqla 100 zərbə vurulur və yaxud evli olduqda daş-qalaq edilir. Diyə heç bir halda tətbiq edilə bilməzdi.

İftira – ismətli müsəlman qadınına iftira (böhtan) atıb onu zinada təqsirləndirən zimmi və müstəmənlərə ağır cəza tətbiq olunur. Bu zaman zimmilərin və müstəmənlərin şahidliyi qəbul olunmur. Əgər bir şəxsin zina etməyə hazırlaşdığı məlum olarsa və onu bu əməllərdən çəkindirmək daha mümkün deyilsə, şəriətə görə belə adamın edam edilməsi mümkündür.

Əgər bir şəxs başqasının təhriki və ya əmri ilə günahsız bir adamı öldürmüşsə, qatili edam etmək, təhrikçini isə ömürlük zindana salmaq cəzası verilirdi.

Cinayət törətmiş şəxslərə verilən cəza hər şeydən əvvəl zərərçəkmişə vurulmuş zərərin aradan qaldırılması, onun hüquqlarının qorunması, başqalarına da kimsənin hüquqlarına toxunmanın bütün üsul və vasitələrlə cəzalandırıla biləcəyini nümayiş etdirmək məqsədi güdmüşdür. Buna görə də zərərçəkmiş şəxs cinayətkarın cəzalandırılması və ya bağışlanması sahəsində müstəsna səlahiyyətlərə malikdir. Şəxsi statusa daxil olan cinayətlərin, demək olar ki, hamısına zərərçəkmişin iddiası ilə baxılır və cəza verilir. Zərərçəkmiş cəzanın növünü seçmə və dəyişdirmə hüququna malikdir.

Cəzanın daha bir məqsədi cinayətkarlara cismən və mənəvi zərbə vurub onları islah etmək, tərbiyələndirmək və yaxud da cəmiyyəti islam dini və birgəyaşayış qaydalarına zidd ünsürlərdən təmizləməkdir. Cəmiyyəti cinayətkar ünsürlərdən təmizləmək və yaxud islah və tərbiyə etmək özlüyündə daha ciddi məqsədə, gələcəkdə cinayət törədilməsinin qarşısını almağa xidmət edir.

Müsəlman cinayət hüququ cinayətkarlara cəza verərkən başqalarına ibrət dərsi, görk olması məqsədini yüksək tutmuş, buna görə də çox ağır və zahirən görünüklü cəzalar sistemi tətbiq etmişdir. Cəza verilərkən bütün

xalqa elan edilməsi, xalqın gözü qarşısında ən amansız edam hökmlərinin icra edilməsi, edilmiş cinayətin növündən və xarakterindən asılı olaraq bədənin müəyyən üzvünün kəsilməsində əsas məqsəd görənlərdə vahimə, qorxu hissi yaratmaq, bununla da onların yaddaşlarında silinməyən iz buraxmaq, tez-tez onlara xatırlatmaq olmuşdur.

Müsəlman ədalət mühakiməsini həyata keçirən qazilərin son dərəcə amansız cəzalar verməsi heç də islamın qeyri-humanist xarakter daşımasına dəlalət etmir. Qeyd etdiyimiz kimi, bu amansız cəzalar əməlin hansı qrupa mənsub olduğu müəyyən edildikdən sonra tətbiq oluna bilərdi. Orta əsr Avropasında da eyni xarakterli, hətta daha ağır cəzalar təyin edilməsi adi hal olmuşdur. Əksinə, müsəlman məhkəmələri üçün yüngül cəza verilməsi, müqəssirlərin bağışlanması daha xarakterikdir. Allah Təalanın bağışlayan və rəhm edən olması, hər bir cəzanın Allahın qatından gəlməsi, Məhəmməd Peyğəmbərin (ə.s) özünün ən qatı düşmənlərini, əmisi Həmzənin qatilini, özünün ölümü üçün illər uzunu mübarizə aparan Əbu Süfyanı və bir çox başqalarını bağışlaması qaziləri bağışlamaq və yüngül cəzalar verməyə sövq etmişdir. Lakin cinayət olan yerdə cəza da vacibdir. İslam Peyğəmbərinin ideal həyatı idarəçiliklə bağlı bir çox məsələlərdə bariz nümunə olmuşdur.

Müqəssirin şəxsiyyətinin, cəzanı ağırlaşdıran və yüngülləşdirən halların müəyyən edilib cəza verilərkən nəzərə alınması, bilavasitə qazilərin öz rəyi, şəxsi əqidəsi və islam ehkamına riayət etmə dərəcəsindən asılı olmuşdur.

Müsəlman cinayət hüququ üzrə cəza təyin etmənin xarakterik xüsusiyyətlərindən biri də budur ki, hər bir cinayət əməlinə görə konkret cəza verilmişdir. Yəni hər kəs öz əməlinə görə, törətdiyi əməlin təhlükəlilik dərəcəsinə görə cəzalandırılmışdır. Məsələn, cinayətkar birisini qərəzsiz niyyətlə öldürmüş, başqa birisinin əmlakını oğurlamış, sonra isə ictimai yerdə sərxoşluq etmişsə, sərxoşluğa görə döyülməli, oğurluğa görə əli kəsilməli, qətlə görə isə diyə verməli və ya öldürülməlidir. Ayrı-ayrı cinayət əməllərinə görə əgər edam cəzası nəzərdə tutulmurdusa, təqsirkar şəxs hər bir əmələ görə konkret cəzalanmalı idi. Əgər əksinə, əmələ müvafiq verilən cəza ölümlə nəticələnirdisə, digər tənbeh tədbirlərinin həyata keçirilməsi lüzumsuz hesab edilirdi.

Eyni zamanda, ən çox tətbiq olunan cəza növü diyə alınmasıdır. Yəni törədilmiş cinayət nəticəsində şəxsə vurulmuş maddi və mənəvi zərərin fiqh ilə nəzərdə tutulmuş miqdarda maddi dəyərlə (pul və ya mal şəklində) ödətdirilməsidir. Diyə cəza növü olsa da fiqh əsərlərində onun hansı halda tətbiq olun-masına ayrıca "Kitab" – hüquq institutu həsr olunmuşdur.

Onlardan iki institut bilavasitə cinayət əməlinə deyil, cəza növü və məhkəmə qarşısında qan iddiası qaldırmağa, qalan səkkiz institut konkret dispozisiyalı cinayət əməllərinə həsr olunmuşdur.

Müsəlman hüququ cinayətkara verilən cəzanın qisas, acıq çıxma xarakteri daşımasını istisna etmir. Buna görə də, hər bir cəzanın edilmiş əmələ müvafiq olmasını, ifrata varmamasını tələb edir.

Müsəlman cinayət hüququ qarşıya qoyduğu məqsədlərə çatmaq üçün son dərəcə ağır cəza növlərindən istifadə etmişdir. Orta əsr hüququ üçün xarakterik olan cismani və ruhani cəzaların birgə işlədilməsi, eyni zamanda əmlak cəzası vermək, cəmiyyət içində nüfuzunu aşağı salmaq kimi cəzalar vermək də müsəlman cinayət hüququnun məqsədə çatma üsullarındandır.

Edam etmə ən ağır cəza növü hesab olunmuşdur. Edama ən ağır cinayətləri törədənlər layiq görülmüşlər. Məsələn, dövlətə qarşı törədilən üç növ: soyğunçuluq, hakimiyyətə qarşı üsyan və casusluq cinayətləri ən ağır cinayətlər hesab edilirdi və ona edam cəzası nəzərdə tutulurdu.

İslamın ilk dövrlərində həbsxanalar yox dərəcəsində olduğundan cinayətkara həbs cəzası kəsilmirdi. Həbsdən başqa cəza verilməsi mümkün olmayan cinayətkarlar ya öz evlərində, ya da məscidlərdə saxlanılırdı. Sonradan həbsin effektli cəza növü olmasının aşkara çıxması, müxtəlif növ cinayətlərin sayının artması geniş həbsxanalar, zindanlar şəbəkəsi yaranması ilə nəticələndi.

Bütövlükdə, müsəlman cinayət hüququnda cəzaların tam siyahısı müəyyən edilməsə də, hansı növ cinayətlərə görə nəzərdə tutulan cəzalar məlum idi. Cəza təyin edən qazi özünün mənsub olduğu məzhəbin ümumi prinsiplərindən çıxış edərək hər hansı bir növ, hətta tamamilə yeni növ cəza da təyin edə bilər. Əslində, bu, cəza deyil, tənbeh kimi qiymətləndirilməlidir, çünki daha çox tərbiyəvi xarakter daşıyır. Məsələn, ictimai tənbeh növü kimi üzünə tüpürmə, söymə, başını qırxdırma və s. kimi tədbirlər tətbiq edilirdi. Cəza verilərkən hər şeydən əvvəl müvafiq hal üçün daha çox uyğun tədbirin olması nəzərdə tutulmuşdur. Buna görə qazilərə çox sərbəstlik verilmiş, zaman keçdikcə cəzaların növləri də çoxaldılmış və təkmilləşdirilmişdir. Məsələn, bəzi cinayətlər üçün (zinakarlıq) cərimə və sonralar sürgün edilmə, katorqa işlərində işlədilmə, vəzifədən qovulma (məsələn, qazilərin qovulması) kimi cəzalar da tətbiq olunmuşdur. Vurulmuş zərərin ödətdirilməsi isə cəzadan çox cinayətkarın öhdəsinə düşən vəzifə xarakteri daşımışdır. Bir çox fəqihlər varislik hüququndan məhrum edilməni, zinakarlıq etmiş ərdən boşanmanı və ya arvadı boşamanı da cəzanın növlərinə daxil etmişlər.

Beləliklə, müsəlman cinayət hüququnda edilməsi qadağan hesab olunan bütün əməllər üstündə tənbeh və cəza tədbirləri tətbiq edilirdi. Həmin şəxslərin bir halda pis əməllərə görə Allah qarşısında günah daşıdıqları, ikinci halda isə mövcud əsaslarla cəzalanmaları müsəlman cəza hüququnun əsasını təşkil edir.

3.3. İslamda məhkəmə sistemi

Fiqhin son hüquq institutlarından bir qismi ədalət mühakiməsinin həyata keçirilməsi barədə qaydalara, prosessual normalara və ədalət mühakiməsi ilə bağlı digər məsələlərin həllinə aiddir.

Ədalət mühakiməsinin həyata keçirilməsinə aid sahə bir çox hüquq institutlarına bölünür. Bu institutlar öz dövrünün qanunlarına uyğun olaraq çoxlu normalar yaratmışlar: iddia və məhkəmə bəyanatları, iddia və sübutlar, iman, vəd vermə və and içmə, qazilik qaydaları bu institutlardandır və ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlıdır. Çünki təntənəli surətdə and içib andına əməl etməyən şəxs şəriət məhkəməsində nəinki qazi, məhkəmə fərraşı, heç şahid də ola bilməz. Məhz buna görədir ki, fəqhin həmin hüquq institutları ilə ədalət məhkəməsinin həyata keçirilməsini tənzim edən "Qazilik qaydaları kitabı", "Şahidlik kitabı", "İddia və məhkəmə bəyanatları kitabı"nda toplanmış normalarla birlikdə öz əksini tapmışdı.

İslamın erkən çağlarında onun mükəmməl məhkəmə icraatı sistemi olmamışdır. Müsəlman icmasının başçısı olan Məhəmməd Peyğəmbər (ə.s) məhkəmə məsələlərini şəxsən həll edir və hökmlər çıxarır, vaxtaşırı bunu öz əshabələrinə həvalə edirdi.

Ümumiyyətlə, Peyğəmbərlik hərəkatı dövründə məhkəmə orqanları öz dövrünün qanunlarına uyğun fəaliyyət göstərir və əsas qanun Quran hesab olunurdu. Quranda, şəriət, hədislər, yerli müsəlman adət-ənənələri və şəriət qanunları əsasında qəbul edilən qaydalar islam normalarına əsaslanırdı. Əgər baş vermiş mülki və cinayət işlərinin tənzimlənməsi qaydalarına dair Quranda bir şey olmasaydı, hədislər əsas götürülür, hədislər kifayət etmədikdə, yerli adət-ənənələrə istinad edilirdi. Lakin ictimai münasibətlərin çoxşaxəli olması artdıqca Quran ehkamları kifayət etmir, Qurana yazılmış təfsirlər, şərhlər və ən nəhayət, müsəlman hüquqşünasları – fəqihlər tərəfindən yazılmış şərhlər və müsəlman icma başçısının verdiyi hədislər əsas götürülərək hökm çıxarılırdı.

Göründüyü kimi, islam idarəçiliyi dövründə məhkəmə hakimiyyətini icra edən qazilərdən tutmuş bütün yerli məhkəmələrədək də fəaliyyətin hüquqi əsasını, qanunvericilik bazasını məhz müsəlman hüququ təşkil edirdi.

Quranda Peyğəmbərin (ə.s) Quran əsasında mühakimə etmək vəzifələrindən danışılır: "Biz sənə həqiqət kitabını nazil etmişik ki, adamlar arasında Allahın sənə göstərmiş olduğu kimi məhkəmə qura biləsən".

İlk məhkəmə təhqiqatları əslində yerli adi hüquq adət əsasında aparılırdı. Tayfa başçıları olan şeyxlər kimi Məhəmməd Peyğəmbər (ə.s) də aralarında münaqişə olan tərəflərin özlərinin yanında hökm çıxarırdı. Məhkəmə təhqiqatı aparılan yer bir qayda olaraq məscid idi. Çünki and içmə və andlı vəd vermə prosesi məhz burada həyata keçirilirdi. Doğrudur, şəriət qanun-

ları dünyəvi işlərin məsciddə müzakirə olmasını təqdir etmir, çünki məscid insanın ruhi cəhətdən Allah ilə ünsiyyət bağlaması yeridir, lakin dünyəvi xarakterli bütün işlər də dini işlər kimi islam dini tərəfindən tədqiq edilir və islamla əlaqələndirilirdi. Məlumdur ki, hələ X əsrdə Fatimilərin ali hakimi – Qazı-əl-Qüzzat məhkəmə işlərinə Qahirədəki əl-Əzhar məscidində baxırdı.

Məhəmməd Peyğəmbərin (ə.s) ölümündən sonra islam istilaları nəticəsində xilafət genişləndi, yeni ictimai münasibətlər meydana gələrək mürəkkəbləşdi, onların həll olunması və tənzimlənməsi üçün hüquqi bazaya bir zərurət duyulmağa başladı, nəticədə müsəlman din xadimləri - müctəhidlər, ülamələr tərəfindən müsəlman hüququ təşəkkül tapmağa və inkişaf etməyə başladı. Bununla əlaqədar, məhkəmə hakimiyyəti də inkişaf etməyə və mövcud qanunlara istinad etməklə formalaşmağa başladı.

Xilafətdə məhkəmə hakimiyyəti inzibati hakimiyyətdən ayrı idi. Dövlət başçısı olan xəlifə ali hakim sayılırdı. Lakin o, çox nadir hallarda şəxsən özü işə baxırdı. Ədalət mühakiməsini ruhanilər həyata keçirirdi. Bunun üçün, görkəmli ilahiyyatçılar kollegiyası yaradılmışdı. Onlar xəlifənin adından qaziləri və yerlərdə hakimlərin fəaliyyətinə nəzarət edən xüsusi müvəkkil şəxsləri təyin edirdilər. Bütün bunlar öz dövrünün müvafiq qanunlarına istinadən mövcud idi. Belə ki, qanunun mövcudluğu ədalət mühakiməsinin həyata keçirilməsinin şərtidir. İslam aləmində ədalət mühakiməsi digər təsisatlar kimi ibtidai formadan başlayıb inkişaf etmiş, özünün mükəmməl formasına çatmışdır. Ədalət mühakiməsinin həyata keçirilməsinə dair fiqhin normaları da təkamülün nəticəsidir.

İslam dövlətinin teokratik xarakteri, ciddi mərkəzləşmənin mövcud olması həm mərkəzi bürokrat aparatın ali rütbəli məmurlarının, həm də yerli idarəçilik fəaliyyətini icra edən dini və dünyəvi vəzifələrə təyinatın birbaşa dövlət tərəfindən mərkəzləşdirilmiş qaydada həyata keçirilməsinə imkan verirdi. Bu qayda Qazi-əl-Qüzzatın və yerlərə təyin olunmuş qazilərin də təyinatına tətbiq olunurdu. Qazilər təyin olduqları əyalətlərin, şəhərlərin dini məhkəmələrinin sədri hesab olunur, hökmləri və qərarları müstəqil qəbul edirdilər. Heç kim onların işinə müdaxilə edə bilməzdi, çıxardıqları hökmlərə sədrdən başqa heç kim yenidən baxa bilməzdi. Əyalət və şəhər şəri məhkəmələri tərəfindən çıxarılan hökm və qərarlara ancaq sədri-xassə məhkəmələrində yenidən baxıla bilərdi.

Qazilər yerlərdə şeyxülislamlarla qarşılıqlı əlaqədə işləyirdilər. Şeyxülislamlar da yerlərə sədri-xassənin təqdimatı əsasında təyin olunur və bir çox hallarda qazinin təşkil etdiyi məhkəmə proseslərində iştirak edirdilər. Şeyxülislamlar həm də hüquq elmini tədris edir, çərşənbə və şənbə günlərində bütün ədliyyə qazilərinə və məhkəmə heyətinin bütün üzvlərinə dərs deyirdi.

Qeyd edildiyi kimi, islam dininin təbliğatçısı olan Məhəmməd Peyğəmbər (ə.s) müsəlmanların ilk hakimi, həm də qazisi olmuşdur. Onun vəfatından sonra da xəlifələr ən yüksək məhkəmə instansiyası rolunda çıxış etmişlər, lakin islam dini yayılaraq, genişləndikdən sonra yerlərdə ədalət mühakiməsini həyata keçirən qazilər institutu, məhkəmə orqanları sistemi yarandı. Məhəmməd Peyğəmbər (ə.s) və ondan sonra gələn xəlifələr və müsəlman füqəhası Allahın mömin bəndələri arasında baş vermiş əmlak və qeyri-əmlak xarakterli mübahisələrə, davalara ədalətlə baxılmasını, qazilərin adil və rüşvətdən uzaq olmasını, şahidlərin düzgün ifadə verməsini vacib hesab etmişlər. İslamın ilk dövrlərində ədalətli mühakimə həyata keçirilməsinə nail olunmuşdur. Lakin qanunsuzluqlar da az deyildi. Fiqhin ədalət mühakiməsinə aid bölməsində həm də qanunsuzluq və özbaşınalıqların aradan qaldırılmasını nəzərdə tutan normalar vardır.

Müsəlman məhkəməsində iddiaçı və cavabdehin səmimi etirafı və and içmənin həlledici əhəmiyyətli olmasına görə iddiaçı, cavabdeh, şahid və məhkəməni həyata keçirənlərin əsl müsəlman, iman sahibi olmalarına xüsusi diqqət yetirilmiş, imanlı müsəlmanların ifadələrinə daha çox inanılmış və üstünlük verilmişdir. Buna görə də, fiqhdə bilavasitə ədalət mühakiməsindən bəhs edən normalardan əvvəl iman və and içmə ilə bağlı normalar da verilmişdir.

Ədalət mühakiməsinin həyata keçirilməsində qərəzli mövqe tutmamaq və günah daşımamaq üçün bu prinsiplər əsas götürülürdü. İslam cəmiyyətində ədalət mühakiməsini həyata keçirən qazilərin fəaliyyətini tənzim edən maddi və prosessual normalar "Kitab ədəl-əl-qada" (Qazilik qaydaları kitabı) adlanan hüquq institutunda toplanmışdır. Qazilər iman əhli olub, xalqı ədalətlə mühakimə etməli, qanunsuzluğun qarşısını almalı, kimsənin haqqının mənimsənilməsinə, hüququnun tapdalanmasına yol verməməlidir. Qazi öz vəzifəsini şəriətin tələbləri səviyyəsində apara bilmirsə, tutduğu vəzifədən azad edilməlidir.

Qazi (ərəbcədir) – müsəlman icmasında dini hakim deməkdir. Qazilər istər dini məsələlər barəsində, istərsə də ailə, miras məsələləri, həm də cinayət hüququ məsələləri barəsində qərarlar qəbul edir, müsəlmanların öz dini vəzifələrinə riayət etməsinə göz qoyur, bunun üçün Quranın, sünnənin və şəriətin göstərişlərini əsas tuturdular. Bir qayda olaraq, qazilərin qərarlarını dünyəvi hakimiyyət orqanları icra edirdilər. Qazilər də əslində bu orqanlara tabe idilər. Qazi vəzifəsi VII əsrdə yaranmış, sonra Qazi-əl-Qüzzatın başçılığı ilə qazilərin qarşılıqlı tabeliyinin müəyyən sistemi yaranmışdır.

Qazilər geniş səlahiyyətə malik idilər. Onlar yerlərdə məhkəmə işlərinə baxır, məhkəmə qərarlarının icra olunmasına nəzarət edir, vəsiyyətnaməni təsdiq edirdilər. Qərar qəbul etməkdə qazilər müstəqil idilər. Qazi dini

ayinlərə əməl olunmasına nəzarət etməklə bərabər, öz dairəsində güclü siyasi təsirə malik idi. O, qadınlar şurasının məsləhətindən istifadə edə bilərdi.

Qazinin fəaliyyəti daima diqqət mərkəzində olur, onun çıxardığı hökmlər ən ədalətli hökm kimi qəbul edilirdi. Bu hökmlərə görə onlar həm bu dünyada, həm də axirət dünyasında məsuliyyət daşıyırdılar. Ona görə də, qazi vəzifəsinə təyin olunanların əksəriyyəti qazi olmaqdan imtina edirdilər. Məhəmməd Peyğəmbərin (ə.s) qazilik haqqında söylədikləri bu işin nə qədər məsuliyyətli olduğunu bir daha sübut edir: "Kimsə qaziliyə razı olsa, özünü (ruhunu) bıçaqsız kəsmiş kimidir".

Qazilik yüksək bilik və peşəkarlıq tələb etdiyinə görə, qazi vəzifəsinə fiqhə yaxından bələd olan elmli adamlar təyin edilirdilər.

Yol verəcəyi nöqsana, səhvə görə axirət günündə alacağı cəzadan qorxan ən böyük fəqihlər belə qaziliyə razı olmamışlar. Buna görə də məzhəb banilərindən Əbu Hənifə və Sauri qazilik vəzifəsini qəbul etmədiyinə görə döyülüb öldürülmüşlər. Qaziliyi öhdəsinə götürən adam fiqh sahəsində yüksək biliyə malik olmalı, xalqın işini ədalətlə həll edə biləcəyinə əmin olmalı, xalqın və şəxsən özünün etimadını qazanmalı, hər şeyi qorxub çəkinmədən düz deməli, qanunu hətta hökmdardan belə qoruya biləcək qədər cəsur, qorxmaz, iradəli olmalı, fəraiz məsələlərini dəqiq bilməli, insanlar arasında fərq qoymadan məzlumu zalimdən müdafiə etməyə həmişə özündə güc, qüdrət hiss etməli, rüşvət qəbul etməməli və ətrafdakıların da rüşvət qəbul etməsinə imkan verməməlidir. Hədiyyə olaraq verilmiş şeyləri qəbul etməzdən əvvəl hədiyyənin hansı məqsədlə verildiyini yoxlamalı, məqsədli hədiyyələri nə özü, nə də ailə üzvləri qəbul etməlidir.

Qazi yaxın adamlardan, dostlardan kiçicik belə hədiyyə qəbul edərsə, qərəzlə verilmədiyinə, niyyətin yalnız dostluq olduğuna əmin olmalıdır. Qazi hakimiyyət orqanlarından qorxmamalı, özü maraqlı olduğu işlərdə belə ədalətli hökm çıxarmalı, məhkəmə işində qardaşı ilə başqası arasında fərq qoymamalıdır.

Qazinin qapısı həmişə xalqın üzünə açıq olmalı, hamının onun yanına girib şikayətini bildirməsinə şərait yaratmalı, xalqla mehriban rəftar etməklə camaatın ondan qorxması və ya çəkinməsinin qarşısını almalıdır. Qazi mərhəmətli və mülayim olmalı, xalqı xeyir işlərə həvəsləndirməli, rəyində möhkəm, davranışında düzgün, əxlaqında saf, özü xalqa ehsan verən, nümunəvi şəxs olmalıdır.

Qazi öz fəaliyyəti üçün beytül-maldan bir fəqirin götürəcəyi miqdarda zəhmət haqqı götürməli, cəza verəndə tələsməməli, ədalətli hökm çıxar-malıdır, çünki cəza verib xəta etməkdənsə, verməyib xəta etmək daha yaxşıdır. Qazi səlahiyyətinə aid olan işlərə baxmalı, baxarkən səlahiyyət həddini aşmamalı, mübahisələri axıra qədər həll etməli, işi yarımçıq qoyub başqa işə keçməməlidir. Günahı olmayan adamı cəzalandırmaq nə qədər böyük gü-

nahdırsa, cəzalanmalı adamı cəzalandırmamaq da bir o qədər ağır qəbahətdir. Buna görə də cəzalanmalı hər bir kəsə layiq olduğu cəza verilməlidir. Məhkəmə prosesində bütün tərəfləri toplamalı, hamını dinləməli, mübahisə doğuran halları dəqiq araşdırmalı, məsələlər tam aydın olmayınca işi yekunlaşdırmamalıdır. Məsləhətdir ki, qazi işə xəstə və qəzəbli olduğu vaxtlarda çıxmasın. Müsəlman məhkəmələrində proses fasiləsiz aparıldığından işə axıra qədər baxıb çatdıra biləcəyini nəzərə almalı, icra üçün zəruri tədbirləri həyata keçirməlidir.

Qazi sübut etmə vəzifəsini yalnız iddiaçının üzərinə qoymamalı, öz səlahiyyətindən istifadə edərək məsələlərin aydınlaşmasını təmin etməlidir. Çünki məhkəmə hakimlərinin istinad etdiyi ən mühüm sübut vasitəsi şahid ifadəsi olmuşdur.

Müsəlman hüququnda şahidlik müasir hüquqda olduğundan daha genişdir. Müasir hüquqda şahidlik institutundan ibtidai istintaq və məhkəmədə baxılan işlərdə istifadə olunduğu halda, müsəlman hüququ şahiddən əqdlər bağlanmasında da geniş istifadə edir. Məsələn, nikah müqaviləsi bağlananda oğlan və qız tərəfindən iştirak edən nümayəndələr şahid hesab olunur, həmçinin vəsiyyət olunanda, alqı-satqı, saxlama, girov və digər əqdlər bağlananda şahidlər iştirak edir. Cinayət işləri üzrə məhkəmədən fərqli olaraq mülki işlər üzrə məhkəmədə bu şahidlərin iştirakı mütləqdir. Bütün bu əsaslarla aparılan məhkəmə cinayət və mülki işlər üzrə hökm və qərar çıxarır.

Bir qayda olaraq, qazinin məhkəmə qərarları və hökmləri qəti idi və onlardan şikayət etmək olmazdı. Müstəsna hallarda xəlifə və ya müvəkkil şəxslər işə müdaxilə edərək, qazinin qərarını dəyişə bilərdi. Qeyri-müsəlman əhalisinin məhkəmə işlərinə onların öz din xadimləri baxırdı.

Qazi işi şahidlərin, iddiaçı və cavabdehin, məhkəmə üzvlərinin, məhkəmə xidmətçilərinin iştirakı ilə araşdırır və hökm çıxarırdı. Qazi insanlar arasındakı mübahisələri şəriət ehkamları, fiqhdə toplanmış hüquq normaları və öz rəyinə əsasən həll etməlidir. Qazi nəinki özünün, həmçinin məhkəmədə şahidlərin şəxsiyyətini yoxlayıb, bir növ katib funksiyasını icra edən müzəkkil vəzifəli şəxsin, əmlak bölgüsünü həyata keçirən qasimin, qərarları icra edən avanların işinə ciddi nəzarət etməli, qanunsuzluğa, rüşvətxorluğa, süründürməçiliyə yol verilməsinin qarşısını almalı, nöqsan görərsə, dərhal aradan qaldırmalıdır.

Şəri məhkəmələr əsasən ona aid bütün şəri və mübahisəli məsələləri həll etmək, kimsəsiz uşaqların, həmçinin ruhi xəstəliyə düçar olanların əmlakını, irsiyyətini qoruyub saxlamaq, kəbin kəsmək, boşanma, kəbinə aid sənədləri imzalayıb təsdiq etmək, başa salmaq yolu ilə insanları haqqa zidd hərəkətlərdən çəkindirmək, baş vermiş şərə xilaf işləri qeydə almaq, şəri cəhətdən yasaq edilmiş iş görənləri cəzalandırmaq, iddiaçı ilə cavabdeh arasında düşmənçiliyə son qoyub tərəfləri barışdırmaqla əlaqədar son iddialara

baxıb, mülkiyyətə aid sənədləri, tacirlər arasında bağlanan müqavilələri, eləcə də mülki şəxslərə aid sənədləri təsdiq etməklə məşğul olurdu.

Şəriət məhkəmələrinin səlahiyyətinə daxil olan işlərdən başqa, yerdə qalan işlərə cinayət məhkəmələri baxırdı. Ağırlıq və ya yüngüllük dərəcəsindən asılı olaraq bu işlərə şəhər, vilayət, əyalət divanbəyiləri, daruqələr, möhtəsiblər və ehdas qaziləri baxırdılar. Onların məhkəməsində baxılan işlər ürfi qaydada aparılırdı. Ürfi hüquqa dörd cinayət hadisəsi daxil idi: adam öldürmək, namusa təcavüz, bədən xəsarəti və oğurluq. Bu növ cinayətlərin məhkəmə baxışına və hökmlərin çıxarılmasına digər dövlət orqanlarının və şəriət hakimlərinin qarışmaq səlahiyyətləri yox idi. Fəaliyyətini müsəlman hüququna istinadən quran yerli şəriət məhkəmələri, həm fəaliyyət dairəsinin genişliyinə görə, həm də cinayət məhkəmələrinin fəaliyyətinin şərə zidd olub-olmamasına nəzarət etmək baxımından aparıcı rola malik idi.

Şəriətə görə proses ittihamedici xarakter daşıyırdı. Şahid ifadələri, etiraf, andiçmə əsas sübut növləri idi. Şahid ifadələrindən çox geniş istifadə edilirdi. İki nəfər mötəbər müsəlmanın iştirakı və ifadəsi kifayət idi. Əgər iki kişi tapılmasa, onda bir kişi və iki qadın olmalı idi. Zina etmə işlərində dörd nəfər kişi şahid tələb olunurdu. İki nəfər qadının ifadəsi bir nəfər kişinin ifadəsinə bərabər idi. Başqa dinə mənsub olan adamlar müsəlmana qarşı şahidlik edə bilməzdi. Kifayət qədər başqa sübutlar olmadıqda and içməyə icazə verilirdi. Anddan imtina etmək cinayəti etiraf etmək demək idi. İşin xüsusiyyətindən asılı olaraq qazi onu həmin gün başa çatdırmalı idi.

Məhkəmə prosesi qazi tərəfindən qərarın elan edilməsi ilə başa çatırdı. İlkin dövrlərdə qazi öz hökmünü şifahi şəkildə elan etsə də, sonralar hökmlər tərəflərin tələb etdiyi hallarda yazılı olaraq həll edilirdi. Çox hallarda hökmlərin şifahi və yazılı şəkildə elan edilməsi işin xüsusiyyətindən də asılı idi. Bu da ən çox qazinin özü bildiyi kimi müəyyən etdiyi cəzalara aid edilirdi ki, həmin əməllər çox təhlükəli hesab olunmurdu.

Qazi öz ətrafındakı məhkəmə məmurlarına – avanlara qərarın icrasının təmin edilməsi ilə bağlı göstərişlər verirdi. Qazinin çıxardığı hökmdən narazı olan tərəflər, bəzi hallarda Qazi-əl-Qüzzatın başçılıq etdiyi məhkəmə nəzarət divanına müraciət edirdilər. Bu da işin xüsusiyyətindən asılı idi. Çünki qazinin dövləti cinayətlərlə bağlı çıxardığı hökm qəti idi.

Nəzarət divanında araşdırmalar aparıldıqdan sonra, ya hakimin çıxardığı hökm təsdiq edilir, ya da cəzanın yüngülləşdirilməsini, ağırlaşdırılmasını, yaxud da tamamilə başqa bir cəzanı nəzərdə tutan yeni hökm çıxarır, bəzi hallarda isə mühakimə olunmuş şəxsin təqsirsizliyi aşkar edilərək, əvvəlki hökm tamamilə ləğv edilirdi. Belə hallarda əvvəlki məhkəmələrin həmin işlə bağlı qərəzli mövqe tutmaları bəlli olardısa, mütləq onlar üçün də müvafiq cəzalar nəzərdə tutulurdu.

Beləliklə, müsəlman hüququ üzrə məhkəmə icraatından edilən əsas tələb tərəflərin kimliyindən asılı olmayaraq işlərə obyektiv və qanuni baxılması, hətta müsəlman olmayanlarla müsəlmanların işlərinə baxılarkən də ədalətin bərqərar edilməsidir.

Müsəlman hüququnda andiçmə və andlı vəd vermək hüquqi xarakter daşıyır. Hüquq institutuna aid edilən "Qan iddiası və andiçmə kitabı"nın fiqhin cinayət hüququ hissəsinə salınmasında da məqsəd həmin institutun cinayət hüquq münasibətlərini tənzimləməyə xidmət etməsini göz önünə çəkmək, tətbiqini asanlaşdırmaq olmuşdur. Həmçinin, cinayət törədilməsi ilə bağlı və məhkəmə prosesi zamanı şahidlərin və o cümlədən proses iştirakçılarının hüquqları ilə bağlı bir çox normalar bu institutda öz əksini tapmışdır. Çünki müsəlman məhkəməsində qeyd etdiyimiz kimi iddiaçı və cavabdehin iqrarı, etirafı və andiçmənin əhəmiyyəti xüsusilə böyükdür. Məhz buna görə də, fiqhdə bilavasitə ədalət mühakiməsindən bəhs edən normalardan əvvəl iman və andiçmə ilə bağlı normalar verilmişdir. Müxtəlif qaydalarda and içilə bilər, lakin Allaha doğru and içilməli və içilən and yerinə yetirilməlidir.

Müsəlman verdiyi vədə, içdiyi anda xilaf çıxmamalıdır, çıxarsa, imanı kamil olmayan adam kimi həm bu dünyada, həm də axirətdə cəza alması vacibdir. Buna görə də fiqhdə təntənəli vədvermə və andiçmənin qaydaları, üsulları və yerinə yetirilməsi şərtlərini müəyyən edən normalar mövcuddur. Zina əmələ görə cəza yalnız konkret hüquq, dini və ya ictimai normanın pozulması halında verilə bilər. Andiçmə və öz-özünə vədvermənin iki növü vardır:

Birincisində şəxs öz-özünə and içib söz verir ki, hər hansı bir şeydən, pis əməldən əl çəkəcək və yaxud nəyisə başqalarına verəcək, kiminsə mənafeyi üçün bir iş görəcəkdir;

İkinci növbədə isə şəxs söz verib and içir ki, əgər müəyyən bir arzusu yerinə yetərsə, Allaha xoş gedən bir iş görəcəkdir, məsələn, yoxsulları yedirib-geydirəcək, qul azad edəcək, beytül-mala əmlak bağışlayacaq və s.

Dini mükəlləfiyyəti yerinə yetirməyə görə də söz verilə bilər. Məsələn, xəstəliyi sağalarsa, bir ay oruc tutacağına, ticarətdə iflasdan qurtararsa, həccə gedəcəyini vəd etməyinə və s.

Vədinə əməl etməyən şəxs ya bir qul azad etməli, ya on nəfər kasıbı doyuzdurmalı, ya da eyni miqdar adama geyim verməlidir.

Bəzən yalan and içməyə, söz verib yerinə yetirməməyə yol verilir. Lakin yalan and içmə və vəd yerinə yetirməmə o zaman üzrlü sayılır ki, həmin hərəkət İslam dinini, özünü, yaxın adamlarını, onların həyatını müdafiə etmək məqsədi güdsün. Qanunsuz əməllərə bəraət qazandırmaq, törətdiyi cinayəti ört-basdır etmək üçün içilən yalan andlar qəbahətdir və cinayəti daha

da ağırlaşdırır. Ümumiyyətlə, şəriətdə heç bir halda (istisna olunan hallardan başqa) yalan and içməyə və ya verdiyi vədi yerinə yetirməməyə yol verilmir.

And içməklə söz verən, vəd edən adam ağıllı, həddi-büluğa çatmış olmalı, andı real vəziyyətdə, icrası real, mümkün olan hallara görə, səlahiyyətinə aid məsələlər üzrə and içməməlidir. Məsələn, qazilər məhkəmə işini doğru və düzgün aparmaları üçün and içməməlidirlər. Çünki qazilərin xalqa sədaqətlə xidmət etməsi, müstəqil və cəsarətli olması bilavasitə məhkəmə hakimiyyətinə aid edilən əsas şərtlərdən biridir. Əgər and imkan xaricində olan işləri görməyə, qəsbkarlıq etməyə içilərsə, belə andın qüvvəsi yoxdur, o, icra edilməməlidir. Andı sərxoş vəziyyətdə, ruhi həyəcan içərisində içmək də düzgün deyildir. Eyni zamanda şəriət tələb edir ki, əhdi də məcburi deyil, könüllü surətdə dilinə gətirməlisən. Tələsərək, düşünmədən, əsəbi vəziyyətdə əhd etmək və əhd işində israfçılığa yol vermək qadağandır. Əgər bir nəfər öz varidatının bir hissəsini yoxsullara paylamağı əhd etmiş, özü isə müflisləşmişdirsə, belə əhd etibarsız sayılır.

Ailədə heç də hamının əhd etməyə ixtiyarı yoxdur. Ərin və atanın icazəsi olmadan arvad və uşaqlar əhd edə bilməzlər. Əgər onlar ərin və atanın iradəsinə zidd çıxıb əhd etmişlərsə, bu əhd batil sayılır. Atanın icazəsi olmadan əhd haqqında öhdəlik götürmüş oğula ata öz etirazını bildirməmişdirsə, oğul bu əhdi yerinə yetirməlidir. Hər bir əhd mütləq onu edənin qüvvəsi daxilində olmalı və şəriətin icazə verdiyi işlərlə bağlı olmalıdır. Şəriət əhdin icra edilməsi müddətlərinə riayət olunmasını da tələb edir. Məsələn, ailə-nikah məsələsində kiçik yaşlı qızın valideynləri onu müəyyən bir adama ərə verəcəklərini əhd edə bilərlər. Yetkinlik yaşına çatmış qız isə valideynlərinin əhdini pozmaqla istədiyi şəxslə nikaha girə bilər.

Qulun ağanın icazəsi olmadan əmlak xarakterli nəzir deməsinə, and içməsinə yol verilmir. Çünki icrası qeyri-realdır, qulun özü ağanın əmlakı olduğu kimi əlinə gələn qazanc da ağanın mülkiyyətidir. Lakin şəxsi xarakterli dini ayinləri icra etməyə vəd verilə, nəzir deyə bilər. Həmçinin, ailə daxilində valideynin icazəsi olmadan övladların, xüsusən həddi-büluğa çatmamış, qazanc gətirməyənlərin nəzir deyib vəd verməsinə də yol verilmir. Əgər arvad və ya uşaqlar ərin, atanın razılığı olmadan and içib nəzir demişlərsə və ya vəd vermişlərsə, ərin, atanın həmin andı pozmağa haqqı vardır. Lakin arvadın öz şəxsi əmlakı, cehizinə münasib nəzir deməsi qanunidir. Bir çox hallarda bu da qarşılıqlı razılıq əsasında həyata keçirilməlidir.

Şəriət anddan və vəd vermədən boyun qaçırmağa yol vermir. Əgər belə bir şey olmuşdursa, günah yuyulmalıdır. Bunun üçün müəyyən olunmuş normalar vardır. Şəxs şəriətin şərtinə əməl etmədiyindən mütləq həmin qaydalara riayət etməklə borcundan çıxmış hesab olunurdu. Əgər andı və vədi pozan adam bunları etməyə gücü çatmırdısa, heç olmasa üç gün oruc tutmalıdır. Əlbəttə, bunların hamısı şəxsin nəyə görə and içməsindən və vəd

verməsindən asılı idi. Çünki bir çox hallarda qərəzli andiçmə həmin şəxsin cəzalanması ilə başa çatırdı.

Bildiyimiz kimi, şəriət məhkəməsində öz dövrünün qanunlarına uyğun olaraq ən mühüm sübut vasitəsi şahid ifadəsi olmuşdur. Elm və texniki vasitələrin kifayət qədər inkişaf etmədiyi orta əsrlərdə tərəflərin və şahidlərin ifadələri demək olar ki, sübutun əsas vasitəsi olmuşdur. Tərəflər and içməklə, Qurana əl basmaqla həqiqəti söyləyəcəklərinə söz verirdilər. Çünki həmin dövrdə həqiqəti aşkara çıxarmağın yeganə vasitəsi şahid ifadələri olmuşdur.

Məhkəmə prosesi zamanı həmin şahidlər and içməklə həqiqəti söyləyəcəklərinə söz verirdilər. Şəxslərin mühakiməsi üçün, ədalətli hökm çıxarılması üçün şahidlik ifadələri önəmli rol oynadığından onların and içməklə ifadə vermələrinə xüsusi diqqət yetirilirdi. Bu, ən çox qəsdən adam öldürmə və zina etmə cinayətlərinə aid edilirdi. Bunun üçün yalandan və qərəzli and içmək həm bu dünyada, həm də axirət dünyasında böyük günah hesab edilir və həmin şəxslər cəzalandırılırdılar. Belə ki, şahid ifalələri, etiraf, andiçmə əsas sübut növləri idi.

Mülki hüquq münasibətlərinin araşdırılmasında öhdəlik hüququ sahəsində bağlanmış əqdlərdən biri olan tapşırıq müqaviləsindən istifadə edərkən vəd vermək qaydalarından da istifadə olunurdu. Belə ki, müqavilənin şərtlərinin yerinə yetirilməsi vəd vermə əsasında həyata keçirilirdi. Müsəlman hüququnda tapşırıq şəxsin öz hüquqlarının bir hissəsini könüllü olaraq başqasına verərək onun adından və hesabına müəyyən əqd bağlamağı, iş görməyi həvalə etməsinə deyilir. Tapşırıq (həvalə) müqaviləsində tərəflər – tapşıran və tapşırıq alan (müvəkkil) mülki hüquq və fəaliyyət qabiliyyətli olmalı, bağladıqları müqavilənin mahiyyətini anlamalı və icra etməyə qabil olmalıdırlar. Əks halda, vədvermək şəriət qaydasına əsasən, əsassız hesab edilməlidir. Məsələn, bəzən elə olur ki, şəxs öz səlahiyyətinə daxil olan hüquqi hərəkətləri icra etmək imkanından məhrum olur. Belə ki, səfərə getdiyinə görə borcunu ala və ya ödəyə bilmir, evində kimsə olmadığından baxımsız qalır, ticarətlə əlaqədar işlərini vaxtı və ya imkanı olmadığından icra edə bilmir və s. Belə hallarda mükəlləf şəxs həmin işin icrasını başqasına o vaxt həvalə edir ki, həmin şəxs onun əmlakının qorunub saxlanmasına vəd vermiş olsun.

Ümumiyyətlə, fiqhdə mülki hüquq münasibətləri tənzim edilərkən ayrı-ayrı müqavilə formalarının bağlanmasında vədvermə qaydalarından istifadə edilir. Çünki bir çox müqavilələrin yerinə yetirilməsi tərəflərin verdikləri vəddən asılıdır. Əks halda, müqavilənin pozulmasına səbəb olardı. Əmanət, zəmanət və borc müqavilələrinin bağlanmasında vəd vermə qaydalarından xüsusilə istifadə edilirdi.

Müsəlman hüququnda vədvermə həm də mülki cavabdehlik yaradır, yersiz and içmək isə cinayət cəzasına səbəb olur.

Ümumiyyətlə, müsəlman hüququnda şahidlik, yalan ifadə vermə problemi kəskin olmuş, müxtəlif müqavilə və əməliyyatlar üzrə şahidlik qaydası müəyyənləşdirilmiş qeyri-müsəlmanların şahid olmasına xüsusi qaydada yanaşılmışdır. Öz dinindən olmayanlara inamsızlıq, bir sıra məsələlərin həllində onların şəhadətindən istifadə edilməsinin yolverilməzliyi digər dini hüquqlarda da vardır. Həmçinin, şəxsi azadlığı olmayanların, qulların, kənizlərin şahidliyinin məhdudlaşdırılması da kifayət qədər əsaslı hesab edilməlidir. Çünki belə şəxslərin and içmələri də o qədər məqsədəuyğun hesab edilmirdi. Yəni başqalarının mülkiyyətində olan, həyatı belə başqa şəxsdən asılı olanın prinsipial məhkəmə baxışında öz ağasının sözündən çıxıb düzgün ifadə verməsi ehtimalı azdır. Halbuki, onun ifadəsi ilə bir çoxlarının taleyi həll oluna bilər.

Şahidin qəsdən yalan ifadə verərək məhkəməni aldatması nəticəsində baş verən zərərli nəticə üçün həm şahid özü, həm də ona əsassız olaraq inanmış qazi məsuliyyət daşıyır. Əgər şahidin yalan ifadəsinə inanaraq şəxs əsassız edam edilmişdirsə, həmin şəxsin diyəsinin yarısını şahid, yarısını da qazi ödəməlidir. Bədən xəsarəti yetirilməsi, bədən üzvünün kəsilməsi üçün də eyni dərəcədə cəza verilməlidir. Yalan ifadə verən şahiddən təkcə diyə yox, qisas da alına bilər. Yalan ifadə verən şahid müsəlman kimi Allah qarşısında da məsuliyyət daşıyır. Çünki məhkəmə prosesində şahidlərə də yalan ifadə verməmək barədə and içdirirlər. And içmək hüququna malik olan şəxslər, xüsusən şahidlər yalandan and içdiklərinə görə həm bu dünyada, həm də axirət dünyasında cəzalandırılırlar.

Beləliklə, müsəlman hüququnun bir sıra hüquq münasibətlərindən doğan mübahisələri, o cümlədən cinayət hadisələrini şəxslərin öz statusuna daxil etməsi, dövlətin və bütövlükdə, cəmiyyətin həmin hüquqların qorunmasında bilavasitə iştirak etməsi, yalnız şəxsin öz istədiyi zaman və hətta müdaxilə etməyə səlahiyyətli olması nəticə etibarı ilə ona gətirib çıxarmışdır ki, hər bir şəxs məhkəmə qarşısında öz hüquqlarını müdafiə etməyə təşəbbüskar olmalıdır. İddia qaldıran zərərçəkmiş sübutlar gətirməli, iş üçün yararlı ola biləcək halları görən və eşidən şahidləri göstərməli, əlaqədar şəxslərin gətirilməsinə kömək etməlidir ki, bu da andiçmə və andlı vədvermə qaydası ilə müəyyən edilir.

Vəkillik, nümayəndəlik adlanan bu hüquq münasibətləri Vəkil kitabı bölməsində toplanan normalarla tənzim olunur. Vəkillik, qəyyumluq və tapşırıqla fəaliyyət göstərmə - bu institutlar müsəlman hüququnda xüsusiyyətlərinə görə fərqlənirlər. Vəkilliyin qəyyumluqdan əsas fərqi ondan ibarətdir ki, qəyyum fəaliyyət qabiliyyəti olmayan və ya məhdudlaşdırılmış şəxs (ruhi xəstə, azyaşlı, müflis və s.) üzərində qoyulur. Vəkil isə fəaliyyət qabiliyyətli şəxsin özü tərəfindən öz iradəsi ilə konkret hüquqi fəaliyyətini həyata keçirmək üçün təyin edilir. Bu əsasla da tərəflərin hüquq və vəzifələri

bağlanmış müqavilənin məzmununu müəyyən edir. Məhz mülki işlər üzrə məhkəmədə qəyyumluq işlərini bilən məzzakidən və şahidlərin gəlməsini təmin edən avan vəkil edilmiş şəxsin də iştirakını təmin edir.

Vəkilliyin tapşırıq müqaviləsindən fərqi isə bundadır ki, vəkil etibar edilmiş işdə tam tərəf kimi çıxış edərək vəkil edənin bütün hüquqlarını həyata keçirir, tapşırıq alan isə əksər hallarda yalnız ona tapşırılmış konkret işi görür, borcu alır, mala baxır və s. Müqavilənin məzmununda ciddi fərq olması hüquqi tənzim obyektini dəyişdirmiş, yeni normalar sistemi yaratmışdır.

Şəriət çərçivəsində feodal hüququnun rəsmiləşdirilməsi həm də hüquqi təsisatlar, o cümlədən vəkillik təsisatı yaradılmasını nəzərdə tuturdu. Xüsusi mülkiyyətin inkişafı, iqtisadi və ticarət əlaqələrinin genişlənməsi onların müdafiəsi sistemini mürəkkəbləşdirmiş və bu, professional hüquqçular təbəqəsinin təşəkkül tapmasına gətirib çıxarmışdı.

Vəkilliklə bağlı hüquq münasibətinin mahiyyəti bundan ibarətdir ki, səlahiyyətli şəxs tərəfindən konkret iş üçün vəkil edilmiş şəxsin qanuni fəaliyyəti birinci üçün hüquq və vəzifələr doğurur. Həmin hüquq münasibətində tərəflər vəkil edən və vəkil ediləndir. Hər iki tərəf fəaliyyət qabiliyyətli, zəruri bilik və yaş həddinə çatmış olmalı, kişi cinsi nikah münasibətinə girməyə səlahiyyətli olmalıdır. Sonuncu şərt evlənmə zamanı vəkillik edən şəxslərə aiddir.

Vəkilin xidmətlərindən-nikah, talaq, ticarət, razılaşma, girov qoyma ilə əlaqədar əqdlərin bağlanmasında, borc alınması və borcun qaytarılmasında, həccə getmədə, zəkatın verilməsində istifadə olunur. Vəkil edilmiş şəxs vəkil olunduğu işin nədən ibarət olmasını, səlahiyyətinin həddini, çəkəcəyi xərclərin təxmini miqdarını və cəhətləri bilməlidir. Vəkalət müqaviləsi əsasən şahidlərin iştirakı ilə şifahi bağlanır, lakin mürəkkəb mülki işlərdə yazılı müqavilə daha məqsədəuyğundur. Vəkil müəyyən edən vəkil olunana rəsmən "səni filan iş görməyə vəkil etdim" deməlidir, əks təqdirdə vəkillik batildir. Vəkilin münasibətdə olacağı üçüncü şəxslər onun vəkil edilməsinə ya müvafiq şərait, ya da rəsmi sənədlə inanır.

Etibarnamə sahibinin icazəsi olmadan vəkilin işi başqa vəkilə həvalə etməyə hüququ yoxdur. Əgər iş bir neçə icraçıya tapşırılmışdırsa, onlardan biri öldükdə və ya imtina etdikdə başlanmış iş dayandırılmır. Əgər vəkalətdə cəmi iki nəfər, yəni işi tapşıran və onun icraçısı iştirak edirsə, onlardan hər hansı biri vəfat etdikdə iş dayandırılır. Əgər vəkil və ya müdafiəçi ölərsə, yaxud anlaqsız olarsa, sövdələşmə öz hüquqi qüvvəsini itirir.

Qazi yanında vəkillik digər iştirakçıların rəyi ilə də seçilə bilər. Yalançı vəkilin iştirak etdiyi iş, bağladığı əqd, təsdiq etdiyi şahidlik batil sayılır, tərəflər öz əvvəlki mövqelərinə qaytarılmalıdırlar. Yalançı vəkillərin əməlindən baş vermiş hadisə, dəymiş zərər üçün yalançı vəkil məsuliyyət daşıyır.

Mülki məsələlərin nizama salınmasında vəkil edilən şəxslər şəriətin müəyyən etdiyi hüquqlara malik olmalı idilər. Məhz məhkəmə prosesində də vəkillik etmək səlahiyyəti olan şəxslər də eyni hüquqlara malik olmalı və ədalətli mövqe tutmalıdırlar. Cinayət işləri üzrə məhkəmələrdə vəkil edilənlər kimin haqlı olmasına şahidlik etməkdə xüsusi maraqlı şəxs hesab edilirdi.

Əvvəllər məhkəmə baxışı, adətən vəkilsiz, yəni müdafiəçi olmadan aparılırdı. Lakin tərəflər prosesdə onların adından çıxış etməyi başda bir şəxsə də həvalə edə bilərdilər, bu zaman onların özlərinin də iştirakı məcburi hesab edilsə də, bunu bütün işlərə aid etmək olmazdı. Tədricən şəriət mühakimə icraatında vəkillik təsisatının meydana gəlməsi islam hüquq təcrübəsinin inkişaf etməsinin və təkmilləşməsinin nəticəsi idi.

Müsəlman hüququna əsasən varisi olmayan şəxs öldürüldükdə, proses zamanı zərərçəkənin nümayəndəsi, müddəi olmadığından sübutları qazi öz təşəbbüsü ilə toplayır, günahlandırılan tərəfin təqsirini sübut etmək üçün hər cür qanuni tədbirləri görürdü. Bu zaman vəkillərin rolunun daha böyük olması işin ədalətli həlli üçün çox vacib idi.

Xüsusi mülkiyyəti qəsdlərdən qoruyan şəriət vəkillərin hüquq və vəzifələrini səylə dəqiqləşdirmişdir, həm də çox vaxt vəkil kateqoriyasına etibarnamə almış şəxslər və vasitəçilər aid edilirlər. Məsələn, satılası paltar kiməsə verilmişdirsə, vasitəçi isə onu satmaq əvəzinə özü geyib köhnəltmişdirsə, onda o, yeni paltar almalı, yaxud da həmin paltarın dəyərini onun sahibinə ödəməlidir.

Beləliklə, şəriət məhkəmə icraatında vəkillik təsisatının meydana gəlməsi müsəlman hüquq təcrübəsinin inkişaf etməsinin və təkmilləşməsinin nəticəsi idi. Çünki hüquqçular zümrəsinə mənsub olan müsəlman vəkilləri şəriət məhkəməsi ilə vətəndaşlar arasında vasitəçi və rəsmi məhkəmə orqanlarının ifadəçiləri idilər. Rəsmi şəriət qaziləri vəkillər vasitəsilə vətəndaşların dünyəvi və dini işlərini öz nəzarətləri altında saxlayırdılar.

Şəriət qaydasına əsasən şahid məhkəmədə ona məlum olan halları düzgün söyləməli, hadisəni təhrif etməməlidir. Şahid hadisəni görməli, kimdənsə eşitməli və ya başqa hiss üzvləri ilə duymalı, qavramalıdır. Mənbəyi olmayan şəhadət əsaslı sayılmır. Dəli, azyaşlı, kafir, qumarbaz, haram oyun oynayanlar, şərab içib sərxoşluq edənlər, eyş-işrətlə məşğul olanların şahidliyi məqbul sayılmır, xüsusən müsəlmanın əleyhinə şahidlik etmələrinə yol verilə bilməz. Şahidliyin əsas təyinatı məhkəmə zamanı olan şübhələri aradan qaldırmaqdır, buna görə yaxın adamların bir-birinə şahidlik etməsinə yol verilmir, ata oğula, ağa quluna və ya əksinə, eynilə və digər yaxın qohumluq və dostluq münasibətlərində olanların bir-birinə şahidlik etməsi düzgün deyil. Eynilə də vəsiyyətlə, vərəsəliklə bağlı işlərdə iki nəfərin iki nəfərə, bir-biri ilə düşmənçiliyi olanların biri digəri əleyhinə şahidlik etməsi qanunsuzdur. Şahidliklə bağlı qanunun tələblərinə əməl edilməyərək məh-

kəmə hökm çıxararsa, hökm qanunsuzdur və ləğv edilməlidir. Şəriət məhkəməsi proses zamanı qeyd etdiyimiz bu qaydaları vəkillər vasitəsilə öz nəzarəti altında saxlayırdı. Bəzən törədilən əməllərin xarakterindən asılı olaraq vəkilin həmin işlə bağlı məsələyə münasibəti mütləq lazım gəlirdi.

Beləliklə, müsəlman hüquq normalarının yaranmasında və inkişafında, eynilə cinayət və mülki işlər üzrə qərar və hökmlərin çıxarılmasında vəkillər kollegiyasının əhəmiyyəti danılmazdır. Şəriətdə vəkillik təsisatının mövcudluğu ədalətli hökm və qərarların çıxarılmasına tam zəmin yaradırdı.

IV FƏSİL

İSLAM MÜASİR DÖVRDƏ

4.1. Müasir dövrdə şəriət və fiqh əsasında institutlaşma

Şəriətin son dövrlərdəki vəziyyətinin pozitiv hüquq və deontologiya (əxlaq) olaraq ikili xüsusiyyətinə müvafiq gələn iki mühüm tərəfi var. XIX əsrdən başlayaraq şəriət, tədricən, pozitiv bir hüquq olaraq müsəlman ölkələrin hüquq sistemlərindən borc alınmış Avropa hüququ tərəfindən sıxışdırılmağa başladı. Lakin, müstəqil şəriət qaydaları müasir Müsəlman ölkələrinin hüquq sistemlərində ənənəvi olaraq bu sahəyə verilən əhəmiyyətə mütənasib olaraq qorunub saxlanmışdır. Ancaq özünü qorumağı bacardığı sahələrdə belə şəriət bəzi islahatlara məruz qalmışdır.

İyirminci əsrdə şəriət islahatı müsəlman cəmiyyətlərinin üzləşdiyi əsas hüquqi problemlərdən biri oldu və uzunmüddətli siyasi və intellektual mübahisələr doğurdu. Şəriətin saxlanılması istiqamətində kütlənin və din xadimlərinin dəstəyinə baxmayaraq, hökumətlər geniş surətdə siyasi məhdudiyyətlərin yol verdiyi ölçüdə sürətlə qərbləşmə istiqamətində irəlilədilər. 1970-ci illərdə şəriətin saxlanılması və ya yenilənməsi tərəfdarı olan qüvvələrin siyasi təsiri özünü hiss etdirməyə başladı və qərbləşmə islahatlarının ləğvi və şəriət hüququnun bərpası prosesi Liviya, İran, Pakistan, Misir, Sudan və Küveytdə başladı.

İslamlaşma prosesinin nə qədər davam edəcəyi və Şəriətin pozitiv hüquq olaraq gələcəkdəki rolunun nə olacağı məsələsi hal-hazırda qeyri-müəyyəndir. Həmçinin, XX əsrdə fiqh məsələləri ilə məşğul olan Müsəlman ziyalılar şəriətin orta əsr versiyalarını yenidən tənqidi cəhətdən tədqiq etdilər və şəriətin mənbələrinə dair yeni şərhedici yanaşmalar ortaya qoydular. Şəriətə müasir yanaşmaların müxtəlifliyi, Peyğəmbərin (ə.s) vəfatından sonrakı ilk əsrlərdə yaranmış vəziyyəti, klassik məzhəblərin təlimləri inkişaf etmədən əvvəlki vəziyyətini xatırladır.

Hələ də bir çox mühafizəkar mütəfəkkirlər var ki, onlar orta əsr fiqhinin mötəbərliyini müdafiə edirlər. Onlara qarşı cərgəyə düzülmüş çox sayda digərləri də şəriətin nə demək istədiyi ilə bağlı yeni şərhləri dəstəkləyir. Hüquqi təlimlərin parçalanmasına əlavə olan bir fakt da odur ki, təhsil imkanlarının yaranması və savadlılığın artması ilə, savadlı, lakin dini bir müəssisədə ənənəvi təhsil görməmiş bir çox müsəlmanlar da şəriətin şərhlərinə öz töhfələrini verir. Başqa ifadəylə, müasir təhsilli elitaya mənsub olan qeyri-mütəxəssislər özlərini fəqihlərin ixtisas bilikləri ilə hesablaşmağa məcbur hiss etmir və şəriət hüququ ilə bağlı mötəbər hökmlər ortaya qoyma haqqını

indiyədək əllərində tutmuş fəqihlərin inhisarına meydan oxuyurlar. Nəticə etibariylə, müasir şəriət təlimləri haqqında ümumi fikirlər ortaya qoymaq çox çətin hal almışdır.

Müsəlman ölkələrinin hüquq sistemlərinin qərbləşdirilməsi Avropa imperializminin XVIII və XIX əsrlərdə Müsəlman cəmiyyətlərinə təsiri ilə başladı. Klassik hüquq məzhəbləri təlimlərinin inkişafındakı başlıca qırılma da məhz Avropa imperializmin dağıdıcı təsiri ilə ortaya çıxdı. Birbaşa müstəmləkə idarəçiliyinə məruz qalmış müsəlman cəmiyyətlərin hüquq sistemləri müstəmləkəçi gücün hüquq mədəniyyəti ilə münasibətdə səciyyəvi transformasiyalara məruz qaldı. Beləliklə, Hindistanın Britaniya hakimiyyəti altındakı müsəlman ərazilərində ümumi hüquq və şəriət elementlərinin özünəməxsus qarışığından anqlo-müsəlman hüququ kimi tanınan hüquq inkişaf etdi. Bu unikal, hibrid hüquq şəriət əsaslarının daha arxaik xüsusiyyətləri olaraq görülənləri aradan qaldırmaq üçün tədricən islahat yoluyla dəyişdirildi və 1947-ci ildə müstəqillik əldə etdikdən sonra Hindistanın və Pakistanın hüquq sistemlərində nüfuzunu davam etdirdi.

Əlcəzair 1830-cu ildən 1962-ci ildə müstəqillik əldə edənə qədər Fransanın bir hissəsi idi və bir fransız müstəmləkəsi olaraq o da le droit musulman Algerien (Əlcəzair müsəlman hüququ) kimi tanınan və bir çox fransız xüsusiyyətlərini özündə birləşdirən bir hibrid hüquq sistemi inkişaf etdirdi.

Avropa hökmranlığının təhdidi qarşısında nisbətən geri və zəif cəmiyyətlərini gücləndirməyə can atan müsəlman dünyasının müstəqil ölkələrinin əksər elitası şəriəti əsaslı müasirləşmənin əldə edilməsi yolunda bir maneə kimi görməyə meyilliydilər. Hökumətlər ilk növbədə şəriətin iqtisadi transformasiyaya mane olduqlarını düşündükləri şəriətin ticarət hüququ kimi qisimlərini və yaxud şəriətin cinayət-prosessual hüququ nümunələrində olduğu kimi, xüsusilə müasir standartlara görə arxaik görülən xüsusiyyətlərə malik olanlarını dəyişdirdilər.

Müasirləşmə tərəfdarlarını narahat edən şey heç də həmişə şəriət qaydalarının əsası deyildi. Orta əsr *fiqh* risalələrində bu qaydaların müəmmalı ifadəsi və dağınıq təqdimatı, yalnız Orta əsr hüquq ərəbcəsini ustalıqla bilən və geniş ənənəvi təhsilə malik mütəxəssislərin hüquqi məsələlərə kifayət qədər səmərəli şəkildə cavab tapa biləcəkləri mənasına gəlirdi. Bu fiqh əsərlərinin sıxıcı tərtibatını XIX əsr kontinental Avropa kodekslərində rast olunan rasional, sistemləşdirilmiş hüquq icmalları ilə müqayisə etmək olar. Məhz bu fiqh əsərlərinə qarşı artan səbirsizlik kodlaşdırılmış hüquqa müəyyən dərəcədə üstünlük verilməsini təşviq etdi.

Şəriətin saxlanması üçün hüquqi islahat prosesinin erkən mərhələlərində, şəriətin Qərb hüququ tərəfindən tənəzzülə uğradılmasından qorunması ehtimallarından biri onun təqdimatının geniş şəkildə sadələşdirilməsi və sistemləşdirilməsi olaraq görülürdü. XIX əsrin sonlarında şəriəti kodlaşdırma

istiqamətində cəhdlər edildi, bunlardan ən görkəmli nailiyyət 1877-ci ildə Osmanlı Məcəlləsinin elan edilməsi idi. İbn Nucaymdan götürülmüş şəriət hüququnun bəzi ümumi prinsipləri ilə başlayaraq, Məcəllə müxtəlif Hənəfi fəqihlərinin fikirlərindən əldə edilmiş borclar (öhdəliklər) hüququnun kodifikasiyasını təqdim edir. Məcəllə imperiyadan ayrılaraq öz müstəqilliklərini əldə etdikdən sonra belə, köhnə Osmanlı torpaqlarında onilliklər boyu varlığını sürdürməklə faydalı olduğunu sübut etdi.

Daha sonrakı kodeks (məcəllə) 1917-ci ilin Osmanlı Ailə Hüququ Qanunu, birdən çox sünni hüquq məzhəbinin təlimlərinə istinadən bu mövzuda şəriət hüququnu kodifikasiya etmə istiqamətində ortaya qoyulmuş ilk cəhd oldu. Bu *taxayyur* üsulunun tətbiqinin, yəni müxtəlif məzhəblərin təlimlərindən ən tutarlı prinsiplərin seçilərək alınması və onların bir nizam əsasında birləşdirilməsinin ilk mühüm nümunəsi idi ki, bunun klassik fiqhdə heç bir presedenti yox idi. Lakin Qərb hüquq kodekslərinin bütövlükdə idxalına verilən üstünlük nəticə etibariylə o qədər güclü idi ki, çox keçmədən şəriət əsasında daha irəli dərəcədə məcəllələrin (kodekslərin) hazırlanması üçün layihələrin davam etdirilməsi istiqamətində çox az stimul qaldı. Nəticə etibarilə, müstəmləkə sonrası hüquq institutları, həm hüququ kodlaşdırmaqla, həm də şəriət məhkəmələrini əvəz etməklə, müsəlmanların şəriətə münasibətini tamamilə dəyişdirdi.

Köhnə Şəriət əsaslı hüquq sisteminin dəyişdirilməsində mandatı olan digər amil isə beynəlxalq siyasi konyunktura idi. XIX və XX əsrlərdə müsəlman dövlətlərinin başçıları bir tarixi reallıqla hesablaşmaq məcburiyyətində qaldılar ki, bu da erkən dövr şəriət nəzəriyyəsində nəzərdə tutulandan əhəmiyyətli dərəcədə fərqli idi. Şəriət, başlanğıcda, tətbiqi bu etiqada mənsubiyyətlə genişlənəcək olan bir hüquq kimi başa düşülürdü. Dünya islamı qəbul edəcəkdi və nəticədə ümumi bir siyasi bağlılığın və şəriətə riayət etmə istiqamətində ümumi bir öhdəliyin mövcud olduğu möminlər ümməti yaranacaqdı. Konsepsiya bu idealın reallaşması yolunda müsəlman ümmətinin ayrı-ayrı və qarşılıqlı düşmən siyasi vahidlərə parçalanması, milli kimliyin inkişafı və müasir millətçiliyın yüksəlişi, müsəlman dünyasındakı çoxsaylı qeyri-müsəlman icmaların müsəlmanlaşdırılmasında müvəffəqiyətsizlik və daha böyük iqtisadi və hərbi resurslara malik qeyri-müsəlman ölkələri ilə hesablaşma zərurəti kimi maneələrin yaranacağını nəzərdə tutmamışdı.

Qeyri-müsəlman icmaların davam edən mövcudluğu islam tarixinin erkən mərhələsində bir hüquqi uyğunlaşmanı, yəni, azlıq icmalar üçün ayrı-ayrı dini hüquq və məhkəmələrə icazə verilməsini zəruri etdi. Müsəlmanların yaşadığı ərazidəki azlıq dini icmaların üzvlərinə (baxmayaraq ki, özgələri ilə qarşılıqlı əlaqələrində və ya ictimai fəaliyyətlərində şəriətə tabe olaraq qalırdılar) şəxsi hüquq məsələlərində və öz aralarındakı sövdələşmələrdə

özlərinin dini qanunlarına əməl etmələrinə icazə verilmişdi. Bu praktika Osmanlı Dövlətinin hakimiyyəti dövründə olduqca inkişaf etdirildi və orada o, *millet* sistemi kimi tanındı. Kənar təzyiqlər altında bu sistem güclü Avropa dövlətlərindən gələn qeyri-müsəlmanlara xüsusi hüquqi status tanıma praktikası ilə daha da dəyişdirildi.

Orta əsrlər dövründən sonra müəyyən dövlətlər müsəlman hökumətlərindən öz vətəndaşlarına eksterritorial (toxunulmaz) status tanıyan razılaşmalar və yaxud "kapitulyasiyalar" tələb etdilər. Əvvəlcə yalnız istisna hallarında verilən kapitulyasiya xarakterli güzəştlər artan Avropa təsiri ilə sürətlə genişləndirildi. Toxunulmazlıq nəticəsində yaranmış sistemin bir nümunəsi olaraq Misirin güclü Qarışıq Məhkəmələrini göstərmək olar. Bu məhkəmələr 1875-ci ildə qurulmuş, 1882-ci ildə Britaniya işğalından sonra genişləndirilmiş və 1949-cu ilə qədər davam etmişdi. Əvvəlcə əcnəbilərlə bağlı məhkəmə işləri üçün "yerli məhkəmələr"ə alternativ olaraq yaradılan Qarışıq Məhkəmələr öz yurisdiksiyasını, o cümlədən misirlilərin də daxil olduğu müxtəlif növ məhkəmə işlərini əhatə edəcək dərəcədə genişləndirdi ki, bu instansiyalarda məhkəmələr nəticədə bəzi "xarici maraqlar" aşkar etdilər.

Qərbin bu tələbləri müsəlmanların güc və sərvəti azaldıqca və onlarınkı artdıqca getdikcə daha da ağırlaşdı. Bu güzəştləri tələb etmə səbəblərindən biri Qərbin şəriətin əsas müddəalarının müasir Avropa hüquq normalarına görə "primitiv" və "kobud" olması ilə bağlı və ənənəvi məhkəmələr tərəfindən yerinə yetirilən ədalətin özbaşına olduğunun ifadəsi ilə bağlı qavrayışı idi. Qərb düşüncəsində şəriət dövrü keçmiş və ya avtoritar islam kimi öz ifadəsini tapmışdı ki, bu da hüquq və İncil arasında fərq qoyan xristian prezumpsiyasını əks etdirirdi.

Avropa dövlətləri şəriət idarəsi altında qeyri-müsəlmanlara tanınan aşağı hüquqi statusa da etiraz etdilər və bunu siyasi müdaxilə üçün bir bəhanə kimi istifadə etdilər. Bu cür müdaxiləni qabaqlama cəhdləri olaraq Osmanlı sultanı 1839-cu ildə Gülhane Hattı Serifini və 1856-cı ildə Hattı Humayunu elan etdi ki, bunlar Osmanlı vətəndaşlarının dinlərindən asılı olmayaraq hüquq və vəzifələri baxımından bərabər olduqları prinsipini rəsmi olaraq təsis etdi. Bu siyasi şəraitdə şəriət hüququnun ərazi hüququ kimi saxlanılması, beləliklə vahid milli hüquq sisteminin yaradılması üçün maneələr yaratdı və müsəlman dövlətlərini suverenlik və milli ləyaqətdən güzəştə getmə riskləri ilə üz-üzə qoydu. Hökumətlərin bu cür fədakarlıqlar etməyə davam etmə istəksizliyi müsəlman ölkələrindəki hüquq sistemlərini yeni yaranmış müasir beynəlxalq standartlar səviyyəsinə uyğunlaşdıracaq hüquq islahatı üçün bir təkan oldu.

XIX əsrdən başlayaraq müsəlman dünyasında müasir milli dövlətlərin formalaşması və onun ardınca Birinci dünya müharibəsində Osmanlı Dövlətinin dağılması müsəlmanları şəriət hüququ ilə müsəlman aləminin bölünmüş olduğu yeni siyasi vahidlər arasındakı əlaqəni yenidən gözdən keçirməyə vadar etdi. Osmanlı sultanlarının islam Peyğəmbərinin (ə.s) legitim (məşru) varisləri olduqlarına dair iddialarının zəif hüquqi və tarixi arqumentlərə əsaslanmasına baxmayaraq, bəzi sünni sultan-xəlifələri siyasi loyallığı milliyyətin deyil, dini bağlılığın müəyyən etməli olduğuna dair həqiqi şəriət anlayışının bir təcəssümü kimi görürdülər. 1924-cü ildə son Osmanlı sultan-xəlifələrinin devrilməsi ilə, sünni coğrafiyada islam xəlifəliyinin bütün müsəlmanların ortaq siyasi və dini loyallığı bölüşəcəkləri bir hökumət kimi saxlanması üçün real şans ortadan qalxdı.

XX əsrin astanasında getdikcə böyüyən bir hərəkat demokratik bir hökumətin qurulmasını və 1905-1909-cu il Konstitusiya İnqilabını müdafiə etdiyi və nəticədə Qacar sülaləsinin devrilməsinə səbəb olduğu vaxt, İran *ələması* mühüm bir problemlə üzləşdi. Uləmaya görə, bu inqilabı qəbul etmək xalqın suverenliyi prinsipi əsasına söykənmiş bir hakimiyyətin legitimliyini və xalq nümayəndələrinin qanunvericilik hakimiyyətini qəbul etmək deməkdi. Bu cür dəyişikliklər bəziləri tərəfindən imamətin nəzəri üstünlüyünə və uləmanın hüquq müəyyən etmə və bəyan etmədə müstəsna səlahiyyətinə bir meydan oxuma kimi görüldü. Muhəmməd Naini (d. 1936) kimi digər mühüm fəqihlər, buna baxmayaraq, Qeybdəki İmam qeybətdən qayıdanadək şəriət ideallarına həqiqi şəkildə uyğun bir idarəetmənin formalaşdırılmasının qeyri-mümkün olduğu və buna görə də İran üçün müvəqqəti olaraq konstitusiyalı bir idarəetmə şəklinin qəbul edilməsinin caiz olduğu mövqeyini mənimsədilər.

Sünni və şiə düşərgələrində qanunların xalqın nümayəndələri tərəfindən milli əsasda müəyyənləşdirilməli olduğu anlayışının qəbul edilməsi özlüyündə şəriətin rolunda bir azalmaya səbəb olmadı. Lakin sistematik eynilikdən ötrü bunu müşayiət edən təzyiqlər, dövlət tərəfindən müəyyənləşdirilmiş yazılı qanunların istər-istəməz fəqihlərin köhnə, desentralizasiya edilmiş hüquq sistemini əvəz etməsini nəzərdə tuturdu. Beləliklə, qanunların bundan sonra milli hökumətlər tərəfindən müəyyənləşdirilə biləcəyi anlayışı milli ərazilərdə bütün şəxslərə tətbiq edilə biləcək neytral, dünyəvi qanunların olmalı olduğu ideyasının qəbul edilməsini təşviq etdi.

XIX əsr və xüsusən də XX əsrdə müsəlman ölkələrində tipik model, şəxsi hüquq məsələləri və vəqflər, bir də müqavilələr hüququ kimi digər sahələrdə müstəsna səciyyəvi müddəalar istisna olmaqla, idxal Avropa hüququ lehinə şəriətin tərk edilməsi idi. Qərb hüququnun mənimsənilməsinin vaxtının müəyyən edilməsi müxtəlif ölkələrin Avropa imperializminə məruz qal-

masının tarixi ardıcıllığı və dərəcəsinə bağlıydı. Buna görə də Osmanlı Dövləti Qərbin qanunlarını mənimsəyən ilk müsəlman dövləti oldu, tezliklə isə onu yarı-muxtar Misir əyaləti izlədi. Osmanlı Dövlətində təqdim olunacaq ilk Fransa əsaslı məcəllələr ticarət hüququ (1850), cinayət hüququ (1858) və ticarət qaydaları (1861) sahələrində idi. Bu cür təsirlərdən ən çox təcrid olunan ölkələr Əfqanıstan, Yəmən və Səudiyyə Ərəbistanı öz hüquq sistemlərində qərbləşdirməni həyata keçirən ən son ölkələr idi. Bir çox ölkələrdə hüquqi qərbləşmə, əsasən, 1950-ci illərdə tamamlandı. Müsəlman ölkələri arasında yalnız Türkiyə Kamal Atatürkün rəhbərliyi altında Osmanlı Dövlətinin süqutundan sonra, tamamilə dünyəvi bir hüquq sistemi lehinə şəriətdən imtina etdi. Qarşı ifrat tərəfdə Səudiyyə Ərəbistanı Şəriəti, daha dəqiq ifadəylə Hənbəli fiqhini rəsmi norma olaraq qorudu, hansı ki, hökumətin, bir konstitusiyanın qüvvəyə minməsi də daxil olmaqla, açıq şəkildə qanunvericilik fəaliyyəti həyata keçirməsinə mane oldu.

Müasir müsəlman ölkələrində hüquqi müasirləşmə istiqamətində hökumətlərin arzusu şəriətə hörmət göstərmə zərurəti ilə birlikdə müxtəlif kompromislərlə nəticələnmişdir. Keçmişdə olduğu kimi indiki vaxtda da müsəlman ölkələrinin çoxunda qüvvədə olan qanunlar şəriətin dərin izlərini daşıyır. Ancaq yerli adətlər və dövlətlərin qüvvədə olan qanunları da əhəmiyyətlidir. Yeni bir problem ortaya çıxdıqda, məşhur bir fəqihə (*müfti*) müraciət edilərək hüquqi bir hökm (*fətva*) verməsini istəmə metodu mənimsənilmişdir.

Müsəlman ölkələrində şəxsi statusun nikah, boşanma, müdafiə və vəlayət (qəyyumluq) məsələləri kimi ümumilikdə mötədil sahələrində bir sıra islahatlar qadınların vəziyyətinin yaxşılaşdırılması məqsədilə həyata keçirilmişdir. Bu sahədə ən güclü islahatlar 1956-cı il Tunis Şəxsi Status Məcəlləsi, 1967-ci il İran Ailə Qoruma Qanunu (inqilabi hökumət tərəfindən ləğv edilənədək) və 1974-cü il Cənubi Yəmən Ailə Qanunu ilə qüvvəyə mindi. Vəsiyyətsiz vərəsəliyə dair şəriət hüququnun bəzi cəhətləri ilə bağlı yalnız bir neçə ehtiyatlı islahatlar həyata keçirilmişdir.

Hətta Qərb hüquq sistemlərini mənimsəmiş bəzi müsəlman dövlətləri belə, ümumiyyətlə milli konstitusiyada islamı dövlət dini kimi qorudular və şəriətin hüququn bir mənbəyi olduğu və ya hətta bütün hüquqların mənbəyi olduğu şərtini qoydular. Bəzi konstitusiyalarda qanunların şəriətə uyğun olmalı olduğunu və ya şəriətə zidd olduğu halda onların yenidən nəzərdən keçirilə biləcəyini və ləğv edilə biləcəyini ifadə edən müddəalar vardır. Keçmişdə belə müddəalar sadəcə simvolik əhəmiyyət daşıyırdı, lakin 1970-ci illərdə şəriət tərəfdarları islam aləmində siyasi güc əldə edəndə, şəriət qaydalarının bərpası və şəriət prinsiplərinə zidd idxal qanunların aradan qaldırılması üçün təzyiqlər getdikcə artdı.

Şəriət müsəlman ölkələrinin hüquq sistemlərində daha çox əsas hüquq kimi yanaşılmaq qayəsi güdürdü. Şəriətin əvəz olunmasının və şəriətdə islahatın aparılmasının baş verdiyi şərait müsəlman cəmiyyətlərin Avropalaşmış elitasıyla ənənəvi təbəqələri arasında siyasi gərginliyə səbəb oldu. Kütlələr şəriət hüququnun bərpasının endemik siyasi, iqtisadi və sosial bəlaları müalicə edəcəyini qabaqcadan hiss edərək, onun aliliyi ideyasına bağlılıqlarını ifadə edirdilər. Fəqihlər bütün bu dövr ərzində şəriəti öyrənməyə və müdafiə etməyə davam etdilər. Lakin onlar da Qərb hüququ təhsili görmüş yeni vəkillər və hakimlər sinifi ilə əvəz edilməklə incidilirdilər. Buna baxmayaraq, şəriət irsinin ənənəvi keşikçiləri kimi fuqaha eyni zamanda kütlələr arasında nüfuzunu və geniş tərəfdar kütləsini qorumağı bacardı.

Bu arada islamı populist siyasi ideologiyaya çevirən və siyasi islam kimi tanınan qüvvələr islamlaşma təklifləri ilə narazı şəhər sakinlərinin dəstəyini qazandı. Bu birləşmənin siyasi gücü 1978-1979-cu illərin İslam İnqilabında aşkar oldu. Bu inqilaba görkəmli On İki İmam Şiəsi fəqihi Ayətullah Xomeyni rəhbərlik edirdi və onun məqsədlərindən biri də şəriət hüququnun bərpası idi.

Xomeyni inqilabdan əvvəl islam hökuməti üçün lazım olan tələblər haqqında yazmışdı və dövlətin dövrün qabaqcıl fəqihi tərəfindən idarə edilməli olduğunu irəli sürürdü. İranın digər fəqihləri Xomeyninin fikirlərinin doğruluğu üzərində mübahisə etsələr də, onun hakimiyyətə gəlməsi və müttəfiq fəqihlərin hökumətdə rəhbər vəzifələrdə özlərinə yer etməsi İranın bir teokratiyaya çevrildiyini göstərirdi. Bir çox sahələrdə bəzən ənənəvi şəriət qaydalarına edilən dəyişikliklərlə Qərb hüququ şəriət prinsipləri ilə əvəz edildi. Bu isə inqilabi vəziyyətin siyasətini əks etdirirdi. Teokratik idarəetmənin tanınmamış olması islam hökumətinin yeni versiyasını yaratma istiqamətindəki bu cəhdin varlığını sürdürməsini hələ də çətinləşdirir.

Müsəlman aləmindəki rejimlər islamlaşma proqramlarına qarşı göstərilən marağa cavab olaraq şəriət hüququnun seçilmiş prinsiplərini qanun şəklində qüvvəyə mindirdilər. Liviya 1970-ci illərdə bu cür təşəbbüsləri həyata keçirən ilk ölkə oldu və onun nümunəsi sonradan Pakistan və Sudan, az dərəcədə də bəzi digər ölkələr tərəfindən təqlid edildi. Bu tədbirlər o demək deyil ki, xarakter və quruluş etibariylə əsasən Qərb mənşəli olan bu hökumətlər hüquq sistemləri üzərində nəzarətdən imtina edirdilər. Əksər hallarda bu cür islamlaşdırılan qanunvericilik Qurana əsaslanan cəza qanunlarının yenidən qüvvəyə mindirilməsi və mənəviyyatı qorumaq adına qadınlara məhdudiyyətlər tətbiq edilməsi ilə nəticələnirdi. Buna nümunə olaraq, Əfqanıstanda Talibanın qısa hakimiyyəti dövründə (1996-2001) islam hüququnun xüsusilə sərt bir versiyasını həyata keçirmə öhdəliyinə sadiq bir islam əmirliyinin yaradılmasını göstərmək olar.

Şəriətin taleyindəki bu dəyişikliyin uzunmüddətli nəticələrini proqnozlaşdırmaq hələ tezdir, lakin aydındır ki, idxal Qərb hüquqlarının müsəlman aləminin hüquq sistemlərindəki yeri təminat altında deyil və şəriət alternativ bir model kimi əhəmiyyətli dərəcədə gücünü qorumaqdadır. Eyni zamanda, şəriətin bərpası üçün təzyiq artmaqdaykən, şəriətin tələblərinin nələr olduğuyla və onların müasir şəraitdə necə tətbiq ediləcəyi ilə bağlı fikir ayrılıqları da artmaqdadır. İslam hüququnun əvvəllər həll edilmiş məsələləri yenidən müzakirəyə açılmaqda və nəzərdən keçirilməkdədir.

Bəzi müasir müsəlmanlar, xüsusilə ənənəvi islam ali təhsil müəssisələrində təhsil alanlar, orta əsr fiqh risalələrini mötəbər hesab etsələr də, bu cür əsərlərə faydalı, ancaq şəriət elmi və əsas qaydaları ilə bağlı məsələlərdə yekun rəhbər sayılmayan ikinci dərəcəli hüquqi mənbələr olaraq yanaşma istiqamətində aşkar və artmaqda olan bir tendensiya mövcuddur. Mənbələrə dair köhnə iyerarxiyalar və onları şərh etmək üçün müəyyən edilmiş metodologiyalar da müasir mütəfəkkirlər tərəfindən artıq şübhəylə qarşılanmaqdadır. Mənbələrdəki hüquqi mühakiməyə dair ənənəvi üsullar da müasir şəriət tələbələri tərəfindən rədd edilsə də, ənənəvi alimlər tərəfindən istifadə edilmiş olanları hansı yeni metodologiyanın əvəz etməli olduğu haqqında heç bir konsensusun olmadığı açıq-aşkardır.

Getdikcə müsəlmanlar hidayət üçün birbaşa Quran və Sünnəyə müraciət edirlər. Həm hədis ədəbiyyatının mötəbərliyinə daha da tənqidi yanaşma səbəbiylə, həm də Quranın şəriət prinsiplərinin əsas mənbəyi kimi xidmət etmək üçün nəzərdə tutulmuş olduğu inancı səbəbiylə Quranın Sünnədən üstün tutulması tendensiyası da artmışdır. Müsəlmanlar arasında bütün hədis ədəbiyyatının mötəbərliyini inkar etmə halları çox nadir olsa da, ənənəvi hədis tənqid elmini mənfi qiymətləndirmək onlar arasında daha da adi hal almışdır. Nəticə etibariylə, sənədi mötəbər olmayan hədisin hüquqi dəyərini rədd etmək və ya nəzərə almamaq istiqamətində daha böyük bir həvəs yaranmışdır.

Müasir sünni hüquq düşüncəsindəki diqqətəlayiq inkişaf metodologiya və əsasla bağlı məsələlərdə də bənzər şəkildə köhnə məzhəb ixtilaflarına məhəl qoymama tendensiyasının yaranmasıdır. Keçmişin dərin biliyindən maariflənmə axtarışında müasir sünnilər adətən bütün klassik sünni məzhəblərin fikirlərini və həmçinin artıq mövcud olmayan məzhəbləri diqqətəlayiq olaraq görürlər. Beləliklə, 1917-ci il Osmanlı Ailə Hüququ Qanununda nümunə təşkil edən *taxayyur* prosesi indi müntəzəm olaraq istifadə olunur.

Şəriətin bir çox müasir şərhləri şəriətin tətbiqi nəticəsində yaranacaq olan ictimai qaydayla bağlı ideoloji baxışları əks etdirməyə yönəlikdir. Bu şərhlərdə şəriət insan davranışlarının yalnız hüquqi cəhətdən məşru (qanunauyğun) və ya caizliyi (icazə verilən) və əxlaqi xüsusiyyəti üçün bir meyar funksiyası yerinə yetirmir. O, həmçinin bütün sosial münasibətlərin mükəm-

məl surətdə tənzimlənməsi üçün və sosial harmoniya və ədalətə nail olmaqla bağlı problemlərin həlli üçün bir cizgidir.

Şəriətin son versiyaları müsəlman aləmindəki xalqların inamı uğrunda rəqabət aparan, ən mühafizəkarından tutmuş ən radikalınadək, bütün müxtəlif ideoloji cərəyanları əks etdirir. İslam hüquq düşüncəsinin bu cür ideoloji xarakter alması baxışlarda qütbləşməyə gətirib çıxarmışdır. Xüsusilə, mühüm fikir ayrılıqlarının yaranmasına səbəb olan mövzulara sərvətin ədalətsiz paylaşdırılmasına qarşı tədbirlər, xüsusi mülkiyyətin toxunulmazlığı, islam hökumətinin xüsusiyyəti, insan hüquqları və qadınların rolu kimi məsələlər daxildir. Eyni zamanda, mənbələrin (şəriətin mənbələri) yeni feminist şərhləri də populyarlıq qazanmaqda, qadın hüquqları ilə bağlı qəti məhdudiyyətlərə çağıran digər nəzəriyyələr də irəli sürülməkdədir. İslam ritorikasına həmçinin, müsəlman ziyalıları arasında da rast gəlinir ki, bunlardan bəziləri əsasən ictimai geyim və mərasim keçirilməsi məsələlərinə diqqət çəkərək, həm də ümumi bir həyat tərzi olaraq şəriətə qayıdışı təhrik edirlər.

Müasir islam düşüncəsi üçün səciyyəvi olan son ideoloji perspektivlər (baxış tərzləri) ənənəvi fiqhdə çox az oxşarları olduqları və şəriətin ənənəvi məzhəb və ya məzhəb firqələrinin hər hansı birinə uyğun gəlmədikləri üçün, ideoloji cizgilər boyunca yeni firqə və birliklər yaratmışdır. Sünni və şiə müsəlman tərəflərdə qarşı firqə mənsubları tərəfindən təqdim edilmiş iqtisadi və siyasi nəzəriyyələrdən faydalanma istəyi artır. Beləliklə, nəzəri səviyyədə bütün köhnə doktrinal yəqinliklərə, indi şəriətin müsəlman cəmiyyətlərinin üzləşdiyi böyük siyasi, iqtisadi və sosial məsələlər çərçivəsində anlaşılması istiqamətində müasir səylər meydan oxuyur. Şəriətin hal-hazırda mövcud çoxsaylı rəqib versiyalarından hansının yekun nəticədə müsəlmanların əksəriyyətinin rəğbətini qazanacağını təxmin etmək hələ tezdir. Ancaq açıq aydındır ki, müsəlmanların çoxu bu sualların cavablarının şəriətə istinadən axtarılmasının zərurətinə inanır.

Günümüzdə pozitiv hüquq cəhətdən islam ölkələrini üç qrupa ayırmaq olar.

Birinci qrupda, əhalisinin əksəriyyəti müsəlman olan köhnə sosialist ölkələr yer alır. Albaniya, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Tacikistan, Qırğızıstan və Azərbaycanda Sovet İttifaqı dağılmazdan əvvəl bu ittifaqın dünyəvi və ateist təmələ söykənən hüququ tətbiq olunurdu. Bunlardan müstəqilliklərini elan edən dövlətlər köhnə sistemi və hüququ milli mənafelərə uyğunlaşdırma istiqamətində səy göstərirlər.

İkinci qrupda modernizmin daha az təsirinə məruz qalmış və nisbətən qapalı bir rejimi davam etdirən ölkələr yer alır. Səudiyyə Ərəbistanı, Yəmən, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Əfqanıstan, Pakistan, Sudan və İran bu qrupun tipik nümunələridir. Bu ölkələr nəzəriyyədə islam hüqu-

qunu tətbiq edirlər. Ancaq praktikada isə islama uyğunluğu düşüncəsiylə geniş ölçüdə adət-ənənəyə əsaslanan hökmlərə də yer verməkdədirlər.

Üçüncü qrup içində yer alan islam ölkələrində islam hüququ hüququn müəyyən sahələrində (daha çox şəxsin hüququ, ailə, miras, fondlar) tətbiq edilir. Digər sahələrdə isə Qərb mənşəli qanunlar qüvvədədir. Bu ölkələrdə tətbiq olunan Qərb mənşəli hüquqlar köhnə müstəmləkə münasibətləri səbəbiylə bir-birindən fərqlənir. Hindistan, Malayziya, Banqladeş və Şimali Nigeriyada ümumi hüquq (common law), Afrikanın şimalındakı fransızdilli ölkələrdə fransız hüququ, İndoneziyada Hollandiya hüququ iqtibas mənbəyini təşkil edir. Misir, İraq, Suriya və 1970-ci ilə qədər Sudanda iqtibas gətirilən xarici hüquqlar siyasi və ideoloji əlaqələrə görə dəyişmiş, daha çox fransız, bəzən ingilis və Sovet hüquqlarının təsiri altında qalmışdır. Misirdə son iyirmi ildən bəri bütün hüququn islamlaşdırılmasını istəyənlərlə (məsələn, İxvani Müslimin hərəkəti) müasirlik tərəfdarları arasında demokratik mübarizə davam etməkdədir. Bu qrupda Sudan hüququn islamlaşdırılması cəhətdən fərqlənir.

XX əsrin son rübündə bəzi islam ölkələrində (İran, Pakistan, Sudan) meydana gələn hadisələr, qərbləşmə yolundakı islam ölkələrində gedən inkişaflar nə qədər əhəmiyyətli olursa-olsun, islam hüququnun dünyadakı böyük hüquq sistemləri arasındakı yerini qoruyacağı və Qərb hüququna alternativ bir hüquq sistemi olduğu fikrini təsdiq edir. İslam tədqiqatçıları davamlı olaraq islam ənənəsinin gücünü xatırlatmaqdadırlar.

İslam hüququ, əsasən dəyişdirilməsi mümkün olmayan yazılı mətnə əsaslanmaqla yanaşı, bu hüquq adət və ənənəyə, tərəflərin razılığına, hətta iradəyə mümkün olduğu qədər sərbəst bir sahə ayıraraq özünə zərər vermədən cəmiyyətin müasirləşməsinə imkan verəcək həll yollarına cavab verə bilmişdir. "Hüququn islamlaşdırılması" çağırışı bu yolda atılmış ən mühüm addımdır. Bu anlayış islam hüququnun, daha əvvəlki qanunlaşdırmalarda görülən əksikliklərin araşdırılaraq tam mənada tətbiqini, bundan çıxan ictihad fiqhinin qanun şəklinə gətirilməsini və cəmiyyətin bu praktikaya hazırlanması üçün geniş çərçivədə səyləri ehtiva edir. Yuxarıda işarə edilən praktikalar bu səylərin bir hissəsini təşkil edir. Ayrıca bu istiqamətdə aparılan elmi və akademik işlər də mövcuddur. Bu işlərə aşağıdakılar daxildir:

1. İslam hüququnun üstünlüyünü və tətbiqi xüsusiyyətlərini ortaya qoymaq məqsədilə müqayisəli araşdırmalar aparacaq fakültələr və institutlar qurulmuşdur. Uqanda və Nigeriyada qurulan universitetlər, İslamabad və Malayziyada qurulan Beynəlxalq İslam universitetləri, əfqan mücahidlərinin Pakistan-Peşavərdə qurduqları Dəvət və Cihad Universiteti bu məqsədlə qurulan ən yeni müəssisələrdir.

2. İslam iqtisadiyyatını həyata keçirə bilmək üçün həm nəzəriyyənin yaradılmasına, həm də yetişmiş insan gücünə ehtiyac vardır. Bu ehtiyacı

qarşılamaq məqsədiylə, məsələn, Məkkədə Ummulqura və Riyadda Muhammməd bin Suud universitetlərində İslam İqtisadiyyat Fakültəsi, İslamabaddakı Universitet nəzdində də bir İslam İqtisadiyyat Fakültəsi qurulmuşdur. Bu fakültə bakalavr, magistratura və doktorantura səviyyəsində təhsil verməkdə, məzunlar Pakistanda hüquq və iqtisadiyyatın islamlaşdırılması proqramı çərçivəsində işləməkdədirlər.

3. İslam hüququ və iqtisadiyyatıyla əlaqədar yeni məsələləri müzakirə edərək həll etmək və hökmlər çıxarmaq, ehtiyacı olan ölkələrə təqdim ediləcək qanun layihələri hazırlamaq, yeni islami təşkilatları planlaşdırmaq məqsədiylə araşdırma mərkəzləri və akademiyalar qurulmuşdur. Məkkə və Ciddədəki fiqh akademiyaları, Əzhərin nəzdində İslam Araşdırmaları Akademiyası və İslamabaddakı Universitetin nəzdində İslam Akademiyası, Küveytdəki Zəkat Araşdırmaları Mərkəzi bu təşkilatların məşhur nümunələridir.

4. Demək olar ki, bütün islam ölkələrində əlaqədar elmi və akademik təşkilatlarda, həmçinin Qərbdə bəzi təşkilatlarda islam hüququna dair elmi araşdırmalar aparılmaqda, elmi yığıncaqlar təşkil edilməkdə və bunlar kitab halına gətirilərək nəşr edilməkdədir.

5. 1960-cı illərdə Misirdə başlayan İslam bankçılığı təcrübəsi, 1975-ci ildə Ciddədə qurulan islam İnkişaf Bankı ilə məqsədinə çatmış, bundan sonra həm islam ölkələrində, həm də bəzi Qərb ölkələrində islam bankları qurulmuş, faiz xaricində bir təşviq vasitəsilə (mənfəət və zərərdə ortaqlıq) iqtisadiyyat və ticarətin maliyyələşdirilməsinin mümkün olduğunu göstərən nümunələr təqdim edilmişdir.

Günümüzdə şəriət əsasında institutlaşmanın ən görkəmli təzahürü transmilli qeyri-hökumət və hökumətlərarası islam təşkilatlarıdır. 1950-ci illərdə Pakistan Mutəmər əl-Aləm əl-İslaminin (İslam Dünyası Konfransı) yaradılması təşəbbüsü ilə çıxış etmiş, lakin təşkilatın məqsədiylə bağlı dünyəvi ərəb hökumətləri ilə yaranmış fikir ayrılığı onun uğursuzluğu ilə nəticələnmişdi.

1960-cı illərdə islam təşkilatlarının yaradılması təşəbbüsü Səudiyyə Ərəbistanının kralı Faysal tərəfindən yenidən canlandırıldı. Onun dəstəyi ilə 1962-ci ildə yaradılan *Rabitat əl-Aləm əl-İslami* dünyada müsəlmanların üzləşdiyi məsələlərə islami baxışın müzakirəsi və yayılması üçün bir qeyri-hökumət forumu təmin etdi. Müsəlman dünyasında əsasən dünyəvi, millətçi və sosialist ideologiyalarla idarə edilən müasir müstəqil dövlətlərdə sürətlə gedən dünyəviləşmə trendi və 1969-cu ildə Altı Günlük Ərəb-İsrail müharibələrində ardıcıl hərbi məğlubiyyətlər və Qüdsün (Yerusəlim) İsrail tərəfindən ələ keçirilməsi daha effektiv bir islam təşkilatına olan ehtiyacı gündəmə gətirdi. Nəticədə, Səudiyyə Ərəbistanı kralı Faysalın təşəbbüsü və digər müsəlman liderlərin əməkdaşlığı ilə İslam Konfransı Təşkilatı (İKT) yaradıldı.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) (əvvəlki adı ilə İslam Konfransı Təşkilatı) dörd qitəyə yayılmış 57 dövlətin üzvlüyü ilə Birləşmiş Millətlər Təşkilatından sonra dünyada ikinci ən böyük hökumətlərarası təşkilatdır. Təşkilat müsəlman dünyasının kollektiv səsidir və dünyanın müxtəlif xalqları arasında beynəlxalq sülh və harmoniyanın təşviqində müsəlman dünyasının maraqlarının qorunmasını təmin edir. Təşkilat 25 sentyabr 1969-cu ildə Mərakeş Krallığının Rabat şəhərində keçirilən tarixi sammitin qərarı ilə yaradılmışdır. 1970-ci ildə Ciddədə keçirilən Xarici İşlər Nazirlərinin İslam Konfransının ilk yığıncağında təşkilatın baş katibinin rəhbərliyi altında Ciddədə daimi katibliyin yaradılması barədə qərar qəbul edilmişdir.

Təşkilatın Nizamnaməsi Üzv Dövlətlər arasında həmrəylik və əməkdaşlığın möhkəmləndirilməsi məqsədlərini və təşkilatın prinsip və əsas hədəflərini müəyyən edən və 13-14 mart 2008-ci ildə Dakar şəhərində keçirilən XI İslam Sammiti tərəfindən qəbul edilmişdir. Son 40 il ərzində təşkilatın üzvlərinin sayı 25 qurucu üzvdən 57 dövlətə çatmışdır. Təşkilat müsəlmanların həyati maraqlarını qorumaq və üzv dövlətlərin cəlb olunduğu münaqişələrin və mübahisələrin həlli istiqamətində BMT və digər hökumətlərarası təşkilatlarla məşvərətçi və əməkdaşlıq münasibətlər qurmuşdur. İslam və müsəlmanların həqiqi dəyərlərinin qorunması və müsəlmanlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində təşkilat müxtəlif addımlar atmışdır.

İƏT-in Üzv Dövlətləri XXI əsrdə bir çox problemlərlə üz-üzədir və bu problemləri həll etmək üçün 2005-ci ilin dekabr ayında Məkkədə keçirilən İslam Sammitinin üçüncü növbədənkənar sessiyası On İllik Fəaliyyət Proqramı qəbul etdi. Proqramda, Üzv Dövlətlərdə tolerantlıq və mötədillik, müasirləşmə, elm və texnologiya, təhsil, ticarətin genişləndirilməsi də daxil olmaqla bütün fəaliyyət sahələrində birgə geniş islahatların aparılması və xüsusilə uşaqlar, qadınlar və yaşlıların hüquqlarıyla bağlı müsəlman dünyasında yaxşı idarəçiliyin və insan hüquqlarının təşviqi və islamın müəyyən etdiyi ailə dəyərləri vurğulanmışdır.

İƏT-in nizamnaməsinə görə, təşkilat - İslamın sosial və iqtisadi dəyərlərinin qorunması, üzv ölkələr arasında həmrəyliyin təşviq edilməsi, sosial, iqtisadi, mədəni, elmi və siyasi sahələrdə əməkdaşlığın artırılması, beynəlxalq sülh və təhlükəsizliyin dəstəklənməsi, xüsusilə elm və texnologiya sahələrində təhsilin inkişafı istiqamətində fəaliyyət göstərir. İƏT-in tabeliyində olan və onun məqsədlərinə nail olma istiqamətində fəaliyyət göstərən orqanlar və təşkilatların sayı və növləri də müvafiq surətdə durmadan artmaqda və mədəni, elmi, iqtisadi, hüquqi, maliyyə, idman, texnoloji, təhsil, media, eləcə də peşə, sosial və humanitar sahələr kimi müxtəlif sahələri əhatə etməkdədir. Əsas təşkilatdan qarşılıqlı muxtariyyət dərəcələrindən asılı olaraq, onlar köməkçi və ixtisaslaşmış institutlar kimi təsnif edilir.

Son illərdə İƏT yalnız müsəlman xalqlarla bağlı məsələləri müzakirə edən bir məzhəbi qrup olmaqdan çıxaraq, qlobal siyasətlə və İraq-İran müharibəsi, Fars Körfəzi müharibəsi, Bosniya və Herseqovinada BMT-nin sülhməramlı missiyası və Əfqanıstanın yenidən qurulması kimi qlobal təhlükəsizlik məsələləri ilə məşğul olan bir təşkilata çevrilmişdir. Tez-tez təsirsiz və səmərəsiz fəaliyyəti səbəbi ilə tənqid olunmasına baxmayaraq İƏT Xilafətin ləğvindən sonra islamın siyasi tələblərinin ən mühüm və ən universal ifadəsi olaraq qalmağda davam edir.

4.2. İslam hüququna əsaslanan beynəlxalq və regional hüquqi sənədlər

İslam hüququ və bütövlükdə, islam dini yarandığı ilkin vaxtlardan Avropa hüquqşünas alimləri, filosofları, habelə dini xadimləri bu dinin və hüququn qurama hüquq və din olduğunu bəyan edərək onun üzərinə hücumlar etmişlər, hücumlar müasir günümüzə qədər davam edir. İslam hüququnun əleyhdarlarının öz fikirlərini əsaslandırmaq üçün gətirdikləri arqumentlərilə tanış olmaq, onun nə qədər obyektiv olduğu məsələsi ilə bağlı təhlillər vermək olduqca maraqlıdır:

- İslam hüququnu təftiş edənlərin fikrincə, cahiliyyət dövrünü yaşayan ərəblər olduqca primitiv bir ictimai quruluşda yaşayırdılar, onların təfəkkürü və baxışları olduqca aşağı səviyyədə idi, qəbilə və tayfalar halında yaşayan ərəb cəmiyyətinin üzvləri belə bir mükəmməl hüquq sistemi yaratmaq iqtidarında deyildilər. Lakin onlar nəzərə almırdılar ki, islam hüququnun mənbəyi vəhylər şəklində Rəsuluna göndərilmiş Qurani Kərimə söykənirdi. Onda Qurani Kərimi də ərəb cəmiyyəti yarada bilməzdi. Quranın ilahi kitab olmasını qəbul etməyənlər bu halda özləri özlərini inkar edirlər, belə ki, Quran onların fikrincə, qurama kitabdırsa, insanlar tərəfindən tərtib olunubsa, onda məhdud təfəkkür tərzinə malik olan ərəblər islam hüququ yaratmağa qadir deyil. Onlar Quran kimi insan münasibətlərinin bütün incəliklərini özündə əks etdirən kitabı necə tərtib etdilər?

İslam hüququ və onun mənbələri ilə tanış olan bütün görkəmli alimlər, xüsusilə, digər dinlərə mənsub olan alimlər öz heyrətlərini gizlədə bilməmişlər.

Məsələn, islam hüququ o zamankı ərəb cəmiyyətində mövcud olan bir sıra zərərli vərdişlərlə yanaşı, alkoqollu içkiləri də qadağan edərək aradan qaldırmışdır. Maraqlıdır ki, istər islama qədər, istərsə də islam hüququnun meydana gəlməsindən sonra yüzlərlə alim və fazil adamlar çalışmış, lakin onun qarşısını ala bilməmişdir. Bu reallığı islam hüququnun qadağası ilə müqayisə edən Amerika alimi professor Julius Hisç qeyd edirdi ki, "Həzrəti Məhəmməd Quran vasitəsilə içkini qadağan etmiş və əsrlərlə böyük insan

kütlələrini içkinin zərərli təsirlərindən qoruya bilmişdir. Bu nəticə XX əsrdə inkişaf etmiş Amerikada hər cür təbliğata və texnoloji tərəqqiyə baxmayaraq əldə oluna bilməmişdir".

Cəmiyyətin islam hüququ ilə tənzimlənməsi, bu qaydaların mükəmməlliyi islam cəmiyyətinin bütün sahələr üzrə inkişafını, o cümlədən, elmin inkişafını təmin etdi. Qısa zaman kəsiyində ərəb cəmiyyətində təəccüb doğuracaq inkişaf baş verdi. Tədqiqatçılardan U. Montqomerinin fikirlərini xatırlatmaq yerinə düşərdi. O qeyd edirdi ki, islam hüquqi ilə tənzimlənən ərəb cəmiyyəti digər sahələrdə olduğu kimi, elmin inkişafına səbəb oldu (müsəlmanların apardığı elmi tədqiqatlar). Ərəb düşüncə tarixi, ərəbcə yazılmış əsərlər bütövlükdə nəzərdən keçirildikdə məlum olur ki, müsəlmanlar (ərəblər) olmasaydı, Avropada elm və fəlsəfə bu sürətlə inkişaf edə bilməzdi.

Onlar əldə etdikləri elmləri nəinki mühafizə etmiş, həm də bu elmlərin diapozonunu genişləndirmişlər. Avropalılar ərəblərdən bacardıqca hər şeyi öyrənməyə məcbur olmuşdular ki, onlar bunların zəminində irəliləyə bilmişlər.

Fikrimizcə, islam hüququnun tənqidçilərinin anladığı və ya anlamaq istəmədiyi bir cəhət vardır, bu, islam hüququnun və tənzimatının yaratdığı münbit şəraitdən qaynaqlanan sürətli təkamüldür. Avropalılar bu təkamülü yüz illər sərf etməklə əldə etmişlər, islam cəmiyyəti isə ona qısa zaman kəsiyində nail olmuşdur. Bunun səbəbini aydınlaşdırmaq üçün islam hüququnun özəlliklərinə nəzər salmaq kifayətdir:

- islam hüququ ilahi mənşəlidir;
- hüququn mahiyyəti və sistemi fərqlidir;
- Avropa hüquq sistemində dünyəvi və dini hüquq paralel olaraq mövcuddur, islam hüququnda isə dövlət başçısının həm dini, həm də dünyəvi hakimiyyətə malik olması və hüquq mənbəyinin vahidliyi onu da mütəhərrik etməklə tətbiqini tezləşdirir və asanlaşdırır;
- islam hüququnda hüquq və vəzifələrin tənasübü bir-birindən (Avropa hüququ ilə müqayisə etdikdə) fərqlənir;
- Avropa hüququ əsasən dünyəvi hüquq olduğuna görə insan anadan olub ölənə qədər olan münasibətləri tənzimləyir, islam hüququ isə 5 dövrü tənzimləyir:

1 . Uşaq ana bətninə düşəndən doğulana qədər olan dövr.
2. Doğulandan ölənə qədərki dövr.
3. Qəbr dövrü.
4. Məhşər dövrü.
5. Cənnət və cəhənnəm dövrü.

Məhz ona görə də islam hüququ özündə həm əxlaqı və mənəviyyatı, həm də ruhi məsələləri əks etdirir.

- islam hüququ məcəllələşdirilməmiş hüquqdur, zamanına, məkanına və şəxslərə görə dəyişir. Bu hüquq insanların həyatdakı yaşam dövründə yaradanla insan arasındakı münasibətləri (ibadətlərdə yaranmış münasibətlər nəzərdə tutulur), hər bir fərdin, cəmiyyətin digər üzvləri ilə münasibətlərini və nəhayət, insanın özünün-özünə münasibəti sferalarını əhatə edir. Göründüyü kimi, islam hüququ tənzim etdiyi ictimai münasibətlərin dairəsinə görə daha geniş və əhatəlidir;

- islam hüququnda həqiqi mənada qanunqoruyucu Allahdır, müctəhidlər isə zamanına və məkanına görə boşluqları Quranın düsturlarına zidd olmadan doldururlar;

- islam hüququnda nəzərdə tutulmayan mürəkkəb məsələlər meydana çıxdıqda Quranın prinsiplərindən biri olan "zərurətlər qadağaları aradan qaldırmalıdır" prinsipini tətbiq edir;

- islam hüququ tənqidçilərinin arqumetlərindən biri də islam hüququnun Roma hüququndan götürülməsi iddiasıdır. Əslində, bu iddianın da heç bir əsası yoxdur. Məhəmməd Peyğəmbər (ə.s) romalılarla təmasda olmamışdır. Uşaq yaşlarında Suriyada səyahətdə olmuşdur. İslam Peyğəmbəri (ə.s) yazıb oxuya bilmirdi.

Bu iki hüquq sistemlərinin bənzərliyi təbii səbəblərdəndir. Hər iki hüquq sisteminin predmeti ictimai münasibətləri tənzimləyir, hər ikisi insanların davranışını tənzimləmək üçün yerinə yetirilməsi məcburi xarakter daşıyan hüquq normaları qəbul edirlər. Lakin hüququn prinsiplərinin tətbiqi və mənbələri baxımından onların arasındakı fərqlər göz qabağındadır.

İslam hüququ insan hüquq və azadlıqlarının təminatı baxımından da öz ilkinliyini sübut etmişdir. İslam hüququnun yaranması islam dövlətlərinin təşkili prosesi ilə paralel olaraq formalaşırdı. Məkkə müsəlmanlarının çoxu Mədinəyə köçmüşdü. Onlar sadəcə olaraq sığınacaq tapıb rahat yaşamaq üçün köç etməmişdilər. Məqsədləri ilkin olaraq islamı Mədinədə yaşayan xalqlar, qəbilələr arasında, sonra isə bütün dünyaya yaymaq idi. İlkin olaraq Həzrəti Peyğəmbər (ə.s) özünün və onunla birlikdə olan möminlərin hüquqlarını, vəzifələrini və məqsədlərini bəyan etdi. Onların şəhərin müsəlman olmayan ərəb və musəvi dininə qulluq edənlərlə münasibətlərinin formalarını, ictimai münasibətlərin təşkilatlanmasını, şəhəri hərbi, dini və s. təşkilatlarla təmin etmənin vacibliyini əsaslandırdı, öz məqsədlərini dəqiqliklə Mədinə əhalisinə izah etdi, cəmiyyəti tənzimləyəcək sənəd qəbul etməyin zəruriliyini (dövlət yaratmanın vacibliyini) əsaslandırdı. Nəticədə, ilk konstitusiya qəbul edildi, sənəd 47 maddədən ibarət idi (bəzi mənbələrdə 53 maddədən ibarət olduğu qeyd edilir). Kağıza köçürülmüş sənəd ilk İslam Konstitusiyası olmaqla həm də dünyada ilk konstitusiya idi. Bu konstitusiyaya qədər Aristo, Konfuçyus, Kavtiliya tərəfindən irəli sürülmüş fikirlər və təkliflər

öyrənilsə də, konstitusiya halına salınmamışdı. Aristonun Afina konstitusiyası isə dövlətin tarixi haqqında təsvirlərdən başqa bir şey deyildi. Qəbul edilmiş sənədə əsasən, mədinəli müsəlmanlar bütün müsəlmanlara burada yaşamaq hüququ verməklə, həm də onların təhlükəsizliyinə təminat verirdilər. Həmin sənəddə ölkə məfhumu işlədilmiş, xarici münasibətlərdə toxunulmaz və müqəddəs sayılan "haram" sənədlərin daşlarla işarələnməsi açıqca bildirilmişdir.

Qəbul edilmiş sənəd insan ünsürü baxımından da tənzimləyici xarakter daşıyırdı. Əvvəllər qan qohumluğu və qəbilə birliyinə əsaslanan ictimai birliklər indi ideoloji birliyə çevrildilər. Konstitusiyanın müddəalarını mənimsəyən insanlar dinindən, irqindən asılı olmayaraq yeni siyasi cəmiyyətin bir üzvünə çevrilməklə əlavə hüquqlar qazandılar. Qeyri-müsəlmanların istəyindən asılı olaraq onlara muxtariyyət hüququ verildi. Hər bir fərdin canının, malının, mülkiyyətinin qorunacağına şəhadət verilir, mükəlləfiyyətləri xüsusilə qeyd olunurdu.

Göründüyü kimi, ən ümdə insan haqlarından biri olan yaşamaq haqqı və ümumiyyətlə, insan hüquqlarını sivil dünya bir neçə əsr bundan əvvəl rəsmi olaraq tanıdığı halda, islam hüququ insanların yaşamaq haqqını 1400 il bundan qabaq tanımışdır.

Dünyanın ən inkişaf etmiş ölkəsi olan ABŞ-da bu sahədə ilk addım 1776-cı ildə Virciniya Bəyannaməsini qəbul etməklə, habelə ABŞ konstitusiyasının 1791-ci ildə "İnsan hüquqları haqqında Bill"inin qəbul edilməsi ilə atılmış oldu.

İnsan hüquqları sahəsində Fransa inqilabının təsiri və inqilabçıların təzyiqi ilə bu dövlət də ilk addım atdı. 1789-cu ildə Fransa "İnsan və vətəndaşın hüquqları haqqında" Bəyannamə qəbul etdi.

Müasir dövrün qabaqcıl ölkələrinin XVIII əsrdə qəbul etdikləri sənədləri VII əsrdə müsəlmanların qəbul etdiyi Mədinə Konstitusiyası ilə müqayisə etsək, görərik ki, müsəlmanların, avropalı və amerikalıların insan hüquqları və azadlıqları sahəsində qəbul etdikləri hüquqi aktlarla müqayisədə mükəmməllik baxımından Məhəmməd Konstitusiyası heç də geri qalmır.

Fransalıların qəbul etdiyi "İnsan və vətəndaş hüquqları haqqında" Bəyannamənin XI maddəsində deyilir: "İnsanlar hüquqlarına görə azad və bərabər doğulurlar. İctimai fərqlər yalnız ümumi mənafe əsasında müəyyən edilə bilər" (7, s.37).

İslam konstitusiyasına görə, Allah bütün insanları dərisinin rəngindən, dilindən və dinindən asılı olmayaraq bərabər yaratmış, heç bir mükəlləf digərindən üstün yaradılmamışdır. Mədinə müsəlmanları bütün müsəlmanların, qeyri-müsəlman ərəblərin, digər müqəddəs kitablı dinlərin insanlarına burada yaşamaq hüququ verməklə, onların təhlükəsizliyinə də təminat verirdilər.

Fransız “Bəyannamə”sinin 2-ci bəndində qeyd olunur ki, “Dövlət insanın təbii və ayrılmaz hüquqlarının təminatına xidmət edir”. Burada azadlıq, mülkiyyət, təhlükəsizlik və istismara qarşı müqavimət göstərmək hüquqları göstərilir (7, s.37) .

İstər ilk islam konstitusiyası olan Mədinə Konstitusiyasında, istərsə də bu konstitusiya əsasında Avropa İslam Təşkilatı tərəfindən hazırlanmış örnək islam konstitusiyasında insan hüquqları və azadlıqları sahəsində dövlətin vəzifələri müəyyənləşdirilmiş, habelə insan hüquq və azadlıqları hərtərəfli təsbit olunmuşdur.

Bütün insanların həyatı və irsi hörmətə layiqdir və toxunulmazdır (maddə 4).

Fikir, düşüncə və inanc azadlığı dövlət tərəfindən himayə edilir və qorunur (maddə 8).

Bütün insanlar qanun qarşısında bərabərdir və qanunla qorunurlar (maddə 8).

Qeyri-müsəlmanların dini ayinlərini sərbəst icra etmək haqları vardır (maddə 16).

Dünyadakı bütün insanların insanlıq hürriyyətini mühafizə etmək, əzilənlərə yardım əli uzatmaq və darda qalanların imdadına yetişmək (maddə 75).

Göründüyü kimi, islam hüququ insanların hüquq və azadlıqlarını tanıyan, onların əmlakını, mülkiyyətini qoruyan, toxunulmazlığına müsəlman hüququna istinadən təminat verən, bərabərlik, qardaşlıq, əmin-amanlıq, hürriyyət, halallıq, dini olmaqla müsəlman cəmiyyətində ictimai münasibətləri bütün xırdalıqlarına qədər incələyib ilahi kəlamlar əsasında tənzimləyən mükəmməl bir hüquqdur.

Yuxarıda qeyd olunanlardan islam hüququ haqqında müəyyən qənaətə gəlmək mümkündür:

- islam hüququ və bütövlükdə islam hüquq sistemi islam dininin meydana gəlməsi ilə təşəkkül tapmışdır;

- islam hüququ mənbələri və prinsipləri etibarilə ehkam xarakterlidir, insan birgəyaşayışının bütün sahələrini əhatə edir. Bu hüququn yaratdığı normalar ədalətə, rahatlığa, insan xoşbəxtliyinə hesablanmışdır, insanı bütün varlıqlardan üstün tutur;

- islam hüququ mütəhərrikdir, cəmiyyətdə yaranan yeni münasibətləri tənzimləməyə qadirdir, hüquqi tənzimləmədə varislik prinsipini əsas götürür. Məhz bu səbəbdən də biz İslam hüququna əsaslanan beynəlxalq və regional hüquqi sənədləri varislik prinsipini nəzərə alaraq tarixi xronoloji ardıcıllıqla veririk.

Dünyanın ilk konstitusiyası

Mədinənin bütün əhalisini qətliamlarla vahimə içərisində saxlayan Məkkə müşriklərinin (Allaha şərik qoşanlar) qorxusundan istər yəhudilər, istərsə də müsəlmanlar, bir sözlə hamı Həzrəti Peyğəmbərin (ə.s) ətrafında birləşmək məcburiyyətində qaldılar. Məkkəli müşriklər Mədinə əhalisini Rəsulullahı təslim etməyəcəkləri təqdirdə kimliyindən asılı olmayaraq, hamını qılıncdan keçirəcəkləri ilə bağlı xəbərdar etmişdilər. Elə buna görə də Mədinədəki Evs və Hazrəc qəbiləsi, yəhudilər, həmçinin digər qeyri-müsəlmanlar siyasi və dini kütlə halında Həzrəti Peyğəmbərin (ə.s) ətrafında birləşdilər.

Bundan sonra Mədinədə yaşayan xalqların hüquqlarını qoruyan müasir konstitusiyanın mahiyyətini daşıyan ilk yazılı konstitusiya (Anayasa) meydana gəldi.

İlk islam konstitusiyasının (Anayasasının) xülasəsi belə idi:

Maddə 1. Bu yazı Rəsul Məhəmməd tərəfindən Qüreyşi mömin və müsəlmanlarla, onların dəyərləndirdikləri və ya onlarla birlikdə döyüşəcək şəxslər üçün tənzimlənmişdir.

Maddə 2. Bu (adları yuxarıda qeyd olunan) şəxslər digər insanlardan bir ümmət (cəmiyyət) təşkil edə bilərlər.

Maddə 3-4-5-6-7-8-9-10-11. Qüreyşi tayfasından olan mühacirlər: Bəni Avflar, Bəni Harislər, Bəni Saidolər, Bəni Cuşəmlər, Bəni Nəccarlar, Bəni Arm ibn Avflar, Bəni Nəbitlər, Bəni Evslər öz aralarında əgər qan pulunun haqqını ödəmək adət şəklini alıbsa, qan pulunu və hərbi əsirlərin azad edilməsinin fidyəsini (borcunu) möminlər arasında məqbul hesab olunan ədalət əsaslarına görə ödəyəcəklər.

Maddə 12/a. Möminlər heç kimi maliyyə cəhətdən çətin vəziyyətdə qoymacaqlar! Fidyə əsirlərin azad edilməsi və ya qan pulu haqqını ödəmək kimi borcların qəbul olunması əsaslarına görə ödəniləcək.

Maddə 12/b. Heç bir mömin digər möminlə Allaha qarşı çıxan müqavilə bağlaya bilməz.

Maddə 13. Mömin bəndələr öz aralarında olan narazı şəxslərə və qarşıdurma yaratmaq istəyənlərə, həmçinin səbəbsiz yerə, şüurlu şəkildə cinayət hazırlayan şəxslərə, əgər bu şəxslər övladları belə olsa, onlara qarşı çıxacaqlar.

Maddə 14. Heç bir mömin bir kafir üçün heç bir mömini öldürə bilməz və ya bir kafirə yardım edə bilməz.

Maddə 15. Allahın bəndələrini qoruması (himayə və təminatı) şübhəsizdir.

O, möminlərin ən əhəmiyyətsizini belə himayə edər.

Ona görə ki, möminlər digər insanlardan fərqli olaraq bir-birilərinin himayədarlarıdırlar.

Maddə 16. Yəhudilərin arasında bizə tabe olanlar əziyyət çəkməyəcək və onlara qarşı çıxanlara isə yardım edilməyəcək.

Maddə 17. Möminlər arasında sülh vacibdir. Allah yolunda gedən müharibə zamanı heç bir mömin digər möminə qarşı çıxaraq sülh müqaviləsi bağlaya bilməz. Belə hallarda sülh müqaviləsi ümumi fikirə (möminlərin) və ədalətə əsaslanaraq bağlanır.

Maddə 18. Bizimlə birlikdə müharibədə iştirak edən bütün hərbi birləşmələr bir-birini növbəli şəkildə əvəz edəcəklər.

Maddə 19. Möminlər Allah yolunda axan qanlarının intiqamını alacaqlar.

Maddə 20/a. Təqva sahibi olan möminlər ən yaxşı və ən doğru yol seçən şəxslərdir.

Maddə 20/b. Heç bir müşrik Qüreyşi tayfasından olan bir şəxsin malını və canını öz himayəsinə götürə bilməz və belə vəziyyətdə heç bir möminə maneçilik törədə bilməz (yəni möminin qüreyşli ilə əlaqə qurmasına maneçilik edə bilməz).

Maddə 21. Bir nəfərin bir mömini öldürdüyü sübut olunarsa, əgər qətlə yetirilmiş şəxsin sahibi (onun hüququnu müdafiə edən) onu bağışlamasa, o, intiqam qanunlarına tabe olacaq. Belə bir vəziyyətdə bütün möminlər də intiqam qanunlarına tabe olmaq məqsədilə qatilə qarşı çıxarlar.

Maddə 22. Bu səhifənin (yazının) məzmununu qəbul edən, Allaha və axirət gününə inanan bir möminin qatilinə yardım edənə və ona sığınacaq verənə qiyamət günü Allahın lənəti və qəzəbi nəsib olacaq. Artıq o zaman nə qan pulunun ödənilməsi, nə də digər kompensasiya qəbul ediləcək.

Maddə 23. Münaqişə zəminində yaranmış vəziyyətimiz təbii ki, Allaha və Məhəmmədə çatdırılır.

Maddə 24. Yəhudilər də möminlər kimi müharibə edən zaman hərbi xərcləri özləri ödəmək məcburiyyətindədirlər.

Maddə 25/a. Hər kəs öz dininə sitayiş etmək şərtilə Bəni Avf yəhudiləri möminlərlə birlikdə bir icma təşkil edə bilərlər. Əgər lazım gələrsə, bu icmalara onların himayədarları, lazım gələrsə, şəxsən özləri daxil ola bilərlər.

Maddə 25/b. Əgər hər hansı bir şəxs xoşagəlməz bir hərəkət edər və ya cinayət törədərsə, demək o adam özünə və yaxınlarına zərər vermiş olar.

Maddə 26-27-28-29-30-31-32-33-34. Bəni Nəccar, Bəni Haris, Bəni Saibə, Bəni Cuşəm, Bəni Evs, Bəni Saləbə, Bəni Şuteybə, Salabənin himayədarları olan yəhudilər Bəni Avf yəhudiləri kimi eyni hüquqa malik olacaqlar. Yalnız hər kəs səbəbsiz yerə bir cinayət törədərsə, o yalnız özünə və ailəsinə zərər vermiş hesab olunur (yəni əməllərinə görə qəbiləsi məsuliyyət daşımır).

Maddə 35. Yəhudilərə sığınmış şəxslər (Bitanələr) eyni ilə yəhudilərin hüquqlarına malikdirlər.

Maddə 36/a. Məhəmməd Əleyhissəlamdan icazəsi olmadan onlardan (yəhudilərdən) heç biri müsəlmanlarla birlikdə hərbi səfərə çıxa bilməz.

Maddə 36/b. Yaralanmış bir şəxsin intiqamını almaq qadağan edilməyəcək. Mütləq əgər bir şəxs adam öldürərsə nəticədə o, ailəsini və yaxınlarını da məsuliyyət daşımaq məcburiyyətində qoyacaq. Əks halda haqsızlıq baş verəcək (yəni bu qanunlara əməl etməyən şəxs arzuolunmaz vəziyyətlə üzləşə biləcək). Allah bu yazıya ən yaxşı şəkildə riayət edənlərlədir.

Maddə 37/a. (Bir müharibə zamanı) Yəhudilər öz xərclərini, müsəlmanlar isə öz xərclərini çəkirlər. Bu səhifədə göstərilənlər qeyd olunan şəxslərə qarşı müharibə elan edənlərə (bu səhifədə göstərilənlərə) qarşı onlar birlikdə döyüşə bilərlər. Bu zaman onlar bir-birilərinə qarşı xeyirxah olmalı, nümunəvi davranış qaydalarına riayət etməlidirlər. (Qaydalara) Riayət ediləcək qaydalara davranışlara yol verilməyəcək.

Maddə 38. Hərbi əməliyyatlar zamanı yəhudilər müsəlmanlarla birlikdə xərcləri bərabər ödəyəcəklər.

Maddə 39. Bu səhifədə (yazıda) qeyd olunan şəxslər üçün Yəsrib vadisinin daxili (açıqlıq ərazi) müqəddəs (toxunulmaz) bir yerdir.

Maddə 40. Himayə edilən eyni ilə himayə edən kimidir. Yəni həmin şəxsə nə zülm edilə bilər, nə də o, kimsəyə əziyyət verə bilər.

Maddə 41. Himayəyə götürülmüş adam onu himayə edənin icazəsi olmadan ikinci şəxs tərəfindən himayə edilə bilməz.

Maddə 42. Bu səhifədə (yazıda) haqqında danışılan şəxslərin arasında baş verən qətl və mübahisə halları Allaha və Rəsulullah Məhəmmədə çatdırmalıdır. Allah onun qoyduğu qanunlara hər zaman doğru-dürüst riayət edənlərlədir.

Maddə 43. Nə Qüreyşilər, nə də onlara kömək edənlər himayə edilməyəcəklər.

Maddə 44. Yəsribə hücum edəcək şəxslərə qarşı olduqları üçün onlara (yəni müsəlmanlara və yəhudilərə) yardım ediləcək.

Maddə 45/a. Əgər onlar (yəhudilər) müsəlmanlar tərəfindən sülh müqaviləsi bağlamağa dəvət olunarlarsa, mütləq orada iştirak etməli və müqavilə əqd etməlidirlər. Əgər onlar (yəhudilər) (müsəlmanlara) eyni şey təklif etsələr, dini müharibələr istisna olmaqla möminlərə qarşı eyni hüquqa malik olacaqlar.

Maddə 45/b. Hər bir zülmə özlərinə məxsus (istər müdafiə, istərsə də digər məqsədlər üçün) ərazi məsuliyyət daşıyır.

Maddə 46. Bu səhifədə (yazıda) qəbul olunmuş şərtlər eyni şəkildə Evs yəhudilərinə, yəni onların himayədarlarına, həmçinin qeyri-şərtsiz özlərinə bu səhifədə (yazıda) adı çəkilən şəxslər tərəfindən ciddi və mühafizəkarcasına tətbiq olunur. (Qanunlara) Mütləq riayət ediləcək, zidd hərəkətlər

qəbul edilməyəcək, haqsız olaraq qazanc əldə etmək istəyənlər nəfslərinə qarşı çıxacaqlar. Allah bu səhifəyə (yazıya) ən düzgün və ciddi riayət edənlərlədir.

Maddə 47. Bu kitab (yazı) səbəbsiz pis əməllər və ya cinayət törədən şəxslər üçün deyil. Müharibələrdə iştirak edənlər də dinc əhali kimi mühafizə olunmuş hesab olunur. Səbəbsiz cinayət törədənlərə və pis əməl sahiblərinə aid deyil. Bu qanunları (bu səhifəni) sədaqət və diqqətlə qoruyanları Allah və onun Rəsulu Məhəmməd himayə edəcək.

NÜMUNƏVİ İSLAM KONSTİTUSİYASI VƏ MADDƏLƏRİ

Müasir islam hüquqşünasları da islam konstitusiya hüququ ilə bağlı çox əhəmiyyətli işlər görüblər. Bu mövzu ilə əlaqədar tədqiqatların qısa xülasəsini, daha sonra isə Avropa İslam Təşkilatı tərəfindən hazırlanmış nümunəvi bir İslam Konstitusiyasının tam mətnini təqdim edəcəyik. Belə qənaətə gəlirik ki, bu, həm müqayisəli hüquq sahəsində çalışanlar, həm də hüquq tarixi baxımından mövzu ilə maraqlanan hüquqşünas və alimlər üçün əhəmiyyət kəsb edəcək. Düşünürük ki, hər hansı bir müasir müsəlman hüquqşünası hüquq sahəsindəki belə əhəmiyyətli inkişafdan xəbərsiz deyil.

Mövzu ilə əlaqədar ilk ciddi təşəbbüs 21-24 dekabr 1951-ci ildə Kəraçidə Seyyid Süleyman Nədvinin başçılığı ilə böyük islam alimi Mevdudinin də iştirak etdiyi 31 nəfərdən ibarət bir komissiya tərəfindən irəli sürüldü. Komissiya tərəfindən görülən işlərin nəticəsi olaraq müasir, bütün müsəlman fərdlərin birlikdə iştirak edə biləcəkləri bir müsəlman dövlətinin təməlinin əsasları təyin edilmişdi.

İslam Konstitusiyasının təməl prinsiplərinin xülasəsi:

1- Hakimiyyət qeyd-şərtsiz Allaha aiddir.
2- Qanunlar Quran və Sünnətə (Peyğəmbərin yoluna) arxalanmalıdır; bu iki qaynağa zidd qanunlar qəbul edilə bilməz.
3- Dövlət, ölkə, dil və soy (nəsil) bəşəri əsaslar üzərində deyil, islam tərəfindən qəbul edilmiş ilahi əsaslar üzərində durur.
4- Kitab və Sünnətin əmr və qadağanlarını yerinə yetirmək, yeni verilən əmrləri qəbul etmək, qaydalara riayət etmək əsas qanunlardır.
5- Dövlətin ən əsas vəzifəsi islam qardaşlığını təsis etməkdir.
6- Dövlətin borcu sinif və din fərqi qoymadan imkansız şəxslərə yardım etməkdir.

7- Vətəndaşlar bərabərlik hüququna malikdirlər, onlar bütün hüquq və azadlıqlardan bərabər şəkildə iştifadə edə bilərlər.

8- İslamın icazə verdiyi müstəsna hallardan başqa, adı çəkilən hüquqları pozmaq olmaz. Cəzalanma fərdilik prinsipinə əsaslanır.

9- Qanunlara riayət etməyi qəbul edən müxtəlif dinlərdən olan şəxslər dini etiqadlarına görə azaddırlar.

10- Müsəlman olmayanlar din və vicdan azadlığına malikdirlər.

11- Dövlət müsəlman olmayanların ödədikləri rüsumlara riayət etmələrinə nəzarət etməlidir; 7-ci maddədəki hüquqlardan onlar da istifadə edə bilərlər.

12- Dövlət məmurunun müsəlman, eyni zamanda kişi cinsindən və s. olması vacibdir.

13 - Dövləti idarəetmə strukturunun başçısı dövlət məmurudur; ancaq o, vəzifələrinin müəyyən hissəsini fərdlərə və ya təşkilatlara həvalə edə bilər.

14- Dövlət məmuru idarəetmədə mütləq şura metodundan istifadə etməlidir.

15- Dövlət başçısı konstitusiyaya dəyişiklik edə və dövləti zülmlə idarə edə bilməz.

16- Dövlət başçısını seçmək hüququna malik olanlar onu kənarlaşdırmaq hüququna da malikdirlər.

17- Dövlət məmuru da bütün vətəndaşlar kimi eyni hüquqa malikdir və onun qanundan kənara çıxmağa haqqı yoxdur.

18- Dövlətin ən yüksək mənsəb sahibləri (rütbə daşıyan məmurlar) də daxil olmaqla bütün vətəndaşlar üçün bir qanun vardır ki, bunları da yalnız məhkəmələr tətbiq edə bilər.

19- İstintaq (qəza) müstəqildir.

20- Dövlətin qayda-qanunlarına zidd olan: fahişəliyi və anarxiyanı təşviq edən və dini təhqir edən nəşrlərə icazə verilməz.

21- Ölkənin vilayət və əyalətləri dövlətin inzibati vahidləridir. Qəbilə, dil və soya (nəslə) görə inzibati vahidlərin təşkilinə icazə verilməz.

22- Konstitusiyanın heç bir maddəsi Quran və Sünnətə zidd olaraq şərh oluna bilməz.

Bu istiqamətdə görülən işlər İslam Konstitusiya hüququnun əsaslarını təsbit edən elmi əsərlərlə bir müstəvidə birləşdirilmişdir. Biz bu mövzuda müzakirələr aparmadan İslam Təşkilatının bir çox hüquqşünaslarının tədqiqatlar nəticəsində hazırladıqları Nümunəvi İslam Konstitusiyasının üzərində dayanacağıq.

FUNDAMENTAL ƏSASLAR VƏ VƏZİFƏLƏR

Maddə 4.

a- Bütün insanların həyatı, malı və namusu hörmətə layiq və toxunulmazdır. Toxulmazlıq islam hüququnun təsbit etdiyi şəriətə zidd bir hərəkət etməyənə kimi ləğv edilə bilməz.

b- Ölülərin maddi və mənəvi hüquqlarını tapdalamaq qəbuledilməzdir (151).

151 İsra, 33: "Allahın haram buyurduğu cana haqsız yerə qəsd etməyin"; Maidə, 32 "Hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur"; Müslüm: "Hər bir müsəlmanın malı, namusu və həyatı digər müsəlmana haramdır. Hər bir şəxsi müsəlman qardaşının şəriət qanunlarına itaət etdiyini görməsi razı salar". Beş səhih hədis kitabı: "Əgər bir müsəlman şəxs adam öldürməyibsə, zina etməyibsə, dinindən dönməyibsə, önu öldürmək haramdır". Buxari: "Ölüləri söymək olmaz!"

Maddə 5.

a- Heç kəsə heç bir şəkildə cismani və mənəvi işgəncə vermək olmaz; onun özünə, ailə üzvlərindən birinə və ya yaxınlarına əziyyət vermək, təhqir etmək, hədələmək olmaz. Heç kim etmədiyi günaha – özünə və başqasına qarşı törətmədiyi əmələ görə qınanmamalıdır.

b- İşgəncə vermək günahdır, keçmişdə etdiyi günahı və səhvi yada salınmamalıdır (152).

152 Quran, Əhzab, 58: "Mömin kişiləri və qadınları etmədikləri bir işdən (günahdan) ötrü incidənlər, şübhəsiz ki, öz üzərlərinə böhtan və açıq-aydın bir günah götürmüşlər!". İbni Mace: "Allah mənim ümmətimi xətalı, anlaqsız vəziyyətdə olanda və nifrət zəminində törətdiklərini bağışlamışdır"... Beş səhih hədis kitabı: "Allah qiyamət günü insanlara işgəncə verənləri cəzalandıracaqdır".

Maddə 6.

a- Hər bir şəxsin həyatı hörmətə layiqdir və toxunulmazdır.

b- Əmlaka sahib olmaq, ünsiyyət, söz azadlığının məxfiliyi və toxunulmazlığı vacibdir (153).

(153) Quran, Nur, 27-28: "Ey iman gətirənlər! Başqalarının evlərinə (sizin olmayan evlərə) sahiblərindən icazə almadan və onlara salam vermədən girməyin. Bu, (ədəb-ərkan baxımından) sizin üçün daha yaxşıdır. Bəlkə, (Allahın bu əmrinin hikmətini) düşünüb anlayasınız (və həmişə yadda saxla-

yıb ona əməl edəsiniz). Əgər orada heç kəsi tapmasanız, sizə icazə verilməyənədək içəri girməyin. Sizə "Geri dönün!" - deyilsə, geri dönün. Bu, Allahın yanında sizin üçün daha təmiz bir davranışdır. Allah nə etdiklərinizi biləndir!" Əbu Davud və Tirmizi: "Müsəlmanlara əziyyət və işgəncə verməyin"; Bu barədə Müslüm və Ahmed bin Hənbəlinin söylədikləri daha bir hədis var.

Maddə7.

Hər insanın dövlətin imkanları daxilində qidalanmaq, içmək, geyinmək, təhsil və sağlamlıq ehtiyaclarından istifadə etmək hüququ vardır (154).

(154) Quran, Hud, 6: "Yer üzündə yaşayan elə bir canlı yoxdur ki, Allah onun ruzisini verməsin". Taha, 118-119.

Maddə 8. Hər bir insanın fikir, düşüncə, etiqad azadlığına dövlət cavabdehdir. Bunlara aid olan mətbuat azadlığı isə şəriət qanunlarına görə qorunur (155).

(155) Quran, Şəbə. 46; Bəqərə. 256: "Dində məcburiyyət (zorakılıq) yoxdur". Əl-Kafırun, 6: "Sizin öz dininiz var, mənim də öz dinim! Elə isə sizin dininiz sizə, mənim dinim də mənə!"

Maddə 9.

a- Bütün insanlar qanun qarşısında bərabərdirlər və qanunlarla bərabər şəkildə qorunurlar.

b- Hər bir insanın həyatın bütün imkanlarından istifadə etmək haqqı vardır. Hər bir şəxs işləmək imkanlarından bərabər istifadə etmək hüququna malikdir. İnsanların bərabər əmək haqqı hüququnun pozulması və ya insanlar arasında onlara nəslinə, irqinə, dilinə və dininə görə fərq qoyulması bəyənilən deyil (156).

(156) Quran, Nisa, 105: Əhkaf, 19: "Hamının (möminlərin və kafirlərin) etdiyi əməllərə görə dərəcələri vardır ki, Allah onlara dünyadakı əməllərinin əvəzini layiqincə versin. Onlara əsla haqsızlıq edilməz". Hucurat, 13.

Maddə 10.

a- Hər kəsin sırf şəriət qanunlarına uyğun hərəkət etmək haqqı vardır.

b- Qanunlar qüvvəyə mindikləri tarixdən etibarlıdır. Düzgün göstərici olmadıqda və bəzi cəza qaydaları xaricində qanun qüvvəsini itirə bilər (157).

(157) Quran, Nisa, 60, 135: "Ey iman gətirənlər! (Şahidliyiniz) özünüzün və ya valideynlərin, ya da yaxın qohumların əleyhinə olsa belə, Allah şahidləri kimi ədaləti qoruyun. Əleyhinə şahidlik edəcəyiniz şəxslərin varlı və ya kasıb olmasından asılı olmayaraq Allah onların hər ikisinə daha yaxındır. Hissiy-yata qapılıb haqdan uzaqlaşmayın! Əgər siz (cəfəngiyat) danışsa-

nız və ya (həqiqəti deməkdən) boyun qaçırsanız, bilin ki, Allah nə etdiklərinizdən xəbərdardır".

Maddə 11.

a- Qanunsuz günah və cəza yoxdur.

b- Hər bir insan öz əməllərinə cavabdehdir.

c- Şübhəli şəxs istintaq tərəfindən günahı təsdiq olunmayana qədər günahkar hesab oluna bilməz.

d- Heç bir şəxsə qarşı ədalətli bir istintaq aparılmadan o, cəzalandırıla bilməz (158).

(158) Quran, İsra, 15: "Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər. Heç bir günahkar başqasının günahını daşımaz (Hərə öz günahına cavabdehdir). Biz Peyğəmbər (ə.s) göndərməmiş (heç bir ümmətə) əzab vermərik!"

Tur, 21: "Hər kəs öz əməlinin girovudur".

Fatir, 18: "Heç bir günahkar başqasının günahını daşımaz. Günah yükü ağır olan kimsə yükünü daşımaq üçün başqa birisini köməyə çağırsa və çağırılan adam onun yaxın qohumu olsa belə, o yükdən bir şey daşınmaz".

Yusuf, 79.

Əbu Davud və Tirmizi: "Qarşında oturanlar iki düşmən belə olsalar, ədalətli qərar ver. Bes səhih hədis kitabı: "Haqq sahibinin də söz haqqı vardır".

Maddə 12.

a- Hər şəxsin yüksək vəzifəli məmurun zülmündən qorunmaq haqqı vardır. Heç kimə işlədiyi yerdə təzyiq edilə bilməz, ona qarşı tutarlı sübut olmadıqda mülahizələrə görə ittiham oluna bilməz.

b- Şəxsi və ya cəmiyyətin haqlarını müdafiə etdiyi üçün heç kim əzab çəkməməlidir (159).

(159) Quran, Əhzab, 58; Bəqərə, 282-283.

Maddə 13.

a- İslam dininə görə hər bir müsəlman ailə qurmaq hüququna malikdir.

b- İmkanına görə arvadının və uşaqlarının alimentini ödəmək kişinin borcudur.

c- Ailədə, dövlətdə və cəmiyyətdə analıq hüququ qorunmalıdır.

d- Hər bir uşaq valideynləri tərəfindən mükəmməl təlim-tərbiyə almaq və yetişdirilmək hüququna malikdir.

e- Uşaqların çox kiçik yaşlarında işləməyə məcbur edil-mələri bəyənilən deyildir (160).

(160) Quran, Nur, 32-33; Nisa, 34; Loğman, 14-15; İsra 24; Müslüm, mövzu ilə əlaqəli bir hədis.

Maddə 14.

a- Vətəndaşlıq hüququ qanuna görə tənzimlənir.

b- İslam dövlətinin vətəndaşı olmaq hər bir müsəlmanın haqqıdır. Bu hüquqdan istifadə etmək qaydaları qanunla tənzimlənir (161).

(161) Quran, Haşr, 8-10.

Maddə 15.

Qanunları pozmamaq şərti ilə hər bir vətəndaş əmlak, daşınmaq və köçmək hüququna malikdir. Heç kim vətənindən sürgün edilə bilməz və onun vətənə dönüşünə maneçilik törədə bilməzlər (162).

(162) Quran, Mülk, 15; Bəqərə, 217.

Maddə 16.

a- Dində zor tətbiq etmə yoxdur.

b- Digər dinlərə etdiqad edən, azlıq təşkil edənlər öz ayinlərinə riayət etmək haqqına malikdirlər. Əgər öz istəkləri ilə islam dinini qəbul etmək istəsələr, o zaman şəriət qanunlarına əməl etməlidirlər (163).

(163) Quran, Bəqərə, 256; Kafırun, 6; Maidə, 42-43, 47-48.

(164) Quran. Şura, 38; Maidə 2.

Maddə 17.

Müəyyən yaşdan sonra cəmiyyətin idarə olunmasında və siyasi həyatında iştirak etmək hər bir vətəndaşın hüququ və vəzifəsidir (164).

Maddə l8.

a- Vətəndaşlar toplaşmaq hüququna malikdirlər. Məqsəd və vəzifələri şəriət qanunlarına zidd olmayan müxtəlif siyasi, mədəni, sosial və digər sahələrə xidmət edən birlik və təşkilatlar təsis edə bilərlər.

b- Adı çəkilən təşkilatların məqsəd və fəaliyyətləri xüsusi qanunlarla tənzimlənir (165).

(165) Quran, Maidə, 2: "Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin. Allahdan qorxun. Həqiqətən, Allahın əzabı şiddətlidir!"

Maddə 19.

Hər bir şəxs şəriət qanunları çərçivəsində sığınacaq almaq hüququna malikdir. Dövlət sığınacaq verdiyi şəxslərin təhlükəsizliyinin, asayişinin

qorunmasına, əgər maddi imkanı yoxdursa, tələbatını və xərclərini ödəməyə, həmçinin həmin adamı istədiyi yerə çatdırmağa borcludur (166).

(166) Quran, Tövbə, 6: "Əgər müşriklərdən biri səndən aman istəsə, ona aman ver ki, Allah kəlamını (Quranı) dinləsin. Sonra (islamı qəbul etmədiyi təqdirdə) onu əmin olduğu (müşriklərin yaşadığı) yerə çatdır". Bu barədə Buxari və Əbu Davudun söylədikləri bir hədis də var.

İSLAM MİLLƏTİNİN BİRLİYİ VƏ DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏR

Maddə 72.

İslam millətinin birliyi və və bütövlüyü dövlətin ən əsas məqsədidir və mümkün olan bütün vasitələrlə buna nail olmalıdır (193).

(193) Quran, Ali İmran, 103.

Maddə 73.

Xarici siyasət və dövlətlərarası münasibətlər azadlıq, ədalət, təhlükəsizlik əsasları üzərində qurulmalı və insanların rifahına xidmət etməlidir (194).

(194) Quran, Bəqərə, 208: Mümtəhinə, 8-9.

Maddə 74.

Müsəlmanlar insanlar arasında bərabərlik prinsiplərinə zidd olan hər şeydən uzaqdır. Dövlət bərabərliyə qarşı çıxan hər bir şeyin qarşısını almaq üçün əlindən gələni əsirgəməyəcək (195).

(195) Quran, Hucurat, 13: Tirmizinin söylədiyinə görə, Hz. Peyğəmbər (ə.s) Mədinəni fəth etdiyi gün xütbəsində belə söyləmişdir: "Ey insanlar! Allah artıq Cahiliyyə dövrünə xas olan soyumuz və kökümüzlə öyünməyinizi qadağan edir!"

Maddə 75.

Yuxarıda qeyd edilənlərdən başqa, islamın təsbit etdiyi qaydalara uyğun olan digər vəzifələr də var. Bəzilərini təqdim edirik:

a- Dünyanın bütün insanlarının hüquq və azadlıqlarını qorumaq;

b- Haqqı pozulanlara yardım etmək, çətin vəziyyətdə olanlara kömək etmək;

c- Allaha ibadət edilən bütün yerləri – kilsə, sinaqoq və məscidləri himayə etmək (196)

(196) Quran, Bəqərə. 193; Əl-Həcc, 38-41; Nisa, 76.

Maddə 76.

a- Başqa dinə etiqad etdiklərinə görə onlarla müharibə etmək və ya bəzi ölkələrin xalqlarını iqtisadi cəhətdən istismar etmək, onların üzərində hakimiyyət qurmaq şəriətə ziddir.

b- Lakin dini, vətəni əzilən, zülmə məruz qalan insanları müdafiə etmək, onların hüquq və azadlıqlarını qorumaq məqsədilə aparılan müharibə şəriətə görə bəyəniləndir (197).

(197) Quran, Nisa, 74-76; Hz.Peyğəmbər (ə.s) bir hədisində yalnız qənimət əldə etmək üçün aparılan müharibələri pisləyir.

Maddə 77. İslam dövləti millətləri istismar etmək və onların müqəddəratına hakim olmaq istəyən mərkəz və paktlara qarşı çıxır (198).

(198) Quran, Ali İmran, 28; Ənfal, 72-73, Maidə 2.

Maddə 78. Nəinki dövlətin öz müstəqilliyinə, hətta digər islam dövlətinə ziyan olan təqdirdə, xarici ölkələrin ordularına yardım etmək və onların hərbi siyasətlərini bəyənmək qəbuledilməzdir (199).

(199) Quran, Ali İmran, 118-120; Hz.Peyğəmbər (ə.s) bir hədisində "Çıx get, mən bir müşrikə yardım etmərəm" demişdi.

Maddə 79. Dövlətin bağladığı müqavilələrə, qəbul etdiyi öhdəliklərə əməl etməsi vacibdir. Xəyanət edən və ya müqavilə şərtlərini pozan dövlətlərə qarşı lazımi tədbirlər tətbiq edilir.

İSLAMDA İNSAN HÜQUQLARINA DAİR QAHİRƏ BƏYANNAMƏSİ

5 avqust 1990-cı il tarixində Qahirədə qəbul olunmuşdur.

İslam Konfransı Təşkilatına Üzv Dövlətlər,

Allahın ən xeyirli ümmət olaraq yaratmış olduğu və bəşəriyyətə dünya və axirəti bir-birinə bağlamış və elmlə imanı birləşdirmiş ümumbəşəri və müvazinətə dayanan bir mədəniyyət miras qoymuş islam ümmətinin mədəni və tarixi rolunu və bu ümmətin günümüzdə də ziddiyyətli təmayüllər və ideologiyalar arasında dolaşıb qalmış bəşəriyyətin hidayətində və bu materialist mədəniyyətin xroniki problemlərinin həllində oynayacağı rolu *bir daha təsdiq edərək,*

Bəşəriyyətin insanı istismar və təqibə qarşı qorumağı hədəfləyən insan hüquqlarını müdafiə etmə yönündəki səylərinə töhfə vermək arzusuyla, onun islam şəriətinə müvafiq olaraq ləyaqətli həyat yaşama azadlığı və haqqı olduğunu *təsdiq edərək,*

Maddi elmin mütərəqqi səviyyəsinə çatmış bəşəriyyətin hələ də və bundan sonra da öz mədəniyyətini davam etdirmək üçün inanca və öz hüquqlarını qorumaq üçün daxili özünü motivasiya gücünə ehtiyacı olacağına *inanaraq,*

İslamda əsas hüquqların və ümumbəşəri azadlıqların müsəlmanların dininin ayrılmaz bir parçası olduğuna və prinsip etibarilə heç kəsin onları tamamilə və ya qismən ertələmək və ya onları pozmaq və ya onlara etinasızlıq göstərmək hüququna malik olmadığına, çünki onların Allahın endirmiş olduğu Kitablarda ehtiva olunmuş bağlayıcı ilahi hökmlər olduğuna və Onun son Rəsulu vasitəsilə göndərilmiş olduğuna və onunla səmavi risalətlərin göndərilmə səbəbini tamamladığına və onlara riayəti ibadət, onları ehmal etməyi və ya onlara etinasızlıq göstərməyi isə günah saydığına və hər bir kəsin fərdi olaraq və ümmətin də bütövlükdə onları qorumağa görə məsuliyyət daşıdığına *inanaraq*,

Yuxarıdakı prinsiplərə *əsaslanaraq*,

Aşağıdakıları *elan edir:*

Maddə 1

a) Bütün bəşəriyyət nümayəndələri Allaha itaət və Adəmin nəslindən gəlmə cəhətdən, bir-biriylə birləşmiş vahid bir ailədir. Bütün insanlar insan ləyaqəti cəhətdən və irq, dərisinin rəngi, dil, cinsiyyət, dini etiqad, siyasi baxış, sosial status və digər cəhətlərdən bərabərdirlər. Doğru əqidə insanın təkamülü yolunda bu cür ləyaqətin ucaldılmasının təminatıdır.

b) Bütün insanlar Allahın bəndələridir və Onun qatında ən sevimli olanlar Onun bəndələrinə daha çox faydalı olanlardır və onların fəziləti yalnız təqva və salih əməl cəhətdəndir.

Maddə 2

a) Həyat Allahın bir hədiyyəsidir və o, bütün insanlar üçün təminat altına alınmışdır. Bu hüququ hər növ pozuntudan qorumaq fərdlər, cəmiyyətlər və dövlətlər üzərinə bir borcdur və şəri hökmə əsaslanmadan həyatdan məhrumetmə caiz deyildir.

b) Bəşəriyyətin soyqırımı yolu ilə məhvinə aparacaq vasitələrə yiyələnmək haramdır.

c) Bəşəriyyətin həyatının davamlılığını Allahın təqdir etmiş olduğu vədəyədək mühafizə etmək şəriət cəhətdən vacibdir.

d) Fiziki toxunulmazlıq təminat altına alınmış bir hüquqdur. Bu hüququn pozulması caiz deyil, necə ki, ona şəri dəlil olmadan toxunmaq da caiz deyil və dövlət onu himayə etməklə mükəlləfdir.

Maddə 3

a) Güc tətbiqetmə və ya silahlı münaqişə halında münaqişədə iştirak etməyən qocaların, qadınların və uşaqların qətl edilməsi caiz deyil. Yaralılar və xəstələr tibbi yardım almaq hüququna, hərbi əsirlər isə yeməklə, sığınacaqla və geyimlə təmin edilmə hüququna malikdirlər. Öldürülmüş insanın cəsədi ilə təhqiredici davranışlar haramdır. Müharibə əsirlərinin mübadiləsi və müharibədən qaynaqlanan səbəblərin ayırmış olduğu ailələrin görüşünü təşkil etmək vacibdir.

b) Ağacların kəsilməsi, əkinlərin və mal-qaranın tələf edilməsi, düşmən tərəfə məxsus mülki bina və tikililərin atəş, partlatma və ya digər üsullarla dağıdılması caiz deyil.

Maddə 4

Hər bir insan həyatı boyu və ölümündən sonra şərəfinə qarşı hörmət və himayəyə malikdir və dövlət və cəmiyyət onun cənazəsini və dəfn olunduğu yeri qorumalıdır.

Maddə 5

a) Ailə cəmiyyətin əsasıdır, evlilik isə onun formalaşmasının əsasıdır. Kişinin və qadının evlənmək hüququ vardır və irq, dərisinin rəngi və ya milliyyətindən qaynaqlanan heç bir məhdudiyyət onları bu haqdan yararlanmaqdan məhrum edə bilməz.

b) Cəmiyyət və dövlət evlilik qarşısındakı bütün əngəlləri qaldırmalı, evlənmə yolunu asanlaşdırmalı, ailəni və onun rifahını qorumalıdır.

Maddə 6

a) Qadın insan ləyaqəti cəhətdən kişiylə bərabərdir və o da hüquq və vəzifələrə malikdir. Onun öz vətəndaşlıq statusu və müstəqil maliyyə təminatı vardır və adını və nəsibini qorumaq haqqına malikdir.

b) Ailənin xərc yükü və onun rifahına görə məsuliyyət kişiyə aiddir.

Maddə 7

a) Hər bir uşağın doğulduğu andan etibarən valideynləri, cəmiyyət və dövlət tərəfindən qayğı, tərbiyə, maddi, fiziki və mənəvi dəstək görmək hüququ vardır. Döl və ana qorunmalı və hər ikisi də xüsusi qayğıyla əhatə olunmalıdır.

b) Atalar və uşaqların hamiləri övladlarının maraqlarının və gələcəyinin əxlaqi dəyərlər və şəriət hökmlərinə uyğunluğunu nəzərə almaqla, onlar üçün istədikləri tərbiyə növünü seçə bilmə hüququna malikdirlər.

c) Hər iki valideynin övladları üzərində haqları vardır, qohumların isə islami hökmlərə müvafiq olaraq yaxınları üzərində haqqı vardır.

Maddə 8

Hər bir insan öhdəlikləri və vəzifələri baxımından şəri səlahiyyətdən istifadə hüququna malikdir və əgər bu səlahiyyət itirilmiş və ya azalmış isə, o halda o, qəyyumu tərəfindən təmsil olunur.

Maddə 9

a) Elm tələb etmək fərzdir və təlim cəmiyyət və dövlət üzərinə vacibdir. Dövlət onu əldəetmə yollarını və vasitələrini təmin edir və cəmiyyət maraqlarını qarşılayan növlərini zəmanət altına alır ki, insanlar islam dinini, kainatla bağlı reallıqları və onların bəşəriyyət xeyrinə istifadəsini öyrənsin.

b) Hər bir insan öz şəxsiyyətini inkişaf etdirmək, Allaha imanını gücləndirmək, hüquq və vəzifələrə hörmət etmək və onları müdafiə etmək üçün ailə, məktəb, universitet, media və s. kimi müxtəlif növ təlim-tərbiyə müəssisələrindən kompleks və tarazlaşdırılmış tərzdə dini və dünyəvi tərbiyə almaq hüququna malikdir.

Maddə 10

İslam fitrət dinidir. İnsana hər hansı növ məcburiyyət tətbiq etmək və ya onun fəqirliyini və ya cahilliyini istismar edərək onu digər bir dinə və ya ateizmə döndərmək caiz deyil.

Maddə 11

a) İnsan hürr doğulur və heç kəsin onu kölələşdirmək, al-çaltmaq, ona zülm etmək və onu istismar etmək haqqı yoxdur və onun Allah Təaladan başqasına itaət borcu yoxdur.

b) Kölələşdirmənin ən pis növlərindən olan müstəmləkəçiliyin hər növü mütləq şəkildə haramdır. Müstəmləkəçilikdən əziyyət çəkən xalqların hürriyyət və öz müqəddəratını təyinetmə haqqı vardır. Müstəmləkəçiliyin və işğalın hər növünü ləğv etmədə müstəmləkə altındakı xalqların mübarizəsinə kömək etmək bütün dövlətlərin və xalqların borcudur və bütün dövlətlərin və xalqların öz müstəqil statusunu qorumaq və öz sərvətlərini və təbii ehtiyatlarını idarə etmək haqqı vardır.

Maddə 12

Hər bir insanın şəriət çərçivəsində sərbəst hərəkət etmə azadlığı və ölkə daxilində və ya xaricində yaşayış yeri seçmə hüququ vardır və əgər o təqibə məruz qalmış isə, o halda digər bir ölkədə sığınacaq tələb etmək hü-

ququna malikdir. Sığınacaq vermiş ölkə sığınacaq səbəbinin şəriətə görə cinayət təşkil edən aktın törədilməmiş olması şərtiylə, təhlükəsizliyi təmin olunanadək onu himayə etməlidir.

Maddə 13

İş dövlət və cəmiyyət tərəfindən əmək qabiliyyəti olan hər kəsə tanınmış bir haqqdır. Hərkəs özünə layiq, özünün və cəmiyyətin maraqlarına cavab verən işi seçməkdə azaddır. İşçinin asayiş və təhlükəsizlik, həmçinin digər sosial təminatlarla təmin olunma hüququ vardır. Ona taqəti çatmayan işi tapşırmaq, onu işləməyə məcbur etmək, onu istismar etmək və ya hər hansı bir şəkildə ona zərər yetirmək caiz deyil. Qadın-kişi ayrı-seçkiliyi olmadan, onun gecikdirilmədən gördüyü işin qarşılığında ədalətli əməkhaqqı almaq, həmçinin layiq olduğu məzuniyyət ödənişləri və yardımlar almaq hüququ vardır. O da öz növbəsində işini ixlas və peşəkarlıqla yerinə yetirməlidir. Əgər işçilərlə işverən arasında ixtilaf meydana gələrsə, onda dövlət mübahisəni nizama salmaq üçün müdaxilə etməli, zülmü ortadan qaldırmalı, haqqı təsdiq etməli və ədaləti qərəzsiz şəkildə təsis etməlidir.

Maddə 14

Hər bir insanın özünü və ya başqasını monopoliya etmədən, aldatmadan və zərər yetirmədən haqlı qazanc əldəetmə hüququ vardır. Sələmçilik (faiz) isə qəti surətdə qadağandır.

Maddə 15

a) Hər bir insanın şəri yolla əldə edilmiş şəxsi mülkiyyət hüququ vardır və özünə, digər fərdlərə və ya cəmiyyətə zərər verməmək şərti ilə mülkiyyət hüquqlarından yararlanma haqqına malikdir. Ümumi mənfəətə xidmət edən zəruri hallar və təxirəsalınmaz və ədalətli kompensasiya ödənişi halları xaric, ekspropriasiya caiz deyil.

b) Şəriətə müvafiq hallar xaric, malların müsadirə edilməsi və onlara həbs qoyulması haram qılınmışdır.

Maddə 16

Hər bir insanın öz elmi, ədəbi, bədii və texniki yaradıcılığının nəticələrindən faydalanmaq haqqı və bu yaradıcılığın şəriət ehkamlarına zidd olmaması şərti ilə ona aid mənəvi və maddi maraqları qorumaq haqqı vardır.

Maddə 17

a) Hər bir insanın onun mənəvi cəhətdən inkişafına imkan verəcək əxlaqi qüsur və fəsadlardan uzaq təmiz bir ətraf mühitdə yaşamaq hüququ vardır və cəmiyyət və dövlət onun bu haqqını təmin etməlidir.

b) Hər bir insanın cəmiyyətin və dövlətin malik olduğu imkanlar çərçivəsində təmin etdiyi səhiyyə və sosial xidmətdən yararlanmaq və bütün ictimai müəssisələrdən istifadə etmək haqqı vardır.

c) Dövlət hər bir insanı özünün və ailə üzvlərinin ərzaq, geyim, mənzil, təhsil, tibbi xidmət və sair əsas ehtiyacları da daxil olmaqla, bütün tələbatlarını qarşılamağına imkan verəcək ləyaqətli yaşamaq hüququyla təmin edir.

Maddə 18

a) Hər bir insanın öz-özü, öz dini, öz ailə üzvləri, öz şərəfi və öz malı üçün yaşamaq haqqı vardır.

b) İnsanın şəxsi həyatıyla bağlı məsələlərdə, öz evində, öz ailəsində, öz malında və qarşılıqlı münasibətlərində gizliliyi qoruma hüququ vardır. Onu təqib etmək, nəzarət altında saxlamaq və adını ləkələmək caiz deyil. Dövlət onu hər növ əsassız müdaxiləyə qarşı qoruyur.

c) Şəxsi mənzil hər bir halda toxunulmazdır. Sakinlərinin izni olmadan və ya qeyri-qanuni şəkildə oraya girmək caiz deyil. Onu dağıtmaq, müsadirə etmək və ya əhlini oradan çıxarmaq caiz deyil.

Maddə 19

a) Bütün insanlar şəriət qarşısında bərabərdir, hakim və məhkum bu baxımdan eynidir.

b) Ədalət məhkəməsinə müraciət etmək haqqı hər kəsə təmin olunmuşdur.

c) Ona əsasən məsuliyyət şəxsidir.

d) Cinayət və cəza yalnız şəriət ehkamlarıyla nəzərdə tutulmuş hallara görə ola bilər.

e) Müttəhim özünü müdafiə üçün bütün zəmanətlərin verilmiş olduğu ədalətli bir mühakimədə təqsiri sübut edilmədikcə suçsuzdur.

Maddə 20

Şəri əsas olmadan bir insanın həbs olunması və ya hürriyyətinin məhdudlaşdırılması və ya sürgün edilməsi və ya cəzalandırılması caiz deyil. Onu fiziki və ya psixoloji işgəncəyə və ya hər hansı bir şəkildə alçaldıcı, qəddar və ya insan ləyaqətinə zidd rəftara məruz qoymaq caiz deyil. Hər hansı bir fərdi öz razılığı olmadan və sağlamlığı və həyatı bahasına tibbi və ya elmi təcrübənin predmetinə çevirmək caiz deyil. Bu növ fəaliyyətlərin həyata keçirilməsinə izn verən müstəsna qanunlar çıxarmaq da caiz deyil.

Maddə 21

İnsanı hər hansı şəkildə və hər hansı məqsədlə girov götürmək haram qılınmışdır.

Maddə 22

a) Hər bir insanın şəriət əsaslarına zidd olmayacaq tərzdə azad şəkildə fikrini ifadə etmək hüququ vardır.

b) Hər bir insanın islam şəriətinin normalarına müvafiq olaraq xeyrə dəvət etmək və yaxşı olanı əmr edib pis olandan çəkindirmək haqqı vardır.

c) İnformasiya cəmiyyət üçün həyati əhəmiyyətə malikdir. Onun istismar edilməsi və ondan sui-istifadə edilməsi və onda Nəbilərin qüdsiyyətini və ləyaqətini ləkələmək, mənəvi və əxlaqı dəyərləri aşındırmaq və ya cəmiyyəti parçalamaq, pozmaq və ya onun etiqadını zəiflətmək haram qılınmışdır.

d) Millətçilik və məzhəbçilik əsasında nifrət oyatmaq və ya irqi ayriseçkiliyin hər hansı formasını oyadacaq heç bir davranış caiz deyil.

Maddə 23

a) Hakimiyyət əmanətdir. Əsas insan hüquqlarının təmin olunması naminə onun sui-istifadəsi və ya qərəzli istismarı haram qılınmışdır.

b) Hər bir insanın birbaşa və ya dolayısı ilə öz ölkəsinin ictimai məsələlərinin idarəsində iştirak etmək hüququ vardır. O, həmçinin, şəriət ehkamlarına müvafiq olaraq ictimai vəzifələr tutma hüququna malikdir.

Maddə 24

Bu Bəyannamədə təsbit edilmiş bütün hüquq və azadlıqlar islam şəriətinin ehkamları ilə tənzimlənir.

Maddə 25

Bu Bəyannamənin hər hansı bir maddəsinin təfsir və ya izahının yeganə mənbəyi islam şəriətidir.

İSLAMDA UŞAQ HÜQUQLARI HAQQINDA PAKT

Xarici İşlər Nazirlərinin 32-ci İslam Konfransı tərəfindən iyun, 2005-ci il tarixində Sənada qəbul edilmişdir.

Hazırkı Pakta Tərəfdar Dövlətlər,

İslamın öz dəyərləri və prinsipləri ilə Müsəlman cəmiyyətinin davranış modellərini formalaşdırdığına və bu yolla müsəlman cəmiyyətində təhlü-

kəsizliyi və sabitliyi təmin etdiyinə, onun cəmiyyət quruculuğunun başlıca təməl daşı olan ailə mühitində inkişaf və tərəqqini reallaşdırdığına *inanaraq,*

1989-cu ildə qəbul edilmiş Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Haqqında Konvensiyasının formalaşmasına öz töhfəsini vermiş uşaq məsələləri ilə bağlı islami səylərdən *yola çıxaraq*,

İslam Konfransı Təşkilatının öz Nizamnaməsində, Sammit və Nazirlər Konfranslarının qətnamələrində yer alan hədəflərini və ona Üzv Dövlətlər tərəfindən imzalanmış beynəlxalq paktların hədəflərini *dərk edərək,*

1983-cü ilin dekabr ayında Xarici İşlər Nazirlərinin 14-cü İslam Konfransı tərəfindən qəbul edilmiş İslamda İnsan Hüquqlarına dair Dəkkə Bəyannaməsinin, Xarici İşlər Nazirlərinin 14-cü İslam Konfransı tərəfindən 49/19-P (1990) saylı qətnaməylə qəbul edilmiş İslamda İnsan Hüquqlarına dair Qahirə Bəyannaməsinin və Yeddinci İslam Sammiti Konfransı tərəfindən 16/7-C (1994) saylı qətnaməylə qəbul edilmiş İslamda Uşaq Hüquqları və Himayəsinə dair Bəyannamənin ehtiva etdiyi prinsipləri *təsdiq edərək,*

İslam ümmətinin mədəni və tarixi rolunu və insan hüquqları sahəsində beynəlxalq səylərə vermiş olduğu töhfəni *təsdiq edərək,*

İslamda əsas hüquq və azadlıqların onun ayrılmaz hissəsi olduğuna və heç kimin onları sonlandırma, pozma və ya onlara laqeydlik göstərmə səlahiyyətinə malik olmadığına *inanaraq,*

Uşağa qarşı böyük məsuliyyətin, xüsusilə də onun ümmətin avanqardı və gələcəyinin qurucusu olduğunun *fərqində olaraq,*

Sürətli dəyişikliklər və transformasiyalarla və onların uşaq sahəsinə təsirləriylə üzləşmək üçün strukturlar və mexanizmlər yaratmaq məqsədiylə bu sahədə islami icra etməni inkişaf etdirməyə *səy göstərərək,*

Əməli yöndə atılacaq ən birinci ciddi addımların, xüsusilə iqtisadi və ictimai transformasiyaların mənfi nəticələri, ailənin tənəzzül etməkdə olan rolu, zəifləyən aidiyyət duyğusu, ailə bağlarının alt-üst olması, dəyərlərin və idealların tənəzzülü, səhiyyə və təhsil xidmətlərinin zəifləməsi, savadsızlığın artması, həmçinin, neqativ və köhnə mədəni modellərin davam edən inadkarlığına əlavə olaraq, elmlərdə, bilik sahələrində sürətlənən tərəqqi və informasiya inqilabının təsirləri də daxil olmaqla, ümmətin üzləşdiyi mövcud və gözlənilən çağırışların şüurlu qavranışını anlamaqdan ibarət olduğunu *idrak edərək,*

Uşaqların, cəmiyyətin tezsınan parçası olaraq, kimsəsizlik, evsizlik və uşaqların hərbi, ağır, təhlükəli və ya qanunsuz işlərdə istismarı kimi faciəvi nəticələrə aparıb çıxaran təbii və insan əliylə törədilmiş fəlakətlərin nəticəsi olaraq daha böyük iztirabların yükünü daşıdıqlarını, həmçinin uşaqlar arasında şiddətin yayılmasına və fiziki, zehni və sosial cəhətdən əngəlli uşaqların sayında artıma şərait yaradan, qaçqın və silahlı münaqişələr və aclıqlar

nəticəsində işğal boyunduruğunda və ya acınacaqlı vəziyyətdə və yerindən-yurdundan edilmiş halda yaşayan uşaqların iztirabını da *nəzərə alaraq,*

Bu situasiyanın Uşaq Hüquqlarına öhdəliyi təsis edəcək bir mövqe tələb etdiyinə, bu hüquqları fəallaşdırmaq və ümmətin yolunda duran maneələrin öhdəsindən gəlmək üçün səyləri davam etdirmə qətiyyətini təsdiqlədiyinə *inanaraq,*

Ümmətin, yüksək dini və sosial dəyərlərə, sevgi və mərhəmət əsasında yüksək mərtəbəyə çatmış ailəyə, eləcə də hərtərəfli və davamlı inkişaf üçün real imkan yaradan bəşəri və maddi resurslara əsaslanmaqla üzləşmiş olduğu çətinliklərə qələbə çalmaq üçün kifayət qədər qabiliyyət və imkanlara malik olduğuna *inam bəsləyərək,*

Uşağın, ayrı-seçkilik olmadan öz hüquqlarından faydalanmasına imkan verməkdən ötrü, onun, köklü dəyərlər, sevgi və qarşılıqlı anlaşma ilə idarə olunan bir ailə mühitində böyümək hüququnu *qəbul edərək*,

İslam aləmində, uşaqların tam hüquqlarından faydalanmasını təmin edən milli qanunvericilik və ya rejimlərin hazırlanması da daxil olmaqla, uşaqlıq dövrü şərtlərinin yaxşılaşdırılmasına yönəlik plan, proqram və layihələri *dəstəkləyərək*,

Hazırkı Paktın, dövlətlərin daxili qanunlarını və azlıqların və qeyri-müsəlman icmaların uşaqlarının hüquqlarını da nəzərə almaqla, müsəlman və qeyri-müsəlman uşaqların müştərək insan hüquqlarını təsdiq edərək, islam şəriətinin ehkamlarında uşaq hüquqlarını təsdiq etdiyini *nəzərə alaraq*,
Aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Uşağın tərifi

Hazırkı Paktın məqsədlərinə müvafiq olaraq, uşaq dedikdə, ona tətbiq olunan qanuna uyğun olaraq, yetkinlik yaşına çatmamış hər bir insan nəzərdə tutulur.

Maddə 2

Məqsədlər

Bu Paktın hədəfi aşağıdakı məqsədlərə nail olmaqdır:

1. Ailənin qayğısına qalmaq, onun imkanlarını gücləndirmək, onun iqtisadi, sosial və ya sağlamlıq şəraitinin pisləşməsi-nin qarşısını almaq üçün ona lazımi dəstəyi vermək, uşaqları fiziki, psixoloji və davranış cəhətdən tərbiyə etmə rollarını yerinə yetirmələrini təmin etmək üçün ər və arvadı hazırlamaq;

2. Ahəngdar və təhlükəsiz uşaqlıq dövrü təmin etmək, rəblərinə iman edən, əqidəsinə bağlı, vətəninə sadiq, düşüncə və əməllərində haqqın və xeyrin prinsiplərinə və islam sivilizasiyasına aidiyyət duyğusuna riayət edən müsəlman uşaqlar nəsilləri yetişdirməyi təmin etmək;

3. Uşaqlıq və gənclik mərhələsinə marağı yaymaq və dərinləşdirmək və cəmiyyət üçün saleh nəsillər yetişdirməkdən ötrü onlara tam qayğı göstərmək;

4. Cinsindən, dərisinin rəngindən, milliyyətindən, dinindən, doğumundan və ya hər hansı digər münasibətdən asılı olmayaraq, bütün uşaqlar üçün pulsuz məcburi ibtidai və orta təhsili təmin etmək, məktəb müfrədatının, müəllimlərin təliminin keyfiyyətini artırmaq yoluyla təhsili inkişaf etdirmək və peşə təlimi üçün imkanlar yaratmaq;

5. Uşağa öz istedadlarını kəşf etməsi və ailə və aidiyyatı institutlar vasitəsilə cəmiyyətdə öz əhəmiyyətini və yerini idrak etməsi üçün fürsətlər vermək və uşaqları cəmiyyətin mədəni həyatında iştirak etməyə həvəsləndirmək;

6. Xüsusi ehtiyacları olan və çətin şərtlər altında yaşayan uşaqlara lazımi qayğı göstərmək və bu cür şərtlərə aparıb çıxaran səbəbləri aradan qaldırmaq;

7. Hökumətlərlə koordinasiya yoluyla və ya beynəlxalq mexanizmlər vasitəsilə dünyanın hər yerində yaşayan müsəlman uşaqlara mümkün hər növ köməklik və dəstək vermək;

Maddə 3

Prinsiplər

Maddə 2-nin ehtiva etdiyi məqsədlərə nail olmaq üçün vacibdir:

1. İslam şəriətinin ehkamlarına hörmətlə yanaşmaq və Üzv Dövlətlərin daxili qanunvericiliklərinə riayət etmək;

2. İslam Konfransı Təşkilatının məqsəd və prinsiplərinə hörmətlə yanaşmaq;

3. Uşaqların hüquqlarını, maraqlarını, himayəsini və inkişafına yüksək dərəcədə prioritet tanımaq;

4. Bütün uşaqlar arasında qayğı, hüquqlar və vəzifələr baxımdan bərabərliyi təmin etmək;

5. Hər hansı Dövlətin daxili işlərinə qarışmamağa riayət etmək;

6. İslam ümmətinin mədəni və sivilizasiya dəyərlərinə riayət etmək.

Maddə 4

Dövlətlərin öhdəlikləri

Bu Pakta Tərəfdar Dövlətlər aşağıdakılara riayət etməlidir:

1. Bu Paktda bəhs edilən hüquqlara hörmətlə yanaşmaq və öz daxili nizamnamələrinə müvafiq şəkildə onları tətbiq etmək üçün lazımi tədbirlər almaq;

2. Uşağın maraqlarının tələbinə uyğun olaraq daxili nizamnamələrinə müvafiq qaydada uşağa görə məsuliyyət daşıyan valideynlərin, qəyyumların və digər şəxslərin məsuliyyətlərinə və hüquqlarına hörmətlə yanaşmaq;

3. İslam şəriəti ilə və bu Paktda qeyd edilmiş hüquq və vəzifələrlə ziddiyyət təşkil edən adət, ənənə və ya praktikalara əsaslanan əməllərə son qoymaq;

Maddə 5

Bərabərlik

Tərəfdar Dövlətlər, qanunun tələbinə müvafiq olaraq, cinsiyyətindən, doğumundan, irqindən, dinindən, dilindən, siyasi mənsubiyyəti və ya şəriət qanununa görə uşağın, ailənin və ya onun nümayəndəsinin hüququna təsir edən hər hansı digər münasibətdən asılı olmayaraq, bütün uşaqların bu Paktda qeyd edilən hüquq və azadlıqlardan bərabər şəkildə faydalanmalarına təminat verir.

Maddə 6

Yaşamaq hüququ

1. Uşağın anasının bətnində cenin olduğu andan etibarən və ya anası vəfat etdiyi halda yaşamaq hüququ vardır; ananın, ceninin və ya hər ikisinin faydasına olduğu zəruri hallar istisna olmaqla, abort qadağandır. Uşağın nəsəb, mülkiyət, miras və nəfəqə hüququ vardır.

2. Pakta Tərəfdar Dövlətlər uşağın həyatda qalması və inkişafı üçün, onu şiddətdən, təhqirdən, istismardan, yaşayış və sağlamlıq şəraitinin pisləşməsindən qorumaq üçün əsas zərurətlərə təminat verir.

Maddə 7

Kimlik

1. Uşağın doğulduğu andan etibarən yaxşı ad alma, aidiyyatı səlahiyyətli orqanlar tərəfindən qeydiyyata alınma, nəsəbini və cinsiyyətini müəyyənləşdirmə, valideynlərini, bütün qohumlarını və analığını tanıma haqqı vardır;

2. Pakta Tərəfdar Dövlətlər daxili qanunlarına müvafiq olaraq, adı, milliyyəti və qohumluq əlaqələri də daxil olmaqla, uşağın kimliyi ilə bağlı ünsürləri qoruyur və öz ərazilərində doğulmuş hər bir uşağın və ya öz ərazilərindən kənarda doğulmuş hər bir vətəndaşın apatrid məsələlərini həll etmək üçün hər cür səy göstərir.

3. Nəsəbi bilinməyən və ya qanuna görə bu statusda sayılan uşağın övladlığa götürülmədən qəyyumluğa alınma və qayğı görmə haqqı vardır. Onun ad, ləqəb və cinsiyyət alma hüququ vardır.

Maddə 8

Ailə bağları

1. Tərəfdar Dövlətlər ailəni zəiflik və dezinteqrasiyaya səbəb olan amillərdən qoruyur və imkanları daxilində ailə fərdlərinin qayğısını çəkmək və onlar arasında birlik və ahəng yaratmaq istiqamətində iş görür.

2. Heç bir uşağı öz iradəsi olmadan valideynlərindən ayırmaq olmaz və həddindən artıq zərurət olduğu hallarda, uşağın mənafeyi naminə, şəriət çərçivəsində olması, daxili tənzimləmələrə müvafiq olması və həm uşağın, həm də valideynlərdən birinin və ya hər ikisinin, ya da bir ailə üzvünün öz fikirlərini açıqlaması üçün imkanın təmin edildiyi məhkəmə qaydaları əsasında olması istisna olmaqla, valideynlər himayədarlıqdan məhrum edilə bilməzlər.

3. Tərəfdar Dövlətlər öz sosial siyasətlərində uşağın ali maraqlarını diqqətə almalı, ailəsindən ayırma zərurəti yarandığı halda isə heç bir uşaq onlarla əlaqələri qoruyub saxlamaqdan məhrum edilməməlidir.

4. Uşağın, bu Maddənin 2-ci bəndinə müvafiq olaraq valideynlərindən ayrılmadığı halda və ya onun ölkəni tərk etməsi ilə əlaqədar ölkənin qüvvədə olan müvafiq qaydalarıyla müəyyən olunmuş məhdudiyyətləri pozmadığı halda, öz ölkəsini tərk edərək öz valideynləriylə və ya onlardan biriylə başqa bir ölkədə yaşamasına icazə verilməlidir.

Maddə 9

Fərdi azadlıqlar

1. Yaşına və yetkinliyinə uyğun olaraq öz şəxsi baxışlarını formalaşdırmağa qadir olan hər uşaq bu baxışlarını şəriətə və əxlaqa zidd olmayacaq tərzdə, ona təsiri olan bütün məsələlərdə şifahi və yazılı olaraq və ya hər hansı digər qanuni vasitələrlə azad şəkildə ifadə edə bilər.

2. Hər uşağın onun şəxsi həyatına hörmətlə yanaşma hüququ vardır. Bununla yanaşı valideynlərin və ya qanuni nümayəndənin uşağın davranışı üzərində islami və insanpərvər nəzarət tətbiq etmə hüququ vardır. Uşaq qanuna müvafiq olaraq müəyyən olunmuş və ictimai asayişin qorunması, ictimai təhlükəsizliyin, ictimai əxlaqın, ictimai sağlamlığın və ya başqalarının əsas hüquq və azadlıqlarının müdafiəsi üçün zəruri olan məhdudiyyətlər istisna olmaqla, heç bir məhdudiyyətə məruz qoyula bilməz.

Maddə 10

Toplaşma azadlığı

Hər uşaq, yaşadığı cəmiyyətdəki şəriət və ya qanuna müvafiq olaraq və onun yaşına uyğun və onun davranışına, sağlamlığına və ya irsinə mənfi

təsir göstərməyəcək tərzdə hər hansı dinc, mədəni yığıncaq təşkil etmək və onlarda iştirak etmək hüququna malikdir.

Maddə 11

Tərbiyə

1. Düzgün tərbiyə almaq uşağın haqqıdır və buna görə onun valideynləri və ya qanuni qəyyumu məsuliyyət daşımalı, yeri gəldikdə, dövlət müəssisələri imkanları daxilində bu işdə onlara köməklik göstərməlidir.

2. Uşağın tərbiyəsində hədəflər aşağıdakılar olmalıdır:

I Uşağın şəxsiyyətini, dini və əxlaqi dəyərlərini, vətəndaşlıq şüurunu, islami və bəşəri həmrəyliyi inkişaf etdirmək və ona xalqlar arasında qarşılıqlı anlaşma, tolerantlıq və dostluq ruhunu aşılamaq.

II Uşağı yeni durumlarla üzləşmək və neqativ adətləri dəf etmək üçün vərdiş və qabiliyyətlər qazanmağa və elmi və obyektiv düşüncə əsasında böyüməyə həvəsləndirmək.

Maddə 12

Təhsil və mədəniyyət

1. Hər uşaq islami tərbiyə prinsiplərinə (əqidə, şəriət və elmihal) uyğun tərzdə pulsuz icbari baza təhsili alma və ona bəşər mədəniyyətinin müştərək meyarlarına açıq olma imkanı verəcək onun əqli, psixoloji və fiziki qabiliyyətlərini inkişaf etdirmək üçün lazımi vasitələrlə təmin edilmə hüququna malikdir.

2. Hazırkı Pakta Tərəfdar Dövlətlər aşağıdakıları təmin etməlidir:

I Bütün uşaqlar üçün bərabərlik zəminində icbari, pulsuz ibtidai təhsil.

II On il ərzində bütün uşaqlara şamil olunması şərtiylə, tədricən pulsuz və icbari olan orta təhsil.

III Hər Dövlətin təhsil sisteminə uyğun, hər uşağın qabiliyyətini və marağını nəzərə alan ali təhsil.

IV İslam şəriətinə, ümumi ədəbə və həyaya tabe olmaq şərtiylə, hər uşağın "öz inanclarına uyğun olan" geyimi geyinmək hüququ.

V Savadsızlıqla, təhsildən yayınanlar və baza təhsilindən məhrum olanlarla bağlı problemin effektiv şəkildə həlli.

VI Müvəffəqiyyət qazanmış və istedadlı olanları təhsilin bütün mərhələlərində nəzərə almaq.

VII Uşaq kitablarının buraxılması və nəşri, uşaq kitabxanalarının inşası və uşaqlarla bağlı və mədəni, sosial və yaradıcı materialların təbliğatında və uşaq təhsilinin təşviqatında kütləvi informasiya vasitələrindən istifadə etmək.

3.Həddi-büluğa çatmış uşağın, halal və haramı seçə bilməyə imkan verən düzgün cinsi tərbiyə alma hüququ vardır.

4. Bu Maddəylə Maddə 11-in müddəaları müsəlman uşağın islam şəriəti ehkamlarına hörmətlə yanaşan və Dövlət tərəfindən müəyyən olunmuş qaydalara riayət edərək təhsil verən özəl təhsil müəssisələrinə daxil olma azadlığıyla ziddiyyət təşkil edə bilməz.

Maddə 13

İstirahət və fəaliyyət vaxtları

1. Uşaq istirahət etmə və oyun oynama vaxtlarına malik olma və boş vaxtlarında yaşına uyğun qanuni fəaliyyətlə məşğul olma hüququna malikdir.

2. Uşaq mədəni, bədii və ictimai həyatda iştirak etmək hüququna malikdir.

3. Valideynləri və ya uşağın hüquqi qəyyumlarından biri bu Maddəyə müvafiq olaraq tərbiyəvi, dini və əxlaqi çərçivədə uşağın istədiyi fəaliyyətlərlə məşğul olduğu vaxt ona nəzarət etmə hüququ vardır.

Maddə 14

Sosial həyat səviyyəsi

1.Hər uşağın, özünü saxlama gücünə malik olmaması səbəbiylə onun ölümdən xilas edilməsi üçün, qayğı və nəfəqə hüququ vardır.

2.Tərəfdar Dövlətlər milli qanunlarına müvafiq olaraq hər uşağın sosial təminatdan yararlanma hüququnu tanıyır.

3.Tərəfdar Dövlətlər imkan daxilində xidmət haqqını azaltmalı və uşaqları tarif və vergilərdən azad etməlidirlər.

4.Hər uşağın onun əqli, fiziki və sosial inkişafına müvafiq yaşayış səviyyəsi hüququ vardır.

5.Tərəfdar Dövlətlər, şəriətə görə valideynlərini və ya hüquqi qəyyumunu imkanları daxilində uşağı məcburi şəkildə dəstəkləmələri üçün onu lazımi tədbirlərlə təmin etməlidir.

Maddə 15

Uşaq sağlamlığı

Uşaq fiziki və psixoloji qayğı hüququna malikdir. Bu, aşağıdakı tədbirlər vasitəsilə həyata keçirilməlidir:

1.Hamiləlik dövründən etibarən və anası tərəfindən, ya da ana uşağı əmizdirməyə qadir deyilsə, başqası tərəfindən təbii döş qidalandırması zamanı ananı qayğı ilə əhatə etmək.

2.Uşağın şəriət və qanuna görə hüquqi dayəsinin xeyrinə bəzi şəriət və məhkəmə qaydalarını yüngülləşdirmə və ona verilmiş bəzi cəzaları ertələtdirmə, eləcə də əmizdirən qadınların və hamilə qadınların iş yükünü və iş saatlarını azaltdırma hüququ vardır.

3.Uşağın körpə və uşaq ölümü hallarının azaldılması üçün zəruri tədbirlər hüququ vardır.

4.Uşağı təhdid edən anadangəlmə və ya yoluxucu xəstəliklərin yoxluğunu təmin etmək üçün gələcək cütlərin icbari tibbi müayinəsinin aparılması.

5.Oğlan uşağının sünnət olma hüququ vardır.

6.Tibbi zərurət olmadığı müddətcə, hər iki valideynin və ya digər şəxslərin ana bətnində tibbi yolla ceninin dərisinin rəngini, formasını, xüsusiyyətlərini və ya cinsiyyətini dəyişdirmə məqsədilə müdaxiləsinə izn verməmək.

7. Profilaktik tibbi xidmət göstərmək, xəstəlik və yetərsiz qidalanmaya nəzarət etmək, habelə onu və anasını lazımi səhiyyə xidməti ilə təmin etmək.

8. Onların məlumatlandırılması və uşaqlarının sağlamlığını qorumaları üçün anaları tibbi məlumatlarla və xidmətlərlə təmin etmək uşağın dövlət və cəmiyyət üzərində haqqıdır.

9. Uşağın narkotik, zəhərli və digər zərərli maddələrdən, həmçinin yoluxucu və epidemiya xəstəliklərindən qorunma hüququnu təmin etmək.

Maddə 16

Əlil və xüsusi ehtiyaclı uşaqlar

1.Əlil və ya xüsusi ehtiyaclı uşaqlar onların tam hüquqlarını təmin edən və onların vəziyyətiylə və valideynlərinin və ya qəyyumun şəraitinə uyğun, həmçinin mümkün imkanlar daxilində xüsusi qayğı görmə haqqına malikdirlər; xidmətlər, mümkün olduğu dərəcədə, pulsuz və ya nominal ödənişlə göstərilməlidir.

2. Əlil və ya xüsusi ehtiyaclı uşağa qayğının hədəfi təhsil, reabilitasiya və təlimdir; müvafiq vasitələrlə (tibbi, psixoloji, sosial, təhsil, peşə və əyləncə xidmətləri) təmin etmək, ona cəmiyyətə inteqrasiya olma imkanı yaratmaq deməkdir.

Maddə 17

Uşağın himayəsi

Tərəfdar Dövlətlər aşağıdakılardan uşağı qorumaq üçün lazımi tədbirlər görməlidirlər:

1. Narkotik, zəhərli və digər zərərli maddələrin qanunsuz istifadəsi və ya onların qanunsuz istehsalı, təşviqi və ya satışında iştirak.

2. Bütün işgəncə formaları, bütün hallarda və şərtlər altında qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya onunla qaçaqmalçılıq, onun oğurlanması və ya ticarəti.

3. Təhqirin bütün formaları, xüsusilə cinsi.

4. İslam şəriətinə və ya dövlətlərin milli maraqlarına zidd olan, mədəni, ideoloji, informasiya və kommunikasiya təsiri.

5. Uşaqların silahlı münaqişələr və müharibələrdə iştirakını əngəlləməklə onları qorumaq.

Maddə 18

Uşaq əməyi

1. Heç bir uşaq onun təhsilinin qarşısını alan və ya onun sağlamlığına, fiziki və mənəvi inkişafına zərərli riskli əmək və əmək fəaliyyəti ilə məşğul olmağa cəlb edilməməlidir.

2. Hər bir dövlətin daxili qanunları məşğulluq üçün minimum yaş həddi, iş şəraiti və iş saatlarını müəyyən etməlidir. Bu qanunları pozan şəxslərə qarşı sanksiyalar tətbiq olunmalıdır.

Maddə 19

Ədalət

1. Qanuna uyğun hallar və tələb olunan zəruri müddət dövrü istisna olmaqla, heç bir uşaq azadlıqdan məhrum edilə bilməz.

2. Azadlıqdan məhrum edilmiş uşaqla ləyaqət, hörmət və əsas insan hüquq və azadlıqlarına uyğun davranılmalıdır. Onun yaşında olan şəxslərin ehtiyaclarına riayət olunmalıdır.

3. Pakta Tərəfdar Dövlətlər aşağıdakılara riayət etməlidir:

a) Azadlıqdan məhrum edilmiş uşaqlar böyüklərdən ayrılaraq cinayətkar uşaqlar üçün nəzərdə tutulan xüsusi yerlərdə saxlanmalıdır.

b) Uşaq məhkəməyə çağırıldıqda və ya həbs edildikdə ona qarşı irəli sürülən ittihamlar barədə dərhal və birbaşa məlumatlandırılmalı və eləcə də, onun yanında olmaları üçün valideynləri, qəyyumu və ya vəkili dəvət olunmalıdır.

c) Zəruri hallarda uşaq vəkil və tərcüməçi xidməti də daxil olmaqla, hüquqi və humanitar yardımla təmin edilməlidir.

d) Uşaq məhkum edilibsə, iş yetkinlik yaşına çatmayanlar üçün xüsusi məhkəmə tərəfindən, hökmün yüksək bir məhkəmə tərəfindən apellyasiyası imkanı da daxil olmaqla, diqqətlə araşdırılır.

e) Heç bir uşaq təqsiri boynuna almağa və ya ifadə verməyə məcbur edilməməlidir.

f) Cəza uşağın cəmiyyətə reabilitasiyası və reinteqrasiyası üçün yenidən tərbiyə vasitəsi olaraq görülməlidir.

g) Uşaqların məhkəmə məsuliyyətinə cəlb edilməsi üçün minimum yaş həddi müəyyən edilməlidir.

h) İddianın bütün araşdırılma mərhələlərində uşağın şəxsi həyatının toxunulmazlığına hörmət təmin olunmalıdır.

Maddə 20

Valideynlərin məsuliyyəti və mənfi təsirlərdən qoruma

1. Uşağın valideynləri və ya qanuni qəyyumu onu yaxşı təhsil və tərbiyə ilə təmin etməlidir.

2. Valideynlər və ya uşağın qanuni qəyyumu və Pakta Tərəfdar Dövlətlər normativ-hüquqi qaydalara uyğun şəkildə və islam şəriətinə zidd olmadan uşağı sosial və mədəni və ya sağlamlığa ziyan vura biləcək adət və vərdişlərdən, onun rifahına, ləyaqətinə və inkişafına mənfi təsir göstərən və həmçinin, gender və ya digər səbəblər əsasında uşaqlar arasında ayrı-seçkiliyə gətirib çıxaran təsirlərdən qorumalıdırlar.

Maddə 21

Qaçqın uşaqlar

Bu Pakta Tərəfdar Dövlətlər maksimum dərəcədə qaçqın uşaqların və ya qanuna görə bu statusda sayılan uşaqların milli qanunvericilik çərçivəsində bu Pakta uyğun olaraq nəzərdə tutulmuş hüquqlardan istifadə etməsini təmin etməlidirlər.

Maddə 22

Paktın imzalanması, ratifikasiyası və ya ona qoşulma

1. Bu Pakt İslam Konfransı Təşkilatının bütün Üzv Dövlətlərinin imzasına açıqdır.

2. Bu Pakt bütün Üzv Dövlətlərin ratifikasiyasına və ya ona qoşulmasına açıqdır.

3. Ratifikasiya sənədləri İslam Konfransı Təşkilatının Baş Katibliyinə təqdim edilir.

Maddə 23

Paktın qüvvəyə minməsi

1. Hazırkı Pakt iyirminci ratifikasiya sənədinin İslam Konfransı Təşkilatının Baş Katibliyi yanında depozitə qoyulmasından sonra otuzuncu gün qüvvəyə minir.

2. Bu Pakta qoşulan hər bir Dövlət üçün Pakt, həmin Dövlət tərəfindən qoşulma sənədinin depozitə qoyulduğu tarixdən etibarən otuzuncu gün qüvvəyə minir.

Maddə 24

Paktın icra mexanizmi

1. Bu Pakta Tərəfdar Dövlətlər Uşaq Hüquqları üzrə İslam Komitə-sinin yaradılması haqqında razılığa gəliblər. Komitə bu Paktın bütün Tərəfdar Dövlətlərinin nümayəndələrindən ibarət olmalı və bu Paktın qüvvəyə mindiyi gündən etibarən onun icra tempini tədqiq etmək üçün İslam Konfransı Təşkilatının qərargahında hər iki ildən bir toplaşmalıdır.

2. Bu Pakta Tərəfdar Dövlətlərin üçdə ikisinin kvorum təşkil etdiyi iclasın işi İslam Konfransı Təşkilatının konfrans görüşləri üçün nəzərdə tutulmuş prosedur qaydaları ilə müəyyən edilməlidir.

Maddə 25

Qeyd-şərt, geri götürmə və düzəliş

1. Üzv Dövlətlər bu Paktın bir sıra bölmələrinə qeyd-şərtlər etmək və ya Baş Katibə xəbərdarlıq etdikdən sonra bu qeyd-şərhi geri götürmə hüququna malikdirlər.

2. Hər bir Üzv Dövlət bu Paktdan geri çəkilmə hüququna malikdir. Geriçəkilmə Baş Katibə xəbərdarlıq etdikdən sonra otuzuncu gün qüvvəyə minir.

3. Hər hansı tərəfdar dövlət yazılı surətdə bu Pakta düzəliş etmək üçün ərizə təqdim edə bilər; əgər düzəliş İKT-yə Üzv Dövlətlərin üçdə ikisi tərəfindən təsdiq olunarsa qüvvəyə minir.

Maddə 26

Rəsmi dillər

Bu Pakt, hər biri əslinə uyğun olmaqla, ərəb, ingilis və fransız dillərindədir.

4.3. İslam hüququ terminologiyası

ADƏT – cəmiyyətdə qəbul edilmiş və həmişə təkrar edilməklə kök salmış praktikanı ifadə edən bir termin; bəzi ənənə və adətlər islam dinində hüququn mənbələrindən biri kimi qəbul edilmişdir. İslam hüquqçuları hüquqi bir mənbə olaraq ənənə və adəti tədqiq edərkən Kitab və Sünnədə bu sözləri ehtiva edən mətnləri axtarmışlar.

ALİM (uləma) – İslamı və onun mənbələri olan Quran və Sünnəni hərtərəfli tədqiq edən, Quran, Sünnə və fiqhdə dərin biliklərə malik olan elm adamı. İslam dinində alim dərin dindarlığı və təqvası ilə xarakterizə olunur.

AYƏTULLAH – On İki İmam Şiəsinin alim və fəqihləri üçün istifadə edilən bir ünvan.

BATİL – haqqın ziddi; Quran və Sünnəyə uymayan inanc, hökm və düşüncələri ifadə edən termin; səhv, düzgün qaydada həyata keçirilməmiş əməl. Məsələn, diqqətsiz şəkildə qılınan namaz və s.

BİDƏT – Əsri-Səadətdən sonra ortaya çıxan, şəri bir dəlilə söykənməyən inanc, ibadət, fikir və davranışlar haqqında istifadə edilən bir termin.

CAİZ – Şəriətin icazə verdiyi və ya sərbəst buraxdığı əməlləri ifadə edən termin.

CİHAD – Ümumi və geniş mənada dini əmrləri öyrənib ona görə yaşamaq və onları başqalarına öyrətmək, yaxşılığı əmr edib pislikdən çəkindirməyə çalışmaq, islamı təbliğ etmək, nəfsə və xarici düşmənlərə qarşı mübarizə aparmaq deməkdir. Bununla yanaşı, fiqh termini olaraq, əksər hallarda zülmə qarşı silahlı mübarizə aparmaq, təsəvvüfdə isə nəfsi əmmarəni (pisliyi əmr edən nəfs) məğlub edərək mənəvi yüksəlişə nail olmağa çalışmaq mənasında işlədilir.

DİYƏ – İslam hüququnda adam öldürmə və yaralamalarda zərər çəkmiş tərəfə cəza və qan əvəzi olaraq ödənilən kompensasiya.

ELM – bilik, xüsusilə fiqh biliyi, alimin (uləma) öyrəndikləri.

ƏHL ƏL-HƏDİS – VIII əsrdən sonra ortaya çıxan və daha çox hədisə ağırlıq verən Mədinə mərkəzli fiqh məktəbi.

ƏHL ƏL-RƏY – VIII əsrdə ortaya çıxan Kufə mərkəzli fiqh məktəbi.

ƏXBƏRİ – Hüquq və Sünnə anlayışlarına əsasən imamlardan nəql olunmuş hədislərin hərfi mənalarına əsaslanan Şiə hədisçi firqəsi

ƏMR Bİ ƏL-MARUF, NEHY AN ƏL-MUNKƏR – Yaxşı əməlləri əmr edib, pis əməllərdən çəkindirməyə çalışma istiqamətindəki fəaliyyətlər üçün istifadə olunan dini, əxlaqi və hüquqi bir təbir.

ƏZAB – cəza, cəhənnəm

FASİQ – alimlərdən bəzilərinə görə, ədalətli olmağın ziddi, bəzilərinə görə isə kafirin digər adı.

FƏQİH – fiqh alimi.

FƏRZ – mükəlləfin məcburi şəkildə yerinə yetirməli olduğu əməlləri ifadə edən fiqh usulu termini.

FƏSAD – Bir ibadətin və ya hüquqi prosedurun, xüsusiyyətləri və şərtlərindəki əksiklik və yanlışlıq səbəbiylə etibarsız sayıldığını ifadə etmək üçün istifadə edilən fiqh termini.

FƏTVA – bir fəqih tərəfindən verilən fiqhi və ya hüquqi hökm; fiqhi bir məsələnin dini-hüquqi hökmünü açıqlayan məsləhət xarakterli rəy.

FİDYƏ – düşmən əlindəki əsiri azad etmək üçün ödənilən qarşılıq; ayrıca başda oruc və həcc olmaqla, bəzi ibadətlərin əda edilməməsi və ya ədası əsnasında bəzi qüsurların işlənməsi halında yerinə yetirilməsi lazım olan dini-maliyyə öhdəliyini ifadə edən fiqh termini.

FİQH – İslam ibadət və hüquq elmi. Quran və Sünnətlə müəyyənləşmiş olan şəriətdən fərqli olaraq, fiqh insanlar tərəfindən şəriət əsasında ortaya qoyulmuş hökmləri ehtiva edir.

HALAL – Şəriətin icazə verdiyi bütün əməllər.

HARAM – Şəriətə görə qadağan olunmuş əməllər: bu əməlləri etmək günah sayılır. Məsələn, oğurluq etmək, halal olmayan qidaları yemək, yalan danışmaq və s.

HƏDD – Quran və Sünnədə müəyyən olunmuş, qisas və diyə xaricindəki cəza üsullarını ifadə edən fiqh termini.

HƏDİS – İslam Peyğəmbərinin sözləri; hədisləri tənqid və məzmun cəhətdən tədqiq edən elm.

HİBƏ – xüsusi borc münasibətləri qrupuna girən və bir malın qarşılıqsız olaraq başqasının mülkiyyətinə keçirilməsini ifadə edən müqavilə aktı.

İCARƏ – İslam borclar hüququnda əmlakın ödəniş qarşılığında müvəqqəti olaraq başqasının istifadəsinə verilməsini tənzimləyən müqavilə aktı.

İCMA – fiqh məzhəblərinin və ya ümmətin yekdil razılığı və ya konsensusu; islam alimlərinin dini bir məsələnin hökmü üzərində yekdil fikrə gəlmələrini və bütün müsəlmanların müştərək şəkildə mənimsədikləri dini hökmləri ifadə edən şəri dəlil; islam fiqhinin Quran və Sünnədən sonra üçüncü qaynağı. On İki İmam Şiəsinə görə, termin mötəbərliyinə dair yekdil razılıq olan səhabələrə istinad edir və İmamların səhabələrindən on səkkiz ravini ifadə edir.

İCTİHAD – Quran və Sünnəyə əsaslanaraq, haqqında qəti bir hökm olmayan məsələnin şəri hökmü haqqında, müəyyən metodlar vasitəsiylə zənnə əsaslanan qənaət ortaya qoyma səyinin ümumi adı; yüksək ixtisaslı hüquq aliminin (müctəhid) müstəqil qərarı.

İDDƏT – evliliyin hər hansı bir səbəblə sona çatması halında qadının yeni bir evlilik aktına girə bilməsi üçün gözləmək məcburiyyətində olduğu müddəti ifadə edir.

İXTİLAF – bir məsələdə ayrı-ayrı görüşlərin ortaya çıxması; fiqhi məzhəblər daxilindəki fikir ayrılıqları da bu çərçivədə dəyərləndirilir.

İQALƏ – öhdəliyi olan bir müqavilənin tərəflərin qarşılıqlı razılığı ilə ortadan qaldırılmasını ifadə edən fiqh termini.

İSTİHSAN – Fiqhdə xüsusi səbəblərlə açıq qiyasdan (müqayisə), ümumi və mövcud qaydadan ayrılıb hadisənin xüsusiyyətinə uyğun həll tapma metodunu ifadə edən şəri dəlil.

KAFİR – Allaha və Onun Peyğəmbərinə inanmayan hər hansı bir insan

KƏFFARƏT – Şəriətin müəyyən qadağanlarını tapdalayan kimsənin həm cəza, həm də Allahdan bağışlanma diləmək məqsədilə öhdəlik altına girdiyi qul azad etmək, oruc tutmaq, yoxsulu doyurmaq və geyindirmək kimi maliyyə və ya cismani xüsusiyyətdə ibadətlərin ümumi adı.

QAZİ – insanlar arasında meydana gələn mübahisələri və haqq iddialarını şəriət hökmləri əsasında həll etmək üçün səlahiyyət verilmiş müsəlman hakim.

QƏSB – icazəsiz şəkildə başqasından alınmış hər hansı bir şey. Mübah malın ziddidir. Məsələn, oğurlanmış mal və s.

QİSAS – qəsdən adam öldürmə və bədənə xəsarət yetirmə cinayətlərində günahkarın işlədiyi əmələ qarşılıq bir cəza ilə cəzalandırılması.

QİST – Quranda bir kimsəyə payına düşən haqqı ədalətli bir şəkildə verməklə ədalətə riayət etmə mənasında işlədilən termin.

QİYAS – müqayisə; haqqında açıq hökm olmayan bir məsələnin hökmünü, aralarındakı ortaq xüsusiyyətə və ya bənzərliyə əsaslanaraq hökmü açıq şəkildə ifadə edilən məsələyə müqayisəylə təyin etmək mənasında istifadə edilən fiqh üsulu termini.

LUQATA – İslam hüququnda sahibi bilinməyən, lakin mübah mal qrupuna da girməyən tapıntı mal və ya üzərindəki haqqını tərk etmə niyyəti olmadan sahibinin iradəsi xaricində itmiş və bir başqası tərəfindən tapılmış sahibi bilinməyən mal mənasında istifadə edilən fiqh termini.

MAL – bəşəri ehtiyacları qarşılayan maddi dəyər; eyni hüquqlara və hüquqi prosedura tabe tutula bilən şeyi ifadə edən hüquq termini.

MEHR – nikah aktının nəticəsi olaraq ərin arvadına ödəmək məcburiyyətində olduğu pul və ya mal.

MƏHRƏM – evlənilməsi dinen qadağan olan müəyyən dərəcələrdəki qohumu ifadə edən fiqh termini.

MƏKRUH – məqbul sayılmayan, ancaq edildiyi təqdirdə də günah qazandırmayan əməllərdir. Məsələn, güzgü qarşısında namaz qılmaq və s.

MƏQASİD – Şəriət hökmlərinin yekun məqsədləri mənasında işlədilən bir termin.

MƏNDUB – Şəriətə görə yerinə yetirilməsi, qəti və məcburi şəkildə olmamaqla bərabər, istənilən və tərk edilməsi dini baxımdan günah sayılmayan əməlləri ifadə edən fiqh üsulu termini.

MƏSLƏHƏT – Şəriət hökmlərinin ictimai fayda əsasında şərhini nəzərdə tutan fiqh və usul əl-fiqh termini.

MƏZHƏB – İslam dininin etiqadi əsaslarını və ya əməli hökmlərini anlama və şərh etmədə özünəməxsus yanaşmalara malik düşüncə sistemləri və bu yanaşmalar ətrafında meydana gələn elmi və fikri cərəyanlar.

MÖMİN – Tövhid əqidəsinə yəqinliklə inanan, Allahın və Onun Peyğəmbərinin əmrlərini yerinə yetirən kimsə.

MUQƏLLİD – müctəhid olmayan və islam fiqh məzhəblərindən hər hansı birini təqlid etmək məcburiyyətində olan müsəlman.

MUTƏ – Şiə məzhəbinin Cəfəri fiqh qolu tərəfindən məşru (şəriətə uyğun) qəbul edilən müvəqqəti evlilik.

MÜBAH – mükəlləfin yerinə yetirməkdə şəriətə görə sərbəst buraxıldığı əməlləri ifadə edən fiqh üsulu termini.

MÜCTƏHİD – şəri-əməli hökmləri ortaya çıxarma istiqamətində səy göstərən islam alimi.

MÜFTİ – verdiyi fətva ilə şəri hökmü açıqlayan səlahiyyətli şəxs.

MÜNAFİQ – riyakar; qəlbən inanmadığı halda, Allaha və Peyğəmbərinə inandığını deyən hər hansı bir insan.

MÜNKƏR – Quran, Sünnə və müctəhidlərin icmasıyla (konsensus) qadağan olunmuş hər şey.

MÜSƏLMAN – Tövhid əqidəsinə inanan, Allahın və Onun Peyğəmbərinin əmrlərini yerinə yetirən hər hansı bir insan.

MÜSTƏHƏB – yerinə yetirildiyi təqdirdə savab qazandıran, yerinə yetirilmədiyi təqdirdə isə günah qazandırmayan əməllərdir. Məsələn, Quran oxumaq, dua etmək və s.

MÜŞRİK – Allahla yanaşı, başqa güc və iradə sahibinə, bir və ya daha çox varlığın mövcudlluğuna inanan hər hansı bir insan.

NƏZR – Şəriətə görə mükəlləf qılınmadığı halda, bir insanın öz vədi ilə özünə vacib qıldığı ibadət.

NİKAH – Şəriətin şərtləri daxilində aralarında evlənmə maneəsi olmayan bir kişilə bir qadının həyatlarını müvəqqəti olmamaq şərtiylə birləşdirmələrini təmin edən akt; bu yolla bu iki şəxs arasında meydana gələn evlilik əlaqəsini ifadə edən termin.

ÖRF – cəmiyyətdə qəbul edilən, davamlı və ya praktikada geniş yayılan ictimai davranış formaları və dildəki yerli istifadə formaları mənasında işlədilən bir termin.

RƏCM – zina günahını işləyənlərə müəyyən hallarda tətbiq olunan cəza növü.

RƏY – Quran və Sünnəylə müəyyən edilməmiş şəri-əməli bir məsələdə ortaya qoyulan qənaəti ifadə edən bir termin.

SAVAB – Şəriətə görə məqbul sayılan davranışların Axirətdəki mükafatı mənasında işlədilən bir termin.

SƏHİH – bir ibadət və ya hüquqi əməliyyatın, lazımi ünsürləri daşıması və əsas tələblərə cavab verməsi səbəbiylə etibarlı sayıldığını ifadə etmək üçün istifadə edilən fiqh üsulu termini.

ŞƏRİƏT – yol; müsəlman hüququnun və inancının ümumi külliyyatı; islama aid bütün dini, əxlaqi və hüquqi hökmləri ehtiva edən termin.

ŞURA – Quranda qeyd olunmuş möminlərə məxsus qəraralma mexanizmi; idarəçilərin və xüsusilə dövlət başçısının vəzifələrinə daxil olan məsələlərdə əlaqədar şəxslərlə məsləhətləşib onların məsələlərə baxışlarını nəzərə almasını ifadə edən müsəlman praktikası.

TƏQLİD – imitasiya; əsaslı təlimləri izləmək; bir alimin fikrini dəlilsiz qəbul etmək mənasında istifadə edilən fiqh üsulu termini.

TƏLƏQ – müəyyən sözlərlə nikah aktının pozulması, boşama və boşanmanı ifadə edən fiqh termini.

TƏRTİB – bir əməli nizami qaydada, doğru şəkildə həyata keçirmək. Məsələn, namazda qiyam, rüku, səcdə və s. hamısı müəyyən bir qaydada yerinə yetirilir. Bu qayda dəyişdirildikdə namaz batil olur.

TƏZİR – həddi və qisas cəzaları xaricində idarəçinin və ya hakimin təqdirinə buraxılan cəza.

UQUBAT – Şəriət əsasında müəyyən edilmiş bütün həddi cəzalarını ifadə edən furu əl-fiqhin bir hissəsi.

USUL – Şəriət hökmlərinin əsaslarını və qaynağını təşkil edən *kitab*, *sünnə*, *icma*, *qiyas* və digər dəlilləri ifadə etmək üçün istifadə edilən termin. Ayrıca fiqhdə ümumi qaydalara *əsl* (usul), onlara əsaslanan məsələlərə isə *fər* (furu) deyilir.

USUL ƏL-FİQH – Fiqhin mənbələrini və bunlardan hökm çıxarma metodlarını araşdıran elm sahəsi.

VACİB – yerinə yetirilməsi əmr olunan əməllər; bu əməlləri yerinə yetirməmək günah sayılır. Məsələn, namaz qılmaq, oruc tutmaq, zəkat vermək və s.

VACİB – Hənəfi məzhəbinə görə, dəlili zənnə əsaslandığı üçün ondan bir dərəcə aşağı olan təklifi hökm mənasında işlədilən və fərz ilə eyni mənalı fiqh üsulu termini.

VƏQF – bir malın sahibi tərəfindən dini, ictimai və xeyirli bir qayəyə əbədi olaraq sərf edilməsi məqsədiylə hüquqi bir prosedurla qurulan və İslam mədəniyyətinin mühüm amillərindən birini təşkil edən xeyir müəssisəsi.

ÜMUMİ ƏDƏBİYYAT

1. Abdulkerim Z. İslam hüququna giriş. Aralık, 1995.
2. Abdulkadir U. Müqayisəli islam hüququ və bəşər hüququ. 4 cilddə. Ankara, 1990.
3. Abdullah Karaman. Fiqh üsulu. Bakı, 2007.
4. Abdullah Karaman. Özəl həyatın gizliliyi. Bakı, 2008.
5. Anri Masse. İslam. Bakı, 1990.
6. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 1989.
7. Bünyadov Z. Dinlər, təriqətlər, məzhəblər (Arayış kitabı). Bakı, 1997.
8. Astaralı H.H. Məhəmməd Peyğəmbərin həyat yolu və mübarizəsi. Bakı, 1991.
9. Axundzadə A.Ə. Müqəddəs peyğəmbərlər tarixi. Bakı, 1993.
10. Абрамов М. Шариат и его социальная сущность. Ташкент, 1961.
11. Bəlviranlı Ə. İ. İslam prinsipləri. Bakı, 1994.
12. Cəlilov E. Azərbaycanın dövlət və hüququ. XIII-XIV yüzillər. Bakı, 1995.
13. Cəfərli N. Səfəvilər dövləti. Hakimiyyət və idarəçilik orqanları. Bakı, 2000.
14. Cəfərli N. Səfəvilər dövləti. Məhkəmə orqanları və hərbi təşkilatın quruluşu. Bakı, 2000
15. Cəfərli N. Müsəlman idarəçiliyi sistemində sədr institutunun yeri. AMEA-nın "xəbərləri", fəlsəfə və hüquq seriyası, №8, Bakı,2007
16. Cəfərli N. İslam, onun qadağaları və müasirlik. Dövlət və din jurnalı. Bakı, 2 011
17. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 1992.
18. Doğan soyanlar. Jeza hukuku. Özəl hükünler. Ankara, 2002.
19. Енциклопедия ислама. Москва, 1992.
20. Əhmədov Ə. İslam əxlaqı. Bakı, 1993.
21. Əliyev R. İslamda ailə və nikah münasibətləri. Bakı, 1989.
22. Əliyev A. İslam tarixi və təhlillər. Bakı, 2000.
23. Əliyev R. İslam və Azərbaycan mədəniyyəti. Bakı, 1998.
24. Əliyev R, Əliyev H. Din və mənəvi dəyərlər. Bakı, 1998.
25. Əliyev R. İslam. Bakı, 2000.
26. Əli Kəmal Bəliviranlı. İslam prinsipləri. Bakı, 1999, 27. Əlixan Musayev. Rəşidi xəlifələri. Bakı, 2001.
28. Hacızadə Ə. İslamda ailə quruluşu. Bakı, 1998.

29. Həsənli H. S. Adəmdən - Xatəmə. Bakı, 1993.
30. Harun Yəhya. Qurandan cavablar. Bakı, 2003.
31. Hacı Sabir Həsənli. İslam mədəniyyətində elm. Bakı, 1998.
32. Hayreddin Karaman. İslam hukuku. İstanbul, 2000
33. Heyreddin Karaman. İslamın işığında günün məsələləri. İstanbul, 2003, 3659
34. Xəlilov Q., Hüseynov H. İslam amili və müasir ideoloji mübarizə. Bakı, 1990.
35. İslam hüquq ensiklopediyası. Bakı, 1991.
36. İbrahimov A. Müsəlman hüququnun predmeti və mənbələri. Bakı, 1995
37. İbrahimov A. Müsəlman hüququnda dövlət məsələləri. Bakı, 1998.
38. İslam dini. İstanbul, 1990.
39. İslam elmihalı. Bakı, 1990.
40. İslam və sirləri. Bakı, 1986.
41. İslam (qısa məlumat kitabı). Bakı, 1989.
42. İslamda hicab. Bakı, 1990.
43. Ислам. История. Графические очерки. Москва 1991.
44. İslam hüquq tarixi. 2 cilddə. İstanbul, 1989.
45. İslam. Moskva, 1991.
46. Kərimov Q. Şəriət və onun sosial mahiyyəti. Bakı, 1987.
47. Климович Л.И.Книга о Коране. Москва, 1962.
48. Kəsikoğlu O., Vəliyev H. Həzrət Məhəmməd və həyatı. Tərcümə edəni Həsənova A. Bakı, 1993.
49. Qurani-Kərim (Azərbaycan dilində). Bakı, 1992.
50. Qazı Hacı Mirəziz Seyidzadə. İslami söhbətlər (I, II hissə). Bakı, 2002.
51. Quran qissələri. Bakı, 1992.
52. Мусульманское право. Москва, 1968.
53. Məlikova M., Nəbiyev E. Xarici ölkələrin dövlət və hüququnun tarixi. I hissə. Bakı, 1997.
54. Muxtar Cəfərov. Eşq Pərvanəsi. Molla Cəlaləddin Rumi. Bakı, 2007.
55. Məlikova M., İsmayılov X. Qədim dövrlərdə və erkən orta əsrlərdə Azərbaycanın dövlət və hüququ. Bakı, 2001.
56. M. Asim Koksal. Peyğamberler tarihi. Ankara, 1992.
57. Məhəmməd Soymen. Dini bilgilər. İstanbul, 1991.
58. Mədətov A., Nəsibov İ. Qurana dair 101 sual (tərcümə) Bakı, 2002.
59. Məhəmməd Həmdullah. İslama giriş. Bakı, 2000.
60. Nailə Vəlixanlı. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993.
61. Ömər Aslan. Təfsir üsulu. Bakı, 2008
62. Панов В.Ф., Вахтин У.Б. Жизнь Мухаммеда. Москва, 1991.

63. Paşazadə A. S. Qafqazda islam. Bakı, 1991.
64. Paşazadə A. Quranın təfsiri və tərcüməsi tarixi. Bakı, 1998.
65. Rahib Ə., Sadiq S. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı, 2001.
66. Садагдар М.И. Основы мусулманского права. Москва, 1968.
67. Sübhani Cəfər. Ədəbiyyat nuru. Həzrəti Muhəmməd(s): İslam Peyğəmbərinin həyatı barədə mükəmməl araşdırma. Tərcümə N.Ağaverdiyev, Bakı "Şərq-Qərb" nəs.2010, 656 s.
68. Семенов Е.С. Происхождение брака и семьи. Москва, 1974.
69. Şəriət kitabı. Bakı, 1992.
70. Şükürov A. İslam, adət və ənənə. Bakı, 1991.
71. Şaban Döden. Kurandan ayətlər. İstanbul, 1995.
72. Tozihil - məsail. Bakı, 1993.
73. Yusifpur Ə. İslamda ailə quruluşu. Bakı, 1998.
74. Yaqub Abbasov. İslam alimləri. Dünyada tanınmış azərbaycanlı mütəxəssislər, ayətullahlar. Bakı, 2007.
75. Yusifov Y. Qədim Şərq tarixi. Bakı, 1993.
76. Ahmet Özel, Fıkıh (Literatür / Klasik Dönem), TDV İslam Ansiklopedisi, Cilt 13, Türkiye Diyanet Vakıfı, İstanbul, 1996.
77. Ahmet Özel, Malik b. Enes, TDV İslam Ansiklopedisi, Cilt 27, Türkiye Diyanet Vakıfı, Ankara, 2003.
78. Ann Elizabeth Mayer, Islamic Law: Shariüa, Encyclopedia of Religion - Second Edition, Thomson Gale, Vol. 7, New York, 2005.
79. Brannon M. Wheeler, Abu Hanifa, Encyclopedia of islam and the Muslim World, Macmillian Reference, New York, 2004.
80. Fazlur Rahman, islam: An OverView, Encyclopedia of Religion - Second Edition, Vol. 7, Thomson Gale, New York, 2005.
81. Fikret Karakaya, İslam: İslami bilimler, Thema Larousse Tematik Ansiklopedi, Cilt 1, Milliyet, İstanbul, 1994.
82. Fikret Karakaya, İslam: Mezhebler, Thema Larousse Tematik Ansiklopedi, Cilt 1, Milliyet, İstanbul, 1994.
83. Hayreddin Karaman, Fıkıh, TDV İslam Ansildopedisi, Cilt 13, Türkiye Diyanet Vakfı, İstanbul, 1996.
84. Hossein Esmaeili, The nature and development of law in islam and the rule of law challenge in the Middle East and the Muslim world, Connecticut Journal of International Law, Vol. 26:329, Connecticut, 2011.
85. http://www.oic-oci.org/oicv2/page/?p id=52&p ref=26&lan=en
86. Jeanette A. Wakin, Abu Yusuf, Encyclopedia of Religion - Second Edition, Vol. 7, Thomson Gale, New York, 2005.

87. Jonathan E. Brockopp, Shari'a, Encyclopedia of İslam and the Muslim World, Macmillan Reference, New York, 2004.
88. Qamar-ul Huda, Organization of The İslam Conference, Encyclopedia of İslam and the Muslim World, Macmillan Reference, New York, 2004.
89. L. Gardet, İslam, The Encyclopedia of İslam ,Volume IV, E. J. Brill, Leiden, 1997.
90. N. Calder, Shari'a, The Encyclopedia of İslam, Volume IX, Koninklijke Brill, Leiden, 1997.
91. Osman Taştan, Law, Encyclopedia of islam and the Muslim World, Macmillan Reference, New York, 2004.
92. Sohail H. Hashmi, Pan-Islam, Encyclopedia of İslam and the Muslim World, Macmillan Reference, New York, 2004.
93. Susan A. Spectorsky, İbn Hanbal, Encyclopedia of İslam and the Muslim World, Macmillan Reference, New York, 2004.
94. Tamer Erdoğan, İslamiyetin doğuşu ve yayılması, Thema Larousse Tematik Ansiklopedi, Cilt 1, Milliyet, İstanbul, 1994.

ELM
nəşriyyatı

Direktor: *Hafiz Abıyev*
Kompüter tərtibatı: *Rəvanə İlmanqızı*

Formatı 70x100 $^{1}/_{16}$. Həcmi 13,75 çv.
Tirajı .Sifariş № .
Qiyməti müqavilə əsasında

"Elm" RNPM-in mətbəəsində çap edilmişdir.
(İstiqlaliyyət küç., 28)